# AZƏRBAYCAN

**3-4'2022**

**1923-cü ildən çıxır**

## AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI

**Baş redaktor:** İntiqam QASIMZADƏ

**Baş redaktor müavini:** Südabə AĞABALAYEVA

**Məsul katib:** Vüsal NURU

**Şöbə müdirləri:** Məmməd ORUC, Qəşəm NƏCƏFZADƏ, Mübariz CƏFƏRLİ

**Redaksiyanın ünvanı:**
Bakı - Az1000
Xaqani küçəsi, 25

**Telefonlar:**
*Redaksiya* –
498-78-10
493-28-32
493-2834
*Mühasibat* –
493-29-41

**Çapa imzalanıb:**
31.03.2022
**Sifariş 891**
Tiraj 500
**Kağız formatı**
70x108 1/16 - 6,5
kağız vərəqi
13 çap vərəqi
18,2 şərti çap vərəqi

**E-mail:**
intigam.gasimzade@gmail.com
sudabe334@mail.ru
**www.azyb.az**

**Qiyməti**
**2 manat**

**Bakı şəhəri, "Azərbaycan" nəşriyyatının mətbəəsində ofset üsulu ilə çap olunur**

**Dərc olunmuş yazılar qəbul edilmir.**
**Əlyazmalara rəy verilmir və qaytarılmır.**
**Müəllifin fikirləri redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.**

## BU SAYIMIZDA:


### 2022 – ŞUŞA İLİ

ÜZEYİR HACIBƏYLİ – “Bayrağımız sarsılmaz”, “Surna”, “Kontrast”......................3

### PAŞA QƏLBİNURUN 70 YAŞI

PAŞA QƏLBİNUR – Şeirlər..........................................................................................8
VAQİF YUSİFLİ – İşıq, Rəng, Sevgi, Azadlıq..........................................................19

### POEZİYA

YAFƏS TÜRKSƏS – Şeirlər.......................................................................................84
MEHDİ ZAHİD – Şeirlər.............................................................................................94
RİZVAN NƏSİBOĞLU – Şeirlər..............................................................................107
MÜŞFİQ CƏBİ – Şeirlər...........................................................................................114
RƏHİM GÖZƏL – Şeirlər.........................................................................................135
MÜTALİB TAHİROĞLU – Şeirlər............................................................................142
RƏFİQƏ ABBASOVA – Şeirlər................................................................................164
ELZA DƏNİZ NUR – Şeirlər.....................................................................................169
ZƏRƏNGİZ DƏMİRÇİ QAYALI – Şeirlər................................................................174

### NƏSR

KƏNAN HACI – Kəpənək vadisi (roman)...................................................................24
ŞİRİNGÜL MUSAYEVA – Yurda dönüş (povest)....................................................144

### MƏMMƏD ORUCUN 75 YAŞI

MƏMMƏD ORUC – Hürməyən it (hekayə)................................................................98
ELÇİN – Məmməd Orucun özü və sözü....................................................................104

### ÖMÜRDƏN SƏTİRLƏR

MUSTAFA ÇƏMƏNLİ – Ömürdən sətirlər.................................................................118

### ZAHİD XƏLİLİN 80 YAŞI

RAFİQ YUSİFOĞLU –Uşaqlıq illərinə salam............................................................179

### FƏRZİYYƏLƏR, HƏQİQƏTLƏR

HACI FİRUDİN QURBANSOY – Bizə xələt versin..................................................184

### TÜRK DÜNYAMIZ

XƏYALƏ ZƏRRABQIZI – “Salamlar Qarabağa...” ..................................................194

### KİTABLAR, RƏYLƏR

VÜSAL NURU – Mündəricat......................................................................................199

### KİTAB RƏFİ .............................207



*Üzeyir HACIBƏYLİ*

# BAYRAĞIMIZ SARSILMAZ!

Müqəddəs bayrağımızın münəvvər rəngləri günəşin ziya və şəfəqləri kimi təcəlli edir. Zülmət dostu olan sağ və sol düşmənlərimizin xain gözləri bu nurlardan qamaşır.

Münəvvər bayrağımızın üç rəngli parçasını övci-səmayə qaldıran ağacı iti bir ox olub alçaq düşmənlərimizin qara qəlblərini deşməkdədir.

Müzəffər bayrağımızı möhkəm tutmuş olan müqəddəs əllərin getdikcə artmaqda olan qüdrət və qüvvəti zalım düşmənlərimizin namərd belini sındırmaq və alçaq başlarını əgdirmək üzrədir.

O xain gözlər, qara qəlblər, namərd biləklər və alçaq başların sahibləri əzab çəkirlər; ruhları inciyir, bədənləri ağrıyır. Vicdan əzabı altında haqq qapısında sürünən iblis kimi, müqəddəs bayrağımız qabağında əzilib-büzülür və bu bayrağı qapmaq, ağacını sıxıb-sıxıb və parçasını para-para etmək üçün bayraqdar üzərinə cummaq və soxulmaq istiyorlar...

Əbəs zəhmət!

O ağac sınmaz, o nur sönməz, o əl dönməz!!! Çünki bayrağımız həqq bayrağıdır. O bir millətin hüquqi-bəşəriyyəsinin harisidir. Bir millət ki, onun da insan kimi yaşamağa haqqı vardır! Bir millət ki, daha əsir olmaq istəmir!

Nahaq səy!

Zülm və əsarətin yoğun zəncirlərini qırıq-qırıq etməgə qadir olmuş bir millətin həqq və hürriyyət bayrağı enməz, sarsılmaz!

# SURNA

Keçən səfər parlamanda ticarət işlərindən bəhs edilərkən məbus əfəndilərimizdən biri xalı və gəbəyə xammal dedi.



Böyük səhvdir. Ondan ötrü ki, xalı və gəbə xammal deyildir! Xammal o şeyə deyirlər ki, ondan bir hazır şey meydana gələ.

Məsələn, yun yoxdurmu? Yun xammaldır. Çünki bunu gərək yuyasan, əyirəsən ip toxuyasan və sonra ondan xalı kimi yenə qayırasan. Ona görə:

– Buna xammal demək olar, əmma xalı və gəbəyə xammal demək olmaz.

Məsələn, deyirlər ki, əgər biz bolşeviklərə yol verək ki, onlar, keçib gedib Anadoluya dolsunlar, o halda bolşeviklərlə türklər birləşib imperialistlərə qarşı elani-müharibə edərlər, bu cür fikirdə olanlara xam diplomat demək olar, amma xalı və gəbəyə xammal demək olmaz.

Hələ istəsən gönzəbani çiçəyinə də xammal demək olar, çünki o çiçəkləri yığıb ondan boya əmələ gətirirlər. Və o boya ilə o biriləri boyayıb xalı kimi toxuyurlar, amma hər halda xalı kiminin özünə xammal demək olmaz.

Misal üçün götürəlim yerli bolşevikləri. Onlar Denikindən tör-töküntü qalmış olan əfserlərə və saldatlara dəvətnamə yazıb bolşevikliyə təklif edirlər və deyirlər ki, Azərbaycan qulluğuna girmiyək, çünki Azərbaycan dövləti heçdir. Bundan sonra bu cürə bolşeviklərin “sədaqətinə” inananlara xammal demək olar, əmma xalı və gəbəyə xammal demək olmaz.

Hətta istəsən qoyunun özünə də xammal deyə bilərsən, çünki qoyun xalı və gəbə üçün yun verir, əmma heç bir vəxt xalı və gəbəyə xammal deyə bilməzsən.

Hətta bunu da deyim ki, Azərbaycanda bolşevik hökuməti qurublar. Əliheydər Qarayevi onun başına qoysan, o halda sovet hökumətini "bizə dəyməz" deyə xəyal edənlərə xam xəyal sahibi demək olar, əmma xalı və gəbəyə mütləqən xammal demək olmaz.

İstərsən lap cəhrəyə də, darağa da, hənaya da, həvəngə də, kirkitə də xammal adı qoy, əmma xalı və gəbəyə xammal deyə bilməzsən, ondan ötrü ki, rus rusluğunda baqidir və rus qəlbindəki türklük düşmənçiliyi də baqidir. Binaən əleyh rus generalından və ya rus mujikindən aləmi-islama kömək olar deyənlərə xam siyasətçi demək olar, əmma xalı və gəbəyə xammal demək olmaz.

Mən demirəm ki, Nikolay hökuməti ilə Lenin hökuməti arasında təfavüt yoxdur, xeyr! Təfavüt vardır və o özü də bundan ibarətdir ki, nikolaylar və generallar hökuməti bizə həmişə "isvoloç" deyib atamıza söyərdilər, mujik və raboçi hökuməti məşhur rus söyüşü ilə anamıza söyəcəkdir. Pəs bundan demək olmaz ki, xalı və gəbə xammaldır, hər halda bunu söyləyən böyük səhv edir.

# KONTRAST

Azərbaycan hökumətinin adilanə və müdəbbiranə tədbiri sayəsində Qarabağ məsələsinin həll və fəsl edilməsi Azərbaycanda yaşayan ümumermənilərin məmnuniyyətini mucib oldu. Ermənilər bileyn gördülər ki, Azərbaycan hökuməti Qarabağ məsələsini qılınc zoru ilə həll etməyə qadir ikən boylə yapmadı. Məsələn, sülh və sazişlə həllə çalışdı.

Ermənilər burasını dəxi anladılar ki, nə Azərbaycan hökumətinin, nə də Azərbaycan türklərinin ermənilərə əziyyət vermək, incitmək, asudə güzəran və məişətlərinə mane olmaq və onlara qarşı daim xüsumət bəsləmək fikri yoxdur. Deməli, Azərbaycan ermənilərinin Azərbaycan Cümhuriyyəti torpağında yaşamalarının yaxşılığı və ya fənalığı özlərinin hərəkat və rəftarlarına bağlıdır. Yaxşılıqla dolanarlarsa, daim yaxşılıq görərlər.

Qarabağ məsələsinin hər iki tərəfi razı qoyan bir surətdə həllində və bundan dolayı ümumazərbaycan erməni və türklərinin münasibət və müamilatlarının "normal" və səmimiyanə bir halə düşməsində Azərbaycan hökumətinin adilanə tədbirlərindən əlavə, erməni cümhuriyyətinin dəxi aqilanə rəftarını nəzəri-diqqətə almalıdır. Bunu Qarabağda ermənilərin yeddinci yığıncağı isbat etdi. Bu yığıncaqda əksəriyyət sülh və saziş tərəfdarı olub da qanlılıq və xunxarlığa adətlərdə olan daşnakların mübarizəyə davam edəlim malında olan divanəvar və əqldən kənar təkliflərini rədd etdilər.

Daşnak fitnəsinin qara buludları erməni cəmaətinin üzərindən rədd olan kimi, sülh və saziş, əmnü-asayiş günəşi doğub hər yeri işıqlandırmaqda hər kəsin də ruhunu şad və qəlbini fərəhnak etdi. İndi Qarabağ erməniləri hökumət nümayəndəsi ilə bir yerdə məsləhət və məşvərətlər məclisi qurub ümumi ölkənin rahat və asudəligi haqqında tədbirlər tökmək işlərinə məşğuldurlar.



İndi qissədən hissə:

Məlum olur ki, o yerdə ki, ermənilər daşnak fitnəsini öz üstlərindən kənar edə bilirlər, orada hər bir cürə qarışıqlıq və şuluqluq əvəzinə, əmnü-asayiş, istirahət bərpa edilir.

Boylə olan surətdə biz əminik ki, əgər bu daşnak fitnə və fəsadı ümumermənilər üzərindən dəf edilə bilsə idi, bu gün kəmali-təəssüf və təsirlə müşahidə etmək olduğumuz Ararat “bakxanaliya”sina meydan qalmaz və hər gün qəlbimizi yandıran və əhvalımızı pərişan edən yaman xəbərləri və pis-pis əhvalları eşitməzdik.

Bu gün Azərbaycanda yaşayan ermənilərin halını və Ermənistandakı müsəlmanların əhvalını bir-birinə tutuşdurub qiyas etdikdə arada böyük bir “kontrast” əmələ gəlir. Burada hər tərəfə baxırsan ədalət və insaniyyət müşahidə edildigi halda, orada – əgri dağ dibində, Ararat ətəklərində zülm, vəhşət və dəhşət görünür.

Yevropa qarşısında məzlum görünməyə və öz yerində zalım olmağa səy edən daşnaklar, öz vəhşiliklərini bir dərəcəyə yetiribdirlər ki, səbr və taqətdən kəsilmiş olan müsəlmanlar qiyam və üsyana qalxıb zümlərə qarşı difa başlayıbdırlar.

Daşnaklardan ibarət olan Ararat hökuməti öz quyruğunu qapı arasında görüb, Yevropadakı dostlarını köməgə çağırmağa və “Ermənistan əldən gediyor”, deyə qışqırıq salmağa məcbur olmuşlardır.

İki qonşu millətlər arasında dərin quyular və keçilməz dərələr qazmaqda olan kütahbeyin və fərasətsiz daşnaklar burasına heç də diqqət yetirmirlər ki, bu qazdığları quyular və dərələr bilaxirə bütün Ermənistan üçün bir məzarıstan ola bilər.

Yevropaya yalvarmağı, diplomatlar qapılarında sülənməgi öz qonşusu və vətəndaşı ilə insaf və mürvətlə yaşamağa tərcih verən bu partiya hamıdan artıq zərəri zatən öz millətinə və öz cəmaətinə vurur. Bu partiyanın erməni xalqını öz əlində oyuncaq kimi oynatmağı, keyfi istədigi yerdə cəmaətin canını, malını, namusunu və heysiyyatını bila məhabə fəda etməsi nə qədər mucib təəccüb isə, erməni cəmaətinin də tamam bir qoyun sürüsü kimi öz müqəddəratını və öz varlığını bu ziyankar partiyaya tapşırıb da bu yolda bir bu qədər ya sədaqət və ya qorxaqlıq və cəbunluq göstərməsi bir o qədər şayani-heyrətdir. Görünür bu partiya erməni xalqını o qədər “terror”luyub və o qədər gözünün qorxusunu alıbdır ki, birinin də ağız açmağa cürəti qalmayıbdır.

Lakin iş boylə davam edərsə, bunun axırı yaxşı nəticələr verməz. Erməni-müsəlman münasibəti həmişə gərginlik üzrə qalıb düşmənçilik ya qiyamətə kimi baqi qalar və ya bu millətlərdən birinin bilküllüyyə məhv nabudisi ilə nəticəpəzir olar ki, bunlardan hansının baqi və hansı fani ola biləcəgini indidən xəbər vermək çətin iş degildir.

Ona görə cümhuriyyətimizdə asudəlik ilə yaşamaqda olan erməni cümhuriyyətinin böyük borclarından biri odur ki, özlərini burada daşnak fitnəsindən qorumaq olmaqla bərabər, Ararat hökumətinə dəxi icrai-təsir edib, oradakı müsəlmanlar haqqında rəva görülən zülmləri durdurmaq üçün ciddi təşəbbüsatda bulunsunlar ki, bəlkə bu “kontrast”ın Azərbaycan türkləri qəlbinə ilqa etdigi sui-təsir və acılığı bololiklə bir növ azaltmaq mümkün ola.



# ♦ Paşa Qəlbinurun 70 yaşı



***Paşa QƏLBİNUR***

**ANA**

İşıq olub, nur olub
Damarımda axanım...
Kilim olum, döşənim
Ayağında tapdanım...

Gözlərimin yağında
Yanır şamın piltəsi.
Bu qaranlıq gecədə
Nurunu qəbul elə!..

Dualarım görünmür,
Göz yaşlarım allanır.
Bir ömür xərclədiyin
Barını qəbul elə...

İşıq olub
Damarımda axanım.
Kilim olum
Ayağında tapdanım,
Ay ANA!..

## O

Haqqım tapdananda, haqq danılanda
Uzaq-uzaq, uzaqlardan
Yaxınlaşır bir Aləm!..
Gözlərim böyüyür göyüzü qədər
Onu görürəm!..

Dərd və kədər
Məni mismar kimi
Yerə çalanda!..
Mənə yaxın olur
ürəyim qədər...
Onu görürəm!..

İşıq ətəyilə gözlərimi siləndə
Qaranlıq yarılır...
Nur
Qanıma yayılır...
Onu görürəm...

## QIZIM AYAN

Əlindəki xalın – Tanrı möhürü
Göylərdən ovcuna enibdi, qızım!
Bəbəklər Allahın göyərçinləri
Uçub gözlərinə qonubdu, qızım...

Ovcundakı xalın – mənim ürəyim
Bir cin qapısının düyməsi kimi...
Sıxsan!.. qulluğunda hazır olacam.
Nurlar padşahının səltənətində
Gözəgörünməyən vəzir olacam...

O ürək – ildırım, şimşək qolumda...
Sən gənc, o ürək qədimdən qədim.
Ata hüzurunda, ana yolunda,
Ruhumu, gücümü əsirgəmədim...

Gözlərim işıqdan alışar, yanar,
Gözlər ürəyimin çaxmaq daşıdı.
Mənim gözlərimdə övladlar ana,
Atalar , analar övlad yaşıdı...

Övladlar göylərin sədəqəsidi,
Sənin gözlərində gördüm Allahı!..
Arzular duadı,
“O”nun səsidi,
Mən öz ürəyimdə gördüm Allahı!..

***

Ayı kimi kürküm ola
Yayda sərin, qışda isti.
Nə güvə düşə,
nə dəbdən düşə.

Bir it sədaqətli
dostum ola
İtirdiklərimin əvəzi.
Bir qarğanın ürəyindən
öc alan
Ürəyim ola,
300 il qanımı qova.
Bir qurd cəsarəti
bağrıma dola,
Səyirəm Qarabağa...

***9 yanvar 2013***

***

### *6 aylıq nəvəm Paşa Qəlbinura*

Mən sənin toyunda sındıracağam
Çıxıb yerin-göyün cazibəsindən.
O,
Ya bu dünyada
olsam da Ağam
Mən sənin toyunda sındıracağam...

(Meydanı sulayıb,
sərhədlərinə
Nanə səpərsiniz – bir-iki əlçim.
Ruhum öyrəncəli – nanə ətrinə!
Hansı məsafədə olsam, gələcəm...)

Baban bir şəlalə cəsarətilə
Özünü meydana atacaq, Paşa.
Havalı bağrının məhəbbətilə
Sevinci göylərə çatacaq, Paşa ...

Qızıl çəkmələri qığılcım saçan –
Adaşın göylərdən enən bir Şimşək!
Bir yanar səhrada göyə əl açan
Bir ilğım kimi də gözdən itəcək...

## EKSPERİMENT HEYVANLARINA

Elmin yollarında
Ürəyim qəyyum.
Gözlərində əməliyyat apardığım
Dovşanlar, pişiklər, mişovullar...
Bir də o qıllı, ağıllı meymun.

Göz yaşınız əllərimi
yandırsa da,
Neçə könül dağladım.
Gözünüzün nurunu
icazəsiz-filansız
İnsanlara payladım...
Göz yaşınız
“Nur dağı”na
Çevrilincə, ağladım.

## ƏMƏLIYYAT OTAĞINDA

Səni Allah qarğıyıbdı,
Gözlərinin işığını alıbdı.
O bir olan Allahıma

Məni
Minnətçi salıbdı.

İlahi, bu adamın günahından özün keç
Bir də o qələti eləməyəcək.
Bir də o çirkabı mazutqarışıq
Güllərin üstünə çiləməyəcək.

Gözü açılmamış it küçüyünü
Suda əlləriylə boğmayacaq o.
Haqlını nahaqqa dəyişməyəcək,
Ev yıxan yalanlar danışmayacaq.
Oğurluq izini süpürməyəcək,
Su quyusuna tüpürməyəcək...
İlahi, bu adamın günahından özün keç.

Əlimdə ulduzdan qələm – bıçağım.
Bu zərrəyə nur çilə, nur, İahi!
Əlimi saxlayıram, bilə-bilə, İlahi,
Gözümü zilləmişəm
dərgahına, İlahi...

***

Ovcumda üç xətt var –
Allah çəkən.
Birini də mən çəkdim –
Adının baş hərfi,
Ya Rəbbim!..

Ürəyimdə yazı var –
Damar-damar,
Sən çəkən!
Cərrah çəkən xətlər də var,
Oxudum, oxunmadı ,..
Ya Rəbbim!

Taleyimi, qədərimi bilmədim
Azad gəldim bu dünyaya,
Azad ola bilmədim.

Dünya mənə tanış gəlir,
Mən dünyaya ögey, yad.
Gülündən tikanı çox,
Təbəssümdən fəryadı,..
Ya Rəbbim!..

## SƏN MƏNİM TALEYİMSƏN

İməkdən yeriməyə
Verilən rüsxət kimi,
İşıqdan qaranlığa
Çəkilən düz xətt kimi,
Sən mənim taleyimsən.

Kainatı yaradan
"Böyük partlayış" yalan.
Pillə-pillə təkamül
Hamısı boş-boş yalan
Sən mənim taleyimsən.

Zülmətlərin bağrına
İldırımlar calandı.
Dünya haqq dünyasıdı
Təsadüflər yalandı
Sən mənim taleyimsən.

Dünyanın gözəlliyi
Cəm olub gözlərinə.
Nur şəlaləm, su pərim!
Ürəyim bir buz kimi
Əriyir gilə-gilə
Sənin qədəmlərinə...

Xoşbəxtlikdən o yana
İtirsəm ürəyimi,
Bircə Sizə gələrəm.
Nuhun gəmisi kimi
Son ümidim bilərəm.

İməkdən yeriməyə
Verilən rüsxət kimi,
İşıqdan qaranlığa
Çəkilən düz xətt kimi,
Sən mənim taleyimsən,
Sən mənim taleyimsən...

## SƏNİNÇÜN MƏN ELƏ DARIXMIŞAM Kİ...

Səninçün mən elə darıxmışam ki,
İldırım çaxanda şimşəkdən tutub,
Durna qatarında əriyə billəm...
Göylərin bağrında göy qurşağının
Qızıl qübbəsində yeriyə billəm...

Göylər yaylığını atır üstümə,
Göygöl ovcumdadı, gül kimi solmur.
Çinar yarpağının damarlarıyla
Qan axır, səsini eşidirəm mən.
Sevgisiz o səsi eşitmək olmur.

Səninçün mən elə darıxmışam ki,
Qışın şaxtasında açan gül kimi.
Əllərim uzalı bahara doğru...
Böyük yanğınlara uçan qaranquş –
Qara dimdiyində bircə damla su...

Səninçün mən elə darıxmışam ki,
Hovuzdan dənizə nərə balığı...
Qurd kimi ulayır qəfəsdə ürək.
Əsir əsgərimin gəlin yaylığı,
Gözünün önündən gəlib keçəntək...

Səninçün mən elə darıxmışam ki,
Əllərim havada şir caynağıdır.
Zamanın yaxası yuxuymuş, Allah!..
Qanadı qırılmış durna kimiyəm.
Göylərdən düşürəm, qarşıla, Allah!..

## GƏLƏCƏM

“İşıqları söndürüb
Qaranlığı yandırsan”
Barmağımın ucunda
Bir bəzəkli kəpənəyin
Qanadında gələcəm…
Mən işığın maye halı –
Qarışıb göz yaşlarıma
Yuya-yuya sualları
Diyirləyib qayaları
Gələcəm…

Qanımdakı
İşığın yaddaşında
Yolumu seçib gələcəm.
Həyətdəki qızılgülün
Şehini içib gələcəm.

Bürünəcəm ruhuma
Nəfəsliyin işıq düşən
İynə ulduzu qədər
Gözündən keçib gələcəm,
Gələcəm…

***

Havadan nəm çəkirəm,
Çiçəkdən şeir.
İşimdə günəş,
Çiynimdə
Dünyanın ağır yükü.

Anam məni şair doğub,
(Taleyimdə həkimlik).
Zərdüşt təqvimilə
Sağlamlıq ayının
Əzəli işıq günü.
İməkdən yeriməyə

İşıqdan tutmuşam –
Allahın ətəyindən...

Bitkilərin, heyvanların, quşların
Dilini öyrənmədim.
Ancaq bilirəm.
İnsanı oxumağı – anamdan.
Gözləri – özüm öyrəndim.
Sevirəm yalan danışan,
Ac olanda tox sallanan,
Ağlayanda təbəssüm çilənən
Gözləri...

Dünya mənə tanış gəlir
Milyard il əvvəlkidir.
Ən güclüsü – qarışqa,
Ən möhkəm ip – hörümçək…
Dəmir əllərə geyilən
məxmər əlcək,
Səni də tanıyıram...

Şəri fəlsəfənin müdrik kəlamı:
(Kəramin yandırdığı Quran!)
“Quran yana bilməz,
Yanan kağız və mürəkkəbdir!”
Həyat sadədən sadə,
Ölüm mürəkkəbdir!

***

### *Yaxın qohumum Elşənin ad gününə*

Bu gün sənin ad günündür,
Komadasan...
Atan, anan ruhlarının
Komasında
Qucaqlayıb dizlərini
Büzüşüblər döl kimi...
Zilləyibsən uzaq-uzaq bir nöqtəyə
Gözlərini...

Ürəklərdən axan al qan
Köpüklənmir şərab kimi.
Görünməyən bir nöqtəyə
Key-key baxır boş süfrə...

Bütün yollar göylərədi,
Bütün qollar uzalı.
Şəmsinin* qırılmış barmaqlarıydı,
Qonşumuzda
radioda "Vağzalı"…

***

Minib nömrəsiz avtobusa
Enişdən-yoxuşdan keçib,
Şosedən, tıxacdan keçib
Gedirsən Anasızlığa,
Anaqız.

Keyiyib sağ ayağın, sol qolun
Evinizdə bir otaq boş –
xatirə dolu.
Günahsız, günahkar xatirələr
ömür yolu.
Anasızlıq – havasızlıq kimi
gəlir sənə.
Dünyanın havası
bitə bilərmi?..
Ayrılıqlar
olacaq yenə
İstəsən də, istəməsən də...

***

Çürüyəndə kəsmik olmur
Bazarımda satılan süd.
İnəyimdən xəbərsiz.
Soyadan, paxlavadan , gəcdən sıxılmış.
"Xərçəng" – satır mənə, evi yıxılmış!..

---

**Ömrünün sonunda barmaqları əyilmiş məşhur klarnet ifaçısı*

Almalarım – əqrəb genli,
Çiyələyim –
Mayalanmış ilan qanı.
Çörəyim – kif göbələyi
Təndirimdən çıxan kimi daşa dönür.
Xoş söz nədir??!
Kirpiyimiz gön bizidir
Əqrəb kimi
çalırıq bir-birimizi...

Tavamdakı balıq da
Bəslənibdir jımıxnan.
Qurbanlıqda kəsiləcək qara qoçum
Çörək yeyib, şoulara baxıbdı.
Gözlərini adam kimi
zilləyibdir gözümə...

Səhər-səhər oyananda
əl-ayağım "qayış" olur.
Pəncərəmi açan kimi eşitdiyim söyüş olur...
Süd çürüyür
kəsmik olmur, daş olur,
Daş yağır göylərindən,
Ay Allah!..



# İŞIQ, RƏNG, SEVGİ, AZADLIQ

♦ ***PAŞA QƏLBİNURUN 70 YAŞINA***

***«Paşa Qəlbinur haqda söz düşəndə, nədənsə, həmişə onun göz həkimi, yüksək səviyyəli tibb mütəxəssisi olduğu önə çəkilir, qabardılır. Mən bu şairin yaradıcılığına bu sayaq baxışla qəti razılaşa bilmirəm. Bununla sanki şair ilhamına, qələminə oxucunu «güzəştlə» yanaşmağa çağırırıq. Niyə? Paşa müəllim mənimçün şairdir. Mən onun şeirlərini tamamilə «güzəştsiz» oxuyuram. Və onun yaradıcılığını bir çox «yalnız şair» olan bəndələrdən qat-qat yuxarı tuturam.***

***Dostum Paşa qələmi, ilhamı ilə minillik poeziyamızda artıq öz səhifəsini öz əli ilə yazıb və onun müdrik əlini ehtiramla sıxıram.»***

**Vaqif SƏMƏDOĞLU**

Böyük şairimiz Vaqif Səmədoğlunun şair-həkim Paşa Qəlbinur haqqında söylədiyi bu fikirlə tam razılaşırıq, doğrudan da, vaxtilə, – 90-cı illərdə Paşa Qəlbinurdan söz düşəndə onun insanlara şəfa verən yüksək səviyyəli göz həkimi, Azərbaycanda və dünyada bu sahədə kifayət qədər məşhur olduğu barədə söz açır, sonra onun şairliyindən də danışırdılar. Əlbəttə, Amerika Oftalmologiya Akademiyasının həqiqi üzvü, Dünya Türk Cümhuriyyətləri Oftalmoloji Birliyinin sədri, keçmiş Sovetlər İttifaqında oftalmologiya sahəsində ən gənc elmlər doktoru, Ümumittifaq Lenin komsomolu mükafatı laureatı – professor Paşa Musayevin tibb sahəsində qazandığı uğurlar hamını sevindirib, özü də bu uğurları və titulları Paşa Qəlbinur 40 yaşına qədər əldə etmişdir. İndi isə Paşa Qəlbinurun 70 yaşı tamam olur və o, bir həkim-cərrah kimi yenə öz şöhrətini yaşayır.

Şair Paşa Qəlbinur da müasir Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən biridir və artıq onun şairliyi, özünəməxsus mövqeyi, dəst-xətti konkret bir söhbətin mövzusudur.

Şairlik sənət deyil, peşə deyil və heç bir institutda bu ixtisas üzrə kadr hazırlanmır, şairlik ixtisası üzrə diplomdan da söhbət gedə bilməz. Şairlik anadan təbii istedadla doğulur, bu istedad ya boy atmamış, necə deyərlər, çiçəklənməmiş – pardaxlanmamış sona yetir, ya da qəlbin, ruhun ehtiyacına çevrilir. Paşanın şairliyi həkimlik sevgisindən əvvəl doğulub. 1984-cü ildə Paşa Qəlbinurun «Ay bir əlçim buluddur» ilk şeirlər kitabı çapdan çıxır, həmin kitaba ön söz yazan Məmməd Aslan qeyd edirdi ki: «Şair Qəlbinur həkim Qəlbinurdan bir addım da geri qalmır. Onun poetik axtarışlarının bəhrəsi olan bu kitab da yenilik duyğularıyla zəngindir». Həmin ilk kitabındakı şeirləri oxuyanda qarşımızda artıq yetkinləşmiş bir şairi izlədik. O kitabdakı şeirdən bir misal gətirək. «Kəndimizə gedəndə»:

***Qayanın tərini siləm mən gərək,***
***Yaman yorulubdu,***
***Qalxıb o başdan***
***Öpəm bənövşənin üzündən gərək,***
***Vaxt olub onu da ayaqlamışam.***

Paşa bu şeiri 23 yaşında, 1975-ci ildə qələmə almışdı. Şeirdəki təşbih və metaforaların o zamana görə təzəliyi diqqəti çəkirdi.

Paşa Qəlbinurun poeziyası ilə onun göz cərrahlığı arasında ülvi bir bağlılıq var. Etiraf edir ki, 13 yaşında ilk şeirini yazıb, «Gözlər» şeirini və bu şeirlə o, gələcək sənət taleyinin möhürünü vururmuş. Deyə bilərik ki, bəlkə də onun şairliyi həkimliyi üçün stimul olub. Bir şeirində yazır ki: «Anam məni şair doğub, sonra həkim olmuşam».

Qəlbinurla son görüşlərimizin birində ədəbiyyat barədə söhbətlər elədik. İyirmi beş il əvvəl poeziya ilə bağlı bir müsahibəsini xatırlatdım ona: «Poeziyanı müntəzəm mütaliə edirəm, müasir və klassik şairləri – sevdiyim şairləri təkrar-təkrar oxumaqdan həzz alıram. Əli Kərim, Nezval, Neruda, Uitmen, ispan intibahı şairləri… Məmməd Araz, Xəlil Rza… müasir Azərbaycan poeziyasının ən yaxşı nümunələri, rus poeziyası… dünyanın harasındasa çap olunan, mənim sevdiyim bircə misrası olan şair mənim üçün əzizdir. Uşaqlarım inşa yazanda ancaq iki şairdən misallar gətirirlər (mənim başqa şairlərə də müraciət etmələrini cidd-cəhdlə təkid etməyimə baxmayaraq): Musa Yaqub, Məmməd Araz. Mənim ən çox sevdiyim şair Əli Kərimdir».



Paşa Qəlbinurun həyatı, həkimlik sənəti və şairliyi haqqında çox yazılar yazılıb, üç monoqrafiya da nəşr edilib (Aybəniz Kəngərli – «Paşa Qəlbinur», Altay Məmmədov – «Qəlbinur poeziyası XXI əsrin astanasında», Əlizadə Əsgərli – «Fərdi üslubun poeziyası»). Ancaq biz də onun poeziyası ilə

bağlı fərdi-subyektiv mülahizələrimizi bildirmək istəyirik. Bizim fikrimizcə, Paşa Qəlbinurun poeziyası İşıq, Rəng, Sevgi, Azadlıq kəlmələrini özündə əks etdirən bir poeziyadır. Bu kəlmələr bir-birilə məntiqi şəkildə bağlana bilir, biri digərinin başlanğıcına, ya sonuna çevrilir. Ancaq hər birinin öz funksiyası, özəlliyi var.

İşıqdan başlayaq. Qızına yazdığı bir şeir:

***Nədir işıq?***
***Mən***
***Daha nə deyəcəyəm sənə***
***İşıq anamdı mənim***
***İldız nənən!***
***Adı işıq, özü işıq!***
***Daha nə deyim, Aysel.***
***Bax, bu dünya, böyük işıq zolağıdı.***
***Onu dil-dil***
***gecə-gecə doğrayıb qaranlıq.***
***Nədir işıq?***
***İşıq –***
***Qırmızı yanaqlı,***
***Narıncı saçaqlı,***
***Sarı güllü,***
***Yaşıl şallı,***
***Mavi gözlü***
***kirpiyinin «göy xalı»sı***
***göy üzündən***
***Saçına bənövşə taxmış***
***Bir gözəlin ağ paltarıdı.***

Poeziyada İşıq həmişə nikbinliyin, dünyanı, gerçəkliyi gözəllik kimi dərk etməyin, insanların arzu və əməllərini, həyat yanğısını, Allaha inamını, sevənlərin, sevilənlərin eşqini sözdə yaşatmaq missiyasına xidmət edib. «Yanır bir ilahi şam. Allah, sənin ətəyin işıqdı, Ətəyindən tutmuşam». «İşıqdan bir qala hörüb oturdum, Oxlandı bürcləri gözəl dünyanın» və s. Qəlbinurun poeziyasındakı İşıq onun sənətində də başlıca meyardır, o, işığı həkimlik sənətində işıqpaylayandır.

Böyük şairimiz Rəsul Rza «Rənglər» silsiləsinin «Üvertüra»sında yazırdı: «Rənglər xatirələr oyadır, duyğular oyadır. Gördüyümüzdən artıq görmək istəməsək, hər rəng adicə boyadır». Paşanın «Rənglər»i Rəsul Rzanın həmin silsiləsindən çox sonralar qələmə alınıb və deyək ki, Paşa böyük şairin müxtəlif rənglərin həyati çalarlarını əks etdirən silsiləsindən təsirlənmiş, lakin özünün bədii təfəkkürü ilə yeni «Rənglər» silsiləsi yaratmışdır. O, daha çox rənglərin musiqi ilə bağlılığını ön plana çəkmiş, özünün dediyinə görə, «rəngli musiqi ilə səslənən rəng arasındakı oxşarlığı» bədii şəkildə mənalandırmağa çalışmışdır. «Bənövşəyi» rəngə baxaq:

***Gəl ay bahar, gəl ay bahar,***
***Göy qurşağı,***
***Son ilməndən***

***lələklər sal,***
***Sancılsınlar torpağıma –***
***Sual-sual.***
***Min suallı həyəcana***
***Bürünsün qoy,***
***O tay, bu tay.***
***Xan Arazın***
***Bu tayında gülür torpaq.***
***Gözlərində… fərəh yaşı***
***O tayında zindan olub,***
***Bir yuxulu bənövşəyə,***
***Mərziyənin qəbir daşı.***

Paşa Qəlbinurun sevgi şeirləri də İşıq və Rəng duyğulu şeirləri kimi maraq doğurur, o, sevgi şeirlərində də İşıq və Rəng obrazlarına üz tutur. «Sevənlərin bətnində doğulur həqiqət, ölür həqiqət! – İşıq kimi yayılır»... Təbii ki, işıqsız əsl sevgi yoxdur, hətta hicran, ayrılıq çevrəsində də işıq var. Ürəyin işığı. Yol çəkən gözlərin işığı. Paşa Qəlbinurun şeirlərinə xas olan metaforik düşüncə tərzi sevgi şeirlərinin də tərzini müəyyənləşdirir:

***Sənsiz qalsam,***
***Sanaram***
***Min illik palıd kimi.***
***Ağ səs olar***
***Son harayım.***
***Sənsiz qalsam,***
***qolları kəsilmiş fədai kimi***
***yuxularımdan qan sızar***
***gecələrimə.***

***Sənsiz qalsam,***
***Ölüm***
***Dadlı gələr mənə –***
***Ana südü kimi***
***…çataram***
***Sənə.***



Altay Məmmədov P.Qəlbinurun sevgi şeirləri haqqında yazır ki: «Paşa Qəlbinurun məhəbbət mövzusu bitib-tükənən deyil. Bəzən həmin ədəbi, əzəli mövzu az qala gözəl bir musiqinin variasiyaları kimi səslənir. Qəlbinur həmin mövzudan «doyub dolanmaq» bilmir. Onun sinəsi bitməz, tükənməz məhəbbətlə doludur. Qəlbinur qələmi ilə məhəbbət paylayır».

Paşa Qəlbinur həm də azadlıq şairidir və bu xətt, bizim fikrimizcə, onun yaradıcılığında önəmli yer tutur. Azadlıq haqqında onun bir neçə şeiri var:

***…Azadlıq! – Şirindir deyirlər dadın,***
***Ürək duyduğunu dilmi dadıbdır?***
***Yalandır, yalandır, inanmayın siz,***
***Bir sağlam ürəyə axan qandır o,***
***Axar təmənnasız, axar minnətsiz.***

Paşa Qəlbinurun «Cahad» şeirlər silsiləsi 20 Yanvar və Xocalı faciəsinə həsr olunub və etiraf edək ki, bu silsilə təkcə Qəlbinurun yaradıcılığında deyil, bütünlükdə ədəbiyyatımızda həmin mövzunun ən dəyərli nümunələrindəndir. Paşanın Ağrı dağına, 90-cı illərin təlatümlü hadisələrinə, Qarabağa, Şuşaya həsr etdiyi şeirlər də azərbaycançı bir şairin poetik duyğularını ifadə edir. Elə bu yubiley yazısını da Paşa Qəlbinurun «Vətən» şeiri ilə bitirək:

***Acıyamsa,***
***bir tütün yarpağı***
***say məni, Vətən,***
***Şirinəmsə,***
***Yuxuna qat, yuxuna.***
***Zəhərəmsə,***
***ödün olaydım,***
***Vətən!***
***Oğlunamsa,***
***Dizin-dizin sürünəcəm***
***yolunda.***

**P.S.** *Paşa Qəlbinur nəsrdə də öz qələmini sınayıb və birdən-birə iki miniatür roman qələmə alıb – «Qara su» və «Göz dağı». Birinci adını çəkdiyim roman «Azərbaycan» jurnalında dərc edilib (2008). «Qara su» romanı müasir mövzuda yazılan əsərdir, təkcə ona görə yox ki, bu günümüzdə, çağımızda baş verən hadisələrdən söz açır. Bu, əsas deyil. Çünki müasirliyin məna və mahiyyəti heç də günün hadisə və olaylarının təsvir olunması kimi məhdud bucağa sığmaz. Müasirlik müasir həyat hadisələrinin sənət dililə, bədii gözəlliklə canlandırılması deməkdir. Paşa Qəlbinurun «Qara su» və Göz dağı» romanları məhz bu xüsusiyyəti ilə çeçilir. Şeirlərindən söz açanda İşıq, Rəng, Sevgi, Azadlıq kəlmələrini işlətdim, bu romanlarda da işıq, rəng, sevgi, azadlıq çalarlarını görərsiniz.*



**Son söz:** Siz Paşanın yanına İşıq üçün gedəndə təkcə onu göz cərrahı kimi yox, həm də şair kimi tanıyın...

***Vaqif YUSİFLİ***

*Kənan HACI*



# KƏPƏNƏK VADİSİ

♦ *Roman*

Gecə yarısı qapının aramsız döyülməsi yuxudan yarımçıq oyanan ev yiyəsini təşvişə saldı. Çöldə külək uğuldayırdı. Gülbala kişi narahat halda yorğanı üstündən çəkərək düşündü: "Allah xeyir eləsin! Gecənin bu vaxtı kim olar görəsən?"

Arvadı Gülnisə də səsə yuxudan oyanmışdı, başını balıncdan qaldırıb sual dolu nəzərlərlə ərinə baxdı. Gülbala onu sakitləşdirməyə çalışdı:

– Sən uzan, çıxım görüm kimdi...

Gülnisə arvad yerində qurcuxdu, balınca dirsəklənib divardakı saata baxdı, qaranlıqda vaxtı müəyyənləşdirə bilmədi.

Gülbala kişi qapının taqqıltısından sövq-təbii hiss etdi ki, gələn kişi xeylağı deyil. Rəzəni qaldırıb qapını açanda əynindəki nazik yay donunda soyuqdan titrəyən bir qızla üz-üzə qaldı. Bu qız İlahənin rəfiqəsi Lamiyə idi. Onların evi üç tin yuxarıda idi. Lamiyə evlərindən bura gəlincə soyuq nəfəsini kəsmişdi. Tez onu qapıdan içəri saldı.

– Qızım, qapıda durma, keç içəri. Bir gör soyuqdan nə hala düşmüsən. Gecə vaxtı, xeyirdimi?

Cavab gözləmədən arvadını səslədi:

– Gülü, ay Gülü! Qalx ayağa, qonşunun qızı gəlib.

Gülnisə hövlnak yerindən qalxıb gecə paltarındaca eyvana çıxdı. Gülbala qızın qolundan tutub evə sarı çəkdi:

– Qızım, qalx evə, bir az özünə gəl. Sonra danış görək, nə olub.

Gülnisə Lamiyəni saçları dağınıq, soyuqdan çiyinləri əsmiş vəziyyətdə görüb içini çəkdi:

– Ay qızım, bu nə haldır? Danış görüm nolub?

Lamiyə eyvandakı köhnə divana çöküb əllərini üzünə tutdu və hönkürdü. Səsə artıq İlahə də oyanmışdı. Lamiyəni görüncə yüyürüb onu qucaqladı:

– Lamuş, nə olub? Niyə ağlayırsan?

– Yenə qardaşın səni döyüb? – deyə pıçıltıyla soruşdu.

Lamiyə əllərini üzündən çəkmədən başını təsdiq mənasında tərpətdi. İlahə əsəbindən titrədi:

– Gör qızı nə vəziyyətə çatdırıblar ki, qışın soyuğunda, gecə yarısı evdən qaçıb.

Gülnisə arvad narahatlıqla Lamiyəyə yaxınlaşıb böyründə oturdu:

– Qızım, evdə bura gəldiyini bilirlər?

Lamiyə çətinliklə: – bilmirlər, – deyə bildi.

Gülnisə arvad mülayim xasiyyətli qadın olsa da, onun kişilərə xas qoçaqlığı, səxavəti, sözünün kəsəri vardı. Etibarlı, güvənilləsi qadın idi. Kimsəsiz, köməyə ehtiyacı olan adamların qabağına düşüb onlara himayədarlıq etməkdən yorulmurdu. Həyətində kirayənişin tələbələr qalırdı, elə vaxtlar olurdu ki, onlar maddi baxımdan korluq çəkirdilər. Gülnisə arvad heç vaxt onları naümid qoymurdu, onlara analıq edirdi. Xörək bişirəndə onları da məcbur edirdi ki, bir süfrənin başına toplaşsınlar. Buna görə hamı onun xətrini istəyirdi. Gülnisə arvad kirayənişinlərə axşam vaxtında evə gəlməyi tapşırmışdı, onlar üçün qaydalar müəyyən etmişdi. Onlara demişdi ki, nə vaxtsa pulunuz qurtarsa, nəsə çətinliyiniz olsa, evdəkiləri narahat etməyin, nə sözünüz olsa, mənə deyin. Tələbələr Gülnisə arvadın qoyduğu bu qaydalara riayət etməyə çalışırdılar. Gülnisə arvad Lamiyəni də öz övladlarından ayırmırdı. Amma indiki şəraitdə qızın evdən qaçmasına görə bərk narahat oldu.

Gülbala kişi pencəyini çiyninə atıb həyətə düşdü. Bir azdan qaranlıq həyətdə onun siqaretinin ucu közərirdi. Onun qapısına üz tutan adam heç vaxt naümid qayıtmırdı. Gülbala kişinin sadəlövhlüyü ucbatından bir dəfə başına qəribə əhvalat gəlmişdi.

* * *

Lamiyə ağlayıb toxtamışdı. İlahə əlləriylə onun yanağından göz yaşlarını silir, ona ürək-dirək verirdi. Qız yavaş-yavaş özünə gəlməyə başlayırdı. Gülnisə arvad çay süzüb gətirdi və özü də qızlarla yanaşı oturub Lamiyəni sorğu-suala tutmağa başladı:

– Qızım, bir əməlli danış görək, niyə bu hala düşmüsən?

Lamiyə baxışlarını bir nöqtəyə zilləyib astadan danışmağa başladı:

– Bezmişəm. Belə yaşaya bilmirəm. Mənə göz verib işıq vermirlər. Özümü öldürəcəyəm.

Yenə göz yaşları bəbəyinə yığıldı. Gülnisə arvad onu tənbeh etdi:

– Ay qızım, həyat çətinliklərlə doludur. Ona qalsa, gərək hamı intihar etsin. Sən dərdini bizə danış, bəlkə sənə köməyimiz dəydi. Özün bilirsən ki, səni heç vaxt İlahədən ayırmamışam. Heç nədən qorxub çəkinmə.

– Gülnisə xala, İlahə hər şeyi bilir. Məni zorla istəmədiyim bir oğlana ərə vermək istəyirlər. Oğlan da narkomandır. Hamı da bunu bilir, hətta qardaşlarım da. Di gəl, deyirlər yaxşı oğlandır. Hər gün mənə təzyiq edirlər, hətta anam, bacılarım da onların tərəfini tutur. Mən təklənmişəm. Məni anlayan, başa düşən yoxdur. – Lamiyə ürəyini açıb tökdü.

Gülnisə arvad köksünü ötürüb dedi:

– Bəs atan nə deyir?

– Atam heç nə demir. Hiss edirəm ki, ürəyində mənim tərəfimdədir, di gəl ki, qardaşlarımın qorxusundan o da özünü kənara çəkib. Mənim taleyim heç kimi maraqlandırmır, Gülnisə xala.

– Niyə belə edirlər, ay qızım?

– Tezbazar məni başlarından eləmək istəyirlər. Evdə yemək yeyənin biri azalsın. Yaxşı ki, onların çörəyini yemirəm, özüm işləyib ehtiyaclarımı ödəyirəm. Yenə məndən əl çəkmirlər.

Bakının köhnə məhəllələrindən birində yaşadıqlarından buranın yazılmamış qanunları vardı. Məhəllə cayıllarının gözünə yad kişi xeylağı dəyən kimi məsələni yerindəcə həll edirdilər, bu məhəlləyə qız dalınca bir oğlan gələ bilməzdi. Bu həndəvərə qatır gəlsə, dırnaq, quş gəlsə, qanad salardı. Ağırtaxta kişilərin bığının altından keçmək asan deyildi. Bu məhəllələrdə namus-qeyrət üstündə çox qanlar tökülmüşdü. Küçədə hansısa oğlanın bir qıza söz atması böyük fəlakətə, bədbəxtliyə səbəb ola bilərdi. Qızı ərə verəndə xalq zərb-məsəlləri mücrüsü açılırdı, deyirdilər ki, "ər evi gor evidir, ordan sənin ancaq meyidin çıxa bilər". Qadınların boşanması onlar üçün ölümdən də betər idi, ərləri əyyaş, narkoman olsa belə, ömürlərinin sonunadək dözüb oturmalı idilər, ayrı əlac yox idi. Boşanmaq sözü dillərinin ucuna gələn kimi qardaşların sözü qulaqlarında hökm kimi səslənirdi: "Sən papaq deyilsən ki, başdan başa qoyulasan!" Bununla da məsələ bitirdi. Bir də bu söhbətin üstünə qayıtmaq biçarə qadınların ağlından da keçmirdi.

Bu məhəllələrdə topdağıtmaz ətalət və mühafizəkarlıq hökm sürürdü. Cavanlardakı tiryək aludəçiliyi duman kimi gözlərini örtmüşdü, bu dumanın arxasındakı həyat qətiyyən onları maraqlandırmırdı. Beyni dumanlı cavanlar bəzən heç nəyin üstündə bir-birini bıçaqla yorturdular. Bunun da nəticəsində bir nəsil digər nəsillə qan düşməni olurdu. Bu gərginlik evlərdə böyüyən uşaqların da psixikasını zədələyirdi, kin-küdurət köhnə nəsildən yeni nəslə keçirdi.

Oğlan uşaqları göz açıb belə görmüşdülər və bu qeyri-sağlam mühit onların həyatını da zəhərləyirdi.

Həyətlərin çoxunda göyərçin saxlayırdılar və bir də görürdün ki, məhəllənin başında quş üstündə qırğın-qiyamət qopdu. Bir qonşunun quşu o biri qonşunun həyətinə düşürdü, o da quşu verməkdən imtina edirdi. Beləcə, dava-dalaş başlayırdı. Bəzi hallarda iş ölüb-öldürməyə qədər gəlib çıxırdı. Bir boynugüllü erkək əbrəşdən ötrü bıçaqlar havada parıldayırdı, arvadların vay-şivəni bütün qonşuları eşiyə tökürdü. Məhəllə cayıllarından Əbdülağa türmədən gətirdiyi əbrəşi bəlkə atasından da çox istəyirdi. Deyirdi atam da istəsə, vermərəm bu quşu. İçəridə həyanım olub, ona baxıb nə vaxtsa azadlığa çıxacağıma inanmışam. Bu quş hər dəqiqə, hər an mənə çöldəki azad həyatı xatırladıb. Bu quşun hesabına ordan sağ-salamat çıxmışam. Ona görə adam da vuraram.

Buna görə hamı Əbdülağadan ehtiyat edirdi, onun quşlarına dəyib-dolaşmırdılar. Bütün günü dar-düdük küçələrdə, tində-bucaqda avaralanan

adamları görəndə adamın ürəyi sıxılırdı, onların əvəzinə də darıxırdın. Bu adamlar həyatlarına heç bir məna qata bilməyən, hansı məqsədlərlə yaşadıqlarını anlamaqda çətinlik çəkən adamlar idi. Tində çöməlib oturan, burnunun suyu axan, sir-sifətini tük basmış cavanları görəndə adamı dəhşət bürüyürdü, tiryək bir-bir hamısının axırına çıxırdı.

Gülbala kişigilin həyətinin o üzündə orta yaşlı bir kişi yaşayırdı, adı Quləməli idi. Adam əsl hidrometeoroloq idi. Axşamüstü ötəri havaya göz gəzdirib proqnozunu verirdi. Neçə dəfə sınamışdılar, dedikləri həmişə düz çıxırdı. Daha o kişinin dediyinə şəkk etmirdilər. Desə ki, səhər yağış yağacaq, hamı axşamdan su keçirməyən ayaqqabılarını kandarda cütləyirdi. Hər dəfə ondan kefini soruşanda adama Sabirin məşhur şeiri ilə cavab verirdi: “Fəhlə, özünü sən də bir insanmı sanırsan, pulsuz kişi, insanlığı asanmı sanırsan?”

Deyirdi bu şeiri orta məktəbdə bizə əzbərlədiblər, o vaxtdan yadımda qalıb. Uşaqlıqda maşın üstündən keçib, sağ qalıb. Yeddi dəfə cərrahiyyə əməliyyatına məruz qalıb. Bu əməliyyatlar nəticəsində sinir sistemində problemlər yaranmışdı. Heç kimlə işi olmazdı. Küçədən kim keçirdisə, onu yolundan saxlayıb indinin məşhur xanəndələriylə dostluqlarından danışırdı. Yoldan keçən də səbrini basıb axıracan onu dinləyirdi. Hamıya deyirdi ki, rəhmətlik Yaqub Məmmədovla möhkəm dost olmuşuq. Uzun müddət “palatka” toylarında, belə demək mümkünsə, səs operatorluğu edib, aparatura quraşdırıb. O dövrün xanəndələri, musiqiçiləriylə bağlı xeyli xatirələri var idi. Quləməli də həyətlərində göyərçin saxlayırdı, amma o, quşlara qarşı olduqca qəddar davranırdı. Bir də gördün beyni çöndü, quşları tutub başlarını iki barmağıyla üzürdü. Bu hərəkətinə görə anası Zəhra arvad həmişə onu lənətləyirdi: “Ay zəlil olmuş, eləmə belə! Günahdur. Allahın bəlasına gələrsən”. Quləməli isə öz qəddarlığından qalmırdı.

Hələ sizə qatıqsatan Sərvinazdan danışım. Əlindəki içi banka, balon dolu iri zənbillə məhəllələrin içiylə yeridikcə iri, göyümsov gözləri elə bil adamın üstündən şütüyüb keçirdi. Səsinin cır yerinə salıb: “Ay qardaş, yaxşı qatığım var, istəmirsən?” – deyə soruşurdu. Hünərin var, Sərvinazdan süd, qatıq alma.

Yay-qış yanaqlarından qan daman bu əndamlı gəlin il müdam qaloşda gəzirdi, əynindəki sürtülmüş, üzü üzlər görmüş boz gödəkçəsini havalar qızanda da əynindən çıxarmaq istəmirdi. Sərvinaz məhlədə görünəndə tində dayanan avaraların mırt damarı tuturdu:

– Qatıq gəlir, – deyirdilər, – ala, bunun özü də qatıqdu ee başdan-ayağa.

Qatıqsatan olanda noolar, adamda gərək bir abır-həya, mərifət-qanacaq olsun. Sərvinazda yerli-dibli abır-həya anlayışı yox idi, qapısı açıq olan həyətlərə girib az qala camaatın yataq otağınacan soxulurdu. Hətta bir dəfə quşbaz Ağəli günün günorta çağı arvadı süpürləyib altına basıbmış, işin qızğın vaxtı Sərvinaz naqəfil öskürək kimi yataq otağında peyda olub. Ağəli Sərvinaza itin sözünü deyib:

– Bas bayıra, qancığ, indi balonu alıb qatığı başuva əndərərəm!

Sərvinaz da bu söhbətin üstünə beşini də qoyub utanıb-qızarmadan yoldan ötənə danışırmış və əlavə edirmiş ki, evinizi Allah tiksin, gecənizi əlinizdən alıblar?

Heç dəxli var? Adam arvadıyla yaxınlıq eləyəndə gəlib səndən icazə almalıdır? Nə isə, Sərvinaz uzun bir həngamədir. Yadımdan çıxmamış bunu da yazım. Bir dəfə Sərvinaz hansısa həyətə girəndə lotular onun küçə qapısında qoyduğu yekə zənbilini oğurlamışdılar. Sərvinaz söyüş xəzinəsindəki quş səsi eşitməyən söyüşləri kağız pul kimi havaya sovururdu. Küçənin boyunu, yalan olmasın, beş dəfə o baş-bu baş ölçəndən sonra görür ki, zənbili elə qoyduğu yerdədir. Lotular görüblər ki, Sərvinaz söyüş sarıdan milyonerdi, evlərin də pəncərələri açıq, arvad-uşaq eşidir, abır-həya əldən gedir. Zənbili qaytarıb götürdükləri yerə qoyublar ki, gəlinin ağzı yumulsun.

Kimsə qapının ağzında deyinirdi:

– Lənətə gələsən səni! Əsəbi vaxtımda bu da vaxt tapıb. Heç qatığın yeridi?

Sərvinazın üzünə qapını bağlamaq istəyəndə arvad əliylə qapını tutdu:

– Ay qardaş, bu balonu götür, cəmi iki manat qırx qəpik edir. İndiyəcən sənə pis qatıq satmışam?

– Ay bacı, canımçün, üstümdə cəmi qırx qəpiyim var, başqa vaxt gətirərsən.

Sərvinaz əlini atıb zənbildən bir balon üstü qaymaqlı qatıq çıxardı:

– Canın sağ olsun! Al bunu, qoy “xolodelnik”ə. Sabah onsuz da yenə yolum burdan düşəcək. Onda verərsən.

Sərvinaz nisyə süd-qatıq satmağın köhnə sənətkarı idi, iki-üç gün keçməmiş, yenidən gəlib borclarını yığırdı və bu dəfə gələndə özüylə təzə balıq gətirirdi. Bir sözlə, Sərvinazın yanında “pulum yoxdur” bəhanəsi keçərli deyildi. Pulun yoxdur, qəmin kəm, nisyə götür. Bilirdi ki, onun pulunu kəsən olmayacaq. Pul atmaqdan isə söhbət gedə bilməzdi, çünki heç kəsin qaçan yeri yox idi. Buralarda Sərvinaz hər evin ailə üzvlərinə kimi tanıyırdı. Qadınlar da öz sirlərini ondan əsirgəməzdilər, o, bütün evlərin gizli sirlərinə bələd olsa da, ağzıbütöv adam idi; heç vaxt kiminsə ailə sirrini başqasına danışmazdı. Həm də bu xüsusiyyətinə görə onun xətrini çox istəyirdilər.

Sərvinaz belə Sərvinaz idi.

Yazılmamış qanunlar bəzən yazılmış qanunlardan da sərt görünürdü. Yazılmamış qanunların da bəzi hallarda haqsız qurbanları olurdu. Bu xoşagəlməz hadisə ayrı-ayrı vaxtlarda baş vermiş belə kiçik münaqişələri yada salırdı...

Lamiyənin içində bu qadağalara qarşı bir üsyan vardı. O, qardaşlarının onun üzərindəki ifrat nəzarətinə dözə bilmirdi, bu təzyiq, basqılar onun ruhunu əzirdi, arzularına çəpər çəkirdi. Özündən böyük iki bacısının ikisini də on altı yaşında özlərindən yaşca xeyli böyük kişilərə ərə vermişdilər. Təbii ki, qızların fikrini nəzərə alan olmamışdı, sanki onları aparıb dəyirman daşının altına salmışdılar. Atası və qardaşları onları hədələmişdi: “Ər evindən sizin ancaq meyidiniz çıxa bilər!” Bu bir cümlə onların gəncliyinə

balta çalmışdı. Allahın verdiyi ömrü bu bir cümlənin əsarətində yaşamağa məhkum idilər. Hər gün ərləri tərəfindən qapazaltı olsalar da, cınqırlarını belə çıxara bilmirdilər. Arada ərlərinin onları döyməyilə qohum-qonşu arasında fəxr edirdilər. Əlbəttə, kişi arvadını döyər də, lap o yana da keçər.

Lamiyə isə sevmədiyi insana ərə getmək istəmirdi. Arzularına özü bələdçilik etmək istəyirdi. Çalışqan, zəhmətkeş qız idi, orta məktəbi bitirdikdən sonra qardaşları ali təhsil almasına imkan verməmişdilər. "Qız nədir, oxumaq nədir? Qaxılıb otursun evdə" – demişdilər. Hətta onun dükan-bazara getməsinə də qadağa qoymuşdular. Bütün ev işləri bu arıq, çəlimsiz qızın çiyinlərinə yüklənmişdi, gün uzunu saat kəfkiri kimi ora-bura vurnuxurdu, arada evin pəncərəsindən küçəyə baxanda da üstünə çəmkirirdilər. Lamiyənin dünya ilə yeganə əlaqəsi bu dəmir barmaqlıqlı pəncərə idi, onu da üzünə qapamaq istəyirdilər. Onun bu həyətdən çölə çıxması yalnız ərə getməklə mümkün ola bilərdi. Sevmədiyi bir insana ərə getmək isə bir zindandan xilas olub başqa bir zindana düşmək idi. O, bacıları kimi, tanımadığı, sevmədiyi adama kor-koranə ərə getməyəcəkdi. Onu məcbur edəcəkləri təqdirdə, ən sonuncu variant kimi intihara əl atacaqdı.

Bir dəfə kiçik qardaşı kitab oxuduğunu görüb, dartıb əlindən almışdı.

– Bu nədir oxuyursan? Bunlardı e sənin başını xarab eləyən. Nədir bu? – deyə Lamiyənin üstünə qışqırmışdı.

Lamiyə divandan sıçrayıb içinə yığılmış hirsini-hikkəsini qardaşının üstünə tökmüşdü:

– Nədi, kitab oxuyanda da səndən icazə almalıyam? Məni gözübağlı ev dustağı etdiyiniz bəs deyil, indi də evdə hər işimə qarışırsınız? Mən müvəqqa deyiləm, insanam!!!

Qardaşı kitabı vərəqləyib içində nə yazıldığını bilmək istəyirdi.

– Yaman dil çıxarmısan ha. Kim verib sənə bu kitabı?

Lamiyə Rəşad Nuri Güntəkinin "Dodaqdan qəlbə" romanını oxuyurdu. Kitabı İlahədə görüb oxumaq üçün götürmüşdü. Kitabın adı qardaşında qıcıq yaratmışdı, bacısının belə "gic-gic" kitablar oxuyub "yoldan çıxacağından" ehtiyat edirdi. Lamiyə kitabı qardaşının əlindən almaq istədi. Qardaşı kitabı arxasında gizlətdi.

– Get anova kömək elə. Səhərdən evi yığışdırır, sən də oturub burda eşq kitabı oxuyursan. Belə şeylər beynivi pozar, – deyə qardaşı çevrilib otaqdan çıxmaq istədi.

Lamiyə qiyyə çəkdi:

– Kitabımı veeeer!!!!

Qardaşın şilləsi qızın üzündə partladı. Lamiyə üzünü tutub "ay anaaa!" – deyərək divana yıxıldı. Oğlan həyətə düşüb nərdivanla evin çardağına qalxdı və əlindəki kitabı ora tulladı. Evdən qızın hönkürtüsü eşidilirdi. Lamiyənin anası Badam arvad həyətdə ziveyə paltar sərirdi. Oğlundan soruşdu:

– Bu yenə nöş bayquş kimi uluyur?

– Qələt edir, – oğlan cavab verdi, – gic-gic kitablar oxuyur. Tutub aldım əlindən, ona görə ağlayır. Dedim get anova kömək elə.

Badam arvad başını bulayıb söyləndi:

– Bircə bunu ərə verib başımızdan eləsəydik, canımız dincələrdi. Qız heç özündə-sözündə deyil. Uşaqları qana salmasa yaxşıdır.

Lamiyə uzun müddət inad etdikdən sonra onun qadınların çalışdığı tikiş sexində işləməsinə icazə vermişdilər.

İlahə ilə bir məhəllədə yaşamaqlarına baxmayaraq o qədər də yaxın deyildilər. Tikiş sexində qısa müddətdə bir-birlərinə qaynayıb-qarışdılar. Lamiyə qardaşlarının zülmündən qaçanda pənah gətirə biləcəyi yeganə yer İlahəgilin evi idi. Ondan başqa həyanı, simsarı yox idi. İlahə onun üçün fikirlərinin, düşüncələrinin yan aldığı bir liman idi.

İlahə gündüzlər işləyir, axşamlar universitetə qəbul üçün imtahanlara hazırlaşırdı. Bu iki qız sanki ruh əkizi idi, zövqləri, fikirləri üst-üstə düşürdü. Bir-birlərilə üzbəüz dayananda sanki güzgüyə baxırdılar, zahirən deyil, daxilən bir-birlərinin eyni idilər. Zarafatla bir-birlərinə: “Mən sənəm, sən də mən”, – deyib gülüşürdülər.

Gülnisə arvad İlahə ilə bir otaqda Lamiyə üçün də yer saldı. İki rəfiqə yerlərinə uzanandan sonra da bir xeyli pıçıldaşdılar, nəhayət, yuxu onlara güc gəldi, nə vaxt yatdıqlarını hiss etmədilər.

Səhər Gülnisə arvadın səsinə oyandılar: “Ay bala, qalxın, yeməyiniz hazırdır”.

Rəfiqələr hələ də çarpayıda yer dəmi alırdılar. Gülnisə arvadın ikinci hökmlü çağırışından sonra tənbəl-tənbəl gərnəşib yorğanı üstlərindən atdılar.

Süfrə arxasında İlahə Lamiyəyə dedi:

– Sənin bizdə qalmağın təhlükəlidir, evdəkilər mənimlə rəfiqə olduğunu bilirlər, gəlib səni burda tapacaqlar.

Lamiyə çarəsiz halda gözlərini İlahəyə zilləyib nə deyəcəyini bilmədi.

İlahə bir müddət fikrə getdi, xeyli düşündükdən sonra dedi:

– Gəl belə edək. Yeməyimizi yeyək, sonra Günaya zəng edim, get bir müddət onlarda qal. Orda səni heç kim tapa bilməz. Amma gərək evdən çölə çıxmayasan. İşə də gəlmə, gəlib orda da səni axtaracaqlar.

Günay İlahənin rəfiqələrindən biri idi. Şəhərkənarı qəsəbələrdən birində anasıyla birlikdə yaşayırdı. İlahə ona zəng edərək vəziyyəti yerli-yataqlı danışdı. Günay Lamiyənin bir müddət onlarda qalmasına razılıq verəndən sonra evdən çıxmağa hazırlaşdılar.

Lamiyə bundan sonrakı taleyi haqda düşünmək istəmirdi, bu qaranlıq tale onu dəhşətə gətirdiyindən mümkün qədər onun əlindən qaçmağa çalışırdı. Amma bilmirdi ki, hara getsə də özündən qaça bilməyəcək. Bir şairin şeirində deyildiyi kimi: “Tale başım üstə səma kimidi, qaçıram, altından çıxa bilmirəm”.

Köksünün məchul bir guşəsindəki səksəkə daim oyaq idi. O, özünə təzə bir tale yazmaq istəyirdi, həmin tale xoşbəxtliklərlə dolu idi. Özünün yazmaq istədiyi taleyə inanırdı, bu inamında qəribə bir təskinlik var idi. Bu inam elə bil onu dünyanın ən ağır yükündən azad edirdi. Ürəyindəki sevgi yuvasının yeri boş idi, o yer öz sahibini gözləyirdi. Qəlbi o sevgidən ötrü nanə yarpağı kimi əsirdi.

Günayın anası Lamiyənin gəlişinə razı deyildi. “Bu qız başımıza iş açacaq, Allah bilir, nə səbəbdən evdən qaçıb”, – deyə qızını onun gəlişinə razılıq verdiyi üçün danlayırdı. İlahə Günaya hər şeyi danışmışdı. Amma Günay anasına vaqeəni cüzi dəyişikliklə danışdı:

– Ana, Lamiyə ögey anasıyla yola getmir, qızı hər gün evdə təhqir edirlər. Yazıq başını götürüb qaçıb. Bir neçə gün bizdə qalsın, sonra bir şey fikirləşərik.

Günayın anası ürəyində qızının dediklərinə inanmasa da, bir söz demədi. Həmin gündən Lamiyə Günaygildə qalmağa başladı.

* * *

Axşam gün batmazdan öncə Gülbala kişi şam namazına hazırlaşırdı ki, qapı döyüldü. Səhərdən bəri narahat, səksəkəli idilər. İlahə işdən yenicə qayıtmışdı, anası yeməyi qızmağa qoymuşdu. Gülbala kişi divanda uzanıb köhnə televizorda seriala baxan oğlu Cahangirə dedi:

– Dur, get gör kimdi.

Cahangir dinməzcə yerindən qalxıb həyətə çıxdı. Az keçməmiş, Lamiyənin atası Turab kişiylə qayıtdı. Turab kişinin üz-gözündən, hətta geyimindən də yazıqlıq tökülürdü. Yuxudan təzəcə durmuş kimi, küt baxışlarla evdəkiləri süzdü, alnının qırışları dartıldı.

– Məni arvad göndərdi, qız dünən axşamdan yoxa çıxıb. Dedik bəlkə sizə gəlib.

Gülbala kişi boğazını arıtladı ki, nəsə ümidverici bir söz deyib onu sakitləşdirsin, İlahə tez onu qabaqladı:

– Xoş gəlmisən, Turab əmi. Lamiyəyə nə olub ki? Bu gün də işə gəlməmişdi.

– Heç, axşam bir az qardaşıyla sözləşdi, acıq eləyib çıxdı evdən. Dedik yəqin qayıdar. Nə dünən gecə, nə də bu gün evə gəlib çıxmayıb. Gümanım bura idi... Görəsən hara getmiş olar?

– Otur bir stəkan çay iç, gedərsən, ay Turab, – deyə Gülbala kişi qonşusuna əyləşməyi təklif etdi. – Heç nə olmaz, inşallah, qız gəlib çıxar.

Turab kişi otursa da, İlahənin süzdüyü çayı içmədi. Cahangir söhbətə müdaxilə elədi:

– Turab əmi, bu gecəni də gözləyin, gəlməsə, sabah polisə verin.

Turab kişi onun bu fikrinə etiraz elədi:

– Sən nə danışırsan? Deyirsən oturduğumuz yerdə özümüzü işə salaq? Polis deməz ki, bu qız evdən niyə qaçıb? Nə cavab verəcəyik? Sonra gərək bu məhəllədən birdəfəlik köçüb gedək.

Gülbala kişi də yüngülcə oğluna acıqlandı:

– Bir düşün, sonra danış. Bu iş polisə gedib çıxsa, biabırçılıq olar. Hara gedibsə, üzə çıxacaq. Allah səbr edənləri sevir. Səbirli ol.

Turab kişi son ümid kimi gözlərini İlahəyə dikdi:

– Qızım, nolar, onu harda görsən, de ki, evə qayıtsın. Biz ona neyləyirik ki?

Onun səsi elə xırıldayırdı ki, elə bil boğazında nəsə ilişib qalmışdı, nəfəsini kürəyindən alırdı.

İlahə özünü saxlaya bilmədi:

– Turab əmi, siz görün qızı nə həddə çatdırmısınız ki, gecənin bir vaxtı, soyuq havada evdən qaçıb. Niyə qızı rahat buraxmırsınız? Zəhmətkeş, tərbiyəli qızdır. Niyə ona zülm edirsiniz?

Gülbala kişi qızına göz ağartdı. Turab kişi bilirdi ki, Lamiyə ilə İlahə yaxın rəfiqədirlər, Lamiyənin nə sirri olsa, İlahəylə bölüşür. Anlayırdı ki, İlahə Lamiyənin evdə qardaşları və anası tərəfindən incidilməsindən xəbərdardır. Ona görə günahkar kimi başını aşağı salıb dinmədi, bir az da yazıqlaşdı, sulanıb qıyılan gözləri bir nöqtəyə zillənib qaldı. Gözləri beləcə, yol çəkməyə, nəyisə həsrətlə gözləməyə başladı.

İlahə hiss edirdi ki, onun hər addımını izləyirlər. Lamiyənin qardaşları onun yoxa çıxmasında İlahədən şübhələnirdilər deyə, onun gedib-gəldiyi yerlərdə güdükçülər qoymuşdular. İlahə gizlənqaç oynayan uşaq kimi həyəcanlı olurdu, yolda tez-tez sağına-soluna, arxaya boylanırdı ki, görsün ardınca gələn varmı.

Bir səhər işə gəlincə iş yerindən Günaygilə zəng vurdu. Dəstəyi Günayın anası Ətir xala götürdü.

– Ətir xala, salam. Mənəm, İlahədir. Necəsiniz? – deyə İlahə hal-əhval tutmağa başladı.

– Salam, ay qızım. Şükür, yaxşıyıq. Sən necəsən? Anon necədür?

– Biz də yaxşıyıq. Günay neynir?

– Günay da yaxşıdır, imtahanlara hazırlaşır. Ay qızım, bu Lamiyə nə yaxşı qız imiş.

– Hə, çox yaxşı qızdır Lamiyə. Heyif, evdəkilər onun qədrini bilmir.

İlahə bu neçə gündə Lamiyə üçün əməlli-başlı darıxmışdı, özünü yarımçıq, qanadı qırılmış kimi hiss edirdi. Amma onunla heç cür görüşə bilməzdi, qız ələ keçə bilərdi. İlahə Ətir xalanın Lamiyədən razı qalmasına sevindi. Halbuki əvvəlcə onun gəlişinə heç razı deyildi.

Lamiyə İlahənin səsini eşidən kimi, sevincək özünü telefonun üstünə atdı:

– Canım mənim, necə darıxmışdım səninçün...

– Caan, mən də səninçün darıxıram. Ətir xala səni yaman tərifləyir ha, – deyə güldü.

– Hə, mən də ona yaman isinişmişəm. Çox yaxşı qadındır. Ürəyi təmiz, həlim xasiyyətli, xeyirxah... Günay bütün geyimlərini mənim ixtiyarıma verib. Deyir hansını ürəyin istəyir, seç, geyin. Lap xəcalət çəkirəm, ay İlahə.

– Lamuş, mən səni pis yerə heç vaxt göndərməzdim. Görürsən necə gözəl ailədir? Darıxma, bir neçə gün də qal. Görək başımıza nə gəlir. Məni də izləyirlər.

Lamiyə telefonda içini çəkdi:

– Ayyy, nə danışırsan? Səni niyə izləyirlər bu başıbatmışlar?

– Bəs kimi izləsinlər? Bilirlər ki, biz yaxın rəfiqəyik. Mənim izimə düşüb səni tapmaq istəyirlər. Ona görə biz hələ görüşməyək. Ələ keçə bilərsən.

– Ay qız, bir neçə dəfə şəhərə çıxıb ora-bura getmişəm. Evdə oturmaqdan ürəyim partlayır. Günaygilə də yük olmuşam, buna görə çox sıxılıram.

– Sənə demişəm axı, evdən bir müddət çıxma. Səni hər yerdə axtarırlar.

– Səninçün darıxıram, İlahə. Heç olmasa, gəl Günaygildə görüşək.

– Gələ bilmirəm, başa düş. Güdürlər məni, hara gedib-gəldiyimi bilmək istəyirlər. Gələrəm, yerini bilərlər, peşmançılıq olar. Günayın adını dilə-dişə salmayaq, sən heç yerə çıxma, heç kəslə də görüşmə. Səbirli ol.

* * *

Süleyman peyğəmbər quşların dilini bildiyi kimi, Sənan da güllərlə danışmağı bacarırdı. Özü maşın ustası olsa da həyəti gülüstanı xatırladırdı; burda hər növ gülə, çiçəyə rast gəlmək olardı. Öz əliylə saldığı bağçada gül gülü, bülbül bülbülü çağırırdı. Həyətə qədəm qoyan hər kəs çiçəklərin ətrindən bihuş olurdu. O, özü güllərə qulluq edirdi, bu işi heç kəsə etibar etmirdi. Sənanın bu hüdudsuz gül sevdası çoxlarına təəccüblü görünürdü. Bəziləri hətta ona lağ edirdi: “Qız kimi bütün günü güllərlə oynayır”. Sənan deyilənlərə əhəmiyyət vermirdi, bütün sevgisini, mehrini-məhəbbətini güllərə bağlamışdı. Hətta gülləri görməyəndə belə, çəpərin o üzündən onların nəfəsini dərisində hiss edirdi.

Hər çiçəyin müxtəlif xarakteri, ətri olduğu kimi, özünəməxsus mənaları var. Sənan bu mənalara vaqif olmaqla onların qayğısına qalır, onlarla söhbətləşirdi. Güllər dil açıb onunla danışırdı. Nilufər gələcəkdən xəbər verirdi, kamelya məğrur görkəmiylə ona enerji, güc bəxş edirdi, zanbaq inam aşılayır, orxideya qürurunu oxşayırdı, bənövşə təvazökarlığı öyrədirdi. Qızılgüllər yarpaqlarını qulaq formasında oval şəklinə salaraq insanlara "dinləyirəm" mesajını verir. Qonşular bu həyətə daxil olarkən hər hansı bir mənfi və ya müsbət söhbət əsnasında güllərin müvafiq olaraq ləçəklərini dağıdıb və ya şaxələndirərək reaksiya verdiklərinin şahidi olmuşdular. Sarı ləçəkləri üzərində qırmızı çillər olan yaddaş çiçəyi Sənanın ən çox inandığı güllərdən idi. Bu çiçək insanların hissiyyatını duyaraq ona reaksiya verməyi bacarırdı. Yaddaş çiçəyi adamın mənfi enerjisini duysa, dərhal ləçəklərini qapadaraq küsür. Bu çiçək vasitəsilə Sənan qapıdan içəri girən qonağın hansı niyyətlə gəldiyini anlayırdı. Əgər gələn adam pis niyyətli idisə, çiçək ləçəklərini yığırdı, xoş niyyətli idisə, ətir saçmaqda davam edirdi.

Sənan kənddə təkcə Məbud kişi ilə dostluq edirdi. Məbud kişi sovetlərin dağılması ərəfəsində həyətində bir neçə istixana qurmuşdu və qərənfil yetişdirməklə məşğul idi. Əvvəllər avtobus sürücüsü işləsə də, sonradan gülçülük onun yeganə məşğuliyyətinə çevrildi. Bu işdə ona iki oğlu da köməklik edirdilər.

Məbud kişi kənddə Gülçü ləqəbilə tanınırdı. Qapısında həmişə gül alverçilərinin növbəsi olurdu. Gülçü Məbudun yetişdirdiyi qərənfillər Moskva bazarlarını bəzəyirdi. Dolanışığı xeyli yaxşılaşmışdı, köhnə evini söküb yerində ikimərtəbəli mülk tikmişdi.

Bir gün səhər Məbud kişi vacib iş dalınca evdən çıxanda qarajda saxladığı “Qaz-24” heç cür işə düşmədi. Qonşusu məsləhət gördü ki,

maşını Sənanın yanına aparsın, yaxşı ustadır, o, baxıb dərdini deyəcək. Sənan maşının kapotunu qaldırıb ora-burasına baxdı, ehtiyat hissələrinin sazlığını yoxladı və axırda dedi:

– Ağsaqqal, startr ömrünü sənə bağışlayıb, təzəsini almalısan.

Məbud kişi təzə ehtiyat hissələri alıb gətirdi. Sənan xeyli maşının üstündə əlləşdi. İş əsnasında Məbud kişiylə yaxından tanış oldular. Sənan həyətlərində saldığı bağ-bağçadan danışdı. Onun söhbəti Məbud kişinin diqqətini cəlb elədi. Sənan Məbud kişinin onun güllərlə bağlı söhbətinə bu qədər maraq göstərməsinə sevindi. Nəhayət, bu mövzuda özünə yaxın həmsöhbət tapmışdı, buna görə işini bitirdikdən sonra onu buraxmadı.

– Məbud kişi, gəl gedək, həyətimizdəki gülləri sənə göstərim.

Məbud kişi həvəslə razılaşdı.

Həyət incə bir sis pərdəsinə bürünmüşdü. Bağçadakı rəng müxtəlifliyini gizlədə bilməyən sis həyətdə sirli-sehrli bir ab-hava yaratmışdı. Güllər gövdələrini gizlədən sisi dələrək, təpələrində uçuşan sərçələrə yoldaşlıq edirmiş kimi, xəfif bir əsinti ilə sağa-sola əyilirdi. Səssizliyi quş səsləri və həyətdəki kiçik hovuzdan gələn su şırıltısı pozurdu.

Güllərin fərqli rəng çalarları, ətri, rayihəsi, gözəlliyi Məbud kişini heyran qoydu. Heyrət içində bağçanı dolaşmağa başladı. Məbud kişi yaddaş çiçəyinə yaxınlaşanda Sənan həyəcanlandı. Səbirsizliklə çiçəyin reaksiyasını gözlədi. Yaddaş çiçəyi şahanə görkəmini pozmadı. Sənan uşaq kimi sevindi; demək, Məbud kişi təmiz adamdır, onunla dostluq etməyə dəyər. Beləcə, aralarında xeyli yaş fərqi olsa da, dostluqları başlandı.

Məbud kişi heyrətini gizlədə bilmədi:

– Oğul, sən bu qədər gülü bir həyətə necə toplamısan? Doğrudan da möcüzədir.

– Mən bu işə illərimi vermişəm, Məbud kişi. Maşın ustası olmağıma baxma, əsas işim bu güllərə qulluq etməkdir. Onlar mənimlə, mən də onlarla nəfəs alıram. Bir gün onların ətrini duymasam, onlarla söhbət etməsəm, nəfəsim kəsilər.

– Əhsən sənə! Bu balaca həyətdə əməlli-başlı cənnət yaratmısan. Güllər səni eşidir, sən onların əhvalını duya bilirsən. Möcüzədir, buna necə nail olmusan? – deyə Məbud kişi soruşdu.

– Bu güllərə aid verilən hər sual bir toxumdur. Zaman keçdikcə zoğ atır, qönçə olur, sonra ləçəklərini açır, ətrini ətrafa saçmağa başlayır.

– Maraqlı mühakimədir. Sən çox maraqlı adamsan, Sənan. Səninlə tanışlığıma çox şad oldum. Mən özüm də neçə ildir gülçülüklə məşğul oluram. Amma heç vaxt gülləri danışdırmaq ağlıma gəlməyib. Mən, sadəcə, qərənfil əkirəm, onlara qulluq edirəm, vəssalam.

– Mən də yetim oğlanam də, Məbud kişi. Başımı bunlarla qatıram, – Sənan dedi.

– Mən də qart yetiməm, a bala. İki yetim bir-birini yaxşı tapıb, – dedi və kədərli-kədərli gülümsədi.

Aldığı hər nəfəslə içinə dolan gül qoxusu Məbud kişini nağıllar aləminə aparıb çıxarmışdı. Sənanın çiçəklərlə həsb-halını heyranlıqla müşahidə

edirdi. Sənan səhləb çiçəyinə nəsə pıçıldadı, çiçək təsdiq mənasında başını tərpətdi. Məbud kişi heyrətə gəldi.

– Sən sehrkarsan, çiçəklərin dilini bilən adam! – dedi. – Bu çiçəklər öz varlıqlarına görə sənə borcludurlar.

– Xeyr, onlar gözəlliklərinə görə torpağa borclu olduqlarını bir an belə unutmurlar. Bir gün solacaqlarını, toxum olub torpağa düşəcəklərini və yenidən torpaqdan cücərəcəklərini bilirlər.

– Bəs sən onların nə dediyini necə eşidirsən?

– Bunun qızıl qanununu sənə deyərəm, – Sənan gülümsədi.

– İndi de, – Məbud kişi səbirsizliklə dilləndi.

Sənan güllərin başına dolanaraq sanki əfsun oxuyurdu. Handan-hana bu aləmdən ayrılıb özünə gəldi.

– Gülü güldən eşitmək, ondan öyrənmək lazımdır. Onları tanımağın tək yolu budur.

Məbud kişi doğrudan da qeyri-adi bir insanla tanış olmuşdu. Həyatında hələ belə möcüzə ilə qarşılaşmamışdı. Sanki ona bihuşdarı vermişdilər, güllərin nəfəsi üzünə toxunduqca məst olurdu.

Sənanın çiçəklərə qulluq qaydaları tamamilə fərqli idi. O, heç vaxt güllərin əkildiyi torpağa azot gübrəsi vermirdi. Məbud kişi təəccüb içində qalmışdı: bəs belə olan halda bu güllər necə böyüyür, çiçək açır? Bu bitkilər gücü və təravəti hardan alırdı, necə qidalanırdı? Məbud kişi bilirdi ki, fosfor tərkibli gübrələr qönçələrin əmələ gəlməsinə, tumurcuqların və gənc köklərin əmələ gəlməsinə müsbət təsir göstərir. Sənan isə bu prosedurların heç birini yaxın buraxmırdı, onun gülləri təbii şəkildə torpaqdan və günəşdən qidalanırdı. Məbud kişi düşünürdü ki, Sənan bu çiçəklərə gübrə versə, onların sehri, tilsimi pozular, onlar bakirəliklərini itirə bilər.

Yazın körpə çağı idi və dünyanın bu körpə, günahsız çağında nəinki torpaqdan, çiçəklərdən, otlardan, ağaclardan, hətta havadan da gül ətri yağırdı. Bir də bu gül ətrindən uşaq – süd qoxusu gəlirdi. Məbud kişiyə də ən çox ləzzət verən məhz təbiətin körpə qoxusu idi. Bunu Məbud kişi birinci dəfə neçə il əvvəl ilk nəvəsi dünyaya gələndə hiss etmişdi. Onda da yaz çağı idi, səhər obaşdan oyanmışdı və güllərə qulluq edirdi, qəfildən arxasında hənirti hiss etdi, çevriləndə gördü ki, arvadıdır, heyrətini gizlətmədən soruşdu ki, xeyir ola, sən nöşün sübh tezdən durmusan? Arvadı gülümsünə-gülümsünə dedi ki, nəvəmiz yuxudan oyanıb, neyçünsə ağladı, mən də ayıldım. Məbud kişi narahat oldu:

– Nöş ağlayır? Bəlkə naxoşlayıb?

– Narahat olma, heç nə olmayıb. Acıbmış, gəlini qaldırmışam, əmizdirib, ondan sonra uşaq sakitləşdi. Bir əllərimi qoxula, gör nə ətri gəlir? – deyə arvadı əllərini ərinin burnuna yaxınlaşdırdı.

Məbud kişi adamı məst edən ətri dərindən sinəsinə çəkib dedi:

– Süd ətri gəlir.

Sonra havanı qoxladı. Qəribəydi, indi elə bil havadan, bütün dünyadan ana südü ətri gəlirdi. Sənanın güllərindən yayılan ətir də həmin o süd ətrinə bənzəyirdi.

...Sənanın anası Zümrüd xanım onlara pürrəngi çay gətirdi, eyvanda oturub gül mürəbbəsi ilə çay içməyə başladılar. Sənan Məbud kişiyə güllərin hekayətini danışmağa başladı.

* * *

Sənanın atası Arif kişi də maşın ustası idi, həyət-bacanı həmişə səliqəli saxlayırdı. Evin qarşısında əkilmiş çəhrayı, qırmızı qızılgüllər həyətə xüsusi yaraşıq verirdi. Bu güllərin toxumunu ona bilgəhli dostu Ağadayı vermişdi. Qızılgüllər böyüyüb boy atınca onların böyür-başında məxməri güllər də bitməyə başladı. Arif kişi onlara da qayğı ilə yanaşır, qulluq edirdi. Sənan uşaqlıqdan həyətdəki güllərə maraq göstərir, atası evdə olmayanda saatlarla onların tamaşasına durur, onlarla danışırdı.

Orta məktəbin ədəbiyyat dərsində onlara Natəvanın “Qərənfil” şeirini əzbərləməyi tapşırmışdılar. Sənan bu şeiri həyətdəki güllərə baxa-baxa əzbərləmişdi. Güllər sanki küsgün ədayla dilə gəlmişdi: “Biz qərənfil deyilik, bizim şeirimizi oxu”.

Atası işdən gələndə başının üstünü kəsdirmişdi:

– Ata, həyətimizdə qərənfil niyə yoxdur?

Atası əvvəlcə duruxmuşdu, sonra oğlunun başını sığallayıb gülümsəmişdi:

– Qərənfil də olar, oğlum. Amma gərək onlara xüsusi qulluq edəsən.

– Mən qulluq edərəm, – demişdi Sənan.

Arif kişi oğlunun güllərə bağlılığını görüb sevinirdi. Amma Sənanın dərs oxumaqla heç arası yox idi. Atası nə qədər danlasa da, yenə dərslərində axsayırdı. Bir dəfə yenə gündəliyinə baxanda “2”ləri görüb bərk əsəbiləşdi.

– Bax, sənə deyirəm, dərslərini yaxşı oxumasan, həyətdəki gülləri başqalarına bağışlayacam, – dedi.

Düşündü ki, bəlkə bundan sonra Sənan dərslərinə diqqət edər. Doğrudan da Arif kişinin bu xəbərdarlığından sonra Sənan bir müddət vaxtını dərslərinə sərf etməyə başladı. Amma Arif kişi anlayırdı ki, oğlu təhsil almaq həvəsində deyil. Fikirləşdi ki, heç olmasa, öz sənətini ona öyrətsin. Əlində sənəti olar, ona-buna möhtac olmaz. Beləcə, Sənan elm dalınca yox, sənət dalınca getdi və atası kimi elektrik oldu. Amma güllər də onun həyatının ayrılmaz parçasına çevrildi. Atası dünyasını dəyişəndən sonra bütün mehrini güllərə, çiçəklərə saldı. Müxtəlif yerlərdən, müxtəlif adamlardan adını eşitdiyi güllərin toxumunu əldə edib, gətirib həyətə səpirdi, onların xüsusiyyətlərini öyrənirdi. Əməlli-başlı gül üzrə mütəxəssis olmuşdu. O, öz dilindən başqa həm də güllərin dilini bilirdi. Natəvanın məşhur qəzəlinin birinci beytindəki məna ilə heç cür razılaşmırdı. Xan qızı belə yazmışdı:

***Əgərçi xoşdu mənə ətri, həm səfası gülün,***
***Cəfası çoxdu, nə hasil ki, yox vəfası gülün.***

* * *

Bir gün Nahidə işə gələndə qızlar onun əlində bir qom çiçək gördülər. Çiçəklərin ətri bütün sexi bürümüşdü, tikişlə məşğul olan qadınlar qeyri-ixtiyari başlarını qaldırıb heyranlıqla Nahidənin əlindəki çiçəklərə baxdılar. Lamiyənin ürəyi atlandı, tez işdən ayrılıb Nahidəyə yaxınlaşdı və çiçəklərin ətrini sinəsinə çəkdi. Qəlbini izaholunmaz bir həyəcan bürüdü. Bu, ona tanış olmayan bir hiss idi.

– Qardaşımgilin həyətindəndir, – Nahidə dedi.

Ürək xəzinəylə dolu büllur bir sandığa bənzəyir, içində nələr olduğunu bir kimsə bilməz. Bəzən bir gül o sandığın açarı ola bilir. Lamiyə nərgizlərin nəfəs almasını hiss etdi, onları doyunca qoxlayandan sonra Nahidədən xahiş etdi ki, bir dəstə ayırıb ona versin. Nahidə çiçəklərin yarısını Lamiyəyə verdi. Lamiyə çiçəkləri su dolu qabda öz iş masasının böyrünə qoydu. Çiçəklər gün boyu Lamiyənin üzünə gülümsədi. Nə vaxt başını işdən ayırıb onlara baxdısa, sevindiklərini gördü. Bu, əsl möcüzə idi. Qızlara bu haqda danışsaydı, onu dəli zənn edərdilər. Necə yəni? Heç gül də gülümsəyə, sevinə bilər? Lamiyə bunu qızlara heç cür izah edə bilməyəcəkdi. Onu yalnız İlahə anlaya bilərdi.

– İlahə, gedək mənim güllərimə bax. Onlar sanki adama nəsə demək istəyir, – nahardan sonra Lamiyə rəfiqəsinin qoluna girərək onu iş masasının yanına gətirdi.

İlahə əvvəlcə bir şey anlaya bilmədi. Onlar birlikdə nərgizləri qoxladılar. Güllərin nəfəsində nəsə sehrli bir qüvvə vardı.

– Gülə can verən onun qoxusudur, – dedi İlahə. – Bu nərgizlər öz qoxusu ilə “mən varam”, – deyib öz varlıqlarını təsdiq edirlər.

Lamiyə sevincdən qollarını İlahənin boynuna dolayıb onu öpdü.

– Sən nə yaxşı qızsan! Sən mənim əkiz tayımsan, İlahə. Nə yaxşı ki, bir-birimizi tapmışıq. Məni ancaq sən anlayırsan, səni yalnız mən hiss edə bilirəm.

İlahə güldü. Bir əhvalatı rəfiqəsinə xatırlatmaq istədi:

– Yadındadır, neçə il bundan əvvəl məhəlləmizə bir gülsatan kişi gəlmişdi.

– Həə, arıq, üzütüklü adam idi. Bir müddətdən sonra da yoxa çıxdı, – Lamiyə keçən günlərə daldı.

– Həmişə saxta, cansız, qoxusuz güllər gətirərdi. Biz o gülləri xoşlamazdıq. Deyərdik ki, dayı, bizə canlı güllər gətir.

– O da gülüb deyərdi ki, qızım, o güllər tez solur. Mənim gətirdiyim güllər isə heç vaxt solmur.

– Başımızı aldatmaq istəyirdi. Biz də uşaq idik, elə bilirdik ki, güllər solanda ömrü də başa çatır. Adamlar da süni güllərə alışmışdılar. Evlərin pəncərələrini süni güllər bəzəyirdi. O güllər illərlə evlərin bir küncündə qalıb tozlanırdı, unudulurdu, – İlahə müdrikcəsinə gülümsədi.

– Onda bizi gülün qoxusu yox, forması, gözəlliyi cəlb edirdi.

İlahə filosof ədası ilə dedi:

– Biz çox vaxt insanlara da bu cür yanaşırıq, içindəki cövhəri deyil, zahiri yaraşığı qiymətləndiririk və yanılırıq. Süni güllər olmasa, təbii güllərin dəyəri bilinməz.

– Nə gözəl dedin, İlahə. Sənin dərin düşüncələrin məni heyran edir.

– Sənin də gülləri duymağın, onları eşitməyin məni heyrətləndirir, – İlahə dedi.

Gülüşdülər. Nahidənin gətirdiyi çiçəklər olmasaydı, illərin o tayında qalmış balacaboy, sısqa kişini bəlkə bir də heç vaxt xatırlamayacaqdılar. Çox güman ki, onun nə vaxtsa bu dünyada olduğunu indi bir kimsə xatırlamır. Yəqin çoxdan ölmüş olar, – deyə düşündülər.

Çiçəklər solanda, ətri canından çıxanda Lamiyə kədərlənmişdi, uşaq kimi dodaqlarını büzmüşdü. Hiss etdi ki, bundan sonra nərgizlər üçün darıxacaq. Nahidəyə yaxınlaşıb çəkinə-çəkinə dedi:

– Mənim çiçəklərim soldu.

Nahidə başını işdən ayırıb Lamiyəyə baxdı və gördü ki, elə bil qızın da çiçəklər kimi rəngi solub. Gülümsədi:

– Üzülmə, bu, sənin günahın deyil ki. Güllərin təbiəti belədir, bir gün açılan bir gün solur. Amma çiçəklər heç vaxt ölmür. Əgər istəsən, yenə sənə nərgiz gətirərəm.

Lamiyənin üzü bir anda işıqlandı, sevincək Nahidənin çiyinlərini qucaqladı:

– Doğrudan? Çox sevinərəm. Onların ətrinə elə öyrəşmişdim ki. Güllər solub deyə, elə bil nəfəsim də çatmır.

Səhəri günü Nahidə işə gələndə bir qucaq nərgiz gətirmişdi. Nərgizlərin ətri bütün tikiş sexini bürümüşdü. Lamiyə çiçəkləri dibçəkdə bəsləyirdi, pəncərədən süzülən gün işığı nərgizlərə həyat bəxş edirdi. Nərgizlər isə öz növbəsində yeriyən çiçəklərə öz ətrindən pay verməkdəydi.

Lamiyə nərgizlərə o qədər alışmışdı ki, masası boş olanda heç bir iş görə bilmirdi, bir dəfə az qala, barmağını tikiş maşınının iynəsi altında qoyacaqdı. Nahidə qardaşının güllərindən elə heyranlıqla danışırdı ki, qızlar bu möcüzəli məkanı görməyə can atırdılar. Sənanın gül bağçasıyla ən çox maraqlanan Lamiyə idi. Nərgizlər onu sehrləmişdi. Nahidə danışırdı ki, qardaşı güllərin dilini bilir, onlarla əməlli-başlı söhbət edir. Lamiyə bütün varlığı ilə hiss edirdi ki, nərgizlər ona nəsə demək istəyir, dibçəkdə uçunur, çiçəklərini əsdirib həyəcanlanır. Bu həyəcan qeyri-ixtiyari Lamiyəyə də sirayət edirdi. Lamiyə indiyə qədər heç vaxt belə hisslər keçirməmişdi. Bu, yeni duyğu idi...

Bir gün Nahidə qızları başına yığıb dedi:

– Qızlar, anam qəşəng lobya-çilov bişirib, işdən çıxan kimi yığışın, bizə gedirik.

Lamiyə, nəhayət, gülləri görəcəyinə sevindi.

Dəmir darvazanın qarşısına çatanda Nahidə hamıdan qabağa düşüb evə, anasına xəbər verməyə yüyürdü. Həyət başdan-başa gül-çiçəyə bürünmüşdü. Rənglərin əlvanlığı, bir-birinə qarışmış ətir qoxusu qızların ürəyini titrətdi. Bu gözəllik qarşısında heyrətlə içlərini çəkib durdular. İlahə əllərini üzünə aparıb pıçıldadı:

– Ay aman! Bu nə gözəllik! Mən ömrümdə bu qədər gülü bir yerdə görməmişdim. Əsl cənnətdir.

Nahidənin anası Zümrüd xanım bir-bir qızların üzündən öpüb onları evə dəvət etdi. Lamiyə hələ də güllərin arasında gəzişirdi. İlahə zarafatla dedi:

– Lamuş gülləri görüb bizi yaddan çıxarıb.

Zümrüd xanım gülümsədi:

– Eh, ay qızlar, bu güllər Sənana doğma anasını da unutdurub. İşdən gəlincə düşür həyətə, saatlarla çiçəklərlə danışır. Özündən ayrılır, tamam başqa adam olur. Bilmirəm nə sirr var güllərdə, həyətə girəni ovsunlayır.

Zümrüd xanımın sözləri qızların marağına səbəb oldu. Qarayanız, saçlarını başının ortasına yığmış Zəhra: "Bəlkə düşək güllərə tamaşa edək?" – dedi. Amma Zümrüd xanım qızların qolundan tutub yemək süfrəsinə doğru çəkdi:

– Güllər qaçmır, qızlar. Keçin əyləşin, əvvəlcə sizə qəşəng bir çay gətirim. Oturaq yeməyimizi yeyək, sonra güllərə nə qədər istəyirsiniz, tamaşa edə bilərsiniz.

İlahə pəncərədən Lamiyəni səslədi:

– Ay qız, bu nə çiçək sevdasıdır? Gəl, Zümrüd xala çay gətirib. Sonra birlikdə düşüb həyəti gəzərik.

Lamiyə ayaqlarını sürüyə-sürüyə eyvana çıxdı, gözləri hələ də arxada idi, güllərdən heç ayrıla bilmirdi.

Qızların məclisi şən keçdi, deyib-güldülər. Evi şən qəhqəhələr bürümüşdü. Nahidənin anası bu bir-birindən gözəl qızlara baxaraq fikirləşirdi ki, kaş oğlu Sənan bu qızlardan birini bəyənib evlənəydi. Hər dəfə Zümrüd xanım evdə evlənməkdən söz salanda Sənan nəyisə bəhanə edib sözün arasına söz qatırdı.

– Ay ana, evlənmək bazardan kartof almaq deyil ki. Vaxtı gələndə evlənəcəyəm, sən narahat olma.

– Vaxt gəlmir e, gedir, oğlum. Necə narahat olmayım? Yaşın otuza yaxınlaşır, bəs nə vaxt evlənəcəksən? Sən evlən ki, Nahidənin də yolu açılsın.

Onların evlərində belə söhbətlər tez-tez olurdu. Nahidə hər dəfə işdən qayıdanda anasını yanlayırdı ki, ay ana, filankəsin qızı yaxşı qızdır, bəlkə onu Sənan üçün alaq? Zümrüd xanım gileylənirdi:

– Qardaşına söz demək olur ki? Deyir gərək qızı özüm bəyənəm. Məhəllədə, qohum-qonşuda bu qədər gözəl-göyçək qızlar var, gədənin elə bil gözü bağlanıb.

– Nə vaxt bu həyətdəki güllərdən başı açılsa, onda özünə canlı bir gül seçəcək, – deyə Nahidə zarafata salıb güldü.

– Güllər onu elə ovsunlayıb ki, çətin evlənmək haqda düşünsün, – Zümrüd xanım naümid halda dedi.

– Ay ana, gözü bir qızı tutdu, vəssalam. Sevgi onun gözlərini açacaq. Sən darıxma, – Nahidə elə arxayınlıqla danışdı ki, Zümrüd xanımın ürəyində ümid cücərdi.

– Allah ağzından eşitsin, qızım. Təki sən deyən olsun.

Sənan işdən qayıdanda evdəki səs-küyü görüb əvvəlcə təəccübləndi, çünki atası dünyasını dəyişəndən bəri evlərində heç vaxt bu qədər adam olma-

mışdı. Arada anasının köhnə rəfiqəsi Tubu xala gəlib-gedərdi, bir də Sənanın bir-iki dost-tanışı ona baş çəkərdi. Aynabənddə anası ona yaxınlaşdı:

– Nahidənin iş yoldaşlarıdır. Keç əl-üzünü yu, gəl sən də otur.

Sənan boyun qaçırmaq istədi:

– Ay ana, ayıbdır axı, o qədər qızın içində mənim nə işim var? Qoy rahat söhbətlərini eləsinlər. Mən gedim, çayxanada uşaqlarla başımı qatım.

Anası narahat oldu:

– Ay bala, işdən yorğun gəlmisən, yaxşı yemək bişirmişəm. Heç olmasa, bir tikə çörək ye, sonra gedərsən.

– Yox, ay ana. Narahat olma, yemək yemişəm. Gedim mən.

Zümrüd xanım oğlunun qolundan tutub buraxmadı.

– Sənan, yaxşı deyil, keç içəri, qızlara "xoş gəlmisiz" de, sonra get.

Sənan naəlac qalıb qonaq otağına keçdi. Yeddi-səkkiz qız süfrə başında durna kimi düzülmüşdülər. Sənanı görüncə hamı özünü yığışdırdı.

– Xoş gəlmisiniz! – Sənan utancaq tövrlə gülümsədi.

Qızların da üzündə təbəssüm cilvələndi. Lamiyə isə hələ də saçlarıyla oynayırdı. Sənan özünü itirdi, qızlara ötəri göz gəzdirib tez çölə çıxmaq istədi...

...– Deyəsən, bu güllər sizi əməlli-başlı sehrləyib... – Sənan utancaq təbəssümlə dedi.

Güllər ləçəkləriylə tənbəl-tənbəl kirpik çalır, axşamı gözləyirdilər ki, sübh açılınca yuxulasınlar.

Sənanın təbəssümü Lamiyənin də üzünə nur çilədi.

* * *

Lamiyə bütün gecəni yata bilməmişdi, yatağına elə bil qor dolmuşdu, indi də burnunu soyuq pəncərə şüşəsinə dayayıb yuxudan yenicə oyanmaqda olan şəhəri seyr edirdi. Pəncərənin soyuğu gecə köynəyinin içindən bütün bədəninə dolub onu üşütdü. Kimsəsiz küçələr sanki intizarla kiminsə yolunu gözləyirdi. Fikirləşdi ki, görəsən niyə bütün səhərlərin sazağı eynidir? Günəş niyə hər dəfə sübhün ayazından sonra dünyanı isitməyə başlayır? Bəlkə ona görə ki, insanlar sazaqda onun yolunu daha böyük intizarla, həsrətlə gözləsinlər?!

Tez-tez Günaygildən iş yerinə zəng vurub İlahədən təzə xəbər olub-olmadığını öyrənirdi. Qızın qardaşları bir neçə dəfə tikiş sexinə gəlib İlahədən onun yerini soruşmuşdular. Kiçik qardaşı Vahid hətta onu hədələmişdi:

– Bütün bu işlərin baisi sənsən!

Lamiyə qəzəblənmişdi:

– Bura bax, həddini bil! Qızı evdən didərgin saldığınız bəs deyil, indi də məni hədələyirsən? Elə etmə ki, səndən polisə şikayət edim.

Vahid polis sözünü eşidəndən sonra bir az gerilədi. İş polisə düşsəydi, onların vəziyyəti yaxşı olmayacaqdı. İlahə hiss edirdi ki, onu addım-addım izləyirlər, amma özünü o yerə qoymurdu. Lamiyəyə tapşırmışdı ki, nəbadə onlara, ya da iş yerinə gəlsin, İlahənin gedib-gəldiyi yerlərə güdükçülər qoymuşdular.

Bir dəfə zəng edib Lamiyə ilə uzun-uzadı söhbətləşdi.

– Lamuş, bu vəziyyət nə vaxta qədər davam edəcək? Bəlkə qayıdasan evinizə? İnan ki, sənə görə məni də rahat buraxmırlar. Atam, qardaşlarım da artıq narazılıq edirlər. O gün atan yenə bizə gəlmişdi. Mən artıq yalan danışa bilmirəm. Vicdan əzabı çəkirəm. Sən gəl, qayıt evinizə.

Lamiyə nə hə, nə yox dedi. Üzüntülü fikirlər burulğanında varlığını unutmuşdu. Bundan sonrakı həyatını necə yaşayacağı haqqında heç bir təsəvvürü yox idi. Gələcək ona dumanlı görünürdü. Taleyin ona hansı sürprizlər hazırladığından xəbərsiz idi. Bu tale əyninə dar gələn paltar kimi onu sıxırdı.

Lamiyə artıq Günaygildə qala bilmirdi, gecələr ana-bala yatandan sonra qalxıb gecə köynəyində eyvana çıxır, saatlarla dayanıb qaranlığa baxırdı. Gecənin sükutunda çiçəklərin pıçıltısını eşidirdi. Ev sahiblərini bezdirib onların gözündən düşəcəyindən qorxurdu. Nə qədər üzünə xoş baxsalar da sıxılırdı, qəfəsdəki quş kimi çabalayır, sərbəstliyinə qovuşmaq istəyirdi. Bir dəfə Günay hətta ondan inciyərək:

– Bəlkə mama xətrinə dəyib? Mənə de. Birdən-birə noldu ki, getmək istəyirsən? – demişdi.

Lamiyə ilə Günay bir-birlərinə o qədər isinişmişdilər ki, bir an da ayrı qala bilmirdilər. Ətir xala onların bu mehribanlığına ürəkdən sevinirdi. Günayın öz daxili dünyası vardı. O da İlahədən başqa kimsə ilə rəfiqəlik etməzdi, heç oğlan dostları da yox idi. İnsanlarla ünsiyyət qurmaqda çətinlik çəkirdi. Buna zehni tənbəllik də demək olardı. Bu da Ətir xalanı narahat edirdi, qızın yaşı keçirdi, ailə qurması lazım idi. Amma Günay heç kəsi yaxın buraxmırdı. Nə işdisə, ilk gündən Lamiyə ilə bir su olub axdılar. Ətir xala onların cici-bacılığına bir yandan məəttəl qalmışdı, o biri tərəfdən də sevincək olmuşdu. Arada Lamiyəni xəlvətə çəkib qulağına pıçıldayırdı ki, ay qızım, sən Allah, Günayı başa sal, yaşı keçir, ailə qurması lazımdır, mən də qoca arvadam, ondan çox nigaranam, istəyirəm nəvə-nəticə görüm... Ətir xala bu sözləri deyəndə səsi titrəyir, gözləri dolurdu. Lamiyə Ətir xalanı qucaqlayıb arxayın salırdı. Sonra da özünün “diplomatik gedişləri”ni işə salırdı. Günay Lamiyəni dinlədikcə gülümsəyirdi, anlayırdı ki, dedikləri Lamiyənin öz sözləri deyil, onu anası öyrədib.

– Ay Lamuş, sən də anamın fitvasına getdin?

Lamiyə günahkarcasına dodaqlarını büzürdü. Beləcə, Ətir xalanın planı suya düşüb əriyirdi.

* * *

Növbəti iş günlərindən birində İlahə Sənanı sexdə gördü. Bir kənara çəkilib bacısı ilə nə barədəsə danışırdılar. Sənan İlahəni görən kimi, yaxınlaşıb salamlaşdı:

– Xoş gördük, İlahə bacı! Necəsiniz? – Utancaq təbəssümlə hal-əhval tutdu.

– Yaxşıyam, çox sağ olun. Siz necəsiz? Sizdən nə əcəb?

Sənan tutuldu, dilini sürüdü:

– Heeç... Nahidə ilə bir balaca işim vardı.

– Hə, onda sizə mane olmayım, – İlahə bunu deyib qardaşla bacını baş-başa buraxdı.

Nərgizlər sevginin ən aşkar elementlərindən biri kimi dibçəkdən boylanırdı... Onlar açıq pəncərədən süzülən sübh şehində çimib qurulanmışdı, indi də Nahidə ilə Sənanın söhbətini dinşəyirdi. İlahə qadın hissiyyatı ilə duyurdu ki, Sənanı bura gətirən səbəb heç də Nahidə deyil... Lamiyə işə çıxmadığı üçün neçə gün idi güllərə İlahə qulluq edirdi. Hiss edirdi ki, güllər əvvəlki kimi şux deyil, sanki nərgizlər Lamiyə üçün darıxırdı.

İşdən evə qayıdanda yol boyu Lamiyə haqqında düşündü. Tutaq ki, qız evə qayıtdı, onu yenə incidəcəklər, həyatını zəhərə döndərəcəklər. Kaş qismətinə yaxşı bir oğlan çıxaydı, ərə gedəndən sonra bəlkə ondan əl çəksinlər. Yazıq qıza göz verib işıq vermirlər. Dəfələrlə sözarası demişdi ki, intihar edəcəyəm. İlahə ən çox bundan qorxurdu, Lamiyəni bir an da olsun gözdən qoymur, ona həyat eşqi aşılamağa çalışırdı. Onu inandırmağa çalışırdı ki, xoşbəxt olacaq, bütün çətinliklər arxada qalacaq, ailə qurandan sonra qardaşları onun yaxasını rahat buraxacaqlar.

Əl-üzünü yuyub süfrə arxasına keçmək istəyəndə ev telefonu zəng çaldı. Dəstəyi anası Gülnisə arvad götürdü.

– İlahə, bacındı, səni istəyir, – dedi.

İlahə dəstəyi qulağına tutdu:

– Hə, Zümrüd. Salam. Necəsən?

– İluş, tez bizə gələ bilərsən? – bacısı dedi.

İlahənin ağlına gələn ilk fikir bu oldu ki, yəqin bacısı yenə əriylə dalaşıb.

– Nə olub, ay qız? İşdən indicə gəlmişəm, yemək yeyirəm. Yoxsa yenə Seymurla dalaşmısan?

– Aaz, yoox. Özümü yaxşı hiss eləmirəm. Deyəsən, təzyiqim qalxıb, dur tez gəl bizə, – bacısı cavab verdi.

İlahə hiss etdi ki, bacısı ondan nəyisə gizlədir; bu, baş ağrımaq məsələsi deyil. “Tez bizə gəl” hansısa hadisədən xəbər verirdi.

Bir göz qırpımında yenidən yuyunub darandı. Özünə yalnız bacısıgilə çatanda gəldi. Boyun-boğazında tər gilələnmişdi. Sanki bu uzun yolu qaça-qaça, birnəfəsə qət etmişdi. Halsız-taqətsiz, üzgün halda mətbəxdəki həmişəki yerində – pəncərə önündəki masanın arxasında oturdu. Zümrüd bacısının bu halını görüb gileylənməyə başladı:

– Ay qız, mən sənə dedim tez gəl, day demədim ki, başılovlu qaça-qaça gəl. Heç nə olmayıb. Qorxma.

Bu vaxt Lamiyə qonşu otaqdan çıxıb mətbəxə girdi. İlahə yerindən dik atıldı:

– Lamuş?! Sən burda neynirsən?

Onlar qucaqlaşdılar. Lamiyə doluxsundu:

– İluş, darıxmışdım səninçün...

– Mən də darıxırdım. Allah mərdiməzara lənət eləsin! Ev-eşiyindən didərgin düşmüsən.

Lamiyənin göz yaşları İlahənin boyun-boğazını islatdı. Rəfiqələr gecə yarıdan keçənə qədər dərdləşdilər. Lamiyə sanki qəfəsdən azad olmuş

quş kimi dil-dil ötürdü. Onların zövqləri, düşüncələri eyni idi, sanki birinin fikirləri o birinin şüurunda əks-səda verirdi. İlahə ağzını açmamış, Lamiyə onun deyəcəyi sözü muncuq kimi səfə düzürdü. Günləri birlikdə keçdiyindən bəzən bir-birlərinin arzularını dəyişik salırdılar, xatirələri bir-birinə qarışırdı, özləri də çaş-baş qalırdılar və gülüşə-gülüşə arzuların üstündən şütüyüb keçirdilər.

Səhər yeməyini birlikdə yedilər. Süfrə arxasında İlahə Lamiyə ilə bağlı planını dilə gətirdi:

– Bax, Lamuş, bilirsən ki, sənin xətrini dünyalar qədər istəyirəm. Səndən yaxın rəfiqəm yoxdur. Amma anan, qardaşların məni rahat buraxmırlar. Məndən sənin yerini soruşurlar. Xəbərim yoxdur, deyirəm. Mənə inanmırlar. Məndən incimə, səni aparıb ailənə təhvil verəcəyəm.

Lamiyə etiraz etmək istədi, İlahə buna imkan vermədi:

– Sus. Sənin başqa variantın yoxdur. Vəziyyət daha da pisləşə bilər, sən evə qayıtmalısan. İndi sizə zəng vurub atanla danışacağam, səni özüm evinizə aparacağam.

– Məni döyəcəklər, – Lamiyə ağlamsındı.

– Sənə çırtma da vura bilməzlər, əvvəlcə mənə söz verəcəklər ki, sənə toxunmayacaqlar. Əks halda özüm onları polisə verəcəyəm, – İlahə hökmlə dedi.

Əslində, Lamiyə evlərinə qayıtmaq istəyirdi, amma qardaşlarından qorxurdu. Onlarla bir evdə yaşamaq çəkiclə zindanın bir yerdə olması kimi bir şey idi. Buna baxmayaraq İlahənin əminliklə dediyi sözlər qızda inam oyatdı və o, azacıq toxtadı. Düşündü ki, bu hadisədən sonra qardaşları, anası bir müddət onun yaxasından əl çəkərlər. Dəyirman daşı dayanmayınca isə onun nə üyütdüyünü bilmək olmaz...

Dəstəyi Lamiyənin anası Badam arvad qaldırdı:

– Əlo, kimdü?

– Badam xala, salam. Mənəm, İlahədir. Necəsən?

– Salam, qızım. Necə olacağam? Qızdan hələ də xəbər-ətər yoxdur. Qonşular hər gün onu soruşur, hərəsinə bir yalan deyirəm, gah deyirəm rayona rəfiqəsigilə gedib, gah deyirəm bacımgilə göndərmişəm. Günümüz qara olub, ay bala. Deyirəm birdən yazıq uşağın başına bir iş gələr, sonra mən neynərəm, ay bala? – Badam arvad telefonda sızıldadı.

İlahə bir anlıq nəfəsini dərib dedi:

– Badam xala, narahat olma. Qız tapılıb!

– Doğrudan, qızım? Ay səni şadxəbər olasan! Can, can. Hardadır, ay başuva dönüm? Qurban olaram sənə! Nə yaxşı məni sevindirdin. Allah səni sevindirsin. Xoşbəxt olasan, ay qızım!

– Çox sağ ol, Badam xala. Turab əmi evdədir?

– Həri. Elə bütün günü evdə olur da. Hara gedir ki?

– Onu telefona çağır. Onunla söhbətimi edim, Lamiyəni özüm götürüb gələcəm.

– Ay qızım, nə sözün var, mənə deginən də.

– Badam xala, sözümü Turab əmiyə deməliyəm.

Turab kişi telefonun dəstəyini qulağına aparan kimi, salamlaşmadan dedi:

– Hə, qonşu qızı, eşidirəm. Deyəsən, qızımı tapmısan axı.

– Salam, Turab əmi. Hə, tapmışam. Qız yanımdadır, bir azdan onu gətirəcəyəm. Amma mənə kişi sözü verməlisiz.

– O nə sözdü ay qızım, kişi sözü nədü? Begəm birdən-ikiyə yalan danışmışam? Eyib dögül? Aton yaşında kişiyəm, gör mənə nə deyirsən.

– Turab əmi, sizə ağsaqqal qonşu kimi böyük hörmətim var, onları bir kənara qoyaq. Söz verin ki, evdə qıza çırtma da vurulmayacaq. Bu dəfə evdən çıxıb getməklə sizi qorxutdusa, ikinci dəfə təkrarən evdə kimsə ona əl qaldırsa, onu incidib, döyüb bezdirsə, intihar edəcək. Mən də onun intihar etdiyini eşitsəm, sizi özüm polisə verəcəyəm. Danışdıq?

– Ay qızım, ona bu evdə kim güldən ağır söz deyir ki? Öz evidir, adam da evindən bezər? Söz verirəm, heç kim ona toxunmayacaq!

– Bax, məsuliyyət sənin boynundadır, Turab əmi. Əgər qızı incitsəz, sonra məndən inciməyin.

– O nə sözdür, qızım? Ona heç kimin əli dəyməyəcək, gəlsin evə.

Beləcə, Lamiyə evlərinə qayıtdı...

* * *

Məbud kişi istixanadan kənarda evin qarşısındakı boş sahəyə Sənanın verdiyi gül toxumlarını səpmişdi. İndi də intizarla onların torpaqdan boy göstərəcəyi günü gözləyirdi. Arvadı dünyasını erkən dəyişdiyindən bütün mehrini güllərə, çiçəklərə salmışdı. Qonşu kənddə ərdə olan qızı həftədə bir dəfə gəlib atasına baş çəkir, evi silib-süpürür, biş-düşünü edir, çıxıb gedirdi. İndi onun tənhalığını həyətdəki güllər bölüşürdü. İstixanadakı qərənfillərdən elə bil soyumuşdu. Sənanın sehrkar gülləri onun üzünə başqa bir dünyanın qapısını açmışdı.

Axşam evə yorğun qayıtdı, bir stəkan çay içib siqaret çəkdikdən sonra yemək yemədən yerinə girdi. Uzanan kimi dərin yuxunun dibinə yuvarlandı. Yuxusunda bir gül gördü, amma müəyyən edə bilmirdi ki, bu gülün adı nədir, boynunun bükük olmasından onu bənövşəyə bənzətmək olardı. Yox, bənövşə deyildi. Bu gül dəhşətli dərəcədə onun rəhmətlik arvadı Nərgizə oxşayırdı. İndi fərqinə vardı ki, arvadının da adı gül adıdır. Sağlığında onu "gülüm, çiçəyim" deyə çox əzizləmişdi, qayğısını çəkmişdi, sevgisini ondan əsirgəməmişdi. Amma onu nərgiz gülü ilə eyniləşdirmək heç ağlına gəlməmişdi. O, bu sözləri əksər insanlar kimi, mexaniki şəkildə deyirdi. İndi yuxusunda Nərgiz adını bilmədiyi gülün qiyafəsində idi. Çəhrayı ləçəkləri tərpəndikcə sözlər canlanırdı. Məbud kişi Nərgizin dediklərini lap həyatda olduğu kimi aydın eşidirdi.

– Sən məni torpağa basdırdın, bax, mən yenə torpaqda cücərmişəm. Demək, heç vaxt ölməyəcəm.

Məbud kişinin qorxudan nitqi tutulmuşdu, kəkələyirdi:

– Necə ooola bilər bu? Sən, sən di-di-dirilmisən?

– Mən sənin gözlərində bir gözəl görürəm, o, mənəm. Hələ dünyada

belə gözəl çiçək görməmişəm. Yəqin sən də həyatın boyu belə gözəlliyə rast gəlməmisən, – Nərgiz bunları deyib gülümsədi.

Məbud kişi bu gül-qadının gözəlliyi önündə sustaldı. Qeyri-ixtiyari dodaqlarından Füzulinin misraları qopdu:

Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,
Surəti-halım görən surətxəyal eylər məni.

Məbud kişinin ömrü boyu oxuduğu bir kitab vardı. O da Füzulinin qəzəllər kitabı idi. Sözlərin dərinliyinə vara bilməsə də, mənanın üst qatı onu məmnun edirdi. Füzuli özü deyirdi ki, mənim qəzəllərimin üst qatı aşiqlər üçündür, alt qatı ariflər üçün. Məbud kişi aşiqlər qisminə aid idi.

Hövlnak yuxudan ayıldı. Səsi hələ də otaqda əks-səda verirdi: “Nərgiz! Nərgiz!” Yerinin içində oturub hönkür-hönkür ağladı. Toxtayandan sonra işığı yandırıb Nərgizin divardakı rəsminə baxdı. Rəsmdən ona yuxuda gördüyü çəhrayı çiçək baxırdı. Eyvana çıxıb siqaret yandırdı, pencəyini çiyninə atıb həyətə düşdü. Eyvandakı lampanın işığında gül toxumları əkdiyi torpaq parçasına diqqətlə baxdı.Toxumlar torpaqdan cücərmişdi. Sevindiyindən bilmədi neyləsin. Çöməlib oturdu.

– Dünyaya xoş gəldiniz! – pıçıldadı.

Pöhrələr elə bil bir az da canlandı:

– Sənin dünyana...

Məbud kişi yan-yörəsinə baxdı, heç kim yox idi. Səs torpaqdan cücərən çiçəklərdən qopmuşdu. Cəld ayağa qalxıb istixanaya yüyürdü. Qərənfillər əsgər kimi sıraya düzülüb sanki onun əmrini gözləyirdilər. Məbud kişi üzünü qərənfillərə tutub ucadan dedi:

– Bu gündən hamınız azadsınız! Bu qədər əziyyətinizi çəkdim, amma siz məni anlamadınız, dərdimə şərik olmadınız. Mən təklikdən əziyyət çəkəndə mənə heç bir təsəlli verə bilmədiniz. Elə bil qulaqlarınız kardır, gözləriniz kordur, görmürsünüz, eşitmirsiniz. Odey, mənim dostlarım ordadır. Məni ancaq onlar anlaya bilər. Bundan sonra daha məni darıxmağa qoymayacaqlar. Mənim Nərgizim də onların arasındadır. Eşidirsiniz?

* * *

Sənan xəyalında özüylə Lamiyəni təsəvvür etdi; qarla örtülmüş ağappaq bir dünyanın içində yıxıla-dura qartopu oynayırdılar. Lamiyənin atdığı qartopu Sənanı kürəyindən tutdu. Sənan bir anlıq ayaq saxlayıb yavaşca yerə əyildi və bir ovuc qar götürdü. Lamiyə dərhal yerindən götürüldü. Uzun qaç-qovdan sonra, nəhayət, Sənan Lamiyəni tutdu və qarı qızın üz-gözünə sürtməyə başladı. Lamiyənin şirin çığırtısı ona ləzzət verdi. Qızın yumşaq yumruqları sinəsinə döydükcə qollarının onun belinə nə vaxt dolandığını bilmədi. Qız oğlanın qucağında qar çiçəyi kimi titrədi. Sənanın varlığı ehtizaza gəldi, dodaqlar köz kimi bir-birinə toxundu. Sənan qızdırmalı adamlar kimi titrəyib özünə gəldi. Nahidə qarşısında dayanıb gülümsəyirdi.

– Bayaqdan çağırıram, eşitmirsən?

Key-key bacısına baxdı, nə deyəcəyini bilmədi. Nahidə qardaşının hələ də xəyal aləmində olduğunu görüb çiyninə toxundu:

– Ey, səninləyəm. Birdən aşiq-zad olarsan ha, xəbərimiz olmaz, – yüngülcə qardaşına sataşdı.

Sənan ətrafına baxıb heç yerdə qar görməyəndən sonra özünə gəldi.

– Bağışla, bir az fikirli idim.

Sənan son vaxtlar tez-tez beləcə dalğın olur, fikirli gəzib-dolaşırdı. Bu da Nahidənin diqqətindən yayınmamışdı.

– Hə, görürəm, xəyalın eşqin göylərində gəzir.

– Yaxşı görək e. Nə eşqbazlıqdır? – Sənan söhbətdən yayınmaq istədi.

– Nədi? Düz demirəm? – Nahidə əl çəkmədi.

– Yox, düz demirsən.

– Gözünün içinə kimi yalan deyirsən. Güllər yalanı sevmir, əzizim. Bir bax, necə küsgündürlər.

Sənan çevrilib güllərə baxdı, ikirəngli qızılgüllər başını aşağı əymişdi. Nə cavab verəcəyini bilmədi.

Bir neçə gündən sonra qərara gəldi ki, hansısa bəhanə ilə Lamiyənin iş yerinə getsin. Sənanda Lamiyənin ruhunun bütün dərinliklərinə sahib olmaq kimi bir hiss yaranmışdı. Bu qarşısıalınmaz hiss dincliyini əlindən almışdı. Qızılgüllər Sənanı müşahidə edirdi, ondakı dəyişikliyi hiss edib vəziyyətin nə yerdə olması barədə bir-birinə pıçıldayırdılar.

İş vaxtının sonuna yaxın qızlar evə getməyə hazırlaşırdılar. Bu vaxt Sənan qapıda göründü. Bütün baxışlar Lamiyənin üzərində cəmləndi. Qız özünü itirib qızardı. Nahidə təəccüblə: – Nə əcəb səndən? – deyə soruşdu.

– Heç, darıxdım evdə. Gəldim sizi gəzməyə aparım. Bir az gəzişək.

Qızlar mənalı-mənalı baxışıb qımışdılar.

Nahidə, Lamiyə və Sənan birlikdə gəzintiyə çıxdılar. İlahə dərsə hazırlaşmalı olduğu üçün evə getdi. Lamiyə çox təkid etmədi. Nədənsə hamıdan çox o həyəcanlı görünürdü.

* * *

Kəpənək parkında Nahidə onlardan ayrıldı. Nahidənin kölgəsi parkın başında gözdən itincə Lamiyə ilə Sənanın əlləri birləşdi. Sonra dodaqları...

Lamiyənin dodaqları qızılgülün ləçəkləri kimi müşk-ənbər qoxuyurdu...

* * *

İlahə imtahanlarını verib universiteti bitirmək üzrə idi. Lamiyə ilə danışmışdılar ki, diplomunu alan kimi həmin günü birlikdə qeyd edəcəklər.

– O gün sənə sürprizim olacaq, – Lamiyə gülümsəyib İlahəni qucaqladı.

Beləcə, ayrıldılar. Bir gün Lamiyə yenə işə gəlmədi, ondan sonrakı gün də işdə görünmədi. Qızlar narahat olmağa başladılar. Görəsən yenə nə hadisə baş verib? Qız niyə işə çıxmır? İlahə bir neçə dəfə Lamiyəgilin evlərinə zəng vursa da hər dəfə ya anası, ya da qardaşı dəstəyi götürüb Lamiyənin evdə olmadığını, harasa getdiyini deyirdilər.

Bir gün səhər Nahidə işə gələndə gətirdiyi xəbərlə qızların narahatlığına son qoydu:

– Qızlar, sizə şad xəbərim var. Sənan dünən Lamiyə ilə görüşüb. Salamatçılıqdır. Qız özü işdən çıxıb. Ondan əvvəl də bir-iki dəfə görüşüblər.

İlahə ürəyində Lamiyədən incidi; indiyədək bir-birlərindən sirr saxlamamışdılar. Bu dəfə Lamiyə qaydanı pozmuşdu, sevgisini İlahədən də gizlətmişdi. İlahə düşündü ki, əgər o, hansısa bir oğlanı sevsəydi, bunu birinci bilən Lamiyə olacaqdı. Bu incikliyə baxmayaraq İlahə onların arasında yaranmış sevgiyə görə sevindi. Təki xoşbəxt olsun, canı qardaşlarının təzyiqindən qurtaracaq, öz ailəsi olandan sonra daha ona deməyəcəklər ki, bu nə paltardır geymisən, saçlarını niyə gündə bir rəngə boyayırsan, niyə bəzənib-düzənirsən?

Çiçəklər iki insanın eşqi arasında tərcümanlıq edirdi. Bu sevdanın baş tutmasında onların həlledici rolu vardı...

* * *

Uzun müddət Lamiyədən səs-soraq çıxmadı. İlahə təəccübqarışıq nigarançılıq hissi keçirirdi. Hara gedirdisə, harda olurdusa, Lamiyənin xəyalı bir an da olsun, gözünün önündən çəkilmirdi.

İlahə universiteti bitirib ali təhsil diplomunu da aldı, yenə Lamiyə görünmədi. Lamiyə İlahədən niyə soyumuşdu? Aralarında heç bir umu-küsü olmamışdı, bir-birlərinin qəlbinə dəyməmişdilər. Bəs nə baş vermişdi ki, qız onunla əlaqəni tamamilə kəsmişdi?

– Yox, belə bir şey ola bilməz. Heç vaxt ola bilməz. Lamiyənin başında nəsə qəziyyə var. Yoxsa mütləq gəlib məni təbrik edərdi, – deyə İlahə öz-özünə pıçıldadı.

İlahə bir dəfə yenə Lamiyəgilin evlərinə zəng vurub anasından onu soruşdu.

– Badam xala, Lamiyə niyə görünmür? Deyəsən, məndən küsüb. Çağır telefona, bacışkamla barışım. Darıxmışam onunçün.

Telefonun o başında sükut yarandı. İlahə Badam arvadın fısıltısını eşidirdi.

– Badam xala...

– Ay qızım, siz necə rəfiqəsiniz? Bəs xəbərin yoxdur? – nəhayət, Badam arvad dilləndi.

İlahənin bədənindən gizilti keçdi.

– Nolub, Badam xala?

Badam arvad dərindən ah çəkib sızıltıyla danışmağa başladı:

– Bu başıbatmış, sən demə, bir türk gədəyə qoşulubmuş, bizim də xəbərimiz yox. Çoxdan bir-birlərini sevirmişlər, bir axşam yenə evə gəlmədi. Sonra xəbər tutduq ki, həmin gədəyə qoşulub Türkiyəyə qaçıb. Baxdıq ki, sənədləri də evdə yoxdur. Pasportunu da götürübmüş.

İlahənin boğazı qurudu, bilmədi nə cavab versin. Badam arvadın sözlərinə inanmadı. O, Lamiyəni ovcunun içi kimi tanıyırdı. Əgər belə bir şey olsaydı, İlahənin xəbəri olardı. Telefon söhbətini bitirəndən sonra İlahə şübhələr içində qıvrıla-qıvrıla qaldı. Axı Lamiyə Sənanı sevirdi, onlar görüşürdülər. Bu türk oğlan hardan çıxdı? Yooox, burda nəsə başqa müəmma var.

O gün qatıqsatan Sərvinazın səsi küçəni başına götürmüşdü. İlahə fikirləşmişdi ki, Sərvinaz bütün həyətləri gəzib südünü, qatığını satır, bir onun ağzını arasın.

– Ay Sərvinaz xala, səndən bir söz soruşum e.

– Buyur, qızım. Lap ikisini soruş, – deyə Sərvinaz maraqla dikəlib zənbilini əlindən yerə qoydu.

– Sən mənim rəfiqəmi tanıyırsan da. Lamiyəni deyirəm.

– Aaz, nöş tanımıram? Badamın qızını demirsən?

– Hə, – İlahə cavab verdi.

– Badam mənim çoxdankı müştərimdir. O gün getmişdim onlara, neçə vaxtdı balonlarım qalmışdı, götürdüm.

– Lamiyəni gördün?

Sərvinaz sağa-sola boylanıb heç kimin olmadığını görüb pıçıltıya keçdi:

– Ay qızım, sənə bir söz deyim e.

İlahə həyəcanlandı, Sərvinazı tələsdirdi:

– De, Sərvinaz xala, de görüm.

– Badam deyir qızı qaçırıblar e. İstəyəni varmış, deyir nə sənə, nə mənə, qızı götürüb qaçıb rayona.

İlahənin dalağı sancdı.

– Rayona? Necə yəni... Ola bilməz.

– Hə, qızım. Elə dedi. Soruşdum ki, ay Badam, neçə vaxtdır gəlib-gedirəm, heç Lamiyə gözümə dəymir. Dedi ki, bəs qızı bir rayonlu gədə götürüb qaçıb. – Sərvinaz birnəfəsə çinədanındakıları boşaldıb gözlərini İlahəyə zillədi.

İlahə istədi desin ki, bəs axı anası ona başqa cür demişdi, son anda deyəcəyi sözü dilinin ucundan qaytardı. Sərvinaza heç nə demədi. Fikirləşdi ki, qızı nə türk oğlan, nə də “rayonlu gədə” qaçırmayıb. Qızın başında nəsə ayrı macəra var, anası, qardaşları gizlədirlər. Nahidə də son vaxtlar nə qardaşı, nə də Lamiyə barəsində danışmırdı. Əvvəlki dilli-dilavər qız deyildi, qaradinməz olmuşdu.

Axşam hamı süfrə başına yığışanda İlahənin fikirli, narahat görünüşü Gülnisə arvadın gözündən yayınmadı.

– Nolub, qızım? Gözümə birtəhər deyirsən.

İlahə özünü şən göstərməyə çalışdı, gülümsədi:

– Heeç, nolacaq ki? Bir az yorğunam.

Gülnisə arvad qızını yaxşı tanıyırdı, onun bircə baxışından hiss edirdi ki, halı necədir.

– Yoox, bu, yorğunluq məsələsi deyil. Atonnan, qərdeş-bacılarunnan neyisə gizdədə bilərsən, amma mənnən yox. De görüm nolub?

İlahə doluxsundu.

– Ana, gör neçə vaxtdır Lamiyədən xəbər-ətər yoxdur. Qız yoxa çıxıb, heç kəs də bir düz-əməlli söz demir. Lamiyə bir gün də mənsiz qalmazdı. Bu neçə ayda nə bir dəfə zəng edib, nə də kiminləsə xəbər göndərib. Necə oldu bu qız? Anası hərəyə bir söz deyir. Gah deyir qızı bir türk oğlan qaçırıb Türkiyəyə aparıb, gah deyir hansısa oğlanla rayona qaçıb. Ona görə çox narahatam.

Qızının narahatlığı Gülnisə arvada da sirayət etdi, əlini ağzına aparıb fikrə getdi.

– Doğrudan e, o gün də Badamı gördüm, dedim Lamiyə necədü, niyə görünmür? Sualdan yayınıb mızıldandı, heç bilmədim nə dedi.

– Görürsən, ana? O ifritə hərəyə bir söz deyir. Qızın başında nəsə iş var.

Gülnisə arvad yadına nəsə düşmüş kimi dedi:

– Bura bax e, sən axı deyirdün onu Nahidənin qərdeşi istiyir. Bir Nahidədən soruş da. Bəlkə elə qızı onun qərdeşı qaçırıb?

İlahə fikrə getdi, Nahidənin son günlərdəki müəmmalı davranışı onda bəzi şübhələr yaratmışdı. Həmişə deyib-gülən, zarafatcıl qız birdən-birə niyə özünə qapanmışdı, qızlarla ünsiyyətdən niyə qaçırdı? Bir dəfə demişdi ki, Lamiyə ilə Sənan görüşürlər. İndi isə heç bu barədə danışmaq istəmir. Nə baş vermişdi? Narahat, səksəkəli xəyallarını dağıtmaq cəhdi boşa çıxırdı. Xəyallarını körükləyən yuxuları da ona dinclik vermirdi. Lamiyənin yoxluğu xoşagəlməz bir hadisədən xəbər verirdi.

Gecəni beynindəki qarışıq fikirlərlə yuxuya getdi.

Qaranlıq tez çökmüşdü. Çöldə iliyə işləyən şaxta hökm sürürdü. Küçələrdə bir kimsə görünmürdü. Hündür binaların pəncərələrində təkəmseyrək işıqlar puçurlayırdı. Sazaq adamları kimi evlərə təpmişdi. İlahə tələsik addımlarla evə tələsirdi. Lamiyəgilin qapısının önündən keçəndə gördüyü mənzərədən dik atıldı. Lamiyə nazik yay donunda qapının ağzındakı taxta skamyada büzüşüb oturmuşdu, soyuqdan tir-tir əsirdi, nazik qollarıyla çiyinlərini qucaqlamışdı. İlahə qeyri-ixtiyari çığırdı:

– Lamiyə!

Yüyürüb onu qucaqladı. Dili dolaşa-dolaşa sualı suala caladı:

– Lamiyə, bu neçə vaxt idi hardaydın, hə? Hardaydın? Niyə məni axtarmadun? Ay qız, bu soyuqda, şaxtada burda niyə oturmusan? Xəstələnərsən axı. Evə keç, nolar. Burda donacaqsan.

– Yooox! Yox! – Lamiyənin bütün bədəni əsirdi, kirpiklərindən qorxu süzülürdü.

– Lamiyə, yalvarıram, qalx, evə keçək.

– Yooox! Məni evə buraxmırlar! Buraxmırlar! Məni evdən qovublar. Qardaşım dedi həyətə keçsən, səni öldürəcəm!

Lamiyənin miskin görkəmi İlahəni dəhşətə gətirdi. Çığırmağa başladı.

– İliş! İliş! Nolub, niyə qışqırırsan?

Gözünü açanda anasını başının üstündə gördü. Gecə yarıdan keçmişdi, nəfəsi az qala, kürəyindən çıxırdı. Üz-gözü tərdən islanmışdı. Anası çarpayının böyründə oturub əlindəki su dolu stəkanı qızına uzatdı.

– Al, al iç, bir az özüvə gəl.

İlahə pırtlaşıq saçlarını üzündən çəkib suyu birnəfəsə başına çəkdi.

Gülnisə arvad nəvazişlə qızının başını sığalladı:

– Yuxu görürdün? Elə qışqırdın ki, qorxudan bağrım yarıldı.

İlahə xeyli müddət key-key anasına baxıb dinmədi.

– Ay qız, bir danış də. Nə görürdün yuxuda?

– Ana, ana...

– Hə, de görüm.

– Ana, Lamiyəni öldürüblər!

– Bıy, bismillah! Ağzını xeyirliyə aç, ay qız. – Gülnisə arvad üşəndi, bədənindən soyuq gizilti keçdi.

– Hə, ana. Görəcəksən, bunun səsi gec-tez çıxacaq. Onu öldürüblər.

Sonra yuxusunu anasına danışdı. Anası da, özü də yuxulara, əlamətlərə, işarələrə inanırdı. Bəzən bu mövzuda uzun-uzadı qızğın müzakirələrə baş vururdular. Gülbala kişi isə kənardan deyilənlərə qulaq asıb başını yelləyirdi, bu cür inancların tam əsassız olduğunu deyib dururdu. İlahə isə inadla sübut etməyə çalışırdı ki, el-obanın təbiətindən mayalanmış etiqadda mütləq bir həqiqət payı var. İlahə bu gecə gördüyü yuxunu belə yozdu: Lamiyəni öldürüblər. Tam əminliklə deyirdi: məhz öldürüblər!

* * *

Qulaməli bütün günü qapılarının ağzında oturub bekarçılıqdan bığlarını yolmaqla məşğul idi, qıvrılıb ağzına girən ağarmış tükləri tutub hirslə dartırdı. Son vaxtlar özünə təzə məşğuliyyət tapmışdı, küçə qapısının altındakı betonun arasından çıxan qarışqalara divan tuturdu. Qarışqalar isə bitib-tükənmək bilmirdi, Qulaməli öldürdükcə acığa düşərək artıb çoxalırdılar. Qulaməlinin günü qarışqalarla mübarizəyə sərf olunurdu, beləcə, axşam olunca yorulub əldən düşür, ertədən qapı-pəncərəni bağlayıb yatırdı. Qulaməli üçün adam öldürməyin bir yolu vardı – baltalamaq. Kimsə onu hirsləndirəndə: “Sən öl, səni baltalayaram!” – deyə üstünə yeriyirdi. Məhəllədə Qulaməlidən söz düşəndə zarafatla: “O, ancaq balta işinə baxır”, – deyib gülüşürdülər. Amma ömründə bir adam öldürməmişdi, onunku quşlar, qarışqalar idi. Şəhadət barmağı ilə qarışqaları basıb öldürdüyünü görənlər xısın-xısın gülüşürdülər: “Qulaməli indi də qarışqaları “baltalayır”.

Qulaməligilin evinin ikinci mərtəbəsindən Lamiyəgilin həyəti görünürdü. Bir gün səhər tezdən Qulaməli yuxudan oyanıb eyvana çıxmaq istəyəndə gördü ki, Lamiyənin qardaşı Cavid qızı həyətlərində ayağının altına alıb təpikləyir, təpiklər qızın başına, qarnına, kürəyinə dəyirdi. Qulaməli özü də bilmədi ki, nə vaxt həyətə düşdü, iş alətləri yığılmış anbardan baltanı götürüb onların həyətinə cumdu. Cavid hələ də qızı təpikləməyində idi. Qız fəryad qoparsa da, anası sanki kar olmuşdu, evdən çıxıb qızını oğlunun əlindən almaq fikrində deyildi.

Qulaməli əlində balta Cavidin üstünə cumub onu boğazladı:

– İt oğlu! Nə istəyirsən bu qızdan? Bu dəqiqə sənin boğazuvu üzəceyəm!

Cavid gözlənilməz hücumdan özünü itirdi, Qulaməlinin bərəlmiş qəzəbli gözləri onu çaşdırdı. Nə qədər çırpındısa, Qulaməlinin məngənə kimi boğazını sıxan əlindən xilas ola bilmədi. Artıq boğulurdu, rəngi göyərmişdi, çabalayırdı. Qulaməli isə bağırırdı:

– Boğazını üzəcəm, əclaf!

Badam arvad canhövlü özünü həyətə saldı, Qulaməlinin ayaqlarına yıxıldı:

– Qulaməli qədeş, ölüm ayağuvun altında, qurban olum, burax onu! Onu mənə bağışla, qurbanun olum!

Qulaməlinin əli boşaldı. Cavid kökündən kəsilmiş ağac kimi tirtap yerə aşdı. Dili ağzından çıxmışdı, əlləriylə boğazını ovuşdururdu.

– Bu dəfə canuvu qurtardun. Qurban olasan anova! Səni ona bağışladım. Bir də sənin o qıza barmağun toxunsa, küçük kimi boğazını üzəcegəm! Atamın goruna and içirəm! Əlimnən sağ çıxmeyecegsən!

Lamiyə dizi üstə saçları dağınıq halda heyrət və təəccüb qarışıq Qulaməliyə, öz xilaskarına baxırdı.

* * *

Adəm oyanmışdı, lakin günün hansı vədəsi olduğunu kəsdirə bilmirdi, hər yan qatı zülmət içində idi. Bəlkə bu, quyunun qalın, torpaq divarlarının zülməti idi? Hardansa işıq sızırdı axı. Hardaydı o işıq? Bəs içəri niyə belə qaranlıq idi? Əvvəl fikirləşdi ki, Günəş bu qədər daş qəlblidir ki, öz Səhərini axtarıb tapmır?! Sonra ağlına gəldi ki, axı Günəşin əli bu dərin quyuya çatmır, o işığın qarşısını kəsiblər.

Çöldə buludların qəhqəhəsi eşidildi. Göy adamı isə qeybə çəkilmişdi. Göyün ortasında isə çarmıxa çəkilmiş bir adam peyda oldu və onun çarmıxa çəkilmiş qollarındakı zəncirlər od almağa başladı, o zəncirlərin alovu Gündoğanla Günbatandan gələn əjdahaları qarsaladı, əjdahalar inildəyə-inildəyə geri çəkildilər. Göyün bəyaz buludları təzədən çoxaldı, duruldu, işıqlandı, bu bəyaz buludların arası ulduzlarla ləbələb doldu. Adəm ömründə belə iri, şəfəq saçan ulduzlar görməmişdi. Hər tərəf elə işıqlanmışdı ki, deyirdin günün günorta çağıdır, ikinci möcüzə də orasında idi ki, göyün üzü işıqlandıqca çarmıxa çəkilmiş adam gözdən itirdi, amma buludların arasından uzun müddət zəncir cingiltisi eşidilirdi, sanki bu zəncir daşlıqla sürünürdü. Sonra bu zəncir cingiltisi də kəsildi və göyün üzü təzədən qaralmağa başladı, ulduzlar da işığını itirməkdə idi. Adəm qışqıraraq demək istədi: “Ey Göy adamı, ey çarmıxa çəkilmiş adam, məni burda tək qoyub hara gedirsən?!” – Səsi çıxmadı. Ətrafdakı qaranlıq onun səsini udurdu. Amma işıq gözə görünməsə də, tamam yox olmamışdı.

İnsan işığı görmədən də hiss edə bilərmiş. Bədənində o işığın həniri dolaşırdı. Gözü qaranlığa alışınca quyunun başındakı iynə ucu boyda işığı gördü. İşıq can verirdi, öləziyirdi. Arada can üstə olan işıq tamam itirdi və quyu zülmətə bürünürdü. Üfunət və nəmişlik Adəmin nəfəsini kəsirdi. Var gücüylə qışqırdı:

– Eeey! Orda kim var?

Səsi burula-burula işığa doğru şığıdı. Cavab gəlmədi.

– Qorxma, onsuz da burdan qaça bilməyəcəm. Heç olmasa, bircə udumluq hava ver. Boğuluram.

Ya yuxarıda heç kim yox idi, ya da keşikçi kar idi. Bəlkə də div yuxusuna gedib, kim bilir?! Yumruqlarıyla torpaq divarı döyəclədi. Sonuncu dəfə

Həvvasını görmək istəyirdi. Görəsən Həvva bilirdi ki, o hardadır? Oralarda yəqin raketlərdən, nüvə silahlarından, kimyəvi silahların partlayışından təmiz hava qalmayıb. Kosmosu da yaman günə qoyublar. Adamlar həmişə gileylənirdi ki, udduğumuz havanı da zəhərləyiblər. İndi heç olmasa, o zəhərli havadan bir udum olaydı!..

Quyuda nərdivan yox idi. Yəqin onu bura itələyib atmışdılar. Heç kəndirzad da yox idi. Bütün bədəni sızıldayırdı, sağ qalmışdısa, Allahına şükür etməli idi. Sonuncu dəfə gördüyü mənzərə başı buludlara dəyən Haçadağ olmuşdu. Ona elə gəlirdi ki, dağın qara buludla örtülmüş zirvəsindən yavaşca və qeyri-iradi olaraq diyirlənib buraya düşmüşdü. Əl-qol atdıqca özünü zirzəmi küncündə tor toxuyan hörümçək kimi hiss elədi.

Həvva ilə ilk dəfə tanış olduğu günü xatırladı.

Kəpənəklərin uçuşduğu bağda əlində cənnət gülü olan bir məxluq gördü. Həmin məxluq Adəmi görən kimi, yel kimi onun üstünə əsdi və onun möhtəşəm tənhalığını pozdu. Adəm zahirən ondan fərqlənən bu məxluqa heyrət içində tamaşa edirdi. Onun nəfəsi Adəmi sehrləmişdi, gülqarışıq onu qucaqlayıb bağrına basmaq istəyirdi. Bu məxluq dedi ki, mən qadınam, adım da Həvvadır. Adəm bilmirdi ki, qadın nə deməkdir. Bir də onu dedi ki, onun qabırğasından yaranıb. Adəm qabırğalarını saydı, hamısı yerində idi. Həvvaya dedi:

– Mənim qabırğalarım yerindədir. Sən necə mənim qabırğamdan yarana bilərsən?

Həvva işvəkar təbəssümünü maska kimi üzünə taxdı:

– Təəssüf ki, bunu sənə izah edə bilməyəcəm.

Beləcə, Həvva Adəmin tənhalığına qabırğa oldu. Adəm bir də baxdı ki, Həvvasız yaşaya bilmir. Həvva bir azca ondan uzaqlaşan kimi, Adəmin nəfəsi daralırdı. Kölgə kimi Həvvanın ardınca sürünürdü.

Dünyanın ilk insan sevgisi belə yarandı. Həvvanın əlindəki cənnət gülü bu sevginin şahidi oldu.

Qaranlıq quyuda burnuna cənnət gülünün ətri gəldi. Ovcunun içi ilə quyunun divarlarını sığalladı, buranın torpağı quzulamışdı, əllərinin dərisinə yapışırdı, sanki torpaq çürümüş ağacın qabığı idi. Bu nəmişlik ona doğma gəldi. Düşündü ki, bura bir az geniş olsaydı, bir balaca da şəraiti olsaydı, o, öz sevimli Həvvası ilə burda ömrünün sonunacan yaşaya bilərdi. Həvva isə, deyəsən, Adəmin qadağan etdiyi almanın dadına baxmışdı. Sonuncu görüşlərində Adəm ona alma ağacından uzaq durmağı tapşırmışdı.

Həvva da kimsəsiz səhrada Adəmi axtarırdı. Qəfildən gördü ki, əlindəki cənnət gülünün əvvəlki şuxluğundan əsər-əlamət qalmayıb, gül ləçəklərini sallayıb saralıb-solmaq üzrədir. Qəlbi həyəcandan çırpınmağa başladı. Gülün ləçəklərini sığallayıb pıçıldadı:

– Mənim cənnət çiçəyim, sənə nə oldu? Niyə qəm-qüssəyə batmısan?

Çiçəyin ortasındakı məxməri tumurcuq dilləndi:

– Sənin Adəmin indi qaranlıq quyudadır. O quyunun başında mənim əkiz tayım bitib, küləklər onun harayını mənə yetirdi. Mənim dediyim istiqaməti tutub get. Düz quyunun üstünə gedib çıxacaqsan.

Həvvanın heyrətdən dili tutuldu. Gül də danışarmış! Əlindəki dişlənmiş almanı ağacın dibinə tulladı. Gülün nişan verdiyi səmtə doğru qaçmağa başladı.

Uca bir dağın ətəyində cənnət gülü sanki yoldan ötənə əl yelləyir, kimisə köməyə çağırırdı. Həvva canındakı ehtirasdan özünə yer tapa bilmirdi, cənnət gülü onun ehtirasını birəbeş artırırdı.

Sanki quyunun işığı bir az artdı, sükutun bayaqdan onu əzən ağırlığı azaldı. Həvva quyunun başından aşağı boylanıb gülümsəyirdi. Onun gözlərinin işığı Adəmin gözlərini qamaşdırdı. Dünya büsbütün işığa büründü, damarında qanı qaynadı.

– Gün günorta oldu, sən hələ də yatırsan! Qalx, həyətə meyvə satan gəlib, uşaqların ürəyi alma istəyir. Düş bir az ayın-oyun al, gəl.

Arvadının cır səsinə dik atıldı. Əlini ora-bura atdı. Başının üstündə bir cüt ala göz gülümsəyirdi. Son vaxtlar ilk dəfə idi ki, belə məhəbbət dolu baxış görürdü. Yadına düşdü ki, xeyli müddətdir arvadına qarşı mehribanlıq göstərmir, onu nəvazişdən məhrum edib, qadının işığı gün-gündən sozalır. Qollarını uzadıb onu qucaqladı:

– Özünü vaxtında yetirdin.

Arvadı təəccübləndi. Adəmin gözü qum saatına sataşdı. Bu qum saatının dolub-boşalmasını çox görmüşdü, qum dənələrinin bir-birini qova-qova tökülməsinə tamaşa etməkdən xüsusi zövq alırdı, indi isə şüşənin üst hissəsinin boşalmasını qorxu içində gözləyirdi. Bəlkə Günəş haqlıdır? Cənnət gülü də, qırmızıyanaq alma da onun övladları idilər, hər ikisi Günəşin döşündən işıq əmmişdilər.

Dəhşətli bir virusun dünyanı ölümlə hədələdiyi bir zamanda Günəş hər səhər üfüqdən hayqırırdı:

– Bir-birinizi sevin! Sizi sevgi xilas edəcək!

Adəm Həvvasının gözlərindən öpdü və yerindən qalxıb geyindi. Həyətə alma almağa düşdü.

Günəş göy üzündə gülümsəyirdi.

* * *

Biznesmen Zabil bir neçə dəfə Sənana xəbər yollayaraq demişdi ki, eşitmişəm onun həyətində danışan, insan hərəkətinə reaksiya verən güllər var, o güllərdən mənimçün də təşkil eləsin. Sənan bu ismarışları hər dəfə qulaqardına vururdu. Zabil bu diqqətsizlikdən yaman hiddətlənmişdi. O, nəinki kənddə, bütün Abşeronda tanınmış, hörmətli bir adam idi. Hansı kəndə yolu düşürdüsə, onu hörmətlə qarşılayıb qulluğunda dururdular. Deyirdilər onun bağında Mimoza, Adəm ağacları var, xarici ölkələrdən gətizdirib həyətində əkdirib. Amma Zabilin bağının hasarları o qədər hündür idi ki, bir kimsə bu ağacları görməmişdi. Yoldan ötənlər bağın şəbəkəli qapısından və üçmərtəbəli qəsrin Şərq saraylarını xatırladan günbəzvari damından başqa heç nə görə bilmirdilər. İçəridəki cah-cəlalı yalnız qəsrin saysız pəncərələrinə qonan qumrular, bir də hündür ağacların başındakı meyvələri dimdikləyən sərçələr görə bilirdilər.

Bağın hasarı o qədər uca idi ki, küçə pişikləri həyətdən yayılan dadlı yeməklərin yalnız qoxusu ilə kifayətlənirdilər, uzun-uzadı gözlərilə divarın boyunu ölçə-ölçə qalır, ağızlarının suyunu axıdırdılar. Belə məqamlarda pişiklər qumrulara və sərçələrə həsəd aparırdılar, bəlkə də fikirlərindən keçirdi ki, kaş onlar kimi qanadımız olaydı.

Amma, deyəsən, itlərə, pişiklərə qismət olmayan bu xoşbəxtlik Sənana nəsib olacaqdı.

İşdən təzəcə qayıtmışdı, həyətdəki əlüzyuyanın qarşısında əyilib əl-üzünü yuyurdu. Dəmir darvazanın qarşısında kimsə maşın saxladı. Fikirləşdi ki, yəqin müştərilərdəndir, maşını təmirə gətirib. Dilinin altında deyindi ki, evdə də adamı dincəlməyə qoymurlar. Maşın siqnal verdi. Dəsmalı mıxçadan asıb köynəyini düymələyə-düymələyə qapıya çıxdı. Zabilin ağ “Prado”su qapının ağzında dayanmışdı. Maşının yiyəsi özündən razı halda sükan arxasında gülümsəyirdi. Sənan yan qapını açıb Zabillə salamlaşdı.

– Yekə oğlansan, səninçün neçə dəfə xəbər göndərmişəm, nöş gəlməmisən? Bəlkə elə ölürük, dərmanımız səndədü? – Zabil bunu deyib gülümsədi.

Sənan tövrünü pozmadı:

– Zabil, qərdeşim, İşim-gücüm çox olur. Üzrlü say. Buyur, mənə görə nə qulluğun?

– Ay kişi, begəm süzdə qonağı qapıda saxlıyırlar? Rəhmətlik aton dostoynı kişi idi, Allah rəhmət eləsün. Sən kimə oxşadun? – Zabil ərkyana Sənanı yüngülcə tənbeh etdi.

Sənan onun bu tikanlı sözlərini sinirmək istəmədi:

– Mən də atamın oğluyam! Sən bizim tətəflərə gələn deyilsən. Sözün açığı, bir az təəccübləndim. Düş gəl içəri.

Zabil maşından düşə-düşə gileyini yağdırdı:

– Ay kişi, adamun adama işi düşər. Nolsun ki, qapıvu açmamışam, rəhmətlik kişiynən aram kök idi. Bu gün mənim sənə işim düşüb, sabah da sənün mənə işün düşər, yanunda xəcaletdi qalmaram. Bəs adam adama hansı gündə lazımdur?

Zabilin şişman bədəni dərisinə sığmırdı, nəfəs alıb verdikcə qarnı hissolunacaq dərəcədə tərpənirdi, sanki burnu ilə deyil, dərisi ilə nəfəs alırdı. Başının hər iki tərəfinə qulaq əvəzinə sanki iki xırda düymə yapışdırmışdılar. Sənanı gülmək tutdu, bu boyda baş üçün qulaqlar çox xırda idi. Yadına uşaqlıqda nənəsindən eşitdiyi bir deyim düşdü: “Dəvə nə böyük, qulağı nə kiçik, dovşan nə kiçik, qulağı nə böyük”.

Zabilin göyərmiş dodaqları arasından qara-qara sözlər tökülürdü. Başqası olsaydı, bu sözlərin qaralığını görə bilməzdi. Sənan sözlərin də rəngini ayırd edə bilirdi, bu sözlər elə bil qurum bağlamış boğazdan tökülürdü. Zabilin gəlişinin məqsədini anlayırdı, amma ona üz vermək istəmirdi, qaşqabaqlı halda qapını açıb ona yol verdi. Zabil yanlarını basa-basa həyətə girdi, gözlərinin önündə açılmış əsrarəngiz mənzərədən içini çəkdi.

– Qərdeşoğlu, sən burda cənnətin filialını açmısan ki?!

Ağzı açıq vəziyyətdə güllərə yaxınlaşdı, bu vaxt şax güllərdən biri ləçəklərini silkələdi. Bu, yaddaş çiçəyi idi. Zabilin heyrətdən gözləri böyüdü. Sənan yaxınlaşıb gülə toxundu, ona nəsə pıçıldadı, gül inadkarlıq elədi, bir az da büzüşdü. Bu, gülün mesajı idi – Zabil bu həyətə xoş niyyətlə gəlməyib. Bədxah adam bu həyətə ayaq basan kimi gülün ləçəkləri bükülürdü.

Sənan üzünü Zabilə tutub dedi:

– Qərdeşimsən, üzrlü say, səni evə dəvət edə bilmeyeciyəm. Harda deyirsən, gedək oturaq.

Zabil pərt oldu, amma biruzə vermədi:

– Qəribə adamsan, qərdeşoğlu. Heç sənnən baş açmaq olmur. Əslində mən elə bu güllərdən ötrü sənün yanuva gəlmişəm.

Zabil deməsəydi də Sənan onun hansı məqsədlə gəldiyini bilirdi.

– Bilirəm, qərdeşim. Amma incimə, mən heç kəsə gül vermirəm. Bu gülləri özüm üçün besliyirəm. Onnar mənnən başqa heç kəsə sirr verməzdər. Bu güllərdən hansınınsa burdan qoparılması onun üçün ölümə bərabərdür. Bunnar sən düşündüyün güllərdən deyil.

Bu dəfə Zabilin rəngi qaraldı, hələ indiyə qədər onun sözünün üstünə söz deyən olmamışdı, kiminsə onun xahişini yerə salmağa cəsarəti çatmazdı. Zabil həmin adamı çox pis cəzalandırardı. Onun hər yerdə adamları vardı, adama elə bir zərbə endirərdi ki, bu zərbənin ona hardan dəydiyini heç vaxt bilə bilməzdi. Özünü xeyirxah, əliaçıq, səxavətli kimi göstərsə də, hamı bilirdi ki, Zabil bircə qəpiyindən də keçəsi adam deyildi. Kənd içində söz-söhbət dolaşırdı ki, o, adam oğrularını gizlicə himayə edir.

Zabilin şəhərin müxtəlif yerlərində obyektləri vardı, dəniz kənarındakı ikimərtəbəli restoran da ona məxsus idi. Bu restorana yay aylarında ən bahalı müğənnilər, harınlamış məmur övladları gəlirdi, səhərə qədər burda eyş-işrət məclisləri keçirilirdi. İl boyu bu restoranın qarşısında olduqca bahalı avtomobillər dayanırdı. Kənd camaatı restoranın həndəvərinə belə yaxın düşə bilmir, kənardan baxmaqla kifayətlənirdilər. Restoranın həyəti hündür hasara alınmışdı, iri dəmir darvazanın yanında daim cüssəli mühafizəçilər dolaşırdı.

Həyatın ən qəribə işlərindən biri də bu idi ki, Zabili klassik şair Haşım bəy Saqibin irsini araşdıran komissiyanın üzvü seçmişdilər. Məsələ burasında idi ki, Haşım bəyin qardaşı, ötən əsrin əvvəllərində neft milyonçusu kimi tanınan Hacıağa bəyin mülkü naməlum adamlar tərəfindən qarət olunmuş, şairin əlyazmaları da oğurlanan əşyaların içində getmişdi. Aradan bir əsrə yaxın vaxt keçdikdən sonra Haşım bəyin ədəbi irsinin araşdırıcısı Kamran Türkoğlu bu əlyazmaların izinə düşərək Mahaçqalaya gedib çıxmışdı. Artemida adlı bir kübar xanımla tanışlıq onun işini lap asanlaşdırmışdı. Onlar Mahaçqala Tarix Muzeyində tanış olmuşdular. Bu təsadüfi görüş Kamran üçün yeni imkanlar açmışdı. O, öz ölkəsinin tarixi şəxsiyyətləri haqqında danışanda Haşım bəyin də adını çəkmişdi. Bu adı eşidən Artemida diksinmişdi.

– Bizim şəhərin adlı-sanlı biznesmenlərindən biri Barat bəy həmişə söhbət əsnasında onun adını çəkir. Onun çox qiymətli kolleksiyası var.

Özünün dediyinə görə, Haşım bəyin qiymətli əlyazmaları da bu kolleksiyaya daxildir.

Artemida danışdıqca gənc araşdırmaçının həyəcanı artırdı. Nəhayət, özünü toparlayıb dili topuq vura-vura dedi:

– Siz onu mənimlə görüşdürə bilərsinizmi?

Kamran Türkoğlu Barat bəylə görüşdən çox məyus qayıtmışdı. Biznesmen onu çox yaxşı qarşılasa da, şərəfinə gözəl bir ziyafət versə də, əlyazmaları ona verməkdən qəti imtina etmişdi. Daş qayaya rast gəlmişdi, Barat bəyi razı salmaq mümkün olmamışdı.

– Bəs yaxşı, bu əlyazmalar sizin əlinizə necə keçib?

Barat bəy araşdırmaçının sualına da qeyri-müəyyən cavab vermişdi:

– Bu qiymetti xezinə mənə babamnan yadigar qalub. Eşitdiyimə gürə, əlyazmaları una hansısa aulun bir ağsaqqalı bağışlayıb. Mən babamnan qalan yadigarı süzə verə bilmərəm. Məni üzrlü sayun.

Gənc araşdırmaçı yenə nəsə demək istəyəndə, hövsələsi daralmış Barat bəyin bığlarının ucları titrədi. Araşdırmaçı qorxudan deyəcəyi sözü dilinin ucundan qaytardı.

Kamran Türkoğlu Bakıya qayıtdıqdan sonra bu barədə əlaqədar təşkilatlara məlumatlar verir. Şairin 150 illik yubileyinə hazırlıq ərəfəsində komissiya yaradılanda Kamranı yenidən Mahaçqalaya Barat bəylə danışıqlara göndərirlər. Gənc araşdırmaçı bu dəfə də səfərdən əliboş qayıdır. Amma bu dəfə özü ilə iynə ucu boyda bir ümid də gətirir. Barat bəy əlyazmaları külli miqdarda pul mübaqilində qaytara biləcəyini demişdi. Şairin həmkəndlilərinə müraciət olunduqda Zabil sinəsini irəli vermişdi.

– Nə qədər vəsait lazımdırsa, mən ödəyərəm! – demişdi.

Bu səbəbdən onu da şairin irsini araşdıran komissiyaya üzv seçmişdilər. Zabil hər yerdə ictimai əhəmiyyətli şəxs kimi qürrələnirdi. Mahaçqala səfəri zamanı Artemida ilə tanışlıq onun üçün yeni macəralara yol açmışdı. Bu gözəl xanımın sayəsində Mahaçqaladan sidr ağacları gətizdirib həyətində əkdirmişdi. Eşidəndə ki, Sənanın həyətində sehrli güllər var, onu tapıb bu güllərə sahib çıxmaq istədi. Fikirləşirdi ki, pul bütün bağlı qapıları açmağa qadirdir. Pulun varsa, güclüsən, heç kim sənə qalib gələ bilməz. Zabil gülləri bağında əkdikdən sonra danışan bülbüllər alıb gətirəcəkdi və eyvanda oturub şərab içə-içə güllərlə bülbüllərin söhbətini dinləyəcəkdi.

O, düşünürdü ki, Barat bəyi asanlıqla yola gətirəcək. Ləzgi isə olduqca tərs və inadkar adam idi. Dəfələrlə ona xəbər göndərsə də, hər dəfə Baratdan belə bir cavab gəlirdi: “Sən gəl, bu işdən əl çək. Mən babamdan qalan mirası heç kimə verməərəm. Sənin puluna da ehtiyacım yoxdur”. Zabil anladı ki, o, asan sınan qoz deyil, məcbur olub özü Mahaçqalaya gedəsi oldu.

Barat bəy Zabilin gəlişindən xəbər tutunca, şəhərin mənzərəli yerində, “Pirosmani” restoranında yüksək səviyyəli stol sifariş etdi.

Qafqaz dağlarının ətəklərində yerləşən bu cənub şəhəri Zabilə 90-cı illər Bakısını xatırlatdı. Hələ də Leninin adını daşıyan meydanlar, küçələr, heykəllər onu heyrətə gətirdi. Küçələrin solğun görünüşü, sarımtıl daş səkilər, uca minarəli məscidlər və qədimlik hissi Zabildə nostalji hisslər

oyatdı. Şiş təpəli qülləciklər kəllə qəndə oxşayırdı. Yollara sonuncu dəfə çox güman ki, sovet dövründə asfalt çəkmişdilər. Maşını mərkəzi küçə ilə şütüyürdü, ətrafdakı daş binalar nəhəng oyma sandıqçalara bənzəyirdi, bəzilərinin damında bir-birindən kiçik qülləciklər ucalır, bəzilərində yelqovanlar çiçək açır, bəzilərinin də kirəmiti günəş şüaları altında işıldayırdı. Sovet maşınlarının çoxluğu diqqəti cəlb edirdi. Zabilin maşını hər dəfə çökəyə düşəndə deyinə-deyinə özünü söyürdü: “Çox nahaq yerə maşınla gəldim, zalım oğlu, otur taksiyə gəl də. Maşının zibili çıxacaq. Mənə lazım idi bu əlyazma? Özüm özümü oturduğum yerdə zibilə saldım”.

Zabilin Bakıda işi-gücü başından aşırdı, əhəmiyyətsiz hesab etdiyi bir işdən ötrü bu qədər vaxt sərf etməsi onun əsəblərini tarıma çəkirdi. Yol boyu düşünürdü ki, Baratın istənilən şərti ilə razılaşacaq. Təki buradan əliboş qayıtmasın. Bu məğlubiyyət onun nüfuzuna amansız zərbə vura bilərdi, o isə bu rüsvayçılığa heç cür imkan verə bilməzdi. Nə yolla olur-olsun, bu tərs ləzgini yola gətirmək lazım idi.

Ağ “Prado” əzəmətli restoranın qarşısında dayanınca bir neçə tökməbədən, pəhləvan cüssəli cavan maşını əhatəyə aldı. Onlar Barat bəyin adamları idilər, sərt baxışları adamın sinəsini deşirdi. Zabil gözlərindən qığılcım çıxan bu dəliqanlıları görüncə özünü yığışdırdı. Cavanlar qonağa: “Xoş gəlmisiz!”– deyb onu restoranın ikinci mərtəbəsinə qədər müşayiət etdilər. İkinci mərtəbənin eyvanındakı geniş masada quş südü, can dərmanı düzülmüşdü. Süfrə xüsusi zövqlə hazırlanmışdı. Zabil həyatı boyu çox bahalı restoranlarda olmuşdu, amma bu cür dəm-dəstgahı ilk dəfəydi ki, görürdü. Masanın yuxarı başında dəri üzlüklü kresloda tosqun bir adam oturmuşdu, bığlarının ucu par-par parıldayırdı, yoğun barmaqlarında çoxsaylı üzüklər vardı.Damağında qəlyan tüstüləyirdi. Hiyləgər və mülayim baxışları qonağa zillənmişdi. Zabil anladı ki, bu adam Barat bəydir. Ona yaxınlaşanda Barat bəy ayağa qalxıb onunla iki dəfə qucaqlaşdı:

– Xoş gəlmisən, qoçaq! Əziz qunağımsan!

– Xoş gününə gəleg, Barat bəy!

Barat bəy əmrə müntəzir dayanmış mühafizəçilərə başıyla getmək işarəsi verdi. Dəliqanlılar baş əyib çıxdılar. Bu ucsuz-bucaqsız restoranın hər küncündə Qafqaz ruhu dolaşırdı. Bu məkan sanki Gürcüstanın Dağıstanda bir parçası idi. Yuxarıdakı eyvanın şüşə arakəsməsindən yaxınlıqdakı bazar görünürdü. Orada şıdırğı alver gedirdi, naxışlı parçalar, gil və mis qablar, meyvələr və çərəzlər, şirniyyat, tütün, cürbəcür ədviyyatlar satılırdı. Bu mənzərə Şərq koloritinin tərkib hissəsi kimi həmin məkana üz tutanları keçmişə qaytarırdı. Bir sözlə, xristian mədəniyyətinin içində Şərq ekzotikası. Restoranda gürcü mətbəxinin ən ləziz yeməkləri hazırlanırdı. Tünd yaqut rəngli, zərif ətirli turş “Mukuzani” şərabı qırmızı ağacdan düzəldilmiş böyük stolun bəzəyi idi. Ofisiantlar canfəşanlıqla iri sinilərdə soyuq qəlyanaltı gətirib səliqə-sahmanla süfrəyə düzməyə başladılar. Barat bəy Zabili Azərbaycandakı ümumi vəziyyətlə bağlı sorğu-suala tutdu.

– Hər şey yaxşıdur, Allaha şükür! Əmin-amannığdur, insannar rahat yaşıyır, hərə öz işində-gücündədür.

– Burda da camaat pis dulanmır, – deyə Barat bəy qədəhlərə şərab süzməyə başladı. İlk sağlığı özü dedi:

– Qunağ Allah qunağıdı. Tanışdığımuzun sağlığına! İnanıram ki, bir-birimizi düzgün başa düşəciyig və dustluğumuz davam edəceg!

Barat bəyin səsindəki güvən hissi Zabilin narahatlığını artırırdı. Elə bu sağlıqla üstüörtülü şəkildə onun niyyətini bəri başdan alt-üst etmək istəyirdi və bu niyyətin gerçəkləşməyəcəyinə incə eyham vururdu.

İçdilər. Ürəyə sərinlik gətirən yaylaq havası şərabla birgə hər ikisinin kefini duruldu. Süfrəyə qoz sousunda bişirilmiş hinduşka, sonra isə dağıstanlıların sevimli yeməyi sayılan xaşlama, ədviyyatlarla qaynadılıb bişirilmiş ət yeməyi, daha sonra isə qızardılmış mal filesi gəldi. Az keçməmiş, gil tavalarda donuz, nərə balığından hazırlanmış kabablar gətirdilər. Zabilin bu bolluqdan ürəyi sıxıldı:

– Qərdeşim, bu qədər yeməyi kim yiyəceg?

– A kişi, bala-bala ütür gitsin. Süzünkilərün iştahasın balta kesmez, hər yeməkdən bir az dadson, pis olmaz. Bəs şərab neyçündür? İştahamızı açacağ, – Barat bəy qarnı atıla-atıla güldü.

Zabil düşündü ki, sözarası niyyətini açıqlasın.

– Barat bey, yəqin bilirsən də nöş gəlmişəm.

Barat bəy ağzını marçıldada-marçıldada başını qaldırmadan dedi:

– Deyərsən, bilərik.

Zabil salfetlə ağzını silib boğazını arıtladı:

– O əlyazmadan ötrü.

Araya sükut çökdü. Barat bəy qədəhlərə növbəti dəfə şərab süzdü. Yüngülcə gəyirdi. Şərabın təsirindən sifəti qaynanmış çuğundura bənzəyirdi. Zabil intizarla onun verəcəyi cavabı gözləyirdi. Baratın sifəti daşa dönmüşdü, heç nə ifadə etmirdi. O, qarşısındakı adamın gözlərindəki həyəcanlı parıltını hiss etmişdi. Nəhayət, şirəli dodaqlarını yalayıb daşürəkli bir məmnuniyyətlə ağır-ağır dilləndi:

– Ay mənim əziz dustum, axı biz bu sühbeti bağlamışduğ. Olmadı ki. Ay-ay-ay. Gəl yeyeg-içeg, dünyadan kam alaq. Axı neyinə lazımdu sənin bu kühnə əlyazmalar? Sən axı belə şeylərün adamı deyilsən. Biz seninlə səmərəli əməkdaşduğ edə bilərik. Bunlardan danışaq, görək bir-birimizə necə xeyir verə bilerik, perspektivlərimizi araşduraq. Yoxsa ki, əlyazma belə geldi, ne bilim nə...

Zabil dillənmək istəyəndə Barat bəy onu qabaqladı:

– Gəl sənə bir qədim rəvayət danışım. Bəlkə gərəyün oldu.

Zabil yerini rahatladı:

– Danış.

Barat bəy oturduğu kresloya yayxanıb dərin fikrə getdi, danışacaqlarını tam dəqiqliyi ilə yadına salmağa çalışdı. Handan-hana əhvalatı nəql etməyə başladı:

– Deməli, belə. Dürd derviş olur, bunlar öz aralarında razılığa gəlirlər ki, hərəsi bir əşya tapacaq və bu əşyalarla yer üzündəki bütün insanların köməyinə çatacaqlar. Bir müddət sonra yenə görüşürlər. Birinci dərviş

özüylə sehrli çubuq getirmişdi, bu çubuğu minən kəs dünyanın istənilən yerinə gedə bilərdi. İkinci derviş sehrli papaq getirmişdi, kim bu papağı başına qoysaydı, qiyafəsini deyişib başqa adam ulacaqdı. Üçüncü derviş özüylə sehrli güzgü getirmişdi, una baxan adam dünyanın istənilən yerini gürə bilərdi. Dördüncü derviş isə sehrli kasa ilə gelmişdi, bu kasa vasitəsilə hər hansı bir xestəliyi müalicə etmək mümkün idi. Beləliklə, dervişler əvvəlcə güzgüyə baxıb dirilik suyunun yerini üyrenmək isteyirlər. Güzgüdə hemin yeri tapıb sehrli çubuğa minərək ora yollanırlar və dirilik suyundan içirlər. Bundan sonra bu əşyalar vasitəsilə insanlara kömək etmək fikrinə düşürlər. Növbəti dəfə güzgüyə baxanda orda ölüm ayağında olan bir xəstəni görürlər. Dervişlər dərhal sehrli çubuğa minərək üzlərini həmin xəstəyə yetirirlər. Xəstə dervişləri gürüncə halı daha da pisləşir, onları dərhal xəstənin otağından çölə çıxarırlar.

Belə olan halda dervişlər sehrli papağı növbə ilə başlarına quyub başqa adamlara çevrilirlər. Bu dəfə hər biri özlərini ayrı-ayrılıqda təbib kimi təqdim edərək yenidən xəstənin otağına girə bilirlər. Xəstə sehrli kasada ona verilən dərmanı içir və sağalır. Sevindiyindən ən böyük mülkünü dərvişlərdən birinə bağışlayır. Dərvişlər həmin evə yığışıb birlikdə yaşamağa başlayırlar. Onlar hər gün evdən çıxıb öz sehrli əşyaları ilə insanların köməyinə çatırlar. Ancaq bir gün o biri dervişlər öz işlərinin dalınca gitdikden sonra əsgərlər evə girərək sehrli kasası olan dervişi tutub aparırlar. Sən demə, həmin ölkənin şahı bu böyük loğman barədə eşidibmiş, qəribə xəstəliyə tutulan qızını müalicə etməsi üçün onun arxasınca adamlar göndərib.

Barat bəy yenə dodaqlarını yaladı, sanki danışdığı rəvayətin dadını yoxlayırdı.

– Həə, sonrası gör nolur də. Dərvişi şahın qızının yatağına gətirirlər. O da şahzadənin öz dərmanlarından birini sehrli kasaya tökərək qıza verir. Amma dərviş bir şeyi yaddan çıxarmışdı. Qızın xəstəliyi barədə sehrli güzgüylə məsləhətləşməmişdi. Buna görə də dərmanın heç bir təsiri olmur. Belə olan halda şah əmr edir ki, dərvişi divara mıxlasınlar. Derviş nə qədər yalvarır ki, ona dostlarıyla məsləhətləşməyə imkan versinlər, onun sözünü eşidən olmur, fikirləşirlər ki, yəqin hərif qaçmaq üçün kələk gəlir. O biri dərvişlər də axşam evə döndükdə dostlarını evdə görməyib narahat olurlar, sehrli güzgüdən onun harda olduğunu soruşurlar. Onun ölüm ayağında olduğunu gürən kimi yubanmadan dostlarına köməyə tələsirlər. Divara mismarlanmış dərvişi son anda xilas edə bilirlər. Ancaq onlar şahın qızını xilas edə bilmirlər, çünki sehrli kasa onların əlində deyildi. Yenə sehrli güzgünü köməyə çağırırlar. Sehrli güzgüdə kasa görünür, şah onu ən dərin dəryanın ən dərin yerinə atdırmışdı. Əllərində möcüzəli əşyalar olmasına baxmayaraq, onlar sehrli kasanı qaytarmaq üçün nə az, nə çox, düz min il zaman sərf etməli olurlar.

Nəhayət, Barat bəy nəql etdiyi əhvalatı sona yetirib susdu. Zabil onun bu əhvalatı nə məqsədlə danışdığını anlamağa çalışırdı. Prinsipcə söhbəti bitmiş hesab etmək olardı. Bu vaxt Barat bəy şərab dolu qədəhi qaldırdı:

– Belə-belə işlər, əziz qardaşım.

– Nə yaman fikrə gitdün? Yüz fikir bir borcu ödəmir, heç neyin fikrini çəkmə. Ye, iç, kefini çək. Bir də bu dünyaya gəlmeyeceyig, – Barat bəyin dili bu sözləri desə də, şeytani baxışlarından başqa niyyət oxunurdu.

O, qonağının başını yeyib-içməklə aldadıb yola salmaq istəyirdi. Amma Zabilin istəyinə nail olmayınca burdan tərpənmək fikri yox idi. Beynində sürətli planlar qururdu, əlyazmanı Barat bəydən almaq üçün hansı hiylənin kara gələcəyi barədə düşünürdü. Bir yandan da fikirləşirdi ki, bu tülküyə kələk gəlmək müşkül məsələdir. Belə adamların sözü daş kimi olur, əgər bir şeyi dedilərsə, onları sözündən döndərə, yumşalda bilməzsən. Bununla belə beynini işlətməkdə davam edirdi. Anidən Sənan və onun danışan gülləri gözünün qabağından keçdi, beynindəki duman çəkilməyə başladı, fikri aydınlaşdı. Zabil Barat bəyin əntiq əşyalara, təlim görmüş, adam kimi danışa bilən heyvanlara, quşlara xüsusi marağı olduğunu bilirdi. Hətta eşitmişdi ki, bağında xüsusi bacarığı olan bülbüllər bəsləyir. O, yuxuya gedəndə bülbüllər otağının eyvanına qonub cəh-cəh vururlar, Barat quşların bu şirin avazına o qədər aludə olub ki, o səsləri eşitməyincə, gözünə yuxu getmir.

Onu yalnız həmin sehrli güllərlə ələ almaq, bununla da inadını qırmaq mümkün idi. Ağlına gələn bu fikirdən sevincək oldu, amma sevincini biruzə verməməyə çalışdı.

– Barat bey, bir süfrə arxasında çörək kesdig. İnanıram ki, tanışlığımız dostluğa çevriləcək. Nə vaxtsa bir-birimizə lazım da ola bilərik. Bilirəm, əlyazma sizin üçün babanızın yadigarı kimi qiymətlidir. Amma mən sizə onu əvəz edə biləcək daha qiymətli bir şey təklif edirəm.

Zabil bunu deyib susdu, Barat bəyin reaksiyasını yoxladı. Şişman adamın gözündə ani işıltı göründü və ətli sifətində əriyib yoxa çıxdı. İstehza ilə gülümsədi:

– Qiymetdi... – deyə Zabilin sözünü təkrarladı. – Sən məni hansısa qiymetdi bir şeylə ələ almağı düşünürsən? Həə, əziz dost, gürünür, səhv ünvana gelmisen.

Zabilin ürəyi adi vaxtdakından tez-tez döyünməyə başladı. Birbaşa niyyətini açıqlamaqda səhv etdiyini anladı. Söhbəti hiss edilmədən gətirib mətləb üstünə çıxarmaq lazım idi. Barat bəy kimi tüccarlıq qazanında bişmiş adamı asan yolla ələ ala biləcəyini düşünmək uşaq sadəlövhlüyündən başqa bir şey deyildi.

Barat bəy düşündü ki, görəsən, qarşısındakı adam bu ağılla necə var-dövlət yiyəsinə çevrilib? Dünyada elə bir qiymətli şey yoxdur ki, onunla məni ələ ala bilsinlər. Bu adam deyəsən məni yaxşı tanımır, heç yaxşı tanımır. Tanısaydı, heç vaxt cürət edib mənə bu cür təklif etməzdi. Öz sərçə ağlıyla fili dimdikləməyə cəsarət edən adam haqqında başqa nə düşünmək olardı? Amma Zabil Barat bəyin düşündüyü qədər də ağılsız adam deyildi. Barat bəy bu məsələdə yanılırdı.

Artıq söhbət tennis oyununa bənzəməyə başlayırdı, top kimi hər dəfə kortun bu başından o başına göndərilirdi. İndi Zabil topu qarşı tərəfə qaytarmalı idi. Dəyişkən xarakterinin yüyənini bir balaca boşaltmalı oldu:

– Sən məni düzgün anlamadun, Barat bəy, – Zabil fikirlərini tez-tələsik redaktə etməyə çalışdı. – Ələ almaq nə deməkdir? Axı o köhnə əlyazma sənin hansı işivə yarıyacaq? O əlyazmanı bizə versön, xalqımız da sənə minnətdar olar, şairimizin də ruhu şad olar. Mən xoşniyyət adamam. Belə şeyi heç ağlına da getirmə. Mən düşünürdüm ki, sənün xəcalətünnən başqa cür çıxım.

Ürəyində özünü söydü: "Lənət şeytana, mən də lap zırramanın biriyəm, həmişə xoş danışmaq istəyirəm, naxoş çıxır".

Barat bəy hiyləgərcəsinə gülümsündü:

– Başqa cür, yəni necə?

Zabilin bu anda ürəyi yerinə gəldi, artıq onda maraq oyada bilmişdi. Tez fikrindəkini dilinə gətirdi:

– Sənün aduva layiq bir şeydir. Mənim bir yaxın dostum var, gül işinə baxır, bağında möcüzəli güllər var. Təsəvvür et, güllər bir-biriylə danışır, qəribə hərəkətlər edir, insana reaksiya verir. Ömründə belə bir şey görmüsən?

Barat bəyin iri vücudu yırğalandı, cib yaylığını tərli başına çəkib dizinin üstünə atdı. Üzündən bir kölgə keçdi, tox aslan kimi asudəliklə gərnəşdi. Əvvəlcə kənara qoyduğu qəlyanı odlamaq istədi, nədənsə fikrindən vaz keçdi. Masanın üstündəki "Parlament" qutusundan siqaret çıxardı, Zabilə də təklif etdi. Əvvəlcə onun, sonra isə öz damağındakı siqareti yandırdı. Dərindən qüllab vurub tüstünü havaya üfürdü. Sövdəgərlik intuisiyası hərəkətə gəldi:

– Danışan quş eşitmişdim, amma gülün danışdığını birinci dəfədir eşidirəm. Hardadı u güllər? Gedib baxa bilərik?

Zabil özündənrazı halda gülümsədi:

– Bakıdadır. Üreyün nə vaxt istəyir, gəl, səni aparım, özün hər şeyi görəcəksən.

Barat bəy fikrə getdi, siqaretinin közərən ucuna baxdı, ürəyində nəyisə götür-qoy etməyə başladı. Düşündü ki, doğrudan da, bu köhnə əlyazma mənim nəyimə lazımdır axı? Lazımsız əşya kimi evdə qalıb, bəlkə nə vaxtsa it-bata düşüb gedəcək. Mən bu sövdələşmədə heç də uduzmuram, əksinə, qazanıram. Yaxşısı budur, verim getsin. Bu bakılı balası lazımlı adamdır, gələcəkdə onunla çox iş görmək olar.

Bu dəm salonda hay-küy qopdu, ofisiantlar ora-bura qaçmağa başladı. Barat bəy də, Zabil də narahat olmağa başladılar. Görəsən, içəridə nə hadisə baş verir? Hər ikisi yerindən qalxıb salona keçdilər. Yekə bir qarğa hardansa içəri soxulmuşdu, dörd-beş ofisiant əllərindəki xəkəndaz qulpu ilə onu qovub çölə çıxara bilmirdilər. Restoranın administratoru ofisiantların üstünə qışqırırdı:

– Hamınızı iti qovan kimi işdən qovacağam! Hara baxırdınız, korsunuz? Bu qarğa içəri necə, hardan girib?

Ofisiantlar qara qarğanı təqib edə-edə and-aman edirdilər ki, vallah, bütün qapılar bağlıdır, zalda kondisioner işləyir, ola bilsin "fortuçka"dan içəri dürtülüblər. Qarğa təhlükə hiss edib əsəbindən qarıldayırdı, tünd lələkləri həyəcandan titrəyirdi.

Barat bəy həyəcanla səsini qaldırdı:

– Uşaqlar, ehtiyatlı ulun. Şığıyıb gözüvüzü deşər.

Zabilin karıxıb içəridə vurnuxan qarğaya yazığı gəldi, zalın bütün qapı-pəncərələrini açdı ki, onlardan birindən uçub getsin. Nəhayət, qarğa bir neçə dəfə tavanda sürətli dövrə vurub eyvana açılan iri pəncərədən çölə şığıdı. Barat bəyin kefi pozulmuşdu.

– Heç bu yaxşı ulmadı, – dedi. – Qarğa elə-belə gəlmiyib, bizə hansısa mesaj ötürədi.. Yaxşı əlamət deyil...

Fikirləşdi ki, Bakıdan gələn bu qonaq da qarğa kimi qəfil başının üstünü aldı. Başını necə piylədisə, babasının qiymətli yadigarı olan əlyazmanı ondan almağa razı saldı. Gərək heç razılıq verməyəydi. Amma söz ağzından çıxmışdı, artıq ödəşmişdilər, o, nə qədər fəndgir, hiyləgər olsa da, dediyi sözü heç vaxt geri qaytarmazdı. Həm də danışan güllər fikrindən çıxmırdı, belə möcüzəvi çiçəklərdən ötrü heç kimə lazım olmayan əlyazmanı qurban verməyə hazır idi. Onun tez-tez başqa ölkələrdən qonaqları gəlirdi, sehrli gülləri onlara göstərib öyünəcəkdi. Barat bəy hər fürsətdə qarşısındakı adama öz üstünlüyünü nümayiş etdirməyi xoşlayırdı və bundan inanılmaz dərədəcə zövq alırdı. Güllər qönçələrini açır, cəzbedici rayihə yayır, arı və kəpənək qonduqda isə “hopp” edib onları udur. Bu xəyallar onun doymaq bilməyən div nəfsini oxşayırdı.

Bu lənətəgəlmiş qarğa hardan çıxdı? Administrator deyirdi ki, birinci dəfədir buralarda qarğa görürük, görünməmiş işdir. Barat bəyin ovqatı təlx olsa da, özünü o yerə qoymadı. Dodaqucu “lənət şeytana!” – dedi.

Zabil vətənə qayıdıb həyətində möcüzəli gül bağçası salmış Sənanı tapmalı və onunla danışmalı idi. Fikirləşdi ki, şəhərin münasib otellərindən birində yer götürüb bir gecə qalıb dincəlsin və sübh tezdən yola çıxsın. Barat bəy ona “Metropol” otelini məsləhət gördü. Səyyahlar və turistlər üçün nəzərdə tutulmuş otel Xəzər dənizinin sahilində yerləşirdi.Tutqun səma çiçək xəstəliyi keçirən uşaq üzü kimi çopurlaşmışdı. Zabil maşınını otelin həyətində park edib resepsiyona yaxınlaşanda onu sürpriz gözlədiyini ağlına belə gətirməzdi. Administrator sənədləşmə işini bitirdikdən sonra qalacağı otağın açarı ilə birgə ona bağlı bir zərf də uzatdı. Zabil təəccübləndi:

– Bu nədir belə?

– Sizə çatacaq, – administrator qısa şəkildə bildirdi.

Zərfi o üz-bu üzə çevirib heç nə anlamadı. Axı onun bu şəhərdə olduğunu Barat bəydən başqa heç kim bilmirdi.

– Dəqiq mənə çatacaq? – bir də soruşdu.

Əlbəttə, – qarşı tərəf, sadəcə, gülümsədi.

Tələsik addımlarla alçaq pilləkənləri adlayıb ikinci mərtəbədəki otağına qalxdı. Özünü yorğun hiss edirdi, gözləri su kimi axırdı, otağa girən kimi çarpayıya sərələnib yatmaq istəyirdi. Amma bu plandankənar özünü ortaya atmış zərf yuxusunu qaçırtdı. Elə pilləkənləri qalxa-qalxa zərfi açdı, bir parça kağızda tələsik xətlə belə yazılmışdı: “Təcili bu nömrəyə zəng edin”. Bu bir cümlənin altında da telefon nömrəsi yazılmışdı. Zabil cümləni az qala beş dəfə oxudu, Mahaçqaladakı köhnə tanışlarını xatırlamağa çalışdı.

Beş-altı il əvvəl yay vaxtı onun dənizkənarı restoranına Dərbənddən qonaqlar gəlmişdi, onlara yüksək səviyyədə qulluq göstərilməsi üçün ofisiant xidmətinə özü nəzarət etmişdi. Gələnlər sübh açılınca yeyib-içmiş, şənlənmiş, rəqs edərək qızların başına pulu xəzəl kimi səpələmişdilər. Qonaqlar maliyyə bossları idilər, yaxşıca dincəlmək, yeyib-içib kef çəkmək üçün münasib yer axtaranda Toto onlara Zabilin restoranını məsləhət görmüşdü. Toto çox-çox əvvəllər Zabilin himayəçisi olmuş, biznesini inkişaf etdirməsi üçün ona hər cür dəstək göstərmişdi. Toto cavan oğlan idi, əsl adı Tofiq olsa da, hamı onu Toto deyə çağırırdı, atası Türkiyədə otellər şəbəkəsinə sahib idi. Onlar tam təsadüf nəticəsində tanış olmuşdular. Zabil əlinə yenicə pul gəldiyi vaxtlarda Albalı bağları tərəfdə özünə beş sot torpaq sahəsi götürmüşdü ki, özünə təzə ev tiksin. Onun torpağı Totonun atası Balahüseynin villasının beş addımlığında idi. Zabil hər dəfə həyətyanı sahəsinə baş çəkməyə gələndə bu üçmərtəbəli villa əzəmətli görünüşü ilə onu valeh edirdi. Ürəyindən keçirdi ki, kaş onun da belə bir yaraşıqlı imarəti olaydı. Onu da bilirdi ki, həyatın əlifbası çarpışmaqla başlayır. Amma nə qədər çarpışsa da, hələ ki, arzusunda olduğu yerə çata bilmirdi. Zabil aza qane olan adamlardan deyildi, onun müəyyən hədəfləri vardı, məqsədinə çatmaq üçün bütün vasitələri məqbul hesab edirdi.

Qonşulardan öyrəndi ki, bu villanın yiyəsi böyük biznes şəbəkəsinin rəhbəridir. Onu da dedilər ki, Balahüseyn qonşulardan mümkün qədər uzaq olmağa çalışır. Onun “Porsche”si villanın alaqapısına yaxınlaşanda qapı pultla açılır, maşın həyətə daxil olan kimi bağlanırdı. Ən yaxın qonşuları belə, Balahüseynin üzünü görə bilmirdilər. Sanki qonşuların hamısı koronavirusa yoluxmuşdu və buna görə də Balahüseyn cidd-cəhdlə onlardan qorunurdu. Zabil onu çox yaxşı anlayırdı, pullu adamlar həmişə kasıb-kusubdan uzaq olmağa çalışırlar, aşağı təbəqənin adamlarıyla ünsiyyəti özlərinə yaraşdırmırlar. Kasıblar bu cür zəngin adamlara həmişə uzaqdan, sonsuz həsəd hissiylə baxırlar və onların var-dövlətini hesablamaqdan başqa heç nəyə nail ola bilmirlər. Şənbə-bazar günləri Balahüseynin bağına varlı dostları gəlirdilər, qapının ağzında bahalı avtomobillər düzülürdü. Bəzən gecə yarıdan keçənə qədər yeyib-içir, havaya fişəng atırdılar. Vaxt gecəyə doğru uzandıqca, qonaqların kefi içdikləri şərabın təsirindən daha da artırdı. Kasıblar bu pəstahanı görə bilmirdilər, çünki Balahüseynin bağının hasarı çox hündür idi, quş quşluğu ilə bu hasardan o üzə keçə bilməzdi.

İstəyirsiniz villanın həyətindəki cah-cəlalı mən sizə təsvir edim. Həyətdəki iri dairəvi hovuzun suyu hər gün dəyişdirilirdi, hovuzun kənarında şezlinqlər düzülmüş, çətirlər quraşdırılmışdı. Hovuzkənarı barda sərinləşdirici kokteyllər, irland pivəsi düzülmüşdü. Bura bahalı otelin həyətindən heç nəylə fərqlənmirdi. İkinci mərtəbənin meydançasında qonaqlar üçün bilyard stolu qoyulmuşdu. Naxışlarla bəzənmiş hündür tavana qədər uzanan mərmər sütunlar göz oxşayırdı. Kamin barda müxtəlif cür alkoqollu-alkoqolsuz içkilər, şirniyyat və çərəzlər vardı. Bir sözlə, villada Balahüseynin biznesmen dostları üçün hər cür komfort şərait vardı. Sanki adam bu

dünyada cənnətin bir parçasını yaratmışdı. Müxtəlif yollarla əldə edilən haram pullar burda zəngin, ziqiymət əşyalara, mərmər hovuza, Avropa üslubunda tikilmiş villaya çevrilmişdi. Pulun yırtıcı canavara çevirdiyi adamlar bu müasir kahada öz qənimətlərini bölüşdürürdülər. Kiməsə paydan az düşəndə diş qıcayır, hesabı içəri verirdi, qisas almaq üçün məqam gözləyirdi. Bu adamlar zahirən canbir qəlb olsalar da, əslində, bir-birinin qanını içməyə hazır idilər. Burda hər bir zarafat aksesuarı qəfildən cinayət vasitəsinə çevrilə bilərdi.

Totonun oxumaqla, təhsil almaqla arası yox idi, avaraçılığa meylli adam idi, atasının hesabına özünə xırda biznes qura bilmişdi. Onun biznesini də atasının adamları himayə edirdi. Ümid qırıntılarıyla başını qatan Zabil Toto ilə tanışlığa can atırdı, çünki Totonun geniş əlaqələri olduğunu bilirdi. Onun ticarətdə də, oğru aləmində də kifayət qədər tanışları vardı. Totonun özü tez-tez boş əraziyə maşını ilə gəlib orada dolaşan tosqun adamla tanış oldu. Zabil sevincindən az qala çırtıq çalıb oynayacaqdı, özünə havadar tapması hissindən yaranan yaltaqlığı işə salmaq istədi, amma özünü tox tutmağa çalışdı, bəri başdan yüngüllük edib adamın gözündən düşmək ölümə bərabər idi. Belə olanda qeyri-ciddi adam təsiri bağışlayacaqdı və bu da Totonun ondan uzaqlaşmasına səbəb ola bilərdi. Toto indiyə qədər bu ərazidə yad adama rast gəlməmişdi, qonşularla ünsiyyəti olmasa da, uzaqdan-uzağa hamını tanıyırdı. Zabilin mütəmadi olaraq gözə görünməyi diqqətini çəkmişdi, düşünmüşdü ki, görəsən, bu adam kimdir, niyə hər dəfə gəlib boş sahədə maşınını saxlayıb ətrafda dolaşır? Ona nə lazımdır, məqsədi nədir? Uzun sorğu-sualdan sonra anladı ki, Zabilin burda torpaq sahəsi var, özü də ticarətlə məşğul olur. Ağlından keçirdi ki, gələcək qonşusu ilə münasibət qurmağa dəyər, o, kasıb-kusubun, hələm-qələm adamların tayı deyil. Beləcə, dostluqları yarandı. Totonun köməkliyi ilə Zabil həyətyanı sahədə özünə xudmani ikimərtəbəli ev tikdirdi. Arada ondan borca pul da götürürdü və vaxtında qaytarırdı. Aldatmaq, fırlatmaq ağlının ucundan belə keçmirdi. Başa düşürdü ki, Totonu aldatmaqla onu birdəfəlik əldən çıxara bilər, ona görə hər fürsətdə onun etibarını qazanmağa çalışırdı.

Bir dəfə Zabilin qonşu ölkədən gətizdirdiyi parça materialları sərhəddə ilişib qalmışdı. Toto bir zənglə məsələni həll etmişdi, malları sərhəddən buraxmışdılar. Bir neçə dəfə Zabil də Totonun karına gəlmişdi. Tikinti materialları mağazası işlədən Toto Zabilin tanışlarından nisyə olaraq bir neçə kub taxta-şalban götürə bilirdi. Hər ikisinin ortaq tanışları vardı və bu iş birliyi qarşılıqlı etimad sayəsində davam edirdi.

Zabil yorğun və bir az da sərxoş olmağına baxmayaraq, maraq ona güc gəldi, hamama keçib yuyunmamışdan qabaq otaqdakı telefonla kağız parçasına yazılmış nömrəyə zəng vurdu. Telefonun o başından tanış səs qulağını qıdıqladı:

– Ooo, Zabulya! Kefin-halın necədir, qədeş?!

Zabil anındaca bu səsi tanımışdı və təəccübdən gözü kəlləsinə çıxmışdı. Toto! Yaxşı, bəs onun bu şəhərdə, bu oteldə qaldığını hardan, necə öyrənə bilmişdi?

– Toto?

– Nə yaxşı tanıdın? Adım yadından çıxmayıbsa, böyük işdir.

– Nöş belə danışırsan? Bilirsən ki, sənün xətrivü...

Toto onun sözünü kəsdi:

– Hə e, hə. Xətrimi dünyalar qədər istəyirsən, yüz faiz inanıram. Həri, brat. Day Toto sənin neyüvə lazımdur e? İşlərin xod gedir, maşallah!

– Elə demə. Sənün mənə çox kömeyün deyib. Həmişə dimişəm, diyceyəm də. Sən ayrı oğulsan!

– Sən vobşem alayı oğulsan aaa, öz aramızdır. Neçə ildir qərdeşüvi itirib-axtarmırsan. Yenə mən səni axtarıram.

Zabil Totonun qılığına girib incikliyi aradan götürməyə çalışırdı. Balahüseyn inişil nəvəsinin toyunda qəfil ürək tutmasından dünyasını dəyişmişdi. Atasının iri biznesi indi yeganə oğluna qalmışdı. Zabilin Totodan uzaqlaşması şəhərə səs-küy salmış bir hadisədən sonra baş vermişdi. Adam oğurluğunda ittiham olunan mütəşəkkil bir dəstə yaxalanmışdı və bu işdə Totonun adı hallanırdı. Elə Zabilin də bir neçə belə oğurluqda əli olmuşdu, amma vaxtında sudan quru çıxa bilmişdi. Amma Totonun mafioz qüvvələrlə əlaqələri vardı və polis onu nəzarət altında saxlayırdı. Hər an həbs edilə bilərdi. Zabil işi belə görüb tədricən onunla əlaqələri kəsməyə başladı. Amma bu şəbəkədən büsbütün qopmaq qeyri-mümkün idi.

Bir neçə ay qorxu və təşviş içində yaşadı. Hər telefon zəngindən ürəyi əsir, rəngi ağarırdı. Mümkün qədər az adamla ünsiyyətdə olur, bütün günü ofisindən və evdən kənara çıxmırdı. İş karyerası təhlükə altında idi. Vaxtilə Toto ilə tanışlığa can atan adam indi onu tanıdığı günə lənət oxuyurdu. Evdə də, ofisdə də tapşırmışdı ki, naməlum adamları onun yanına buraxmasınlar. Həyətdə maşın səsi eşidəndə xoflanırdı. Qara-qorxunun canından çıxması üçün xeyli müddət lazım oldu. Eşidəndə ki, Toto öz işində-gücündədir, heç kim onu narahat etmir, bir az ürəyi yerinə gəldi. Amma bərayi-ehtiyat, yenə ondan yan gəzirdi. Toto bir neçə dəfə ona zəng etsə də, onunla candərdi danışmışdı. Toto da bu soyuqluğun səbəbini anlamışdı.

İndi də içindən bir gizilti keçdi. İçəri qaranlıq idi, otağın havası ağır, boğucu idi. Kondisioneri yandırmaq ağlına gəlmirdi. Elə bildi otaqda qaranlıqdan savayı heç nə yox idi. Sanki işıq Toto tərəfindən güllələnmişdi. Düşündü ki, bunlar xəstə şüurunun yaratdığı qorxunc xəyallardır. Ürəyində "lənət şeytana!" – dedi. Özünə toxtaqlıq verməyə çalışdı:

– İnan Allaha, başım o qədər qarışıqdır ki, öz adım yadımdan çıxıb.

– Aduvı yaduva saldım də, Zabulya, – Totonun ironiyası xəttin o başından qulağını daladı.

– Sənün işdərin necə gedir, qədeş? Nə yeniliklər var? – Zabil onun tikanlı sözlərini eşitməmək üçün söhbətin səmtini dəyişmək istədi.

– Sən soruşanı bəd döyül.

– Bəs nə bildin burdayam? – Zabil soruşdu.

– Bizim uşaqlar səni günorta "Pirosmani"də görüblər. Tapşırdım onlara ki, səni izləsinlər. Ağsaqqalla görüşməkdə xeyir ola? Yenə nə fırıldağun var, ay xətəkar?

Toto “ağsaqqal” deyəndə Barat bəyi nəzərdə tuturdu. Zabil fikirləşdi ki, zalım oğlunun əli hər yerə çatır, bir sözünü də iki eləyən yoxdur. Allah hərəyə bir cür bacarıq verib, bununsa işini elə bil şeytan düzüb-qoşur.

– Sən də onu tanıyırsan?

– Baa, əyib söhbetdü ki. Ağsaqqal bizim adamdu. Çətin bir iş varsa, deginən həll edək. Mən sən döyüləm e, bəd ayaqda qoyum qaçım. Hər necə olsa da, çörey kesmişik, iş ortağı olmuşuq.

– Yox, heç bir çətin iş yoxdur, tamam başqa bir işlə əlaqədar görüşdük. – Zabil əlyazma məsələsini deməyi əhəmiyyətsiz hesab etdi.

– Özün bil, amma sənə başqa xəbər vermək istəyirdim.

Zabil Totonun niyyətini həmişə havadan qoxulayıb bilirdi, amma indi hansı işlər çevirdiyindən xəbərsiz idi.

– Nə xəbərdir elə?

– Paşanı tanıyırsan da.

Zabil Paşanın qumarbaz olduğunu bilirdi, əvvəllər onu bir neçə dəfə Totonun yanında görmüşdü. Bir dəfə də Zabilin yanına gəlib ondan borc pul istəmişdi. Zabil Paşanın mis kimi sərt, ifadəsiz sifətinə baxıb “yox” deməkdən çəkinmişdi. Eşitmişdi ki, Paşa həmişə üstündə odlu silah gəzdirir. Bir dəfə qumar söhbəti üstündə gedən “razborka”da iki nəfəri güllələmişdi, amma vurduğu adamların heç biri ölməmişdi. Paşa bir müddət həbsdə yatıb çıxmışdı. Təhlükəli adam idi. Zabil pulu verib xatanı başından uzaq eləmişdi. Paşa demişdi ki, “qədeş, sənin pulun uzağı, on beş günə çatıcey”. Zabil pulu gizlincə başına çevirib vermişdi, dodaqucu pıçıldamışdı ki, başıma sadağa. Amma gözlədiyinin əksinə, düz on beş gündən sonra Paşa gəlib şəstlə pulu qəpiyinə qədər stolun üstünə qoymuşdu.

– Qədeş, bu da sənün pulun. Elədiyün yaxşılığa görə çox sağ ol. Məni darda qoymadun. Paşa ömür boyu qulluğunda hazırdu.

Bu əhvalatdan sonra Zabilin Paşaya hörməti yaranmışdı. “Kişi adam imiş, onu yaxşı tanımamışammış”. Paşa ilə bir daha yolları kəsişməmişdi, ara-sıra xeyirdə-şərdə rastlaşanda da bir-birlərinə hörmətlə salam verirdilər. İndi Toto Paşanın adını çəkəndə çoxdan unutduğu hadisə gözünün önündən keçdi.

– Paşanı tanımıyan var? Nə məsələdir?

Telefonun o başından bir müddət səs eşidilmədi. Zabil dəstəyi ağzına yaxınlaşdırıb: – alo, – dedi.

– Paşayla işimiz çəpləşib. Tavanı var, vermir. Neçə dəfə məni aldatdı, əvvəlcə bir həftə möhlət istədi, dedim yaxşı, sonra dedi beş gün də vaxt ver, yenə gözlədim. O vaxtdan yoxa çıxıb, ardınca neçə dəfə xəbər göndərdim, yenə bir səs çıxmadı. Məni başqa işə məcbur elədi.

– Neylədin ki?

– Yadındadır, bir dəfə sənə demişdim, onun bacısından yaman xoşum gəlirdi. Qızı qaçırtmışam.

Zabil düşündü ki, Toto dəhşətli oyun oynayır və bu oyunun sonu heç də yaxşı qurtarmayacaq. Toto dünyaya ancaq maddi tərəfdən baxırdı, işin

mənəvi tərəfləri haqda anlayışı belə yox idi. Onun üfüqləri məhdud dünyasından kənarda baş verən hadisələr qətiyyən onu narahat etməzdi.

– Dəhşətli səhvə yol vermisən, Toto. Paşa bunu sənə bağışlamayacaq. – Zabil ağlından keçən fikri açıq dilə gətirdi.

– Sən məni səhv başa düşdün. Mən o qızla evlənmək istəyirəm, – Toto heç nə olmayıbmış kimi, sakitcə dedi.

Totonun hiyləgərliyinə mat qaldı, niyyətini həyata keçirmək üçün əlinə fürsət düşmüşdü, bir güllə ilə iki dovşan vurmuşdu.

– Hər nədisə, çox təhlükəli oyun oynayırsan, – Zabil onunla söhbəti yekunlaşdırmaq istədi. – Yaxşı, məni axtarmaqda xeyir ola?

Toto Zabilin səsindəki narahatlığı hiss etdi.

– Qorxma, məndən sənə ziyan dəyməz. Yadından çıxarma ki, o çətin günlərində sənə dəstək duran mən olmuşam. Yenə nəsə problemin olsa, qərdeşün qulluğunda hazırdu.

– Çox sağ ol, Toto. Mən sənin yaxşılıqlarını heç vaxt unutmaram. Sənin xətrüvi istədiyimçün deyirəm, Paşanı özün tanıyırsan da, cəncəl adamdır. Ağrımıyan başuva nöş dəsmal bağlıyırsan? Həm də mən biləni, Paşa tavan altda yatan oğul deyil axı.

– Nədi, Paşaya haqq qazandırırsan? Neçə gündür telefonlarıma cavab vermir. Niyə gizlənir? Zəng vurub desin ki, qədeş, uduzmuşam, puluvu verəcəyəm. İki dəfə vaxt istədi, verdim. Mən başkəsən deyiləm ki. Bu, qumardır, pulu yoxdur, evini satsın versin. Zorla onu məcbur etmişəm ki, mənimlə qumar oynasın?

– Nə isə, özünüz bilərsiniz, məni bu işlərə qatma, sən canın, – deyə Zabil yaxasını kənara çəkməyə çalışdı.

– Sənlik bir iş yoxdur. Amma sabah mənə vaxt ayır, səninlə vacib söbetim var.

Zabilin ovqatı təlx oldu, Totonun dabbaqda gönünə bələd idi, bilirdi ki, onu xeyirliyə çağırmır. Toto öz yolundakı maneələri təmizləməkdən ötrü istənilən addımı atmağa qadir idi. Zamanında bu işlərdə Zabilin də ona köməyi dəymişdi. Toto Zabili "uf" demədən güdaza verə bilərdi. Zabilin ən çox qorxduğu məqam da bu idi. Onun ehtiyat edəcəyi bir adam vardısa, o da Toto idi.

– Sabah mən Bakıya qayıtmalıyam, mümkünsə, səhər görüşək, – candərdi cavab verdi.

– Yaxşı, səhər saat onda şəhərdə görüşək, yarım saat vaxtını alacağam, – Toto da söhbəti yekunlaşdırdı.

Zabil duş qəbul edəndən sonra yumşaq kresloya yayxanıb dalbadal bir neçə siqaret çəkdi, uzun düşüncələrə daldı. Yuxusu qaçmışdı. Toto ilə yollarını çoxdan ayırmışdı, indi bu mərdimazar görəsən onu niyə axtarırdı? Qalxıb pəncərəni açdı, dəli külək fit çala-çala içəri təpildi. Fikirləri bir az da dolaşıq düşdü. Totonun zəngi bugünkü yeyib-içməyin ləzzətini burnundan gətirdi.

* * *

Güllər günəşin çıxmasına sevinir, həyatverici şeh damlalarını içir və bir-birinin ardınca çiçək açırdılar. Təkcə bir gül vardı ki, ləçəkləri açılmırdı. Nərgiz ötkəm səslə soruşdu:

– Sən nə vaxt çiçək açacaqsan?

– O, qışda çiçək açır, – lalə kinayə ilə güldü.

Bu söz gülün xətrinə dəysə də, dinmədi. O da çiçək açmaq istəyirdi, lakin buna gücü çatmırdı. Onu təşviş bürümüşdü; yəni doğrudanmı çiçəyi olmayacaq, toxum tökməyəcək? Mənasız ömür sürərək məhv olub gedəcək? Bu fikirlər rahatlığını əlindən almışdı.

Bütün güllər şirin yuxuda ikən qəfildən gözləri qamaşdı. Ay çıxmışdı. Gül Ayın gözəlliyinə heyran qaldı, ürəyi sevinclə vurmağa başladı. İçində bir təlatüm əmələ gəldi. Bu gecə çiçək açacaqdı. Ya bu gecə, ya da heç vaxt!

Sənan da yatmamışdı, səhər Lamiyənin görüşünə gedəcəkdi deyə, düşüncəli idi. Güllərin yanına gəlib onlarla söhbətləşmək istədi. Gözü bir küncdə küsgün ədayla başını aşağı əymiş gülə sataşdı.

– Yerin yaxşı deyil deyəsən...

Gül susurdu, nə deyəcəyini bilmirdi. Sənan gülün gövdəsini oxşadı, ılıq təmasdan gül başını qaldırdı, yanağından oğlanın əlinin üstünə bir damla yaş düşdü.

– Dərdin nədir sənin? Niyə belə həyatdan küsgünsən? – deyə soruşdu.

Qızılgülün tikanları onun budağını yaralamışdı. Sənan bunu indi gördü. Gülün yerini dəyişmək lazım idi. Onu torpaqqarışıq yerindən çıxarıb nərgizlərin böyründə əkdi. Nərgizlər başlarını yelləyib onu təbrik etdilər:

– Təzə yerin mübarək! Bundan sonra sən də bizim kimi çiçəklə-yəcəksən.

Gül içindəki narahatlıqdan xilas olmuş kimi, sevincək titrədi. Nərgizlərə təşəkkür etdi.

Səhər açılınca Sənan həyətə, güllərin yanına tələsdi. Gül ləçəklərini açıb ətrafa təşəxxüs satırdı. Təzə yerində gül rəngini dəyişmişdi, çəhrayı don geyinmişdi. Sarı ləçəkləri çəhrayı rənglə naxışlanmışdı. Ətri bağçanı başına götürmüşdü. Sənan onun ləçəklərini oxşayıb ətrini ciyərlərinə çəkdi. Nərgizlər onu qibtə ilə süzürdü. Gül xoşbəxt idi...

* * *

Sənan Lamiyənin görüşünə bir dəstə nərgizlə gəlmişdi. Lamiyə nərgizləri köksünə sıxdı, çiçəklərin ətrindən bihal oldu. Çiçəklər də sanki qızın tər nəfəsindən canlandı, ləçəkləri titrədi. Kəpənək parkının ən sakit, adamsız guşəsinə çəkildilər. Onların arasındakı eşq hələ məsum, ürkək çağlarını yaşayırdı, əlləri belə bir-birinə toxunmamışdı. Aralarındakı cazibə qüvvəsinin mövcudluğu danılmaz fakt idi. Onların sevgisinə çiçəklər vasitəçilik etmişdi. Sənanın anası onu heç cür evlənməyə razı sala bilmirdi, hər dəfə bu barədə nəsə deyəndə Sənan araya söz qatıb söhbətdən yayınırdı. Lamiyənin baxışlarından isə yayına bilmədi. Əlbəttə, o da nə vaxtsa ötəri hisslərin əsiri olmuşdu, romantik xülyaları nəticəsində

çoxlu əziyyət çəkmişdi; emosiyalar tonqalı yanır, həzz bitincə, külü qalır. Sənan da hər dəfə o külü üfürüb həyatına davam edirdi. Fikirləşdi ki, görəsən, düşdüyü bu situasiyanın əlamətləri əvvəlkilərin təkrarı deyildimi? İndi çox şeyin bu çılğın, şıltaq qıza deyəcəklərindən asılı olduğunu bilirdi. İnstinktləri onu heç vaxt aldatmırdı, bu qız onun həyatına xüsusi məna qatmağa başlamışdı. Lamiyənin ona zillənən baxışlarında əvvəlki vaxtlarda heç bir qızda görmədiyi güclü xarakter, qətiyyət sezdi. Şıltaqlıqla ciddiyyət onun simasında heyrətamiz dərəcədə bir-birini tamamlayırdı.

Sənan yanında əyləşmiş qızın varlığını bütün vücudu ilə hiss edirdi. Köksünü təlatümə gətirən bu qeyri-adi hisslər ötəri bir duyğu deyildi. Bu qız onun qəlbinin sarı siminə toxunmuşdu.

Sonralar fikirləşirdi ki, yəqin anası ondan gizlin bu işi güllərə həvalə edib. Sevgi toxumunu onun ürəyinə elə güllər səpib.

Qızın çiyinlərindən, sinəsindən və dizlərindən günəşin şüaları süzülürdü, qız onları bəmbəyaz, zərif əlləriylə sığallayır, dərisinin altından isə dan yerinin şəfəqi rəngindəki qanı görünürdü.

Lamiyə titrək səslə: – Bu çiçəklər sevgimizə şahid olsun, – dedi.

Sənan gülümsədi:

– Olsun. Amma bu çiçəklər məni sənə qısqanacaqlar.

– Mən də o güllərə sənin kimi sevgimi verəcəyəm. Onda da sən məni onlara qısqanacaqsan, – deyə Lamiyə cavab verdi.

Gülüşdülər. Lamiyənin təbəssümü Sənanın ürəyini titrətdi, qeyri-ixtiyarı Lamiyənin əlini ovcunun içinə aldı və dodaqlarına yaxınlaşdırdı. Lamiyənin yanaqları allandı. Sənan ötən gecəki yuxusunu xatırladı. Yuxuda görürdü ki, birgünlük kəpənəklər topalarla göydən ələnərək ilk qar kimi yerə tökülmüş bənövşəyi xallarla dolu almaların üstünə yağır. Lamiyə isə bu kəpənək yağışı altında dəlicəsinə ora-bura qaçır, ağlamsına-ağlamsına bir az əvvəl dişlədiyi və əlindən düşmüş almanı axtarır. "Mənim almam hanı? Necə oldu mənim almam?"– deyə qışqırır.

Sənan yuxudan ayılandan sonra uzun müddət bu yuxunu yozmağa çalışdı, amma bir nəticə hasil edə bilmədi.

– Yuxuda bilirsən nə görmüşəm?

– Nə görmüsən? – Lamiyə maraqla soruşdu.

Sənan gecə gördüyü yuxunu qıza danışdı. Lamiyə fikirli-fikirli gülümsədi:

– Nə qəribə yuxudur, özü də oğlan yuxusudur.

Sənan təəccüblə soruşdu:

– Necə yəni oğlan yuxusu?

– Belə yuxuları oğlanlar görür. Yuxuda alma yemək gözəl bir qızla görüşə işarədir, – Lamiyə bunu deyib gözlərini bic-bic oynatdı.

– Doğrudan? – Sənanın da üzünə utancaq təbəssüm yayıldı.

– Həə, – qız sözü uzatdı.

– Bəs kəpənək?

– Kəpənək də sevgiyə işarədir. Yəni bir qızla görüşəcəksən və onu sevəcəksən. – Lamiyə çiyinlərini oynatdı.

– Hm, belə de. – Sənan fikrə getdi.

– Nədi, xoşuna gəlmədi?

– Qəşəng yuxu imiş.

Lamiyə əl atıb şıltaqcasına Sənanın saçlarını qarışdırdı.

Heç biri psixoanalizin banisi Freydi oxumamışdı, oxusaydılar, onun bu fikrinə mütləq rast gələrdilər: “Yuxular şüuraltının qızıl açarıdır”.

– Sevgi insandan asılı olmayan, onu qəfil yaxalayan bir hissdir, amma sədaqət insandan asılıdır. İnsan sevgisinə sadiq olmağı bacarmayanda, o sevgi uzunömürlü olmur, çiçəklər kimi solur. – Lamiyə bu sözləri deyəndə indidən aralarında yaranmağa başlayan sevgini sədaqətlə sığortalamaq istəyirdi.

Sənan qayğılı-qayğılı dilləndi:

– O gün dostumun əlində bir kitab gördüm. Adı beləydi: “Məhəbbət üç il yaşayır”. Elə pis oldum ki. Axı bu, məhəbbətdirsə, üç ilə necə tükənə bilər?

– Yəqin xarici yazıçının kitabı olub. Bizimkilər heç vaxt elə kitab yazmaz, – Lamiyə arxayıncasına dedi.

– Niyə yazmır ki?

– Çünki bizim üçün məhəbbət, sevgi müqəddəsdir. Avropa insanının sevgisi dəyişkəndir. Bu gün birini sevirlər, sabah başqasını. Onların həyat tərzi budur. Bizdə belə şey ola bilməz.

– Hə, düz deyirsən. Bizim babamız Məcnun olub, nənəmiz də Leyli.

Lamiyə Sənanın bu yarızarafat, yarıgerçək sözünə ürəkdən güldü.

– Təki taleyimiz Leyli ilə Məcnunku kimi olmasın, – dedi.

– Deyirsən səni mənə verməzlər?

– Atam yaxşı adamdır, amma qardaşlarım məni heç oxumağa, təhsil almağa qoymadılar.

– Niyə?

– Deyirlər qız nədi, oxumaq nədi? Böyüdü, çıxıb getsin ərə.

Sənan gülümsədi.

– Biz evlənəndən sonra təhsil alarsan.

– İcazə verərsən? – Lamiyə sevincək soruşdu.

– Niyə icazə vermirəm ki? – Sənan dedi.

Lamiyə qeyri-ixtiyari qollarını Sənanın boynuna doladı.

– Sağ ol e. Bir dənəsən.

Sonra etdiyi hərəkətdən utandı, bu, elə qəfil baş verdi ki, bir anda özünü itirdi. – Bağışla, – deyə pıçıldadı.

– Neylədin ki, bağışlayım? Dəlisən e, vallah. Qızlar həmişə sevinəndə belə edir də.

Sənanın üzündəki uşaq saflığı Lamiyəni duyğulandırdı, düşündü ki, bundan sonrakı həyatını onunla birgə yaşamağa dəyər. Bu gözlərdə biclik yoxdur, sanki ürəyi gözlərində çırpınır, ürəyini gözlərindən asanlıqla oxumaq olur.

* * *

– Ata, axı xəritədə Məhəbbət dərəsi deyilən yer yoxdur, – qızı məyuscasına Adəmə sığındı.

– Yaxşı bax, qızım. Diqqətlə baxsan, tapacaqsan, – Adəm qızını ruhdan salmaq istəmədi. İpək saçlarını sığallayıb alnından öpdü.

– Bilirsən, qızım, Günəş əmi hər axşam orda gecələyir, səhər yenə qalxıb dünyanı öz işığı ilə bəzəyir. – Həvva mətbəxdəki işinə ara verib qızına Məhəbbət dərəsi haqqında danışmağa başladı. Ərini danlamağı da yaddan çıxarmadı: – Bu nə almalardır almısan? Hamısı çürükdür. Alanda bir baxaydın da.

Adəm sinirləndi:

– Sən onsuz da mənim aldığım heç nəyi bəyənmirsən. Düşüb özün alaydın.

Həvva başını bulayıb yenə qızına izahat verməyə başladı:

– Hə, qızım. Deyilənə görə, bir gün qarabağır quşları özünə rəhbər seçmək üçün yola düşürlər. Simurq quşunun ardınca gedirmişlər, bir axşam Məhəbbət dərəsində qalası olublar. O vaxta qədər bu quşlar hər gün bir-birinin ətini didirmişlər, şanapipik bu vəziyyəti görüb onlara məsləhət görüb ki, uçub gedin, Simurq quşunu tapın, onu özünüzə rəhbər seçin. Ondan sonra hamınız canbir qəlb kimi yaşayacaqsınız. Quşlar da səfə düzülüb yola düşürlər. Uzun bir yol qət etdikdən sonra lələk salıb əldən düşürlər və bu Məhəbbət dərəsində yerə enirlər ki, bir hovur dinclərini alsınlar. Göz qamaşdıran işıqda bir anlıq Simurq quşu gözlərinə görünür. Gözlərini yumub-açınca Simurq yoxa çıxır və bir daha gözə dəymir. Bax elə bu yerdə onlar anlayırlar ki, hər biri bir Simurq quşudur. Məhəbbət dərəsi, daha doğrusu, məhəbbət onların arasındakı kin-küdurəti yuyub aparır, hərəsi o işıqdan özünə bir ovuc pay götürərək daha heç vaxt bir-birlərinə kin bəsləmədilər.

Cahan maraqla anasına qulaq asırdı və bu dəmdə ağlına belə bir sual gəldi:

– Ana, bəs Ay harda yatır?

Həvva gülümsədi:

– Hə, elə Ay da ordan çıxır. Onlar növbə ilə işə çıxırlar. Səhər Günəş üfüqdə görünəndə Ay öz növbəsini ona təhvil verib həmin Məhəbbət dərəsinə çəkilir.

Cahan sevincək atılıb-düşdü və əllərini bir-birinə vurdu:

– Ay daa, nə qəşəngdir e.

Adəmin bu nağılı qızına danışmaqda məqsədi vardı. Ona görə də ona sual verdi:

– Hə, qızım, indi de görək bu nağıldan nə başa düşdün? Şanapipik nəyə görə qarabağır quşlarını Simurqu axtarmağa yollayır?

Cahan ağıllı gözlərini qıyıb fikrə daldı, sonra sualının cavabını tapıbmış kimi, sevincək çiyinlərini oynatdı:

– Hə, tapdım, ata. Deməli, şanapipik o quşları barışdırmaq istəyirdi.

– Aha, sonra? – ata gülümsəyərək qızının növbəti izahını gözlədi.

– Ona görə onları uzaq yola göndərdi ki, dalaşmağa vaxtları olmasın.

– Ay sağ ol, qızım. Bəs sonra?

– Bu uzun, yorucu yol quşları ağıllandırmaq üçün idi. Onlar bu uzun yolda həyatla tanış oldular və anladılar ki, elə hər biri bir Simurq quşudur.

– Afərin! Düz tapdın.

– Ata, bir söz də deyim?

– De, mənim ağıllı balam.

– Məhəbbət olan yerlər işığın yuvasıdır, düzdür?

Adəm qızının ağlına, zəkasına heyran oldu, onu bağrına basıb dumduru gözlərindən öpdü.

* * *

Günəşin dincəlməyə gedən vaxtıydı. Günortadan xeyli keçmiş, Vahabın çayxanasında müştərilər artmağa başladı. Kənd kişilərinin nərd, domino azarı bu vaxtlar tutur. Vahabın üzü üzlər görmüş iri samovarı bu vaxtdan başlayaraq gecə saat on birə, on ikiyə qədər nəfəs dərmədən xoş ahənglə dızıldayırdı. Vahab, çay dəsmalı çiynində, yorulmadan müştərilərin qulluğunda durur, nəlbəkidə armudu stəkanları bir neçə mərtəbə düzüb masaların arasında dolaşırdı. Pullu müştərilər çox vaxt hesabdan əlavə də Vahabın cibinə beşdən-üçdən ötürürdülər. Onda Vahab cibinəcən sevinirdi.

Paşa içəri girəndə Vahabın kefi kökəldi, büllur armudu stəkanı suya çəkib yaxşıca quruladı. Paşanın stəkan-nəlbəkisi ayrıca idi, o gələndə Vahab əlüstü onun üçün məxsusi olaraq mixəkli çay dəmləyirdi. Paşanın üzünə baxan kimi, əhvalını göydə tuturdu. Bu dəfə gözünə yaxşı dəymədi. Adətən, qumarda uduzanda belə bikef olurdu, kimsə ürək edib ona nəsə deyə bilməzdi. Bir dəfə elə bu çayxanada iri çaydanı köntöy danışan kişinin təpəsinə çırpmışdı. O vaxtdan hamı Paşadan çəkinirdi, o, ayağını içəri qoyan kimi, istər-istəməz hamı özünü yığışdırırdı. Çayxananın havası da elə bil bir az ağırlaşdı.

Paşa keçib əvvəlki yerində oturdu və ayağını bir-birinin üstünə aşırdı. Kənd uşaqları biveccəsinə domino çırpırdılar, gözucu Paşaya baxıb narazılıqla başlarını buladılar. “Bu da vaxt-bivaxt gəlib bir əngəloza çıxarır”. Kimsə astadan dilləndi. Vahab armudu stəkanda buğlanan xoruzquyruğu çayı Paşanın qabağına qoydu. Paşa başını qaldırmadan: “Sağ ol”, – dedi.

– Buyurginən, – Vahab təkcə bunu deyib öz xanəsinə çəkildi.

Adətən, Paşa Vahabla biədəb zarafatlar edirdi, müştərilər də uğunub gedirdilər. Bu dəfə belə olmadı və Vahab da belə məqamlarda zarafatın çox təhlükəli olduğunu anlayıb, dinməzcə öz işiylə məşğul olmağa başladı.

Domino çırpan oğlanlardan biri o birisinə göz vurub Paşanı göstərdi:

– Bu da nə hoppanıb-düşür e? Bilirsən də, bacısı o elektrik var e, Sənan, onunla fırlanır.

Stoldakı uşaqların rəngi kağız kimi ağardı, Paşanın qəzəbli baxışları xəncər kimi hamısını biçib tökdü. Üzbəüz oturan arıq, çəlimsiz oğlanın alnına tər gəldi.

– Alə, başun xərəbdü? Nə danışırsan? Eşitdi e.

Paşa yerindən qalxmadan dedi:

– Alə, küçük! Nə dedün sən?

Oğlan büzüşüb yumağa döndü, az qaldı stolun altına girsin. Arxaya çevrilməmiş, Paşanın güclü əli məngənə kimi boğazını sıxmağa başladı.

– Sənün anovı!... Dediyivi təkrar elə!

Oğlanın ayaqları yerdən üzülmüşdü, çabalayırdı. Heç kim cəsarət edib onu Paşanın əlindən ala bilməzdi. Künc masalardan birində oturmuş ağsaqqallardan biri gördü ki, binəva artıq xırıldayır, yerindən qalxıb Paşanı qucaqladı:

– Paşa, səni and verirəm ölənlərivün goruna, burax uşağı!

Paşanın gözləri qəzəbdən qan çanağına dönmüşdü.

– Ağakərim dayı, çəkil kənara. Bunun şalvarını burda çıxarıb p...x eləməsəm, kişi olmaram.

Vahab qorxusundan sarısını udmuşdu, ürəyində fikirləşirdi ki, əcəb oturduğumuz yerdə zibilə düşdük.

Paşanın məngənə barmaqları arasında boğulan oğlanın anası namaz üstə imiş. Qəfildən Paşanın əli boşaldı, onu buraxdı. Oğlan kökündən kəsilmiş ağac kimi çayxananın ortasında yerə sərildi. Stullardan bir neçəsi aşdı. Ağakərim kişi dərindən nəfəs alıb xilaskar ədasıyla keçib yerində oturdu.

– Allah şeytana lənət eləsin! – deməyi də unutmadı.

Müştərilər qımıldanmayıb nigarançılıqla yenə nəsə olacağını gözləyirdilər. Amma daha nəsə olası deyildi, Paşa əlini şalvarının arxa cibinə aparıb nəyinsə yerində olub-olmadığını yoxladı və sürətlə çayxanadan çıxdı. Vahab hələ də yerdə oturub boğazını ovuşduran oğlanı söydü:

– Dur cəhənnəm ol burdan, düdük! Xatanı başımızdan uzaq elə. Bir də ayağun bura dəyməsün! Bildün alə?

Oğlan hələ də özünə gəlməmişdi, səndirləyə-səndirləyə yerindən qalxıb çayxananın açıq qapısına doğru addımladı. Arxadan Vahabın qəzəbli səsini eşitdi:

– Səni bir də bu həndəvərdə görsəm aaa, məndən incimə!

Vahab dərindən nəfəs alıb əlinin arxasıyla alnının tərini sildi.

– Yaxşı qurtardığ. Gərey Məsmə gələndə tasaddığ çıxarım ki, qadabaladan uzaq olaq.

Dəli Məsmənin arada yolu Vahabın çayxanasından düşürdü, bir küncdə oturub cavanların, kənd cayıllarının atmacası altında çayını hortuldadır, hirslənəndə enlibalaq tumanını qaldırıb ayıb yerini onlara göstərir, deyinə-deyinə çıxıb gedirdi. Keçən dəfə Vahab bir balaca onun xətrinə dəymişdi:

– Ay Məsi, çayıvı içdün, davay, dur bas bayıra.

Dəli Məsmə yazıq görkəm alıb baxışlarıyla ondan bir az da vaxt istəmişdi.

– Məsmə, boğdun bizi iydən. Axırıncı dəfə ərə gedəndə çimdiyindir, gərey protivoqaz taxey sənin əlünnən. – İtoynadan Etibar domino daşını stola çırpa-çırpa o başdan narazılığını belə bildirdi.

Dəli Məsmə anladı ki, indicə lotular onu hoydu-hoyduya götürəcəklər, sakitcə sivişib aradan çıxdı. Qazancı elə bir stəkan çay oldu. Olmayan cibinə pul qoyan da olmadı.

Vahab Məsmənin qarğışından cin bismillahdan qorxan kimi qorxurdu. Məsmənin qarğışladığı adam mütləq zavala gəlirdi, ona görə də hamı ondan çəkinirdi və kimin qarşısına çıxırdısa, beşdən-üçdən verib onu razı salırdılar. Təki xata başlarından uzaq olsun. Uşaqlar Məsmədən qorxurdular, mis rənginə çalan sifətində bitmiş dəngül-düngül lüzumsuz, ağarmış tüklər və qeyri-müəyyən, heç nə ifadə etməyən baxışları onları vahiməyə salırdı. Eləcə uzaqdan Məsməyə sataşıb qaçırdılar. Məsmə də gül ağzını açıb söyüş sandığında nəyi vardısa, səxavətlə sağa-sola səpələyirdi.

Günlərin bir günü Sənan yolun ortasında onu saxlayıb kef-halını soruşanda Məsmə bərk təəccübləndi. Bu qəfil isti münasibətdən karıxıb gözlərini döyə-döyə qaldı, bilmədi qarşısındakı cavan oğlana nə cavab versin. Sənan əlindəki bir topa çiçəyi ona uzadanda bir Allah bilir ki, qadınlığını çoxdan unutmuş Məsmə nə hala düşdü. Dilinin altında anlaşılmaz sözlər dedi, yaddaşın xarabalıqları altında qalmış hisslərini sözə çevirə bilmədi. Dili ağzında böyüyüb batman daşına döndü. Handan-hana dilinə bir ad gəldi:

– Arif... Toşnu Arifin özüsən. Mən də onda mən idim aaa! Arif ölürdü mənimçün.

Məsmənin qurumuş sifəti yumşaldı, gözlərinin dibində illərin o tayında qalmış iynə ucu boyda işıq səyridi. Dodaqlarında utancaq bir təbəssüm çırpındı, öz-özünə gülməyi gəldi. Özündən, indiki halından utandı Məsmə. Bir vaxtlar Məsmə də qadın olmuşdu, küçə boyunca öz gözəlliyindən şövq ata-ata yeriyəndə çox kişilərin ağzının suyu axmışdı. O cür əyyamlar olmuşdu. İndi Məsmənin haçansa təravətli, gözəl bir qadın olduğuna, kişilərin ona meyil saldığına kim inanardı? Hamıya elə gəlirdi ki, Məsmə bu dünyaya elə bu cındır görkəmdə – enlibalaq tumanda, geyilməkdən və kirdən sürtülmüş köhnə-külüş kişi pencəyində, damağında “Avrora” tüstülədə-tüstülədə, burnunun suyu ağzının suyuna qarışa-qarışa gəlib. Məsmənin sanki hissləri, duyğuları da kir altda qalmışdı, o, qadın olduğu zamanları çoxdan unutmuşdu. İndi şüurunda qəfil bir şimşək çaxmışdı və yaddaşın künc-bucağında toz basmış xatirələr işıqlanmışdı.

Sənan ona nəsə xoş söz deyib əhvalını durultmaq istədi. Birdən Məsmə küçənin ortasında gülləri sinəsinə sıxıb büküldü, gözlərindən yaş axmağa başladı. İçin-için ağlayırdı Məsmə. Güllər onun itmiş yaddaşını özünə qaytarmışdı. Ürəyinin lap dərinliyinə çökmüş hisslər bir burum qaynadı və göz qapaqlarından aşıb yanağı boyu süzülməyə başladı. Lap min il bundan qabaq, özünün də çiçəkdən seçilməyən vaxtında cavan bir oğlan ona çiçək gətirmişdi və Məsmənin ürəyi əsmişdi. İndi də Məsmənin ürəyi o cür əsdi, cadar-cadar olmuş bədəni hardansa axan həyat suyunu canına çəkdikcə dirçəldi, qeyri-ixtiyari ağarmış, pırtlaşıq saçlarına sığal çəkdi. O, bu bədəni bihudə yerə qocaltmışdı, bar verən ağacın suyunu kəsmişdi. Bu dəri örtük daha Məsməyə gərək deyildi. Amma nə baş verdisə, dəli Məsmə birdən-birə ağac kimi puçurladı, nazilmiş qolları o ağacın budaqlarına, qucağındakı çiçəklər o budaqların bir parçasına çevrildi.

Məsmə ucsuz-bucaqsız səhrada tək-tənha ağac kimi illər boyu tufanlara sinə gərərək yaşamışdı. Üstünə çox dəli küləklər əsmişdi, başına qar-yağış döymüşdü, amma yaşamışdı. İndi ömrün qurtaracağında, ömür ağacının yarpaqları xəzələ çevrildiyi bir vaxtda, taleyinin son fəslində birdən-birə içində bir yaz havası əsmişdi. Dəli Məsməni dəli eləyən, sümüyünü gizildədən, ürəyini atlandıran da elə bu hava idi.

– Mən Arifin oğlu Sənanam, – Sənan dilləndi.

Dəli Məsmə Sənanın gər səsində qədim bir tanışlıq hiss elədi, adam doğulduğu torpağın qoxusunu belə hiss edir. Qarşısında dayanan adam eynən Arif idi. O yan-bu yanı yox idi.

Məsmənin büzüşmüş dodaqları arasından yenə eyni ad çıxdı:

– Arif...

O, heç cür keçmiş zamandan qopa bilmirdi, keçmişlə indinin arasında vurnuxa-vurnuxa qalmışdı. Vaxt onun üçün ancaq geriyə işləyirdi. Zamanın əli dəyməmiş keçmiş isə onu gələcəkdə gözləyirdi. Məsmə o gələcəyi yaşamaq üçün qoynundakı güllərdən güc alırdı.

– Sənin həyatını yaşamadığım üçün dərdinin böyüklüyünü anlamaq imkanım yoxdur, Məsmə xala, – Sənan dedi, – amma çox istərdim ki, bu güllər səni keçmişə yox, gələcəyə səsləsin.

Məsmə bu cavan oğlanın dediklərindən heç nə anlamadı. O, Sənanın simasında Arifi, keçmişi görürdü. Baxışları ilə ona təşəkkür etməklə kifayətləndi. Alın yazısı sanki kirpiklərinə tökülmüşdü, kirpikləri ağırlaşmışdı.

Qurumuş gülün ətri tədricən özünə qayıdırdı.

* * *

Gecənin bir aləmində qəfil telefon zəngi Totonu şirin yuxudan oyatdı.

– Qızı qaçırtdıq, – naməlum adam sözünü kəsə dedi.

Toto elə bil heç yatmamışdı, beyni oyaq idi, düşünmədən dilləndi:

– Dediyim yerə aparın.

– Oldu.

Bununla da telefon əlaqəsi kəsildi.

Yuxusu qaçdı, quş cəldliyi ilə yerindən qalxıb gərnəşdi. Pərdəni çəkib pəncərədən qaranlığın nəbzini yoxladı; səhərin açılmağına hələ çox var idi. Toto hər şeyi əvvəlcədən ölçüb-biçmiş, lazımi tədbirləri görmüşdü. Qızı Zabilin yaşamadığı bağ evlərindən birində gizlədəcəkdilər. Bura heç kəsin ağlına gəlməyən bir yer idi. Zabilin ən yaxın dostları belə kəndin ucqarında yerləşən, diqqət çəkməyən bu bağ evini tanımırdılar. Totonun Zabillə münasibətlərini bərpa etdiyini də ikisindən savayı bir kimsə bilmirdi.

Toto özündənrazı halda gülümsəyib soyuducunu açdı, buz kimi irland pivəsini elə şüşədən başına çəkdi və dərindən nəfəs aldı.

– Həə, Paşa. Belə-belə işlər. Gərək borcun üstündən xətt çəkim. Necə olsa da, daha qohumuq. Amma bundan sonra gərək belə səhvlərə yol verməyəsən.

Çarpayının böyründəki dolabın üstünə qoyulmuş abajurun işığı otaqda nəhəng bir kölgə əmələ gətirmişdi, ağ, qanadlarında qara xallar olan,

hardansa otağa düşmüş bir kəpənək inadla özünü pəncərənin şüşəsinə çırpırdı.

Toto çarpayıya sərildi və elə o dəqiqə yuxunun dibinə yuvarlandı.

* * *

Çiçəklər günəşi görüb sanki sevincdən tərləmişdi, tülpan elə bil yanıb-sönür, nərgizlər nazik gövdələri üzərində yırğalanırdı. Güllərdən xəfif bir rüzgar əsirdi və qızın saçlarını dalğalandırırdı. Qız şirin duyğudan məst olmuşdu. Xallı kəpənəklər sevinc içində güllərin başı üzərində sanki yallı gedirdi. Kəpənəklərdən biri ağ gülün üzündən öpdü, gülün ləçəkləri həyadan çəhrayı rəng aldı. Sənanla Lamiyə onun iniltisini eşitdilər. Sənan təəccüblənmədi, Lamiyə heyrətlə sevgilisinin üzünə baxdı. Sənan gülüm-sədi:

– Onlar da eşqə mübtəla olublar. Eşq olmasa, nə gül, nə kəpənək özünü tanımaz. Sevgi onların varlığının sübutudur. Biz onları eşitdiyimiz kimi, onlar da bizi eşidir.

– Bu güllər səni əməlli-başlı filosof edib, – Lamiyə ayaq barmaqları ucunda qalxıb kəpənəyin hərəkətini təkrarladı, Sənanın yanağında dodaqlarıyla gül şəkli çəkdi.

Günəş işığı ilə bəslənmiş nərgizlər gizlincə bir-birinə göz vurdular. Onlar artıq öz işlərini görmüşdülər; başları üstə dayanmış sevgililər çiçəklərin zəhmətinin bəhrəsi idi. Qızın yanaqları sanki cənnət alması idi. Sənan babası Adəmin günahını təkrarlamalı idi ki, həyat davam etsin. Dodaqlarını alma yanaqlara toxundurdu. Güllər arasından bir "ah" qopdu. İkisi də çevrilib baxdılar, bir budağın iki gülündən biri – qırmızısı ləçəklərini büzmüşdü. Bu, necə ola bilərdi? Axı indicə ləçəklərində şeh oynaşırdı? Xallı kəpənək başlarına dolanırdı. Ən qəribəsi bu idi ki, bayaqdan güllərin başı üstə səmazənlər kimi şövqlə rəqs edən kəpənək bir anın içində canını tapşırıb ayaqları altına düşdü. İkisi də heykəl kimi donub qalmışdı, nə deyəcəklərini bilmirdilər.

– Niyə belə oldu? – Lamiyə uşaq kimi dodaqlarını büzdü.

– Bu, sadəcə, yuxudur. Yuxudan ayılanda həqiqəti biləcəyik, – Sənan pıçıldadı.

Yaddaş çiçəyi əvvəlki əzəməti ilə susurdu. Həqiqətin qeyri-müəyyən kölgəsi onun ləçəkləri altında gizlənmişdi.

* * *

Əyilib lap ehtiyatla dodaqlarını Həvvanın saçlarına toxundurdu. Həvva üzündə nəfəs duyub gözlərini açdı. Adəmi, onun gözlərindəki sonsuz məhəbbəti görüb qollarını ərinin boynuna doladı və "həyatım mənim, – dedi, – axır ki, gəlib çıxdın".

Adəm onun gözlərinə baxa-baxa düşünürdü ki, bəs, deyirlər insanın gözləri qocalmır? Yalan söhbətdir. İnsanın gözləri də qocalırmış, yoxsa Həvvanın o işıqlı, iri, qaynar gözləri indi belə yorğun, üzgün, kədərli olmazdı. Ürəyindən keçən hissi büruzə verməməyə çalışdı. Həvvadan

nəsə gizlətmək olardımı? Ərinin gözlərində görünüb tez də itən kölgəni sezdi.

– Nə fikirləşirsən? – deyə soruşdu.

– Səni düşünürəm, əzizim. Düşünürəm ki, dünyadan, vaxtdan özünü yığıb mənim içimdə yuva qurmusan.

Həvvanın gözləri doldu.

– Sənin məhəbbətin mənim dünyamdır, mən vaxtımı sənin dünyanla hesablayıram.

Adəm bu dəfə Həvvanın gözlərindən öpdü.

Həvva zənbili boşalda-boşalda Adəmi tərifləyirdi:

– Sənin bazarlığından olmaz da. Elə bil almaları bircə-bircə seçmisən.

Adəm o biri otaqda paltarını dəyişirdi, ordan cavab verdi:

– Sən elə məni almayla yoldan çıxartdın da.

Həvvanın kişmişi gülüşü otaqlara yayıldı. Qırmızıyanaq almalar bu mikrocənnətdə onları növbəti "günah"a sövq edirdi.

Gecə Həvva gündəliyinə bu sözləri yazdı:

"Çərşənbə axşamında günorta çağı günün yorğunluğundan istirahət etmək üçün güllərin içində nazlanan kəpənəklərlə birlikdə dincəldim. Bu gözəl varlıqlar sanki səmadan Allahın gülüşünü qazanıblar. Sanki insan ruhunun zərrələridir. Bura sanki keçmişlə gələcək arasındakı naməlum bir vadi idi. Suallar beynimdə inadkar arılar kimi vızıldayırdı: Görəsən o, məni sevirmi? Sevirsə, bəs niyə mənə bu qədər laqeyddir? Niyə mənimlə görüşə can atmır? Mənə qarşı heç bir maraq göstərmir. Tək-tənha dağ-daşda dolaşır. Birdən-birə ürəyim sıxıldı. Mamırlı sahilə getdim, ayaqlarımı suya salıb oturdum. Ürəyim qüssədən sıxılanda bura gəlirdim. Əlbəttə, gölə rəsmi düşən o ağbəniz bədənin yoldaşlığı kifayət etməsə də, heç olmasa, tənhalıqdan yaxşı idi. Mən danışanda o da danışır, mən qəmgin olanda o da qüssələnirdi. Məni sakitləşdirərək deyirdi: "Ruhdan düşmə, yazıq tənha qız, mən sənin dostun olaram". O, mənim yeganə dostum, əkiz bacım idi.

Darıxmamaq üçün bir qədər gül-çiçək topladım, onlardan çələng düzəldib başıma qoydum, özümü qəşəngcə bəzədim. Hər zamankı kimi səhər yeməyinə çoxlu alma yedim, kölgədə oturub onu arzuladım. Bütün bədənim də onu arzulayırdı. O gələnəcən ağlıma bir fikir gəldi, onu həyata keçirmək üçün bir quru çubuq götürüb o biri çubuğun vasitəsilə onda deşik yaratmaq istəyirdim. Birdən dəhşətli qorxu hissi keçirdim. Deşikdən nazik, şəffaf, mavi rəngə çalan qığılcım çıxdı, əlimdəkiləri yerə atıb oradan qaçdım. Onun ruh olduğunu düşünmüşdüm. Geriyə baxdım, arxamca gəlmirdi, bir qayaya söykəndim, tövşüyürdüm, bir az dincimi aldım, gözləyirdim ki, titrətməm keçsin. Bir müddət sonra yenə ürəklənib qızılgül kolundan bir budaq qoparıb həmin yerə yaxınlaşmağa başladım, ancaq ruh orada yox idi. Deşikdə azca çəhrayı rəngli tozcuq vardı. Əlimi qorxa-qorxa ona uzatdım və... barmaqlarım yandı, ağzıma təpdim. Bu, Od idi. Mən əvvəllər heç yerdə mövcud olmayan bir şeyi yaratmışdım. Elə arzulayırdım ki, Adəm də gəlib çıxsın və mən ona bu kəşfim haqda məlumat verim. Ocaq qaladım və tüstüsü göyə yüksəldi. Adəm bu odun istisinə gəlib çıxdı. Uzun

müddət dayanıb gözlərini oda zillədi. Bunun nə olduğunu soruşdu. Alovdur, – dedim. Kəpənəklər alovun dövrəsində sanki yallı gedirdi.

Sonra atəşlə su öpüşdü, vadi səssizliyə büründü. Qaranlığı yorğan kimi üstümüzə çəkib yuxuya getdik.

Sonra bilmirəm mən onun, yoxsa o, mənim ağlımı oğurladı. İndi hər şey yaxşıdır və mən yenidən xoşbəxtəm. Ağır günlər lap arxada qalıb, mən daha onları xatırlamamağa çalışıram. Onu məmnun etmək üçün qadağan olunmuş alma ağacının meyvələrindən yığıb aparırdım ki, doyunca yesin. Günəş də mənim bu hərəkətlərimə baxıb gülümsəyirdi. Bizim izdivacımızdan Cahan zühura gəldi. Biz həyatın mənasına yetişdik. Adəm bu yerin adını "Kəpənək vadisi" qoydu.

* * *

Lamiyə yağlı əppək olub göyə çəkilmişdi. Sənanın bütün axtarışları bəhrəsiz qalmışdı. Sanki bu qızı yuxuda görmüşdü və ayılanda qız qeybə çəkilmişdi. Ağıla, gümana gələn bütün yerlərə baş çəkmişdi, qız yox idi. Bütün günü veyil-veyil küçələri dolaşırdı, iradəsini toplayıb özünü ələ almağa çalışırdı, ancaq iradəsi yenidən hisslərinə məğlub olanda canını qoymağa yer tapmırdı. İçindəki ağrı nə durulurdu, nə də keçib gedirdi. Yorğun halda ayaqlarını sürüyə-sürüyə Kəpənək parkına gəlirdi və birgə oturduqları skamyada əyləşib: "Lamiyə", – deyə onu səsləyirdi. "Əgər varsansa, qayıt, yoxsansa, yerini söylə", – deyirdi. Park susurdu. Parkın küncündəki sıx ağaclıqda yiyəsiz itlər eşələnirdi, görünür, yeməyə nəsə axtarırdılar. Qəfildən Sənana aydın oldu ki, park büsbütün nərgiz ətrinə bürünüb. Ətir iliklərinəcən işlədi. Dəli kimi skamyadan qalxdı, parkın dörd tərəfini fırlandı, bu qoxunun hardan, hansı səmtdən gəldiyini aydınlaşdıra bilmədi. Sənan az qala dəlilik həddinə çatmışdı. Bu ətir onun həyətindən kənara sıza bilməzdi, güllər ona heç vaxt xəyanət etməzdi. Bəs adamı dəli edən bu sərməstlik nə idi?

Sənan həmin gecəni parkda skamyanın üstündə gecələdi. Gecənin sükutu nərgiz ətri ilə süslənmişdi. Soyuğu hiss etmirdi, sanki bütün bədəni keyimişdi, bircə beyni oyaq idi. Düşünməkdən yorğun düşmüş beyin saat kimi fasiləsiz olaraq işləyirdi. Sanki başını tərsinə çevirmişdilər, eyni fikirlər bu dəfə narın toz dənəcikləri kimi yuxarıdan aşağı süzülürdü. Dərin yuxuya getdi. Yuxusunda gül bağçası gördü, çiçəklər kəpənək yağışı altda qalmışdı.

Çiyninə toxunan əldən diksindi. Başını qaldıranda günəşi göy üzündə gördü. Günəş şüaları başı üstə dayanmış gənc polis işçisinin paqonlarında bərq vururdu. Polis onu küçələrdə gecələyən səfilə oxşatmışdı.

– Vətəndaş, qalxın, zəhmət olmasa. Sizin kimilərin də əlindən bezmişik. Cavan, sağlam adamsınız, niyə özünüzü bu kökə salmısınız?

Sənan cəld dikəldi, əlini üzünə çəkib əvvəlcə harda olduğunu müəyyənləşdirmək istədi. Parkın tanış görkəmi ona hər şeyi xatırlatdı.

– Mən səfil deyiləm. Mənim sevgilim yoxa çıxıb, onu axtarıram, – dedi.

Polisi gülmək tutdu:

– Yuxuda axtarırdınız sevgilinizi?

Hirslənib ayağa qalxdı, üst-başını səliqəyə salmağa çalışdı. Köynəyi, şalvarı əzik-üzük olmuşdu. Ürəyindən bir gizilti keçdi, sanki çiçəkləri tapdayıb əzmişdi.

– Mənimlə məzələnməyin. Biz onunla sonuncu dəfə bu parkda görüşmüşdük.

Polis bir müddət düşünəndən sonra ağlına gələn ilk fikri dilə gətirdi:

– Bəlkə sizə “otval” verib.

– Ağlınız başqa qızlara getməsin. Lamiyə o cür qızlardan deyil.

– Evlərini tanıyırsınız? Soruşun, maraqlanın.

– Tanıyıram. Evlərinə gedib nə deyim? Qardaşları qıza göz verib işıq vermir. Özü dərzi sexində işləyir, iş yoldaşları da dəqiq bir söz demir. Lap başımı itirmişəm. – Sənan çaşqın və çarəsiz halda əllərini yana açdı.

Lamiyəgilin yaşadığı sahə həmin polis çavuşunun xidmət keçdiyi əraziyə daxil idi. O, bir müddət fikrə getdi.

– Sən narahat olma, əgər qız doğrudan da yoxa çıxsaydı, valideynləri polisə məlumat verərdi.

Hər ehtimala qarşı, Sənanın ev ünvanını götürdü. Sonra da səmimi şəkildə dost ədası ilə əlini onun çiyninə qoyub dedi:

– Biz səninlə elə həmyaşıd olarıq. Görürəm səliqəli oğlansan, bir dost kimi məsləhət görürəm, bir də heç vaxt belə yerlərdə gecələmə. Min dənə hadisə olur, başına xoşagəlməz iş gələ bilər. Səni başa düşürəm, Məcnun səhrada yatırdı, sən də parkda gecələyirsən. Amma çalışaram sənə kömək eləyim. Darıxma, get evində rahat yat.

Sənan istədi desin ki, parkdan nərgiz gülünün ətri gəlir, çavuşun onu dəli hesab edəcəyindən çəkindi. Heç nə demədi.

* * *

Paşa ley kimi şığıyıb qızın başının üstünü kəsdirdi. Lamiyə əlindəki nərgizləri güldana qoymağa macal tapmadı. Uzun, xurmayı saçları Paşanın əlinə dolandı. Paşa qızın saçından tutub yan otağa sürüdü, çiçəklər döşəməyə səpələndi.

– Sən mənim adımı batırmaq istəyirsən, qancıq? Hə? De görüm hardan gəlirsən? Gülləri sənə kim verib?

Badam arvad qonşudan təzəcə gəlmişdi, sübh tezdən zivədən asdığı paltarları yığmaq istəyirdi ki, evdə hay-küy qopdu. Lamiyənin qışqırığını eşidib evə cumdu. Paşa Lamiyəni ayağı altına salıb təpikləyirdi. Lamiyənin sifəti qan içində idi, başına, qarnına, kürəyinə zərbələr yağırdı.

– Mənə cavab ver, yoxsa boğazuvu üzüciyəm! Hardan gəlirsən? Görüşdüyün adam kimdir?

Lamiyə inadla susurdu.

Paşa getdikcə hövsələdən çıxırdı. Badam arvad oğlunun düyməli bıçağı cibindən çıxardığını görüb ona yalvarmağa başladı:

– Amanın günüdür, əlini bu murdarın qanına batırma! Qov, çıxsın getsin evdən.

– Nə diyirsən? Evdən qovum? Yoox, elə şey yoxdur. Sora gərey kənd içinə çıxanda başıma ləçək bağlıyım. Bu qancığı öldürüb adımızı təmizləməliyəm. Bizim nəsildə indiyəcən binamus olmuyub.

Nəhayət, Lamiyə sinəsindən əsə-əsə qopan bir səslə hayqırdı:

– Axı mən neyləmişəm?! Neyləmişəm mən?! Kimin namusunu ləkələmişəm? Mənim heç bir günahım yoxdur.

Hər şey bir anda baş verdi. Gözü qan çanağına dönmüş Paşa bıçağı Lamiyənin ürəyinə saplamışdı. Qız bir anlıq donub qaldı, ağzının kənarından qan axdı. Zərif bədəni titrədi. Qardaşının bıçağı sancdığı qolundan tutdu, sonra xırıldaya-xırıldaya: – O nərgizlər mənim şahidim olsun! – dedi, – mənim heç bir günahım yoxdur. – Daha bundan artıq nəsə deməyə gücü çatmadı, arxası üstə döşəməyə sərildi, saçları xalçanın üstünə yayıldı. Qızın açıq qalmış gözlərində “niyə” sualı donub qalmışdı.

* * *

Totonun qəzəbi yeri-göyü dağıdırdı. Yeddimərtəbə söyüşlərlə qızı qaçıranların var-yoxunu bir-birinə qatmışdı. Toto rəhmətlik Məşədi İbadın vəziyyətinə düşmüşdü, onu aldatmışdılar. Gecə sərxoş halda gərdəyə girəndə otaqda Lamiyənin əvəzinə başqa bir qızla rastlaşmışdı və ağlı başından çıxmışdı.

– Süz bu qızı hardan götürmüsüz? Süzün var-yoxunuzu!.. – telefonda bar-bar bağırıb əl-qolunu havada oynadırdı, sanki boş çəlləyə yumruq atırdı.

Ərlik vaxtı çoxdan ötüb-keçmiş qadın elə bil hardansa yıxılıbmış kimi diksindi, otağın bir küncünə qısılıb qorxudan tir-tir titrəməyə başladı. Bir az əvvəlki sevinci quş kimi açıq pəncərədən uçub qeybə çəkilmişdi. Yatağı isə təzə sağılmış süd kimi isti idi.

* * *

Elə bil o hadisə yerli-dibli olmamışdı. Qonşular arada Badam arvaddan Lamiyəni soruşurdular. O da hər dəfə müxtəlif cavablar verirdi, gah deyirdi qız bir türk oğlana qoşulub Türkiyəyə qaçıb, gah deyirdi bir müddətlik rayondakı qohumların yanına göndərmişəm. İnanan da olurdu, inanmayan da. Hərə bir şey düşünürdü. Doğrunu isə görən bilir, düşünən yox. Lamiyə yoxa çıxan gündən Qulaməlinin də yuxusu ərşə çəkilmişdi. Gecənin bir aləmi çıxıb küçə qapısının ağzında oturur, siqareti siqaretin oduna yandırırdı. Bir-iki dəfə Cavidin qarşısını kəsib qızın harda olduğunu soruşmuşdu. Cavid laqeyd baxışlarla Qulaməlini süzüb qeyri-müəyyən cavablar verirdi. Qulaməli bığlarını yolub yaz küləyinə verirdi və öz-özünə düşünürdü: “Allah bilir qızın başına nə oyun gətirdilər”.

Məhəllədə söz-söhbət gəzirdi ki, Sənan ağlını itirib, bütün günü Kəpənək parkında dolaşır. Deyirdilər hətta gecələr də orda yatır, polis neçə dəfə gəlib onu parkdan uzaqlaşdırsa da ağacların sıxlığında gizlənirdi, polis uzaqlaşan kimi gəlib skamyada uzanır, ayaqlarını qarnına yığıb yuxuya gedirdi. Paşa Lamiyəni öldürdükdən sonra Sənanı da tapıb işini bitirmək

istəyirdi. Amma sonra düşündü ki, küçələrdə yatan bir səfili öldürməyə dəyərmi? Onda işin üstü açılacaq və bu, Paşaya heç də başucalığı gətirməyəcək. Beləcə, bu işdən vaz keçdi.

Bir gün ona kömək edəcəyinə söz verən polis bu məsələnin sonuna çıxmaq qərarına gəldi. Sənanla mütləq söhbət etməliydi. Adamlar Sənana dəli kimi baxırdılar. Amma o, dəli deyildi. Bu sirri çözmək lazım idi. Sənan elə hey deyirdi: “Lamiyə burdadır, buradan nərgiz ətri gəlir”.

– Sənan, gəl belə danışaq. Mən söz vermişdim ki, sənə kömək edəcəyəm. Düzdür?

– Düzdür.

– Onda sən də mənə kömək et. Deyirsən Lamiyə bu parkdadır. Hardadır qız? Axı bu parkda indi səninlə məndən başqa heç kim yoxdur.

Sənan uzun müddət polisin gözlərinin içinə baxıb dinmədi. Polis bu baxışlardan üşəndi. Sənanın göz bəbəklərində izaholunmaz bir ifadə sayrışırdı. Polis ayağa qalxıb sağollaşmadan parkdan uzaqlaşdı.

* * *

Zümrüd xanım səhər həyətə çıxanda bağçanı talanmış vəziyyətdə gördü. Çiçəklər qanına qəltan olunmuşdu. Yaddaş çiçəyinin yerində kor boşluq qaralırdı, nərgizlər ləçəklərini yolub ətrafa səpələmişdi... Əllərini dizinə çırpıb nalə çəkdi:

– Vaaay! Oğlumu dəli edib küçələrə salanın görüm evi yıxılsın! İndi də bağçasını viran qoydular balamın.

Zümrüd xanım üzünü göyə tutub qurd kimi ulayırdı. Qonşular dözməyib əlləriylə qulaqlarını tutdular. Dünyanın ən qəribə işlərindən biri də buydu ki, Dəli Məsmə özünü həyətə atıb səsini Zümrüd xanımın səsinə qatmışdı. Dağıdılmış bağçanın içində diz çöküb qurumuş budağı xatırladan qollarını səmaya uzatmışdı, bu əməli törədənlərə qarğış tökürdü:

– Ya Pərvərdigari-aləm, sən bu güllərə qıyanların ocağını viran qoy! Yurdunu-yuvasını kunfəyəkun elə! Heç olmasa, bu dəfə məni eşit, ey Allahım! Bundan savayı səndən heç bir təmənnam yoxdur!..

* * *

Əlyazmalar İnstitutunun giriş qapısında bazburutlu bir kişi dayanmışdı, qoltuğunda iri qovluq vardı. Mühafizəçiyə yaxınlaşıb Kamran Türkoğlu ilə görüşmək istədiyini bildirdi. Kamran müəllim iri eynəyini taxıb masanın üzərinə əyilmişdi, ərəb əlifbası ilə yazılmış hansısa əlyazmanı oxuyurdu. Daxili telefonun səsi onu fikrindən yayındırdı. Otaqdakı qızlardan biri dəstəyi götürdü və dəstəyin o başında deyilənləri dinlədikdən sonra üzünü Kamran müəllimə tutdu:

– Kamran müəllim, bir nəfər gəlib. Sizinlə təcili görüşmək istəyir.

– Gəlsin, – Kamran müəllim bir az karıxmış halda dilləndi.

Qapının ağzında dayanan adamı görüncə, gözlərinə inanmadı. Yerindən sıçrayıb cəld addımlarla ona tərəf gəldi və qonaqla ikiəlli görüşdü:

– Bu, sizsiniz, Barat bəy?! Xoş gəlmisiniz!

– Görürsünüz ki, mənəm, – Barat bəy gülümsədi. – Gəldim süzünlə gürüşüm, həm də bir balaca söhbət edek.

Kamran müəllim qonaq üçün stul çəkdi.

– Buyurun, əyləşin. Nə əcəb sizdən? Doğrusu, heç inanmağım gəlmir, – Kamran həyəcanını boğa bilmirdi.

Barat bəy qoltuğundakı qovluğu masanın üzərinə qoydu və Kamran müəllimin göstərdiyi yerdə əyləşdi.

– Mən fikirləşib qərara gəldim. Bu, süzün əldə etmek istediyiniz əlyazmadır. Tam təmənnasız süzə hədiyyə edirəm.

Kamran müəllim bilmədi nə desin, gözlərini heyrət və təəccüb qarışıq ifadə ilə Barat bəyə zillədi. Axı Mahaçqalada bu adamla görüşəndə o, əlyazmanı verməkdən qəti surətdə imtina etmişdi. Özü də Kamran müəllimin yadında lovğa, təkəbbürlü adam kimi qalmışdı. Sonra eşitmişdi ki, bu işə biznesmen Zabili cəlb ediblər. Kamran müəllim ürəyində bu qərara gülmüşdü, o, Barat bəyin pul müqabilində bu işə razı olacağına inanmırdı. Bilirdi ki, onun pula, var-dövlətə ehtiyacı yoxdur. Sadəcə, bu əlyazma ona dədəsinin yadigarı kimi əzizdir və hansısa pul müqabilində onun fikrindən daşınması gülünc və xam xülyadan başqa bir şey deyildi. Zabil Mahaçqaladan əmin-arxayın qayıtmışdı, "məsələni həll elədim" deyib lovğalanırdı. Amma ortada hələ heç bir nəticə yox idi. İndi isə birdən-birə Barat bəy özü könüllü şəkildə əlyazmanı gətirib Kamran müəllimə təhvil verirdi. Bu, necə ola bilərdi?

– Görürəm çaşbaş qalmısuz. Amma mən bunun səbəbini sizə deyərəm. Sözün açığı, ilk görüşümüzdə mən sizi elə də yaxından tanımırdım. Bəlkə də siz inad edib ikinci dəfə mənimlə görüşə cəhd etseydüz, əlyazmanı süzə vərərdim. Gürünür, süz ümidinizi üzmüşdüz. Mənim yanıma göndərdiyiniz adam isə fırıldaqçının yekəsidir. O adamı əlyazma, onun dəyəri qətiyyən maraqlandırmır, o, ancaq öz mənfəətini güdən dələduzdur. Belə adama bu qiymətli xəzinəni etibar etmək olmaz.

Kamran müəllim komissiya üzvlərinin Zabilə etibar etməkdə böyük səhvə yol verdiklərini bilirdi. Belə bir adamın mötəbər komissiyaya üzv seçilməsi də həmin komissiyanın nüfuzunu kölgə altında qoyurdu. Amma gözləməkdən başqa çarə yox idi. İndi Kamran müəllim stolunun üstündəki iri qovluğa baxa-baxa fikirləşirdi ki, nə yaxşı bu əlyazma Zabilin əlinə keçməyib, doğru-düzgün ünvanını tapıb.

Ötən gecə Haşım bəy Saqib Kamran müəllimin yuxusuna gəlmişdi. Buzovnanın qumlu sahillərində gəzişərək söhbətləşirdilər. Saqib deyirdi:

– Məni nadanların əlindən xilas et, oğul! Bütün ömrüm nadanlarla, cahillərlə savaşda keçdi. Yenə tale məni naəhl olanlara ürcah elədi. Sən kamil insansan, elm-mərifət sahibisən. Tək ümidim sənədir.

Sonra da bu beyti gənc alimin qulağına pıçıldamışdı:

***Nisyə dalıyca getməgilən, nəqd var əldə,***
***Heyhat, ona yetməyə çox-çox səfər istər.***

Saqibin söz xəzinəsi gənc alimin masasının üzərində idi. Bu anlarda o, özünü dünyanın ən varlı adamı hesab edirdi.

* * *

Küçə qapısı döyüləndə Turab kişi eyvanda oturub çay içir, siqaret tüstülədirdi. Qəm-qüssədən beli bükülmüşdü. Paşanın qorxusundan cınqırını çıxara bilmir, dərdini içində çəkirdi. Pencəyini çiyninə atıb qapıya çıxdı. Qapının ağzında cavan, hündürboy polis işçisi dayanmışdı. Qorxudan sarısını uddu. Kişinin tövrü polisin nəzərindən yayınmadı.

– Salam, ağsaqqal. Qonaq qəbul edirsiniz?

– Salam, oğlum. Nə məsələdir? Narahat oldum, – qoca kəkələdi.

– Bizə məlumat daxil olub ki, sizin qızınız Lamiyə xanım xeyli müddətdir ki, yoxa çıxıb.

– Yyyox, nə yoxa çıxmaq? Qızı qohumlarıgilə göndərmişik. – Turab kişi əməlli-başlı özünü itirdi.

Polis tam əmin oldu ki, cinayət əməlinin izinə düşüb.

Həmin gecə Paşa evə gəlmədi.

* * *

Gecənin bir aləmində Sənanın burnuna meyit qoxusu dəydi. Hövlnak yuxudan ayıldı. Parkın sıx ağaclıqlı küncündə itlər boğuşur, yeri eşirdilər. Meyit qoxusu nərgiz ətrinə qarışmışdı.

Sənanın qəfil hayqırtısı itləri hürkütdü. Sonra bu hayqırtı hönkürtüyə çevrildi...

***12 may – 12 avqust, 2020-ci il***



*Yafəs TÜRKSƏS*

**SAHİL DAŞI**

Dadını, duzunu aparıb sular,
Dəryada balığa yem eləyibdi.
Üzünün şəklini qoparıb sular,
Kim səni taleyi kəm eləyibdi?

Yonulub-yonulub çınqıl olmusan,
O hamar üzünə əl sürtmək olar.
Zamanın yalançı nəvazişiylə
Səni üzüyumşaq öyrətmək olar.

Yalançı öpüşlər aldadıb səni,
Alıb vüqarını, dəyanətini.
Sənin sərt ömrünə görən kim yazıb
Dünyanın Su adlı xəyanətini.

Hələ harasıdır, bu sular səni
Yonub axıracan quma döndərər.
Sonra da bir ac quş dən bilib səni,
Udub pətəyində muma döndərər.

## OXU, DAĞ ÇAYI

Gördüm səni, gözlərimə toxudum,
Bütün ömrün həyəcandı, təlaşdı.
A dağ cayı, bu gün elə oxudun,
Nəğmələrin ürəyimlə danışdı!

Nədir səsindəki bu hay, bu haray
Deyirəm bir dəli sevgidi bəlkə?!
Oxu a dağ çayı, hey səsini yay,
Qəlblərin nəyi var nəğmədən özgə!

Düzlərə catanda bölünər canın,
Özünü özündən alarlar səni.
Bir çaya qoşulsan, adın silinər,
Bir başqa havada çalarlar səni.

Bu daşlar sinəni yarsa da oxu,
Hardasa gunahsız asılsan, oxu.
Hələ ki, özünsən, dağ çayı, oxu,
Hələ ki, mənləsən, dağ çayı, oxu!

## QORXU

Sənin yerişini çoxaldıb şəhər,
Tez-tez diksinirəm ayaq səsindən.
Sənin yerişini yeriyən qızlar
Səksənir könlümün səksəkəsindən.

Hərdən bir gözəlin gözündən baxır
On yeddi yaşında qalan gözlərin.
Daılnca heyrətdən daşa dönürəm
Sənin saçlarınla gedən gözəlin.

Sevib oxuduğum mahnılar hər gün,
Getdiyim yollardan sapdırır məni.
Neynim, səsinin də oxşarı çoxdur,
Hər gün paralayır, çapır sinəmi.

Məcrasından çıxmış bir çay kimiyəm,
Bilmirəm hayana axıram indi.
Sənin nişanəni görməmək üçün
Qızlara qorxuyla baxıram indi.

## NƏMLİ KİRPİKLƏRİN BİRİ BİR NİDA

Gəldik neçə ildən sonra üz-üzə,
Nə salam söylədik, nə də əlvida...
Çatılmış qaşların bir sual idi,
Nəmli kipriklərin biri bir nida.

O gün sən qəribə nəğmə kimiydin,
Bəstəsi özgənin, sözü mənimki.
Gözündə göz yaşı yuya bilməyən
Bir itkin sevginin izi mənimki.

Vaxtsız ağartdığın o ağ saçlara
Dedim sığal çəkim, əlim gəlmədi.
Bir vaxt nağılımdan doymayan qıza
Bircə söz deməyə dilim gəlmədi!

Durmuşdu yanında gəncliyin – qızın!
Gözüm haçalandı, fikrim dağıldı...
Sənsiz keçirdiyim illər beləcə,
Sonu kədər dolu sirli nağıldı...

## DAŞ CAVABLAR

İstəyirəm bir az dəmir sualların
daş cavabından danışım sənə, dostum.
Neyləməli ki, çox vaxt kimlərinsə xeyri
Kimlərinsə ziyanından keçir.

Ən yaxşı adamlar belə
Susmaqdan çörək düzəldir,
Korluqdan köynək.
Sevgilərimiz də elə kimlərinsə
Ayrılığından su içir.
Kimlərinsə göz yaşlarından keçir.

Səadətlər azdır, hamıya yetmir
Kimə nə düşə, düşə, dostum.
O dəmir sualların daşlaşmış
cavabsızlığından danışıram indi...

Həyat yaxşılıqla pisliyin arasındaysa, neyniyək...
Eləcə, bir azacıq yaşadıq bir azacıq xərclənəcək
Susmaqdan saraylar düzəltmədik
Korluğumuzdan zər-ziba düzəltmədik biz,
Amma, bir az səadət oğurlayır yenə ən yaxşı adamlar...

Dəmir suallara daş cavablar verməli olur
yenə heykəl adamlar
Səadətlər günah içindədir, qısa cavab bu!
Ömürlər var-gəl edir
Yaxşılıqla, pisliyin arasında.

## UÇURUN ŞAİR HEYKƏLLƏRİNİ

Uçurun, təzədən qoyun şair heykəllərini
Postament üzərində
Başqa adamlar kimi qoymayın
Şair heykəllərini.

Üzdürün balıqlarınan,
Ya uçurun quşlarınan.

Bir solmuş çiçəyin
Ləçəyindən asın,
Bir saralmış yarpağın
Üstünə atın,
Ad yazmayın heykəlin üstə,
Şeir yazarkən
Özləri olmur şairlər
Heykəli cavan qoyun,
Qocalmır şairlər.

Bir əlinə qələm verin,
Ürək qanıyla yazan bir qələm

Bir əlinə ürək qoyun
İçi qanla dolu mürəkkəbqabı əvəzi
Dilinə bir düyünlü söz yonun,
Gözlərini elə qoyun
Dibindəki kədər görünə bilsin!
Heykəl qoyanda yıxın şairi...
Siz Allah, ayaq üstə qoymayın
Şair heykəllərini!

## YARADA BİLMİR

Şeir istəmirəm adam dilində,
Ürəkdən şeytanı çıxarda bilmir.
Adam dilindəki min illik şeir
Şeytansız bir adam yarada bilmir!

Ən gözəl, ən qaynar şeirlər belə
Şairin özünü yarada bilmir.
Sözləri göyləri gəzən şairin
Özü alçaqlarda, arada, bilmir.

Şeir istəmirəm adam dilində,
Şeirlər şeiri gözümdən salıb.
Nə ola, bu ağac bir şeir deyə,
Fikrim o ağacın dilində qalıb.

Çiçəyin dilində bir şeir ola,
Qoxlayıb qəlbimə səpərəm indi.
Bu daşın dilində bir şeir olsa,
Götürüb, diz çöküb öpərəm indi.

Elə ürəyimdən keçir ki, indi
Bu çayın dilində bir şeir yazım!
Külək dilindəki şeirlər ilə
Adam şeirləri yaddaşdan pozum.

## HÖRÜMÇƏK

Tor qurmaq öyrətdin bütün dunyaya,
Bu dünya tor qurmaq yoluna düşdü.

Fəqət səndən başqa tor quranların
Hamısı qurduğu toruna düşdü.

Qismətinə düşən payını aldın...
tor qurmaq səninçün Tanrı yoludur...
Amma səndən başqa tor quranların
Bax, gör ki, hamısı nəfsin quludur.

Sən lal duruşunla çox şey söylədin,
Səni eşitmədi, kardı bu dünya.
Sənin tor üstündə gəzməyini də
Görmədi, görmədi, kordu bu dünya!

## ŞƏHƏR ETÜDLƏRİ

Səhər dalğaların əlindən tutub
Bir azca tələsik yeriyir, nədən?
Xoruzun təmkinli səsini burda
Bu ac qağayılar silib səhnədən.

Doğrayır gecənin bal sükutunu
Sübhəcən ehtiyac qovan taksilər.
Bulaqda qızarıb su verən qızlar
Suyu sata-sata burda əskilər.

Dəstəylə yeriyən gözəllər hər an
Məni boylandırır ötən günlərə.
Dərdli insanlarin göz yaşlarından
Hər gün islanıram azı min kərə.

Gündə neçə dəfə zəhərlənirəm
Neçə nakəslərin acı dilindən.
Duyduğum sevincin yağ dürməyini
Necə "Paxıl Bədəl" salır əlimdən.

Baxıram son dəbin himayəsiylə
Gözəllər səfinə dolur kifirlər.
Qoruna bilmirəm təzadlarından,
Dolaşır başımda zəncir fikirlər.

Baxıb sahildəki görüşənlərə
Balıqlar sahilə axmaq istəyir...
Xəlvəti görüşə gedən gözəllər
Gecəyə tək ayı taxmaq istəyir.

## ƏLYAZMADA ÇAP ELƏYİN ŞEİRLƏRİMİ

Əlyazmada çap eləyin şeirlərimi
xəttim bir az kor-kobuddur
eybi yox neynim – hüsnxətt müəllimim
savadsız və vecsiz idi.

Səhvlərimi də redaktə eləməyin
necə var qoy elə də qalsın
kasıbçılıqdandı vaxtıyla əla oxuduğum dərsləri
təkrar eləməyə vaxtım az olub

Vətən şeirlərində qorxaqlığım, həyəcanım
zəifliyim, üsyanım…
Sevgi şetlərində
Qanmazlığım, həssaslığım, naşılığım, gözəlliyim...

Əlyazmalarım qəlbimin kardioqramıdır
orda ürəyimin döyüntüsü bilinir avtobusda,
qatarda, metroda, yol üstə, səkidə,
dizmin üstə yazıldığı da görünür…
Çax-çux eləyən əllərimin kiri də o vərəqlərdə

Əlyazmada çap eləyin şeirlərimi
kimliyimi bilərsiniz

## DİOGENİN ÇƏLLƏYİ

Ən qudurğan dərdlərinən
Qırx ildi gəzirəm, sağam.
Tanrının qapazı altda
Böyüyən dikbaş uşağam.

Ürəyimdə ölənləri
Yuduzdurub basdıran yox.
Mən bir adsız Nəsimiyəm,
Soyduran yox, asdıran yox.

Diogennin çəlləyindən
Kim çıxardı üzə məni.
Çürümədim dərdlərindən,
Dünya qoyub duza məni!

## QARANQUŞ KİMİ

Elə yaraladın körpə umudu,
Taqəti qalmadı, qayıtmaz daha.
Səni elə sevdim, elə sevdim ki,
Şikayət etmədim səndən Allaha.

Səni elə sevdim, elə sevdim ki,
Mənsiz də, yoluna uğur dilədim.
Sənə nə deyim ki, sevgi mənimdir,
Sənə əzabımı halal elədim.

Daha köçürmüşəm yuxularıma...
Sənli arzulardan demə ki, bezdim.
Gələndə yoluna nərgiz nidalar,
Gedəndə suallı bənövşə düzdüm...

Gedirsən, eşqimə toxunma, əzmə,
Qoy, ona sığınım tənha quş kimi...
Bəlkə üşüyəndə, umud gətirdi
Baharda qayıdan qaranquş kimi!

## BAĞIŞLA MƏNİ, SEVDİYİM QADIN

Bağışla sevdiyim qadın,
Sən o qədər gözəlsən ki,
Sənə "göydən ulduz qopardan"
bir sevgi gərək.

Sən bir mələksən, sevgisiz qalsan da
Sənə bir “ağ atlı” igid gərək.
Mən səni xoşbəxt edəmmərəm,
Səni sevən ürəyim yetməz
səni xoşbəxt etməyə!

Qıymaram sənə
içi ağrı dolu bu ürəyi, ürəyüm!
Baxıb utanıram oğlumun
dəcəl, şəngülüm baxışlarından.
Körpə qızımın məsum, mələk baxışları
qamçılayır sənə olan sevgimi!
Qüssələnirəm qadınımın yetim baxışlarından,
atasızlığından, qardaşsızlığından.
Utanıram ciblərimdən.
Utanıram sənə olan qanadsız sevgimdən!
Utanıram sevən ürəyimdən,
onu bu qədər incitdiyimçün!
Mərhəmətə uduzan məhəbbətimdən utanıram.
Mən məğlub qoşun kimi
sevgilərdən geri çəkilirəm indi!
Mənim qorxduğum şeylər çoxdu,
mən qorxaq sevgiliyəm!
Sənə qəhrəman gərək,
arzularımın qadını!

Bağışla, mən xoşbəxt edəmmərəm səni.
Qıyamam içi üsyan dolu
bu ürəyi sənə!
Taleyimi bağışla, sevdiyim qadın!

## NƏĞMƏSİ TÜKƏNMİŞ ÜRƏK

Nəğməsi tükənmiş bir ürək kimi...
Çıxmışdın yenə də yollarım üstə.
Durmuşdun saralmış bir çiçək kimi,
Qoymuşdun başını əllərim üstə.

Uçulmuş nağıldan düşüb gəlmişdin,
Bənzədə bilmirdim o qıza səni.

Nə Karvanqırandın, nə Dan ulduzu
Yaraşdırammadım bir sözə səni.

Nağıla köçmüşdüm sənin sevginlə,
Dedim köçürdərəm nağıla səni...
Uçurdun nağılı öz əllərinlə,
Kim çəkdi ürəkdən ağıla səni.

Sevgiylə yaşamaq nağıl-həyatdır,
Sevgisiz yaşamın sonu solmaqdır.
Sevgiylə yaşamaq nəğmə-həyatdır,
Sevgisiz – nəğməsiz ürək olmaqdır.

Bilmirəm bəlkə də saralmamısan,
Saralmış çiçəktək göründün mənə,
Nəğməsi tükənən qəlb mənimkiymiş...
Ürək döyüntünü duymadım yenə!





*Mehdi ZAHİD*

## YEDDİ BALA,YEDDİ BƏLA

Zaman adlı dəyirmanda öz ömrünü üyütmüş
Ana gördüm, dəvə boyda yeddi oğul böyütmüş.
Hər anını balalara damla-damla içirmiş,
Fəlakətlər vadisindən hünər ilə keçirmiş.
Bəxtəvərlik yağış kimi yağmışdır üz-gözündən,
Kənar etmış o, hər zaman qəm, qüssəni özündən.
Ürəyində bəsləmişdir şirin-şirin arzular,
Kəsilmişdir hər oğula neçə qurban quzular.
Aslan sanıb hamısını – doğduğu hər uşağı,
Sevinmişdir yeddi dəfə onun ana qucağı.
Hərəsini bir ölkənin bir padşahı sanmış o,
Hər birinə bir şam kimi əriyərək yanmış o.
Öyünmüşdür o, bir zaman yeddi oğul doğaraq,
Gəl bu qoca dünyamızın işlərinə indi bax.
Zamandır ki, yeddi yolun ayrıcında duraraq
Gözlərini dikib yola, hey boynunu buraraq.
Gələnlərdən onu tənha qoyanları soruşur,
Öz doğmaca anasından "doyanları" soruşur.
Bir şad xəbər deyən olmur bu kimsəsiz anaya,
Gözü yolda, özü tənha qalmış qoca sonaya.

Fikirlərin qanadında qartal kimi süzür o,
Kədərlərin, qüssələrin göylərində üzür o.
Ümidsizlik binasının hey qazılır təməli,
"Yad əllərdə gedəcəyəm son mənzilə, deməli".
Bir arzusu vardır onun: "budur gəldik, anacan,
Olacağıq yanındaca daha sənin sonacan".
Bu sözləri oğulları bir ağızdan deyə idi,
Qəlbindəki intizarın qəddini tez əyə idi.
Gözlərini ah, o, necə arxayınca yumardı,
Ölüm adlı qaranlığın üzərinə cumardı.

## YOLLAR, AYAQLAR

Yollarım dumana büründü yenə,
Nə başı göründü, nə də ayağı.
Bəlkə də çöllərə yüyürdü yollar,
Dolandı səhranı Məcnunsayağı.

Zülməti əyninə geydi gündüzüm,
Yollar ot bitirdi ayaq yerinə.
Quzular talaya doluşan kimi
Çiçəklər doluşdu ləpirlərimə.

İnsan əllərinə tamarzı kimi,
Dondu hər çiçəyin gözündə yaşı.
Yollar yarpaqlayır otla, ələflə,
Çatılıb səhrada heyrətin qaşı.

Ayaqlar yolları yazar şeirtək,
O şeiri yenə də ayaq oxuyar.
Didərgin yolları güllə tutanda
İnsan o yolları Aya toxuyar.

...Yollarım dumana bürünüb yenə,
Yönümü hayana tutum bəs indi?
Qəfildən göylərdən mələktək enə
Yetişə haraya bircə səs, indi.

## A KÖNLÜM

Bircə yol qapını açıb baxmadım,
İçindən xəbərim olmadı mənim.
Yananda üstünə sutək axmadım,
Gözlərim buludtək dolmadı mənim.

Buruldun qınağın burulğanında,
Çatmadı qulağa bircə harayın.
Olsam da həmişə sənin yanında,
A könlüm, duymadım yanır sarayın.

Sən demə, sinəndən cığırlar salıb
Zamanın qüssə, qəm, kədər karvanı.
Göylərin qəzəbdən dolub qaralıb,
Ağara bilməyib sevincin danı.

At çapıb içində dəli küləklər,
Olubdur çəmənin, çölün də viran.
Nə olar, yenidən, təzədən yarat,
Bu viran evini, ey könül quran.

## ZAMANA ALDANA BİLMƏYƏNLƏR

Zamanla ağlayıb-gülməyənlərin
Gözünün yaşını silən oldumu?
Zamana aldana bilməyənlərin
Yerini, yurdunu bilən oldumu?

Zaman sel olanda sinə gərənlər
Bu selin önündə dura bildimi?
Hanı o dediyin igid ərənlər,
Dediyi zamanı qura bildimi?

Qamçısı zamanın olanda şimşək,
Çırtlayıb çiçəyi böhtanın, şərin?
O qədər haqsızlıq görüb dünyada,
Gözü qırmızıdı hələ səhərin.

Zamana aldana bilənləri mən
Sürünən görmüşəm kölgələr kimi.
Aldana bilməyib ölənləri mən
Görürəm indi də şiri-nər kimi.

## TƏBRİZLİ ŞAİRİN ŞEİRİ

Ah, mənim sinəmdə “azadlıq” deyən,
Əyninə doğrudan bir libas geyən,
Gah məni qınayan, gah məni söyən,
Gözləri qəzəblə baxan sözlərim,
İçimdə şimşəktək çaxan sözlərim.

Qorxudan toxunmuş tora salınmış,
Ölməmiş dipdiri gora salınmış,
Anadan olandan zora salınmış,
Qılınctək qınında yatan sözlərim,
Səsi ağlamaqdan batan sözlərim.

Ağzına sükutdan möhür vurulmuş,
Daha gözləməkdən bezib-yorulmuş,
Ürəyi inciyib, qəlbi qırılmış,
Gözləri yaş ilə dolu sözlərim,
Həmişə qəlbimin qulu sözlərim.

Buludlar bürümüş Aya bənzəyən,
Kəməndə salınmış çaya bənzəyən,
Tarıma çəkilmiş yaya bənzəyən,
Açıla bilməyən kaman sözlərim,
Gözləri yuxulu, duman sözlərim.

Arzusu, muradı gözündə qalmış,
Heyrətdən əlləri üzündə qalmış,
Yıxılıb həqiqət düzündə qalmış,
Hər şeyi anlayan, bilən sözlərim.
Zamanın işinə gülən sözlərim.

***Şəki***

*Məmməd ORUC*

# HÜRMƏYƏN İT



## *Avtoportret-75*

Məlum oldu ki, Bayılın it bazarından aldığı, aylarla vitaminli it yeməkləri ilə bəslədiyi küçük heç kimə hürmür.

Əslində, daha ona küçük də demək olmazdı. Ötən üç ayda o qədər sürətlə böyümüşdü ki, bağ evinə gətirəndən sonra düzəltdiyi it damına sığmırdı.

Düzünə qalsa, it azarkeşi deyildi, amma həyatın axarı ilə bağ evində məskunlaşandan və bir yox, bir neçə it saxlayan qonşularını görəndən sonra qərara gəlmişdi ki, o da it alsın. Düşünmüşdü ki, bu it həm ona qulaq həyanı olar, həm də bağ-bağatı qoruyar.

Dərdini, bağ yerində qoyun bəslədiyindən, bir yox, üç it saxlayan ən yaxın bağ qonşusi ilə bölüşəndə, Əmiraslan oğlu Sədi:

– Ola bilməz, ay müəllim, – dedi, – itin peşəsi hürməkdi, necə yəni hürmür? Gedək mən onu hürdürüm.

Sədi bağ sahibindən əvvəl darvazadan içəri keçsə də, asta-asta itə yaxınlaşsa da, hətta şəklənib ona əl qaldırsa da, köpək hürmədi və o, birdən-birə:

– İlahi, yaratdığına şükür! – Dedi. – Belə də gözəl heyvan olar?

Əslində, elə üç ay qabaq bu köpəyin gözəlliyinə bənd olub almışdı.

Qonşu köpəyin başına, burnuna bir-iki dəfə tumar çəkəndən sonra soruşdu:

– Adı nədi bu gözəlçənin?

– Lessi.

– İngilis adıdı?

– Bəlkə də...

Heyranlıqla bu qonur gözlü, bəmbəyaz köpəyə tamaşa eləyən bağ qonşusu birdən-birə gülümsədi:

– Ay müəllim, neynirsiz onun hürməyini, – dedi, – gözəlliyi bəsdi, bağın yaraşığıdı bu, vallah.

Yox, o, yaraşıq xatirinə köpək böyutməmişdi, o, istəyirdi ki, onun köpəyi bağa it-pişik, ya bir yad adam girəndə, heç olmasa, hürb onu xəbərdar eləsin... Qışda kimsə onun nərgizlərinə dadanmışdı, səhər oyanırdı ki, dərib aparıblar... Heç kimin qarasınca söylənmirdi, ürəyində "yoxun üzü qara olsun" deyirdi.

Köpəyinin hürməməsi barədə it saxlayan daha bir qonşusuna – Şahin müəllimə də danışmışdı və təsadüfən o da gəlib çıxdı və o da köpəyə bir qədər heyran-heyran tamaşa eləyədən sonra dedi:

– Bu başı batmış nə gözəliymiş! – Və, dərhal da soruşdu: – İtə-pişiyə də hürmür?

– Yox...

– Bəlkə, yoxlayaq?..

Əslində, Şahin müəllimin məqsədi fürsətdən yararlanıb, itləri boğuşdurmaq, öz itinin necə bir köpək olduğunu göstərməkdi.

Bir qədər sonra Şahin müəllim Qanqal cinsindən olan, qulaqları, quyruğu kəsilmiş itinin zəncirindən tutub gətirəndə, məsələdən halı olan daha iki bağ qonşusu onun darvazasından içəri keçmişdi.

Onun köpəyi Şahin müəllimin qanqal cinsindən olan yekəpər itinə sarı xallı qulaqlarını şəkləyib dartınsa da, hürmədi.

Və Şahin müəllim:

– Mən belə şey görməmişəm, – dedi, – it olasan, teratoriyana girmiş yad itə hürməyəsən?

Bu arada gəlib çıxmış kənkan qonşuları da söhbətə qarışdı:

– Bəlkə, laldı bu?

"Bilmədiyi şeylərin professoru" kimi bir ayaması da olan Əmiraslan oğlu Sədi yenə dilləndi:

– Mən əsgərlikdə Tayqada olmuşam, orda da hürməyən itlər var idi, amma bu köpək o itlərə oxşamır.

Şahin müəllim üzünü it yiyəsinə tutub soruşdu:

– Heç bu gözəlçəni ac saxlamısınız?

Lap uşaqlıqdan it saxlamaqla bağlı, yaddaşında nə vardısa, atası ilə bağlı idi; dünyasını erkən dəyişmiş atası axşamlar işdən qayıdanda, hər şeydən öncə zəncirdəki köpəklə maraqlanırdı; ona yemək veriblər, ya yox? İtin su qabını boş görəndə isə, kimə gəldi, dişinin dibindən çıxanı deyərdi. Şahin müəllimə də elə bu tərbiyədın gələn əxlaqla cavab verdi:

– Əlbəttə, yox, heyvanı da ac saxlayarlar?

– Məncə, bir-iki gün ac saxlasanız, hürəcək.

Yenə də söhbətə kənkan qarışdı:

– Yadında saxla, müəllim, iti nə qədər ac saxlasan, səni bir elə çox istəyəcək... Məncə...

Amma Əmiraslan oğlu Sədi onu sözünü bitirməyə qoymadı:

– Ağlın bizim itlərə getməsin...

Əslində, köpəyinin vəfası, etibarı da onu maraqlandırmırdı. Ona lazım olan yalnız bu itin it kimi hürməsi idi.

Şahin müəllim:

– Kompüterdə itlər haqqında çoxlu yazılar var, – dedi, – axşam baxaram, görüm bu nə məsələdi?

Kənkan bir qədər də yaxından köpəyə nəzər salandan sonra soruşdu:

– A müəllim, bunun parodası nədi?

– Nə bilim...

– Bəs alanda soruşmadınız?

– Soruşdum, dedilər ki, qarışıqdı...

Sədi dilləndi:

– Müəllim, bir də it küçüyü alası olsan, qarışığına yaxın getmə, yerli, öz küçüklərumizdən, itlərimizdən al ki, həm sən istəyən kimi hürsün, həm də qapı-bacanı qorusun, – dedi, – düzdür, yevropeyski itlər ağıllı olur, amma nəyinə lazım itin ağlı?

Başına cəm olmuş insanlara yox, harasa uzaqlara baxan itinə baxa-baxa susurdu. Qonşuları isə hələ bu itin gözəlliyindən danışırdılar. Yenə də araya çökən sükütü Şahin müəllim pozdu. Özü əlini ehtiyatla itin quyruğuna toxundurandan sonra:

– Hələ siz bunun quyruğunun uzunluğuna baxın.

Həqiqətən də Lessinin quyruğu uzundu; az qala boyu bərabərində idi.

Yenə Şahin müəllim dilləndi:

– Amma heç quyruğunu bulamır... görəsən, niyə?

O, saymazyana cavab verdi:

– Hə, quyruq bulayan deyil, heç mən onun quyruq buladığını görməmişəm.

Sözün bu yerində Əmiraslan oğlu Sədi də sözünü dedi:

– Çox maraqlıdı, mən deyərdim ki, görsətmə işdi, it olasan, quyruq bulamayasan?..

Şahin müəllim soruşdu:

– Yeməyi necədi?

O, bir qədər duruxandan sonra cavab verdi:

– “Çappi” xoşlayır, yavan çörəyə heç yaxın da durmur.

Sədi bu dəfə mənalı tərzdə gülümsəyəndən sonra dilləndi:

– Görürsən, müəllim, – dedi, – amma bizim itlərə daşdan yumşaq nə verirsən, gözünə təpir...

Və beləliklə, gec də olsa, bu qənaətə gəldi ki, bir də it-küçük sevdasına düşsə, yerli cins, yerli “paroda” soraqlaşsın.

Yeni it sevdası arabir ağlına batsa da, bir təbii sual meydana çıxdı: bəs, Lessini neynəsin?

Bu sualın hələ ortaya atılmamış cavabını Sədi verdi:

– Bunu da aparın azdırın, müəllim, gözəlliyinə görə ona sahib çıxan da tapılacaq, – dedi, – elə bilməyin ki, o, küçədə qalacaq... İndi hamı gözəllik axtarır...

Qonşunun köpəyi belə təriflədiyini görüncə:

– İstəyirsən, bağışlayım sənə, – dedi, – elə indicə xaltasından tut apar.

Sədi dərhal etirazını bildirdi:

– Nəyimə lazım? – Dedi. – Öz köpəklərimi doyura bilmirəm.

Bir gün, iki gün, bir həftə, iki həftə ötdü və bu minvalla xeyli düşünüb- daşınandan sonra Lessini azdırmaq qənaətinə gəldi və bu zaman, artıq payızın son ayı idi. Və o köpəyə axırıncı dəfə ürəyindən gələn sözləri öz bağında dedi. Əslində, ona görə dedi ki, ürəyini boşaltsın...

– Bax, Lessi, sabah yəqin ki, sənə sahib çıxan olacaq, əlbəttə, gözəlliyinə görə, gözəllər haçan yerdə qalıb ki? Amma yadında saxla, hürməsən, yəqin ki, yeni sahibin də gec-tez səni azdıracaq, hür Lessi, hürməyən itə heç yal da vermirlər, hür Lessi. Hür ki, sənin də it olduğunu bilsinlər, heç olmasa, adını it dəftərinə salsınlar, heç bilirsən it dəftəri nədir? Eh... Lessi, Lessi, sən belə şeyləri hardan biləsən? Sənin tayların altı aylığından Aya, ulduza hürür ki, sahibindən bir “malades” alsın, amma sən... Təzə sahibinə quyruq da bulayarsan, quyruq bulayarsan ki, ac qalmayasan. Həm də bu dünya ki var, quyruq bulayanlarındı, lap pələng olsan da...

Dənizin sahilə yaxın sularında – xırda körfəzlərdə balıq seyrəlsə də, hava xoş olanda tilovlarını götürüb balığa gedirdi. Və belə günəşli, küləksiz günlərin birində Lessini də zəncirindən açıb maşının, Təbriz camaatı demişkən, sandığına mindirdi. Lessini həm də ona görə dəniz sahilində azdırmaq istəyirdi ki, kimsə ona sahib çıxana qədər ac qalmasın, heç olmasa, Şimal küləklərindən sonra dalğaların sahilə atdığı balıqlarla qarnını doyura bilsin.

Neçə gündən bəri tüğyan eləyən Şimal küləyi- xəzri anbaan sakitləşirdi və bir köhnə balıqçı kimi bilirdi ki, belə günlərdə ən əfəl balıqçılar da ovdan əliboş qayıtmır.

Fırtına dənizdən sahilə yenə o qədər balıqqulağı çıxartmışdı, o qədər ölü balıq tullamışdı ki, hər daşı tanış körfəz üzünə yeni bir mənzərə ilə açıldı. Sahildə ölü balıq əlindən ayaq basmağa yer yoxdu... Qəribə idi, hamısı da başı bədənindən böyük, eybəcər siyənək balığı... Dəfələrlə bu doğma sahilin bu və buna bənzər mənzərəsi ilə üzləşmişdi və onu heyrətləndirən şeylərdən biri də, bütün günü

dalğaların arasında şikar arayan qağayıların bu siyənəklərə tamah salmaması idi.

Tez-tələsik maşının sandığını açdı ki, tilovlarını nizamlayıb sevimli peşəsinə başlasın. Sandığın bir küncünə qısılmış köpək təlaş içində ona baxırdı, hava soyuq olmasa da, titrəyirdi, sanki anlayırdı ki, sahibi onu niyə maşının sandığına mindirib, niyə bu yerlərə gətirib?...

– Düş, Lessi, – dedi, – görünür, bizimki də buraya qədərmiş...

Balıq, yosun qoxusu nə qədər xoş olsa da, sanki köpək hər şeyi başa düşür, anlayırdı və ona görə də maşının sandığından düşmək istəmirdi.

...Və son nəhayətdə, o, köpəyin bəyaz, xallı qulağına əl atmalı oldu.

Sandıqdan zorla düşürülmüş köpək təlaş içində dənizə, dənizin sahilinə – ləpədöyənə səpələnmiş ölü balıqlara baxırdı və sanki sahibinin daha bir işarəsini gözləyirdi ki, düşdüyü yerdən tərpənsin. Amma sahibi daha köpəyi eyninə almadan tilov çantalarını götürüb dənizə, dibini qara-boz dalğalar döyəcləyən qayalığa yaxınlaşıb bambuk tilovlarını nizamlamağa, qarmaqlara soxulcan, bişmiş qarğıdalı dənəsi taxmağa başladı.

Hələ Lessi bir aylıq olanda o, nə qədər hulbalıq, xırda külmə, balaca şahmayı tuturdusa, hamısını gətirib Lessiyə yedizdirirdi və təbii ki, köpək balığın dadını bilirdi.. və dəfələrlə fikir vermişdi, Lessi şahmayıları daha iştahla yeyirdi.

Sahilə səpələnmiş siyənəklərii qoxlaya-qoxlaya, nəhayət ki, bir qarışdan uzun olmayan bir dəniz fareli tapdı və dişinə çəkəndən sonra sahil boyu sağa, sola qaçmağa, atılıb-düşməyə başladı.

Sahildə, yəqin ki, qanadları mazuta, bəlkə də xam neftə bulaşdığından uça bilməyən bir qağayı balası da vardı və bu sahillərə yem dalınca gəlib çıxmış qarğalar, deyəsən, bu zavallı qağayı balasına da şikar kimi baxırdılar və hər yaxınlaşdıqca onu dimdikləyirdilər. Lessi nəinki qağayı balasına cumdu, əksinə, qarğaları qovmağa başladı. Kim bilir, bəlkə də, sadəcə, qarğalarla oynamaq istəyirdi, axı, Lessinin hələ oynayan vaxtı idi.

Köpəyin birdən-birə tövşüməyə başlamasının səbəbini kəsdirə bilmədi, axı, ömründə ilk dəfə boynu xaltasız qalmış bu it bir o qədər də qaçmamışdı, yorulmamışdı. Acgözlüklə yerdə nə varsa, hamısını qoxlayırdı və sanki ona birdən-birə verilən bu azadlıqdan qorxurdu...

Sonra Lessi sahil boyu qaça-qaça, yorta-yorta körfəzdən xeyli aralanıb gözdən itdi. Qağayı balasına şikar kimi can atan qarğalar, bir-birilərinə xəbər göndəriblərmiş kimi, bir anda çoxaldılar və uçmaq öz yerində, qaçmağa da heyi qalmayan quşu dimdikləməyə başladılar. Qağayı balası, bəlkə də, son gücünü toplayıb özünü dənizə atsa da, dalğalar onu yenidən ləpədöyənə çıxartdı.

Başı dalbadal tilovlarına düşən külmələrə, şahmayılara qarışdığından, bir də yana çevriləndə gördü ki, sahildə qağayı balasının ləpədöyənə səpələnmiş bir neçə topa tükü və quma qarışmış lələkləri qalıb və geri qayıtmış Lessi iştahla, tükləri, lələkləri qızartmış qanı yalayır.

Tilovuna dalbadal balıq düşürsə, dənizdən necə qayıdasan? Hər halda, bir şeyi dəqiq bilirdi ki, gün batmamış, hava qaralmamış bu sahildən getməlidi. Çünki artıq dəqiq bilirdi ki, hava qaralandan sonra maşını rahat sürə bilmir. Nə etməli, yaş öz işini görüb, necə deyərlər, karvan keçib.

Otuz-qırx ilin nimdaş tilov çantalarını tutduğu balıqlarla bir yerdə maşının sandığında yerbəyer eləyəndən sonra, Lessi də bir gözü sahibinin üzündə sandığa sıçramaq istəyəndə qapağı örtdü. Və astadan pıçıldadı:

– Əlvida, Lessi...

... Maşının aynasından köpəyin necə təlaş içində qaçdığını görürdü, amma hamar yola çıxandan sonra sürəti artıranda Lessi dayandı.

Bir həftə Lessi gözləri önündən çəkilmədi. Günbəgün bu qənaətə gəlirdi ki, itə qarşı insani addım atmayıb... Və ahıl yaşında daha bir günaha batıb. Səkkizinci gün – bütün gecəni Lessini yuxuda görəndən sonra – daha dözə bilmədi, balıq havası olmasa da, tilov çantalarını götürüb həmin körfəzə gəldi ki, Lessini tapsa, qaytarıb apara.

Axşama kimi dənizə tilov atsa da, bir gözü ətrafda idi. Demək olar ki, bağı dənizə çox yaxın olduğu üçün hər gün balığa gələn Seyid kişi də and içdi ki, bu həndəvərdə o söyləyən nişanda it gözünə dəyməyib.

Seyid birdən-birə soruşdu:

– Ay müəllim, bir halda ki, o küçük elə ağıllı, elə gözəl idisə, bəs onu niyə azdırırdın?

Kəsə cavab verdi:

– Hürmürdü.

Seyid də dərhal dilləndi:

– Hürməyən iti azdırallar da... Düz eləmisiniz...

Yol boyu, sükan arxasında da Lessini düşündü və son olaraq bu qənaətə gəldi ki, Lessini unutmaq üçün, bazar günü yenə Bayılın it-pişik bazarına gedib küçük axtarsın. Əlbəttə, qarışıq-filan yox, yerli küçük. Və hürməyinə əmin olandan sonra alsın. Adını da Alabaş qoysun.

***20 oktyabr 2019-cu il***
***Truskavets***

***ELÇİN***



# MƏMMƏD ORUCUN ÖZÜ VƏ SÖZÜ

***75 illik münasibətilə bir neçə söz***

Eşidəndə ki, bizim öz bədii dəst-xətti, öz sözü və sanbalı olan nasirimiz Məmməd Orucun 75 yaşı tamam olur, qırx il bundan qabaq (!) onunla birlikdə Yazıçılar İttifaqında işlədiyimiz gözəl illər yadıma düşdü – o, «Azərbaycan» jurnalında, mən isə İttifaqda işləyirdik.

Bu qırx ildə nələr olmadı, hansı qlobal hadisələr baş vermədi?

Qırx il insan ömründə az zaman deyil, ancaq həmin olanlar, baş verənlər bu qırx ilin çərçivələrinə sığışmır – epoxal qəziyyələrin şahidi olduq – Məmməd Oruc isə elə bu gün də «Azərbaycan» jurnalında işləyir – eyni məkanda. Ancaq bu qırx il onun yanından ötüb keçməyib, onun içindən keçib və bu fikrin açıq-aşkar ifadəsi Məmməd Orucun yaradıcılığıdır.

Bu yaxınlarda onun müsahibəsində oxudum ki, Buzovna tərəfdə, Bakıya gələn yoldan iki kilometr kənarda tək yaşayır və deyir: «– Hər gün ordan çıxıram yola, avtobusa minirəm, gəlirəm «Koroğlu»ya, ordan da redaksiyaya».

Doğrusunu deyim ki, Allahın verdiyi hər günün bu eyni marşrutu, eyni gediş və qayıdışı başqa birisi üçün (elə mənim özüm üçün də) dəhşətli bir yeknəsəqlik ola bilərdi və mən bu yerdə desəm ki, Məmməd ona görə belə bir eyniliyin fövqündədir ki, bu cansıxıcı gəliş-gedişdə də yazıçı kimi fikrində işləyir, fikrində yazı-pozuyla bir yerdədir, buna görə də həmin eyniliyin fərqində deyil – o zaman şablon söyləmiş olaram.

Ancaq şablon nədir? Şablon da həqiqətin təkrarıdır.

Mənə elə gəlir ki, Məmməd Orucla bağlı hər günün belə marşrut saymazlığı, laqeydliyi şablondan daha artıq dərəcədə onun varlığına hopmuş və bəlkə də artıq təhtəlşüura çevrilmiş təbii təvazökarlıqdan, təbii sadəlikdən irəli gəlir.

Baxın, elə həmin müsahibədə «2000-dən çox yazıçı var, mən də o 2000-dən biriyəm» deyir, müxbirin «– Sizə qarşı biganəliyə münasibətiniz?» sualına «– Bunları xatırlamağın heç bir mənası yoxdur» deyir.

Bu təbii təvazökarlıq – arxasında iddia gizlənmiş yalançı bir etiraf yox, dünyanın gərdişi ilə bağlı dərk edilmiş bir təvazökarlıqdır və müxbirin fəxri adlarla bağlı sualına da o, «– Yox, yox. O şeylər mənə yaddır» deyir.

Mən bu cür «biganəliyin» için-için dərdini çəkən, ad almaqdan ötrü əl-ayaqdan gedən, ondan-bundan ləyaqətsiz xahişlər edən, müsahibələrində isə belə şeyləri guya veclərinə almadığını, bunlara biganə olduğunu deyən yazı-pozu adamlarını az görməmişəm və onların bir çoxunun yazdığı əslində həmin «biganəliyi» doğruldur, çünki belə bir "biganəliyə" layiqdirlər, ancaq ədəbi tənqidin və ümumiyyətlə, ədəbi prosesin Məmməd Oruc kimi istedadlı ədiblərlə bağlı biganəliyi mürgüləməyi, inertliyi, həvəssizliyi, bir sözlə, naqisliyi ifadə edir.

Əsas məsələ isə budur ki, onsuz da zaman istedadın müttəfiqidir, buna görə də vaxt keçdikcə istedadla bağlı belə bir ədəbi «biganəlik» həmişə əsil ədəbiyyatdan kənara atılır. Zaman istedadı otuz ildən, əlli ildən sonra olsa da, mütləq üzə çıxarır və o istedad nə qədərinə layiqdirsə, ədəbiyyatdakı yerini də o dərəcədə də müəyyən edir. Ədəbiyyatın tarixində onlarla, hətta yüzlərlə belə hadisələr olub və olacaq.

Məmməd Oruc məhsuldar qələm sahibidir: romanlar («Qara güzgü», «Köçürülmə», «Qısa qapanma»), povestlər («Oyun havası», «Veteran», «Malakan kəndinin payızı», «Namərd körpüsü» və s.), hekayələr («Susuz gölün sonası», «Çay gəmisində gəzinti», «Kiyevli Oksana» və «Akvariumda farel ovu», «Şeytan tükü» və s.).

Mən bu roman, povest və hekayələrin hamısını oxumamışam, ancaq onların adını ürəklə çəkirəm, çünki o qələm ki, Məmmədin əlindədir, onunla uğurlu əsərlər yazmaq olar (və yazılır), eyni zamanda, nisbətən uğursuz əsərlər də yazmaq olar, nəyisə bəyənərsən, nəyisə bəyənməzsən, ancaq mən buna tamam əminəm ki, bu yazıların hamısı ədəbiyyat nümunələridir, bunların arasında ədəbiyyata dəxli olmayan bir yazı yoxdur.

10-15 il bundan əvvəl məzuniyyətə çıxıb, həm müalicə, həm də işləmək üçün xudmani Roqaşka (Sloveniyada) sanatoriyasına getmişdim və oradakı kiçik kitabxanada «Drujba narodov» jurnalının oxunmaqdan səhifələri əzilib-bükülmüş bir nömrəsini görüb götürdüm. Jurnalda Məmməd Orucun hekayəsi çap olunmuşdu və bu gözlənilməz görüşdən (!) sonra bir balaca nigarançılıqla (Roqaşkaya gəlib-gedən rusdilli oxucular Azərbaycan ədəbiyyatının hansı bir səviyyəsi ilə tanış olacaqlar?) indi adını xatırlamadığım o hekayəni oxudum. Yaxşı xatırladığım isə odur ki, hekayəni oxuyub, bitirəndən sonra o nigarançılıqdan əsər-əlamət da qalmadı.

Məmməd Oruc həm də professional tərcüməçidir və mən onun Vasili Belovdan tərcümələrini bizim tərcümə ədəbiyyatımızın uğurlarından biri hesab edirəm. Sadəcə, istərdim ki, onun rus dilindən çevirdiyi, vaxt və zəhmət sərf etdiyi müəlliflərin arasında daha sanballı imzalar olsun. Hiss elədiyim dərəcədə o, rus ədəbiyyatına yaxşı bələddir, rus bədii dilini hiss edir və onun tərcüməçi qələmi rus ədəbiyyatının böyük ədəbi simalarını (xüsusən klassikanı!) səsləyir. Qoqolun, Dostoyevskinin, Turgenevin, Lev

Tolstoyun, Çexovun, demək olar ki, bütün əsərləri Azərbaycan dilinə tərcümə edilib və dövrünə görə bu tərcümələrin əhəmiyyəti son dərəcə böyük və mühümdür. Ancaq bu gün biz deyə bilərikmi ki, o tərcümələrin hamısı tam olaraq bütün bədii nüansları ilə bərabər, müəlliflərinə layiqdir? Yox, deyə bilmərik, çünki layiq olanları ilə yanaşı, olmayanları da az deyil. Mən istərdim ki, Məmməd Oruc «Hərb və sülh»ü, yaxud «Sakit Don»u əvvəldən axıracan yenidən tərcümə etsin və mənim bu istəyimi «sifariş» kimi yox, günümüzün (və imkanlarımızın!) sifarişi kimi qəbul etmək lazımdır.

Bu qısa qeydləri yazarkən əvvəllər oxuduğum və xoşuma gəlmiş «Əzrayılla görüş» povestini yenidən vərəqlədim. Bu povest erməni-Azərbaycan münasibətləri ilə bağlı bizim ədəbiyyatımızda «Kamança»dan gələn və inkişaf edən, şaxələnən, millidən bəşəriyə adlayan və artıq yalnız erməni-azərbaycanlı yox, «Kamança»dan əvvəl yazılmış bir sıra əsərlərimizdə (məsələn, «Şeyx Sənan»da) bəşəri miqyasacan yüksəlmiş bədii-estetik özünüifadənin yaxşı nümunələrindən biridir.

Azərbaycan kəndlərini, şəhərlərini xarabaya çevirən, Xocalıda cəlladlıq edən erməni ilə kamança çalan erməni eyni adam deyil, çünki o, eyni adam olsaydı, təbii bir intiqam hissi ilə alışıb-yanan, bütün içi milli (və ədalətli!) qəzəb hissi ilə dolu olan azərbaycanlının ürəyinə yol tapa bilməzdi. Xəlil ilə Gövhərin həyatı – güzəranları, sözlə birbaşa, müstəqim deyilməyən hiss-həyəcanları və bu həyatın bədii təsviri «Əzrayılla görüş»ü ədəbiyyatımızın məhz milli faktına çevirir. Bunu da deyim ki, Məmməd Orucun «Qısa qapanma» romanında da müəllifin ümumbəşəri dəyərlərə meyli açıqca görünür və bu romanın eyni mövzulu əsərlərdən yaxşı mənada seçilməsinin də səbəbi elə budur.

Ədəbiyyatda bədii-fəlsəfi yüksəlişi, ucalığı bəşərilik müəyyən edir. Çox bəyəndiyim, hətta cavanlıq illərində aludə olduğum əsərlərdən biri – Tomas Mannın «İosif və onun qardaşları» yadıma düşür və başına min bir əzab-əziyyət gətirilmiş, xəyanətlərin, böhtanların içindən keçmiş İosifi (Yusifi) sonda hökmdara qədər yüksəldən qüvvə onun içindəki təhtəlşüur (T.Mannın qələmində isə tamam aşkar!) qüvvə bəşərilik idi və burada mühüm bir cəhət var: bəşəriliyin kökündə millilik dayanır, fundament millilikdir. Mən əvvəllər də bu barədə yazmışam ki, məhz millidən başlayan bədii-fəlsəfi yol magistrala çevrilərək, artıq bir xalqın yox, bəşəriyyətin hiss-həyəcanını ifadə edir: «Don Kixot» kimi, «Hamlet», «Anna Karenina» kimi.

Ancaq biz qələmin ardınca çox uzaqlara getməyək və mən bu qısa qeydlərin nöqtəsini qoymaq istəyəndə, üç-dörd il bundan əvvəl Məmməd Orucun hansısa yazısında söylədiyi bir xatirəsi yadıma düşdü. O, deyirdi ki, uşaqlıq çağlarında Səməd Vurğun kimi bir şair olmağı arzulayırmış.

Ancaq o, Səməd Vurğun kimi bir şair olmadı, müasir nəsrimizdə layiqli yerini tutmuş görkəmli nasirimiz Məmməd Oruc oldu.

***9 mart 2022, Bakı***



*Rizvan* ***NƏSİBOĞLU***

**TƏNHALAR ADASI**

***Darıxdığımız axşamlar tənhalar adasıdır.***

***Müəllif***

Çoxunun yadından çıxdım bu axşam,
Susur telefonum qara daş kimi.
Sükutun əlindən möhkəm tutmuşam,
Qırıq xətt cızıram karandaş kimi.

Yolların səs-küyü azalıb bir az,
Quşlar da kiriyə-kiriyə qalıb.
Özgə vaxt səsindən dayanmaq olmaz,
Yatıb saatımız geriyə qalıb.

Ürəyin əlində can əsir olub,
Kim idi taleyi əyilən, əyən?!
Bu nə sükunətdi ömrümə dolub,
Nə bir çağıran var, nə qapı döyən.

Kimlər ürəyində kimi çağırır,
Dağların bəmbəyaz yaşmağı düşüb.
Böyük pəncərədən yollar ağarır,
Buludun dirsəyi aşağı düşüb.

Dünya bir boşluğa düşüb boğulur,
Nə ayaq səsi var, nə gülüş səsi.
İlahi, qurduğum aləm dağılır,
De, necə sındırım qara qəfəsi.

Hamının yadından çıxdım bu axşam,
Nə adım yaddadı, nə özüm yadda.
Deyəsən, bir qədər unudulmuşam,
Durum səs eyləyim göylərin altda.

"Tənhalar adası" axşamın adı,
Uzaqda işıq var, yaxında zülmət.
Deyəsən, yol tapıb gələn olmadı,
Gərək unutmağı unudum əlbət.

## ÖZGƏ ADAM

Bu axşam ürəyim üstümdə deyil,
Bilmirəm canlıyam, ya cansızam mən.
Hardan atılmışam bu yer üzünə,
Evi bilinməyən ünvansızam mən.

Nə bu yer tanışdı, nə ağac, nə daş,
Nə göyün ulduzu səsləmir məni.
Nə məni qəlbində sevən çatmaqaş,
Nə əyri döngəmiz gözləmir məni.

Küləyin əli də yaddı saçıma,
Yolların qüssəsi dizə gələcək.
Alın yazılarım sığıb ovcuma,
Bu heykəl duruşum gözə gələcək.

Çöldə qurd ulayır, içimdə sükut,
Nə bu əl mənimdi, nə də ki ayaq.

Başımın üstündə daş olub bulud,
Bu özgə adamı kim tanıyacaq?

Bu axşam özümdən uzağam-nəyəm,
Bəlkə üzr istəyim yanlışlıq üçün?!
Özgəyə bənzəyən solğun kölgəyəm,
Sabah görüşərik tanışlıq üçün!

## ÖMÜR

***Ötən günlər – qaranlıqdan işığa***
***boylananda daha dolğun görsənir.***
***Müəllif***

İçimdə ümid var, yoxuş çıxıram,
şirin arzulara yol qurmuşam mən.
Qüssəli könüllə çölə baxıram,
işığın altında oturmuşam mən.

Başımın üstündə solğun işıq var,
dəhlizi kim atıb kölgəmin altda.
Ötən xatirələr "doqquzdan" baxar,
özüm oturmuşam birinci qatda.

Bu dünya buludlu, axşamında çən,
aşiqə sevgilər keçəri gəlmir.
İşığın altında oturmuşam mən,
qaranlıq utanıb içəri gəlmir.

Səsini kim alıb ötən çağların,
ağ-qara şəkillər gülüşü solğun.
Ovaxtkı dəlisov, tərs uşaqların
Alnı şum yeridi, baxışı yorğun.

Yollar cin düyünü, qoynu qüssəli,
kimi gözləyirəm, kim olur gələn.
Günləri kəmşirin, eşqi təsəlli,
bir kişi qayıdır ilk gəncliyimdən.

Saçında illərin tozu, qüssəsi,
sözünün bir az da ayrı dadı var.
Bir az şirnisini itirib səsi,
gün keçir, izləyim... sabah “ardı var”.

## ŞƏHİDƏ AĞI

***Şəhidimiz Nicat Baxçalıyev üçün***

Bu torpaq hamının evidi, bilsən,
Səngər sevənin də, at minənin də.
Kim deyir bu yaşda çıxıb getmisən,
Qayıdıb gələrsən günün birində.

Kim qoydu yarıda bu kəm taleyi,
Atanın saçına dəm düşür tək-tək.
Çoxdan nigarandı ana ürəyi,
Ananın yanında “evin” mübarək.

Üstünə gəlirik, gedirik, nə qəm,
Darıxma təklikdən sıxılsa ürək.
İnana bilmirəm, daşı öpürəm,
Adını çağırsam, ruhun dinəcək.

Bu qəbir duası, bu göz yaşları,
Bir qədər qəm-qəhər yeyirik, qalır.
Yazır səsimizi qəbir daşları, –
Bir çimdik xatirə deyirik, qalır.

## ATLI QARIŞQA

Səni kim mindirib bu ata bilməm,
yerdən aralısan, göyə yaxınsan.
Səni kim uydurub həyata bilməm,
adın nə olacaq göydən yıxılsan.

Xırda qarışqalar... yuxusu şirin
xırdanın yüngüldü yıxılmağı da.
Böyüyün əzrayıl quyusu dərin,
böyüyün nağıldı yox olmağı da.

Bəlkə də buluddan dünya gözəldi,
suyun pıçıltısı döyüntü imiş.
Bəlkə ayılmasan röya gözəldi,
rənglərin savaşı görüntü imiş.

Atlı da, atsız da yol hələ qalır,
taleyin səni də unutmağı var.
Bəzən adamı da atlı dərd alır,
atlının mənzilə tez çatmağı var.

Xırdalar zamanın tozu kimidi,
üfürsən sovrular, yox olar silsən.
Bəzən də irilər quzu kimidi,
şükür ki, onların biri deyilsən.

Dözüb yaşamağın yüz əncamı var,
bir azca dəlisov kəhər kimisən.
Elə bil Allahın sərəncamı var,
sıranı pozmayan əsgər kimisən.

Arada çapırsan: bu yer, o da göy,
küləyi qarğıma, yağışı söymə.
Bu dünya onsuz da öz işindədi,
zamanın dalınca atını döymə.

## ÖMÜR DƏ SAATLA

İşıq da saatla, su da saatla,
Ömür də saatla verilər bizə.
Uçuruq arzudan doğan qanadla,
Saatla qovuşar sevgilər bizə.

Avtobus saatla keçir küçədən,
Saatla çıxırıq evdən işəcən.
Saatla sürüşüb uzun gecədən,
Gedirik bir qızın görüşünəcən.

Bəzər ömrümüzü payız toyları,
Dəvətlər qapıdan girib tövşüyər.

Saatı gözləyər toy adamları,
Zamanın əlinə girəvə düşər.

Hər anın hökmü var, bu yalan deyil,
Əqrəblər izləyir bizləri hər an.
Hər kəsi taleyi uyudan deyil,
Saatı soruşur yuxudan duran.

Mən divar oxşayan bənna kimiyəm,
Zaman mənganədi məndən ötəri.
Saatı soruşma, bilən deyiləm,
Ölürəm zamansız gündən ötəri.

## MELODİYA

Günəş qürubdadı, torpaq mürgüdə,
Uzaqda dağların boz görüntüsü.
Bulud nə gözəldi bəyaz hörgüdə,
Dindirsən, dinəcək qız hönkürtüsü.

Bu çayın səsində neçə nağıl var,
Bu cığır o yolun görüşündədi.
Bir az bərk danışsan, dünya "dağılar",
Təbiət bir xəyal yerişindədi.

Pıçıltı ələnir çılpaq budaqdan
Xırda yuvalarda quşlar sarı sim.
Mahnı dinləyirəm durub bayaqdan,
Görən bu nəğmənin bəstəkarı kim?

Uzaqdan bir qüssə dumanı gəlir,
Bir səs sükunəti kəsib əridir.
Dünyanın üstünə qaranlıq enir,
Axşamlar səhərin xatirəsidir.

Arabir işıqlar közərir tək-tək,
Yuxuya çəkəcək dünyanı axşam.
Bir günün seyrindən doymayıb ürək,
Sabahın yolunun üstdə durmuşam.

**HİSS ELƏMİRƏM**

Birdən beynim dayanır,
Başı hiss eləmirəm.
Ürəyim od kimidi –
Qışı hiss eləmirəm.

Daşa tutdum zamanı,
Həsrət – ürəyin canı.
Məhəbbətsiz dünyanı
Yaxşı hiss eləmirəm.

Yer kimi laylanıram,
Saçdan qalaylanıram.
60-dan boylanıram,
Yaşı hiss eləmirəm.


**OXUCULARIN NƏZƏRİNƏ!**

**“AZƏRBAYCAN”**

**jurnalına abunə yazılışı davam edir.**

**Əlaqə nömrələri:**

**+ 99412 498-78-10**
**+ 99455 668-78-79**

**Jurnalın bir nüsxəsinin qiyməti 2 manat,**
**illik abunə qiyməti 24 manatdır.**
**İNDEKS: 76300**



## *Müşfiq CƏBİ*

***

Bütün yaxınlara yaxın gedəsən,
Uzaqdan baxasan uzaqlarına.
Hardasa mən səni qoyub gəlmişəm,
Gəl gedək mənimlə o çağlarına.

Gedək qarşılayaq öz-özümüzü,
Soyunaq bu yerdə tər üzümüzü.
Birtəhər aparıb bu ömrümüzü
Asaq bir ağacın budaqlarından.

Sanasan bu ömrü yuxu, gedəsən,
Ayılıb özündən qorxub gedəsən.
Qəfil bir səs gələ, çıxıb gedəsən,
Xəbərin olmaya ayaqlarından..!

***

Buralar çox uzaqdı,
Düşmək olmur yaxına.
Bəlkə, bir yol deyəsən,
Necə gəlim yuxuna?..

Ölmüşdüm ki, bilmirdim,
Doğulmuşam yenicə.
Darıxmağın vaxtını
Necə ölçüm sənəcən?

Özünə qayıtmaqdı
Bir yol özündən çıxmaq.
Bilsən, necə şirindi
Tək olanda darıxmaq.

Qoy bilim nə rəngdədi
Çək, nəfəsini yolla.
Özün gəlmirsən, bir yol
Barı səsini yolla...

***

Ölüm səndən ötrü, dirilməyim heç,
Hələ ölməmişdən məni, sağ ağla.
Bilirəm getdiyim yol çox uzaqdır,
Yuxuya getməmiş yolumu bağla.

Gözümü bağlama, yuxu görməyim,
Bu yuxu yaxına aparmaz məni.
Bir çiçək cildində, gül görkəmində
Bir kimsə yaxana aparmaz məni.

Qara gecələrin, qara adamı,
Gördüyün, gəzdiyin bu nə şəhərdir.
Bəsdir gözlərində daşıdın məni,
Mən sənin yuxunam, oyan, səhərdir.

***

Gecəsi üstünə çökmüş səhərəm,
Bir daha qızarmaz dan yeri məndə.
Səni axtarmağa gedirəm, gülüm,
Axtarma, tapmazsan can yeri məndə.

Özümdən içəri gedirəm, çəkil,
Əriyib qanıma qarışım təki...
Sən də gəl üstümdə elə ağla ki,
Zərrə də qalmasın qan yeri məndə.

Qarışıb gecəyə çəkdiyim bu ah,
Yaman çox gecikir bu gələn sabah.
Sənə də bir canlıq borcum var, Allah,
Onu da gəl alıb yan yeri məndən.

***

Nə qədər kiçikmiş dünya, İlahi,
Bir yer tapammadım sərəm, bu dərdi.
Ömrün divarında uçuq yer də yox,
İlahi, bəs hara hörəm bu dərdi?

Üzürük boşqabda bir qaşıq da yox,
Bu dəniz içində bir qayıq da yox.
İçimdə közərən bir işıq da yox,
Gedəm arxasınca görəm bu dərdi.

Nə sən izimdəsən, nə mən izində,
Çıxıb getdim, məni gəzmə özündə.
Bir adam tapmadım bu yer üzündə,
Götürüb apara, verəm bu dərdi..!

***

Belə sevdirmisən qurbanın olum,
Göy haqqı, yer haqqı, sevirəm səni!
Min kərə alışıb, yandım oduna,
Od haqqı, pir haqqı sevirəm səni!

Baş qoyub sinəmə nə danış, nə din,
Elə bir ah cəkim, ahıma isin.
Səni sevdiyimi kimsə bilməsin.
Tutduğun sirr haqqı, sevirəm səni!

Əllərin oxşasın saçımı dən-dən,
Sanki bu dünyada mən varam, bir sən.
Qorxma, səninləyəm, ölməyəcəksən,
O böyük bir haqqı, sevirəm səni!

Gəl öpüm, oxşayım mən səni rəng-rəng,
Ay saçı sarışın, ay bəxti qəşəng.
Mən Əqrəb bürcüyəm, sən isə Xərçəng.
Qoç haqqı, Şir haqqı, sevirəm səni!

Can alan ucuzdur, can verən baha,
Gəl ver saçlarını mən çəkən aha.
Baş vurub Mahura, endim Segaha,
Rast haqqı, Şur haqqı, sevirəm səni!

Sən orda tənha gəz, mən burda yalqız,
Bizimdir səmada o bir cüt ulduz.
Allahın özü də şahiddir, ay qız,
Yazdığım şeir haqqı, sevirəm səni!



*Mustafa ÇƏMƏNLİ*



# AĞIL YAŞDA DEYİL...

1906-cı ildə Bakıda Azərbaycan müəllimlərinin birinci qurultayı olur. Qurultayda Həsən bəy Zərdabi sədr, Odessa Tibb İnstitutunun tələbəsi Nəriman Nərimanov isə müavin seçilir. Bu qurultayda Həsən bəylə Nəriman Nərimanov arasında fikir ayrılığı olur. Bəzi kitablarda belə bir fikir söylənilir ki, guya gənc Nəriman Nərimanov Həsən bəyə deyib ki: “Ağıl yaşda deyil, başdadır”.

Mən bu deyimi heç cür Nəriman Nərimanova yaraşdırmırdım. Abdulla Şaiqin 1973-cü ildə “Gənclik” nəşriyyatında nəşr olunmuş “Xatirələrim” kitabını oxuyanda zəndimdə yanılmadığımı gördüm.

Abdulla Şaiq yazır: “Bu qurultayda bir çox mühüm məsələlərlə yanaşı “Lal metod” adlanan tədris üsulunun nə dərəcədə əlverişli olub-olmaması müzakirə olunurdu”.

Qurultayda bu üsulun ləğv olunması qərara alınır. Həsən bəy Zərdabi qurultay tərəfindən Qafqaz valisinə “Lal metodu”nun ləğv edilməsi barədə xahiş etməyi təklif edir. Nəriman Nərimanov “Xahiş yox, tələb etməliyik” – deyir.

Qurultay iştirakçısı Abdulla Şaiq yazır:

“İnqilab ruhu ilə aşılanmış olan qurultay Nərimanın təklifini qəbul etdi. Həsən bəy etiraz etdi:

– Sən nə ilə tələb edirsən? Topun-tüfəngin var, yoxsa ordun var? Bəlkə bir-birinin canına daraşmış qoçulara güvənirsən?

Mübahisə uzandı. Müəllimlərin böyük əksəriyyəti yenə Nərimanın sözünü tutdu. Həsən bəy: “Siz gəncsiniz, təcrübəniz azdır, güc ilə iş aşmaz!” – dedikdə, doktor Seyidov: “Ağıl yaşda deyil, başdadır”, – deyə

ağır cavab verdi. Bu cavablardan sonra Həsən bəy qurultayı tərk etməyə məcbur oldu".

Bu xatirədən aydın olur ki, doktor Seyidovun dediyi: "Ağıl yaşda deyil, başdadır" replikası Nəriman Nərimanova aid deyildir. Əlbəttə, Nəriman Nərimanov haqlı olsa belə, mətbuatımızın banisinə belə kobud cavab verməzdi.

# MƏDƏNİYYƏT ZİYASI



Mətbuat tariximizin banisi Həsən bəy Zərdabi xeyli gec – 35 yaşında evlənib. Səbəbi də o olub ki, Həsən bəy savadlı bir müsəlman qızı almaq istəyirdi. Hələ ki, belə bir qızı tapammamışdı. Təsadüfən 1872-ci ildə Həsən bəyin əlinə "Qafqaz" qəzeti düşür. Qəzeti vərəqləyərkən Tiflisdə müqəddəs Nina məktəbini bitirən qızların siyahısını görüb oxuyur. Siyahıda Ter vilayəti Nalçik şəhərindən olan Hənifə xanım Abayevanın adını oxuyur. Həsən bəy sanki çoxdan axtardığını tapır. Günü-günə satmadan Tiflisə yola düşür. Həsən bəy Tiflisdə Hənifə xanımla tanış olur, elə ilk görüşdəcə həmfikir olduqları anlaşılır.

Həsən bəy Bakıya Hənifə xanımla qayıdır və zaman keçdikcə belə bir xanımla evlənməkdə yanılmadığından məmnun olur.

* * *

Həsən bəy Zərdabi 28 noyabr 1907-ci ildə həyatla əbədi olaraq vidalaşır.

Bakıda Həsən bəyin dəfn mərasimi çox dəbdəbə ilə keçir. Dövrün ziyalıları onun cənazəsi önündə vida nitqi söyləyirlər. Əhməd bəy Ağaoğlu vida nitqində deyir: Şimdi bu qədər böyük, bu qədər ali şəxsin təşyinə gəlib də, biz ona nə deyək! Nə növ onunla vida edək? Əqidəmcə, biz gərək o ruhi-paka xitab edib də deyək: "Ey ali ruh! Şimdi sən gedirsən ata-babalarımızın, əcdadımızın hüzuruna! Onlara bizdən salam yetirib də bizim bu şikayətimizi de: Ey əcdad, ey babalar! Bizə nə gün qoydunuz?! Bizə nə növ irs qoydunuz, getdiniz?! Stanlarımız xərabə, vilayətlərimiz viranə! Cümlə millətlər arasında sərnigün, xar, zəlil, məqhur, məzlum, əhvalımız pozğun! Günü-gündən tənəzzül edib, günü-gündən puç və zay olmaqdayız! Əlan, işimiz, sənətimiz oğurluq, quldurluq, bir-birimizin canına, malına, irsi-namusuna qəsd etmək imiş! Ey kaş nə biz olaydıq, nə böylə irs".

Əli bəy Hüseynzadə isə "İrşad" qəzetinin 2 dekabr 1907-ci il tarixli sayında yazırdı: "Keçmişdə aləmi-islam bir qaranlıq içində qaldığı zaman bu adam əlinə məşəl alıb qaranlığı işıqlandırmaya çalışıyordu, o məşələ nə idi? Əvvəlinci mətbu kəlam idi. Həsən bəy əvvəlinci şəxsdir ki, Qafqaz, bəlkə Rusiya, demək olar ki, bütün dünyada müsəlmanlar içində əvvəlinci türk müsəlman qəzetəsi nəşr etmişdir. Biz Qafqaz türklərinin öhdəsində bu adamın artıq haqqı vardır. Çünki bu şəxs bizim üçün dil yaratmışdır. Ədəbiyyata qapı açmışdır".

Güman edirəm ki, ömrünü xalqının yolunda şam kimi əritmiş Həsən bəy Zərdabi haqqında yazılmış bu dəyərli sətirlər hər zaman müasir səslənəcək.

# BURJUA MÜHƏRRİRLƏRİ



Sovet dövründə Əli bəy Hüseynzadədən, Əhməd bəy Ağaoğlundan nə bəhs edən vardı, nə də onların kitabları çap olunurdu. Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində "Azərbaycan mətbuatı tarixi" fənnindən unudulmaz müəllimimiz Nəriman Zeynalov dərs deyirdi. Nəriman müəllim həm də eyni adda dərsliyin müəllifi idi. 1905-ci ildə nəşrə başlayan "Həyat" qəzetinin naşiri Əlimərdan bəy Topçubaşov, baş redaktorları isə Əli bəy Hüseynzadə ilə Əhməd bəy Ağaoğlu idi. Mətbuat tarixindən bəhs edənlər onları bizə "burjua ziyalıları" kimi təqdim edirdilər. "Həyat" qəzetinin baş redaktorları 1905-ci ildə məramlarını belə bəyan etmişdilər: "Qəzet həm insan üçün munis bir yoldaş, xeyirxah bir müəllim, nafiz bir məktəbdir, həm də zillətdə qalanlara doğru yolu, hidayət yolunu göstərir". Özlüyündə burada heç bir pis fikir yoxdur. Amma sovet quruluşu onlara "burjua mühərrirləri" damğası vuraraq yazdıqlarını müasir oxucuların mühakiməsinə vermirdilər.

Nəriman Zeynalov vicdanlı bir müəllim olaraq onlardan danışanda həyatlarından ibrətamiz əhvalatlar söyləməyi də unutmazdı.

Bir dəfə auditoriyada "Həyat" qəzetindən danışarkən ibrətamiz bir əhvalat danışdı. Qəzetin baş redaktorları öz aralarında qərara gəlibmişlər ki, qəzetin baş məqaləsini növbə ilə yazsınlar. Sabah çıxası qəzetin baş məqaləsini Əli bəy yazmalıymış. Əhməd bəy dostundan soruşur:

– Əli bəy, məqaləni yazmısan?

– Yox!

– Necə yəni yox!

– Yazmamışam də, – deyə Əli bəy səsinin tonunu qaldırır.

Çılğın təbiətli Əhməd bəy yerindən qalxıb Əli bəyə yanaşır. Əli bəy cəld altındakı kətili başı üstə qaldırır. Həyatı boyu kimsəyə baş əyməyən Əhməd bəy Ağaoğlu başını qabağa tutub:

– Vur, amma otur məqaləni yaz! –deyir.

Əli bəy Hüseynzadənin əli boşalır. Oturub məqaləsini yazmağa başlayır.

* * *

Abdulla Şaiq "Füyuzat" jurnalının baş redaktorunu belə xatırlayır: "Əli bəy ona yaxın Şərq və Qərb xalqlarının dilini bilirdi. Alim, rəssam, musiqişünas, ədəbiyyatçı idi və ozamankı Azərbaycan ədəbiyyatına nə isə bir yenilik gətirmək, ədəbiyyatı məhdud çərçivədən kənara çıxarmaq istəyirdi".

Mənim də nümayəndə seçildiyim Azərbaycan jurnalistlərinin VI qurultayında professor Şirməmməd Hüseynov özünəxas hökmlə deyirdi: "Əli bəy Hüseynzadə 3 dil bilirdi, 2 dildə qəzet çıxarırdı, Əhməd bəy Ağaoğlu 5 dil bilirdi, 3 dildə qəzet nəşr edirdi".

Əli bəy Hüseynzadənin böyüklüyünü inkar etmədən onu da etiraf etməliyik ki, "O, Azərbaycana xalqın anlamadığı ərəb, fars kəlmə və tərkibləri ilə dolu bir dil də gətirmişdir" (Abdulla Şaiq). Həsən bəy Zərdabi, Firidun bəy Köçərli, Molla Nəsrəddinçilər Əli bəy Hüseynzadənin dil və üslubunu qəbul etmirdilər. Firidun bəy Köçərli təəssüf hissi ilə yazırdı ki, "Kaş o alicənab (Əli bəyi nəzərdə tutur– M.Ç.) İstanbulda rahat əyləşib, bizim şubəxt Qafqaza təşrif gətirməyə idi. O cənabın elm və kəlamına sözüm yoxdur. Sözüm ondadır ki, elm və kəlamından bizə bir bəhrə vermədi, ancaq dilimizə pozğunluq saldı, təzə dil gətirdi... Az vaxt içində Qafqaz türklərinin dili Osmanlı sözləri və istilahları ilə doldu".

Bu tarixi olaydan bu gün ana dilimizə ehtiyac olmadan yabançı sözlər gətirənlər ibrət götürməlidir.

1926-cı ildə yenidən Bakıya gəlib İkinci Azərbaycan Müəllimlər Qurultayında iştirak edən Əli bəy Hüseynzadə 5 martda yazıçılar cəmiyyətinin iclasında nitq söyləyərək deyir:

"... Bir gün sokakda bir cocuq gördüm, topla oynayırdı. Topu yuxarı atdıqca top dönüb aşağı düşürdü – fəqət topu əvvəl yerə vurduqca top əqibincə yüksəliyordu. Ədəbiyyat da böylədir. Əvvəla xalqa, göylüyə, əmələyə, vəlhacil böyük kütləyə qədər enməli, sonra bunlarla bərabər yüksəlməyə çalışmalıdır" (Abdulla Şaiq).

Göründüyü kimi, hansı yaşda olmağına baxmayaraq, səhvini etiraf etmək də böyüklükdür.

* * *

Əli bəy Hüseynzadə şeirlərinin birində təəssüf hissi ilə yazırdı:

***Bilmirsən gədalar nələr etdilər Vatana,***
***Nə qoydular uyuya, nə qoydular oyana.***

* * *



Bakıda dostluq edən, birgə qəzet buraxan Əhməd bəy Ağaoğlu ilə Əli bəy Hüseynzadə XX əsrin əvvəllərində Osmanlı Türkiyəsinə mühacirət etdikdən sonra da bütün həyatları boyu dostluqları davam etmişdir. Həyata baxışları, məslәkləri bir olsa da, xasiyyətcə fərqli idilər, buna baxmayaraq sadiq dost idilər. Əhməd bəyin oğlu Səməd Ağaoğlu “Atamın dostları” kitabında yazır: “Atam sərt, əsəbi, həmişə harasa tələsən, dostu (Əli bəyi nəzərdə tutur – M.Ç.) isə yumşaq, sakit, ağır tərpənişli bir adam idi. Lakin təbiətlərindəki bütün fərqlərə baxmayaraq, birlikdə istiqlal hərəkatına qoşuldular, gizli cəmiyyətlər yaratdılar”. Səməd bəy Ağaoğlu 19 may 1939-cu ildə vəfat edən atasının hüzür yerində göz yaşı tökən Əli bəy Hüseynzadəni xatirələrində belə anır: “bəyaz saqqallı, ağbənizli, gözəl gözlü, şair, rəssam, musiqişünas, filosof, jurnalist, astroloq, professor, doktor olan Qafqazlı dostu...”

* * *

Yusif Vəzir Çəmənzəminli həmyerlisi Əhməd bəy haqqında “Həyatımın 20 ili” adlı xatirəsində yazır: “Mirzə Sadıqla Əhməd bəy Ağaoğlu bir məclisdə olduqda zəka hakimiyyəti duyulurdu, heç bir mövhum fikirlərə yer qalmırdı. Camaat Əhməd bəyin Fransada təhsil aldığını bilirdi, ona “Firəng Əhməd bəy” – deyirdilər. İslam və türk tarixinə hər kəsdən artıq vafiq idi... Məclisdə danışanda heç bir molla cəsarət edib onun fikirlərinə qarşı çıxa bilmirdi...

1896-cı ildə Əhməd bəy Şuşada türk hissəsində, birinci olaraq qiraətxana və kitabxana təşkil etdi, o biri il Bakıya getdikdə bu müəssisə qapandı”.

# TƏNTƏNƏLİ GECƏ

18 may 1912-ci ildə Üzeyir bəy Hacıbəylinin “Əsli və Kərəm” operası ilk dəfə idi ki, Mayılov teatrında tamaşaya qoyulmuşdu. O gecə tamaşaçı coşqunluğu o həddə çatmışdı ki, aktyorlar iyirmi yeddi yaşlı Üzeyir bəyi

çiyinlərində səhnəyə gətirmişdilər. “Əsli və Kərəm” operasının tamaşası mayın 28-də bir daha təkrar oynanılmışdır. Sonralar Hacağa Abasov ogecəki tamaşanı xatırlayaraq yazırdı: “...Mən o zaman “Əsli və Kərəm”də Sofi rolunda oynayırdım. Yaxşı yadımdadır ki, “Əsli və Kərəm” oynanan gecə Nəcəf bəy Vəzirov, Soltan Məcid Qənizadə, Mehdi bəy Hacınski Üzeyiri səhnəyə çıxarıb tamaşaçılara təqdim edəndə zalda gurultulu alqış qopdu və səhnəyə çoxlu gül-çiçək atdılar. Tamaşaçılar: “Sağ olsun Üzeyir bəy”, “Əhsən Üzeyir bəyə”, “Yaşasın bəstəkarımız”, – deyə qışqırmağa başladılar”.

Bəli, o zaman bu təntənə, bu alqış, səhnəyə atılan bu gül-çiçək yağışı 27 yaşlı Üzeyir bəyin istedadının, şəxsiyyətinin etirafı, təsdiqi idi.

## “SURNA” FELYETONU

Uzun illərdən sonra Üzeyir bəyin “Azərbaycan milli marşı”nı ilk dəfə Azadlıq meydanında, 1989-cu ilin bir payız günündə, 70 ildən sonra yüz minlərlə azadlıq aşiqlərinin qarşısında səslənmişdi. O gün xorun ifasında səslənən bu musiqinin qəlbə və ruha sirayət eləyən melodiyası altında meydan susmuşdu.

***Azərbaycan! Azərbaycan!***  
***Ey qəhrəman övladın şanlı Vətəni!***  
***Səndən ötrü can verməyə cümlə hazırız!***  
***Səndən ötrü qan tökməyə cümlə qadiriz!***  
***Üç rəngli bayrağınla məsud yaşa!***

Mən “Azadlıq milli marşı” səslənəndən dərhal sonra Üzeyir bəyin ev muzeyinə gedib, 17 il ölməz bəstəkarın yanında köməkçi kimi çalışmış Ramazan Xəlilovla söhbət etmişdim.

Ramazan Xəlilov söyləyirdi ki, Azərbaycan Cümhuriyyətinin süqutuna üç gün qalmış “Azərbaycan” qəzetinin baş redaktoru Üzeyir bəy Azərbaycanda Sovet hakimiyyətinin qurulması üçün dəridən-qabıqdan çıxan Əliheydər Qarayev haqqında çox kəskin bir felyeton yazmışdı. Baxmayaraq ki, Üzeyir bəy mövcud hakimiyyətin, siyasi quruluşun dəyişəcəyinə tam əmin idi, ancaq belə bir addımı atmışdı.

Mən uzun müddət Üzeyir bəyin Cümhuriyyət dövründə yazdığı o sonuncu felyetonunu axtarmışdım. Nəhayət, Üzeyir bəyin 25 aprel 1920-ci ildə redaktoru olduğu “Azərbaycan” qəzetində çap etdirdiyi “Surna” adlı felyetonunu tapmışdım. Üzeyir bəy özünəxas yumorla “xalı” və “gəbə”nin xammal olub-olmamasını söz “oyununa” çevirərək müstəqilliyimizə qənim kəsilən bolşeviklərin, onlara züy tutan əliheydərlərin əsl mahiyyətini çox ustalıqla açaraq yazırdı: “Hətta istəsən qoyunun özünə də xammal deyə bilərsən, çünki qoyun xalı və gəbə üçün yun verir, amma heç bir vaxt xalı və gəbəyə xammal deyə bilməzsən.

Hətta bunu da deyim ki, Azərbaycanda bolşevik hökuməti qurublar. Əliheydər Qarayevi onun başına qoysan, o halda sovet hökuməti “bizə

dəyməz" deyə xəyal edənlərə xamxəyal sahibi demək olar, əmma xalı və gəbəyə mütləqən xammal demək olmaz."

Ramazan Xəlilov söyləyirdi ki, Sovet hökuməti qurulandan sonra Üzeyir bəy uzun illər nigaranlıq içində yaşamışdı.

* * *



Fədakar jurnalist-alim Qulam Məmmədli Üzeyir bəyin həyat və yaradıcılığını əks etdirən salnaməsini "Yazıçı" nəşriyyatına təqdim eləmişdi. Salnamə bizim redaksiyada çapa hazırlanırdı. Buna görə də Qulam müəllim müntəzəm olaraq bizimlə əlaqə saxlayırdı. Baxmayaraq ki, 80-ci illərin əvvəlləri idi, ancaq Üzeyir bəyin taleyindən keçən elə anlar vardı ki, hətta bəstəkarın həyat salnaməsindən belə kənarda qalmışdı. Çünki bu faktlar Sovet hökuməti ilə bağlıydı. Nə idi bu? Qulam müəllim şəxsən mənə ürək qızdırıb danışmışdı ki, Azərbaycanda Sovet hakimiyyəti qurulanda güllələnməsi nəzərdə tutulanların siyahısında Üzeyir bəyin adı dördüncü idi. Amma Nəriman Nərimanov bu qəddarlığa yol vermir, öz əli ilə bəstəkarın ölüm fərmanının – onun adının üstündən qırmızı qələmlə xətt çəkir. Üzeyir bəyin belə bir olaydan xəbəri olub-olmayıb deyə bilmərik, amma Qulam müəllim bu "ölüm" siyahısını öz gözü ilə gördüyünü söyləyirdi.

* * *

Bütün gizli və aşkar təzyiqlərə baxmayaraq Üzeyir bəy Allahın ona verdiyi şərəfli ömrü yaşayaraq xalqına xidmət etdi. Ruslaşmış, antimilli, bolşevizmin qatı tərəfdarı Əliheydər Qarayev isə 1938-ci ildə "əks-inqilabçı, millətçi mərkəzin işi" ittihamı ilə həbs edilib güllələndi.

* * *

1948-ci ildə Üzeyir bəy dünyasını dəyişəndə Məhəmməd Əmin Rəsulzadə yazırdı: "...dəmir pərdənin arxasında kəndisinə süni marşlar yazdırılsa da, Moskvada çiyni diktatorun əliylə oxşadılsa da, tabutu başında Azərbaycan mənəviyyatı ilə ilgiləri olmayan komissarlar növbədə dursalar da, Hacıbəyli Üzeyiri Azərbaycandan, Azərbaycan kulturundan və Azəri Türk tarixindən kimsə ayıramaz! O, milli Azərbaycan varlığının məsnədləri arasında qalacaq ayrılmaz bir dəyərdir!"

* * *

Səksəninci illərin əvvəllərində fədakar salnaməçi Qulam Məmmədlinin “Üzeyir Hacıbəyov – həyat və yaradıcılığının salnaməsi” kitabının çapa hazırlanmasında “Yazıçı” nəşriyyatının əməkdaşı kimi mən də yaxından iştirak edirdim (1983-cü ildə redaktə prosesində olan bu kitab 1984-cü ilin axırlarında işıq üzü görmüşdür). Əlyazmada ara-sıra Üzeyir bəyin səhnəyə qoyulmuş operettaları haqqında “M.Ə.” imzalı birisinin resenziyalarından parçalar oxuyanda həmişə fikirləşirdim ki, görəsən bu “M.Ə.” imzası kimə məxsusdur? Nə səbəbə ad və soyadını açıq yazmayıb? İllər sonra professor Şirməmməd Hüseynovun min bir zəhmətlə ərəb əlifbasından mövcud əlifbaya çevirib çapa hazırladığı Məhəmməd Əmin Rəsulzadənin 2014-cü ildə “Təhsil” nəşriyyatında nəşr olunmuş 5 cildliyi ilə tanış olanda başa düşdüm ki, “M.Ə.” imzası böyük M.Ə.Rəsulzadəyə məxsusmuş. Bir daha Qulam Məmmədlini minnətdarlıq hissilə yad etdim ki, Üzeyir bəydən bəhs edən salnaməsini Sovet senzurasından qorumaq üçün M.Ə.Rəsulzadənin imzasını bilərəkdən qısaldıbmış. Əks təqdirdə M.Ə.Rəsulzadənin fikirləri salnamədə yer ala bilməzdi.

* * *

1918-ci ildə Azərbaycan müstəqilliyinə qovuşduqdan sonra Üzeyir bəy xalqımızı ayıq-sayıq olmağa çağırırdı. O yazırdı:

“Bugünkü vəzifəmiz o qara günləri yaddan çıxartmamaq və buna görə də həmişə və hər an hər şeyə hazır olmalıyıq. Borcumuz bu vətəni gələcəkdə hər təcavüzdən qorumaq və məmləkətimizi şərəflə yaşatmağa çalışmaqdır.”

* * *

Doğma ana dilinə sonsuz sayğı ilə yanaşan Üzeyir bəy 1919-cu ildə “Azərbaycan” qəzetində yazdığı: “Bir bu qədər ki, biz rusca bilirik, rus tarixinə, rus ədəbiyyatına, rus coğrafiyasına fəzləsi ilə aşina və qaimik – yetər! İndi də bir an özümüzü, öz keçmişimizi, halımızı və gələcəyimizi öyrənməyə çalışalım!”

Ölməz bəstəkarın 102 il bundan qabaq yazıb çap etdirdiyi bu fikirlər bu gün də müasir səslənmirmi? Məgər öz mədəniyyətinə, ədəbiyyatına, musiqisinə biganələrimiz azdırmı?

# ÇUĞULÇU ERMƏNİNİN PUÇ OLMUŞ ARZULARI

Üzeyir bəyin 1938-ci ildə yazdığı “İlk Azərbaycan xalq xoru” adlı məqaləsini oxuyanda bəlli olur ki, bəstəkar “İlk Azərbaycan çoxsəsli xoru”nu 1926-cı ildə Azərbaycan Dövlət Konservatoriyasında yaradıbmış.

Bu xorda əksəriyyəti tələbə-gənclərdən ibarət 70 nəfər oxuyan varmış. Lakin bədxahların "Azərbaycan xalqına çoxsəsli xor, polifoniya lazım deyildir" hay-küyü öz mənfi təsirini göstərmiş, "nəticədə böyük zəhmətlə yaradılmış xor dağılmışdır" (Ü.Hacıbəyli).

Üzeyir bəy illər sonra, 1936-cı ildə Azərbaycan Dövlət Filarmoniyasında yenidən Azərbaycan Dövlət xorunu yaradır. 1936-cı ilin dekabrında artıq xorun 80 nəfər üzvü vardı.

Təəssüf ki, çuğulçu ermənilər o vaxt da ocaq başındaydılar. Məqsədləri də Üzeyir bəyi şərləyib, gözdən salmaq, tutdurmaq idi. O repressiya illərində filarmoniyanın yerli komitəsinin sədri Akopiyan 21 noyabr 1937-ci ildə surəti Bakı sovetindəki mərkəzi komissiyasına olmaqla NKVD-yə iftira dolu bir məktub göndərmişdi. Akopiyan öz əcdadlarının adətinə rəğmən yazırdı:

"Sizə bildirirəm ki, Azərbaycan Dövlət Filarmoniyasında dövlət xoruna rəhbərlik edən və eyni zamanda Azərbaycan Sovet Bəstəkarları İttifaqının sədri olan bəstəkar Üzeyir Hacıbəyov işləyir.

Azərbaycan Dövlət Filarmoniyasında xor ikinci ildir ki, mövcuddur və orada 200-dən artıq adam oxuyur. Xor qarşıdakı Moskvada Azərbaycan incəsənəti ongünlüyünə hazırlaşır.

Xorun rəhbəri Hacıbəyov sovet düşüncəsi ilə işləmir, xorçuların sırasından yad ünsürləri və başqa məktəbdən qovulmuşları irəli çəkir; məsələn:

1) Əmiraslanova Qüdrət – iri neft sənayeçisinin qızıdır və onun qardaşı həbs edilib.

2) Məhəmmədbəyli Sima – sovet hakimiyyəti qurularkən güllələnmiş polkovnikin qızıdır.

Üzeyir Hacıbəyovun şəxsiyyəti mənim üçün qaranlıqdır, belə ki, eşitdiyimə görə, Üzeyir Hacıbəyov Müsavat hakimiyyəti vaxtı "Ordan Burdan" (bu adda qəzet olmamışdır, Üzeyir bəy bəzi məqalələrini sadəcə bu başlıq altında yazırdı – M.Ç.) Müsavat qəzetinin redaktoru olub. Bu qəzetin bir nüsxəsi, əməkdar incəsənət xadimi, dirijor İoannesyanın dediyinə görə, xalq artisti Hüseynqulu Sarabskidədir. Hacıbəyovun qardaşı Müsavat Parlamentinin üzvü olub. Bolşeviklər Bakıya gələrkən Üzeyir Hacıbəyov İrana qaçıb və bir neçə vaxtdan sonra Bakıya dönüb. Onun Müsavat Parlamentinin üzvü olan qardaşı Parisə qaçıb və Üzeyir Hacıbəyov yeddi il müddətində bu qardaşı üçün Parisə pul köçürüb.

Bu deyilənlərdən çıxış edərək və nəzərə alaraq ki, onun namizədliyi Naxçıvan MSSR-dən Millətlər Sovetinə verilib və 1938-ci ilin fevral ayında o, Moskvaya Azərbaycan incəsənəti ongünlüyünə partiya və komsomol heyətinə hətta baxmaq belə istəmədən özünün himayəyə götürdüyü, irəli çəkdiyi və yetişdirdiyi sinfi dostları ilə birgə getməlidir, onun müfəssəl tərcümeyi-halını öyrənməyi və Üzeyir Hacıbəyovun gerçək üzünü aydınlaşdırmağı xahiş edirəm". (M.Mərdanov, Ə.Tahirzadə. "1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar". Bakı, "Təhsil", 2019, VII cild, səh. 48)

Akopiyanların məqsədi o idi ki, Üzeyir bəy deputat seçilməsin, onu 1938-ci ildə Moskvada keçiriləcək Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyünə aparmasınlar. Akopiyan Üzeyir bəyin daha da şöhrətlənməsindən narahat idi. Ancaq onun məkirli niyyətləri baş tutmadı. Moskvada baş tutan ongünlükdə bəstəkarın "Koroğlu" operası oynanıldı və ona böyük şöhrət gətirdi.

1988-ci ildə çuğulçu Akopiyanın cızma-qarasında adı keçən milyonçu Nəcəf Əmiraslanovun qızı Qüdrət Əmiraslanovayla görüşüb söhbət etmişdim. Milyonçu atasından ona bir kontor kitabı yadigar qalmışdı.

Sovet hökuməti qurulandan sonra atasının var-dövləti müsadirə edilmiş, bununla kifayətlənməyən bolşeviklər 1923-cü ildə onu həbs etmiş, haqsızlığa dözməyən köhnə sahibkar altı ay sonra dustaqxanada vəfat etmişdir. Qüdrət xanımın qardaşı Nəsir Əmiraslanov isə 1937-ci ildə həbs edilmiş, mühakimə olunaraq Sibirə sürgün olunmuşdur.

Qüdrət xanım mənə Üzeyir bəyin xeyirxahlıqlarından danışmışdı. Üzeyir bəy milyonçu qızı olmağına baxmayaraq onu Dövlət xoruna solist götürübmüş. Akopiyanların cəhdləri faydasız olmuşdu. Qüdrət xanım Dövlət xoru ilə birgə Moskvada keçirilən Azərbaycan incəsənəti günlərində iştirak etmiş, hətta tarzən Bəhram Mansurovun müşayiəti ilə "Güloğlan" xalq mahnısını oxuyub vala yazdırmışdır.

Xatırladım ki, 2 fevral 1918-ci ildə dünyaya göz açmış Qüdrət xanım 1940-cı ildə Xalq artisti Möhsün Sənani ilə ailə qurmuş, bu izdivacdan Gülər adlı qızları olmuşdur.

Qüdrət Əmiraslanova 20 oktyabr 2002-ci ildə vəfat etmişdir.

# İLAHİ XOŞBƏXTLİK

Təkcə "Koroğlu" operasının uvertürası ilə mənsub olduğu xalqını həlledici günlərdə yumruq kimi birləşdirməyi bacarmış Üzeyir bəyin iş üsulunun şahidi olmuş yazıçı Məmməd Səid Ordubadi (operanın libretto müəllifi idi) yazır:

"Bir dəfə Üzeyirdən soruşdum:

– Nə üçün bəzi musiqi parçalarını royal qarşısında oturmadan yazırsan?

O, gülümsəyərək dedi:

– Bəstəkar musiqi alətlərinin verdiyi səsləri o qədər dərindən mənimsəməlidir ki, bəzən royal və piano olmadan da əsər yaratmağı bacara bilsin.

Üzeyir bir çox hallarda fikrində canlandırdığı bir əsəri ancaq yoxlamaq məqsədilə royal qarşısında oturardı.

"Koroğlu" operasının yazılışı zamanı mən ancaq "Çənlibel" səhnəsindəki xorun musiqisini təfsilən eşidə bildim. O, ölçüləri mənə öyrətmək üçün bu xoru bir neçə dəfə royalda səsləndirdi".

Üzeyir bəy Hacıbəyli ilahinin xalqımıza bağışladığı ən böyük dahilərdən idi. Onun şəxsində böyük istedadla böyük insanlıq vəhdətdə idi.

# GƏLMƏSİN

"Koroğlu" operasının məşqləri gedirmiş. Operanın müəllifi Üzeyir bəy də zalda əyləşib məşqə baxırmış. Məşqi idarə edən rejissor köməkçisi mizana görə elan edir:

– Təlxək gəlir!

Fikirli olan Üzeyir bəy yerindən dillənir:

– Gəlməsin!

# HƏSSASLIĞIN SON HƏDDİ

Bir zamanlar (elə indi də) Üzeyir bəy haqqında hər şeyi bilmək istəyirdim. Bu niyyətlə çox adamlarla görüşmüşdüm. Üzeyir bəyin 100 illiyində bacanağı, tarix elmləri namizədi Qubad Qasımovla görüşüb söhbətləşmişdik. Mən söhbət əsnasında Qubad müəllimdən Üzeyir bəyin həyatından, xasiyyətinin çoxlarına məlum olmayan keyfiyyətlərindən danışmasını xahiş etdim. Qubad müəllim dedi ki, Üzeyir bəy olduqca mülayim, həssas bir insan idi. Bu an onun yadına nə düşdüsə, üzünə qəribə bir təbəssüm qondu, dedi:

– Bir dəfə Üzeyir bəylə mən ailəlikcə Kislovodskiyə getmişdik. Bir gün günorta naharına iri bir xoruzu kəsmək üçün tutanda Üzeyir bəy dedi ki, Qubad, istəyirsənsə bu xoruzun ətindən yeyim, onda gərək nə onun səsini eşidim, nə də tökülən qanını görüm. Dedim yaxşı. Xoruzu dalda yerə apardım, başına bıçaq çəkəndə əlimdən çıxıb qanı axa-axa qaçdı. Üzeyir bəy bundan xəbər tutub dedi ki, aparın, harda bişirib yeyirsiniz yeyin, amma mənə göstərməyin.

# TƏKİ DİLƏNÇİLİK ETMƏSİN

Üzeyir bəy bir gün evinin pəncərəsindən baxanda üzbəüz səkidə çarşablı bir qadının orda oturub diləndiyini görür. Evdəkilərdən birinə tapşırır ki, gedib o qadına desin burda dilənçilik etməsin, hər gün nahar vaxtı gəlib bizdə nahar etsin, ayın axırında da pulunu alsın.

# YAZIÇI MAKSİM QORKİ YAZIRDI:

– "Patavalı mujikin əlinə silah verib bəstəkarın üstünə göndərmək olmaz. Rusiyada bir gündə yüzlərlə mujik doğula bilər, lakin yüz ildə bir dahi sənətkar doğulmaya bilər".

# 25 İL ÇAR RUSİYASI İLƏ VURUŞAN ŞEYX ŞAMİL DEMİŞDİR:

– “Hakimiyyət hərisliyi bir sümükdür, qoy bizim dağlılar bu sümüyün üstündə köpəklər kimi didişməsinlər. Allah məni bu sözlərimə görə bağışlasın, onlar didişərkən kafirlər gəlib bu sümüyü götürüb qaçacaqlar”.

Allah rəhmət eləsin. Bütün zamanlar üçün ibrətli vəsiyyətdir.

# ADAMDILAR

İkinci Dünya müharibəsində adamlara, cüzi də olsa, ərzaq alması üçün talon verirmişlər. Nədənsə incəsənət işçilərinə bu talon verilmirmiş. İncəsənət xadimləri qərara gəlirlər ki, talon almaq üçün ölkə rəhbəri Mir Cəfər Bağırova müraciət etsinlər. Həmkarları, bəstəkar Əfrasiyab Bədəlbəylinin boyu uca, səsi yüksək olduğu üçün müraciət etməyi ona həvalə edirlər. Növbəti yığıncaqların birində Əfrasiyab Bədəlbəyli özünü toplayıb söz alır və deyir:

– Yoldaş Bağırov, niyə bizə də talon verilmir, axı incəsənət adamları da adamdı.

Mir Cəfər Bağırov onun sözünü kəsərək:

– Daha pisdilər, amma adamdılar, – deyir.

# YALANÇININ...

Opera teatrının solisti, muğam operalarında baş rolların mahir ifaçısı, Xalq artisti Əlövsət Sadıqovun zil səsi və şaqraq zəngulәsi vardı. Müasirləri özünü öyən, səsi-sənəti olmayan birisinin kölgəsini qılınclayanda deyərmişlər ki:

– Yalançının atasının goruna Əlövsətin zəngulәsi.

# KİÇİK BİR XATİRƏ



1978-ci ilin yazında ağbirçək müğənni Yavər Kələntərlinin görüşünə getmişdim. Müğənni dünyasını dəyişəndən sonra onun haqqında “Nəğməli xatirələr” adlı yazımı “Azərbaycan” jurnalında çap etdirmişdim. Amma o zaman onun söylədiyi bayatıları xatirəmə əlavə etməmişdim. O zaman Yavər xanım belə bir şeir parçası da söyləmişdi:

***Dağ başında bir cüt kəklik döyr eylər,***
***Başı yaşıl, ayaqları qırmızı.***

***Sinəm üstdə bir cüt sona seyr eylər,***
***Lalə kimi yanaqları qırmızı.***

# O QƏDƏR ATIB-TUTURDULAR...

Budur, illərin ardından, 1978-ci il o bahar günündən Yavər xanımın səsi gəlir qulağıma:

– Uşaq vaxtı yaman nadinc idim. Gah uşaqları güldürürdüm, gah şitlik eləyib dərsi pozurdum. Müəllimlər də hirslənib mənə tez-tez “iki” verirdilər. Belə bir vaxtda məktəbimizdə (Rəhilə Hacınskinin qızlar məktəbində – M.Ç.) “Arşın mal alan”ı hazırlamağa başladıq. Tamaşanı Zülfüqar Hacıbəyov hazırlayırdı, rolların hamısını qızlar oynayırdı. Əsgəri oynayan tapılmadı. Dedilər, oynaya bilərsənmi? Dedim, bilərəm. Mənim üçün çuxa, arxalıq, papaq tikdilər, əlimə bir arşın verdilər, çiynimə bir torba aldım, oldum Əsgər bəy. Gülçöhrəni də Cəmo Cəbrayılbəylinin arvadı Şəfiqə xanım oynayırdı. Tamaşa “Cəmiyyəti xeyriyyə”nin binasında oldu. Onda bir “Segah” oxudum, o səs indi də qulağımda cingildəyir. O qədər orda məni atdılar, tutdular, öpdülər... İndi olaydı...

# ŞƏRQDƏ BİZƏ DEDİLƏR Kİ...

Nobel mükafatçısı, “Aclıq”, “Sirli adam”, “Torpağın şirələri” və sair kitabların müəllifi Knut Hamsun XX əsrin əvvəllərində arvadı Berqliotla Sankt-Peterbuqra, Moskvaya, oradan da Qafqaza və təbii ki, Azərbaycana da gəlir. Norveçli yazıçı Qafqaz səfərindən qayıtdıqdan sonra, 1903-cü ildə “Nağıllar ölkəsində” adlı kitabında müsəlmanlara məxsus xüsusiyyətləri belə xarakterizə edib:

“Müsəlman yalnız kafirlərin onun dinini təhqir etməsinə, müqəddəslərini ləkələməsinə, yaxud qadınına əl uzatmasına dözə bilməz. O halda erkək dəvə kimi nərə çəkib hücuma keçər”.

* * *

Sağ olsun, hörmətli Knut Hamsun kirvələri də unutmayıb:

“Şərqdə bizə dedilər ki, yəhudi on yunanı aldada bilər, ermənilər isə həm yunanları, həm də yəhudiləri aldadar”.

# STALİNİN HEYKƏLİ

Mənim doğulduğum Çəmənli kəndində Mahmud kişi, Alı yüzbaşı, Molla Həsən rus dilini az-çox bilirmişlər.

Sovet hökuməti qurulandan sonra rus əsgərləri silah yığmaq üçün bizim kəndə də gəlirlər. Kəndin ağsaqqalı Mahmud kişidən camaatda silah olub-olmadığını soruşurlar. Mahmud kişi deyir ki, bizim kənddə silah yoxdur.

Rus əsgərləri qapı-qapı düşüb silah axtarırlar, nəticədə bir araba silah çıxır. Mahmud kişi ilə Molla Həsəni ikimərtəbəli bir evin birinci mərtəbəsində dustaq edirlər. Üst evdə rusca danışan "çekistlər"in danışığını eşidən Mahmud kişi Molla Həsənə deyir ki, bizi sabah güllələyəcəklər. Səhəri gün bunları gətirirlər sonralar mənim təhsil aldığım məktəbin həyətinə. Hadisədən xəbər tutan kişilər məktəbin həyətinə toplaşır. Bu mərəkədə iştirak edən babam o zaman cavan oğlan imiş. Babam danışırdı ki, Mahmud kişini binanın alt mərtəbəsindən çıxardıb gətirdilər ki, güllələsinlər. Mahmud kişi çekistlərə dedi ki, icazə verin namazımı qılım, sonra güllələyin. İcazə verdilər. Mahmud kişi namazı qıldıqdan sonra ayağa qalxıb dedi:

– Buyurun, güllələyin!

Babam deyirdi ki, əli tüfəngli rus əsgərləri ikinci mərtəbədə dayanıb atəş açmaq əmrini gözləyirdilər. "Hazır ol!" əmrini eşidən Mahmud kişi çuxasını üzünə çəkdi, bundan sonra atəş açıldı. Elə bu vaxt bir atlı gəldi ki, güllələnməni dayandırın! Amma gec idi, Mahmud kişi canını tapşırmışdı.

Dünyanın işinə bax ki, sonralar Mahmud kişinin güllələndiyi yerdə əyni şinelli Stalinin nəhəng heykəli qoyulmuşdu. Sol və sağında isə bizə məxsus torpaqları müxtəlif adlar altında gəlmə ermənilərə bəxşiş verən Orconikidze ilə Lenin cənablarının. Zaman hələ onların zamanı idi. Hətta dahi rəhbərin adını daşıyan kolxozun at ilxısının, qoyun sürüsünün yanbızına, üzünə "S" damğasını həkk edirdilər. Hamı elə bilirdi ki, heykəlləşmiş bu "Üç muşketyor" ölümsüzdülər. Amma sən demə, zaman hər şeyi yoluna qoyacaqmış.

Bu hadisədən illər keçmişdi. N.S.Xruşşovun Baş katib olduğu çağlar idi. Stalinin ünvanına söyüb-söylənirdilər, onu şəxsiyyətə pərəstişlikdə günahlandırırdılar. Biz məktəblilər bir səhər məktəbə gələndə Stalinin heykəlini yerində görmədik. Biz uşaq marağı ilə məktəbin həyətindəki bağı gəzib dolandıq və nəhayət, Stalinin heykəlinin hissələrini çəpər dibindəki kalafada tapdıq. Heyif ki, namərdcəsinə güllələnmiş Məşədi Mahmud kişi o günü görmədi. Amma bizim nəsil Azərbaycanın müstəqilliyinə qovuşduğu günü də, cənab Leninlə Orconokidzenin heykəllərinin başına ip salındığı günləri də gördü.

# BİR TƏSNİFİN SORAĞINDA

Xalq artisti Hacıbaba Hüseynovun ifasında hər dəfə "Rast" təsnifini dinləyəndə:

***Yusif deyər fəhiməm, zahid deyər cunundur,***
***Gəncinə bir tərəfdə, viranə bir tərəfdə.***

beytindəki Yusif tapşırmasının kimə məxsusluğu barədə düşünürdüm. Təsadüfən mərhum jurnalist Hacağa Cümşüdlünün "Mir Mahmud Kazımovski" kitabçasını oxuyanda bildim ki, Hacıbaba Hüseynovun təsnif kimi oxuduğu qəzəl bakılı şair Mirzə Əbdülxaliq Yusifindir. Hacıbaba Hüseynovun təsnif qəlibinə saldığı Əbdülxaliq Yusifin qəzəli belədir:

***Bəzm içrə şə'mi ruyi canana bir tərəfdə,***
***Mən bir tərəfdə yannam, pərvanə bir tərəfdə.***
***Bir üzdə xali hindu, bir üzdə tari geysu,***
***Bir dam bir tərəfdə, bir danə bir tərəfdə.***
***Mey şişədə, gül əldə, nagəh nigar gəldi;***
***Gül qaldı bir tərəfdə, peymanə bir tərəfdə.***
***Bir yanda zülfü Leyli, bir yanda ahi Məcnun,***
***Zəncir bir tərəfdə, divanə bir tərəfdə.***
***Məsciddə xəlq yatmış, vaiz nəsihət eylər:***
***Əfsurdə bir tərəfdə, əfsanə bir tərəfdə.***
***Yusif deyər fəhiməm, zahid deyər cunundur,***
***Gəncinə bir tərəfdə, viranə bir tərəfdə.***

# QƏDİRBİLƏNLİK



Opera müğənnisi Hüseynağa Hacıbababəyovu həyatda görmək mənə qismət olmayıb, amma onun arvadı Şeyda xanımla görüşüm olmuşdu. Mən 70-ci illərin axırlarında opera teatrının artistləri haqqında portret oçerklər yazmaq fikrinə düşmüşdüm. Bu niyyətlə o zaman dünyasını dəyişən və dəyişməyən çox sənətkarın qapısını döymüşdüm. Təbii ki, görkəmli opera müğənnimiz Hüseynağa Hacıbababəyovun da evində olmuşdum. O zaman Şeyda xanımın ərinə qarşı sağlığında göstərdiyi qayğı, diqqət məni duyğulandırmışdı. Şeyda xanım deyirdi ki, Hüseynağanın oynadığı tamaşaların hamısına gedərdim. Fasilə vaxtı onun tərini qurulayar, alt paltarını dəyişdirər, çay içirərdim ki, xəstələnməsin. Doğrudan da, örnək olası nümunədir. Qədirbilənlikdir.

# GETDİK GÖRDÜK

Cabbar Qaryağdıoğlu 3 il imiş Şuşaya getmirmiş. Bir gün Seyid Şuşinskiyə deyir ki, Ağa, o Xana deginən qardaşı Allahyarı da götürüb bizə gəlsin.

Onda Xan Şuşinski cavan yaşındaymış. Deyilən vaxtda Xan qardaşı Allahyarla Cabbar Qaryağdıoğlugilə gəlir. Salam-kalamdan, bir stəkan çay içdikdən sonra Cabbar əmi deyir:

– Xan, bilirsən səni niyə çağırmışam?

– Xeyr, Cabbar əmi, bilmirəm.

– Biz Ağayla (Seyid Şuşinskinin nəzərdə tutur) üç ildi Şuşaya getməmişik. Qəribsəmişik, istədik səni dinləyək. Əvvəl bir "Mirzə Hüseyn segahı" oxu, dalınca da "Qarabağ şikəstəsi".

Allahyar tarını kökləyir, Xan əvvəl "Mirzə Hüseyn segahı", dalınca da "Qarabağ şikəstəsi" oxuyur.

Cabbar Qaryağdıoğlu deyir:

– Allah atana rəhmət eləsin, getdik Şuşanı gördük, gəzdik, gəldik...

# BU AT DA BƏYİN OLSUN

Keçmiş günlərdə aran kəndlərinin birindən bir kişi atlanıb üz tutur Kəlbəcər yaylaqlarına. Az getmiş böyük bir naxıra rast gəlir. Yoldan keçənin birindən soruşur:

– Qardaş, bu naxır kimindi?

– Filankəs bəyin.

Atlı yoluna davam edir. Bu dəfə də dəvə sürüsünə rast gəlir:

– Qardaş, bu dəvə sürüsü kimindi?

– Filankəs bəyin.

Kişi atının sarğısına bir qamçı çəkir. Bir az getmiş qoyun sürüsünü görüb atın cilovunu çəkir. Bulaqdan gələn çiyni sənəkli, dodağı yaşmaqlı gəlindən soruşur:

– Bacı, bağışla, bu qoyun sürüsü kimindi?

– Filankəs bəyindi, ay qardaş.

Kişi qeyzlənib ata bir qamçı çəkir. Az gedir, çox gedir, mənzil başına çataçatda at ilxısı görür, qəmər atın belində də ilxıçını. Nəfsini saxlamayıb səslənir:

– İlxıçı qardaş...

İlxıçı atını ona tərəf dəhmərləyir:

– Bəli, nə buyurursan.

– Bəlin şəkər, heç bir buyruğum yoxdur. Amma bilmək istəyirəm. Bu at ilxısı kimindi?

– Filankəs bəyin!

Yolçu atdan düşür, yəhərini açıb götürür, atın sarğısına bir qamçı vurub deyir:

– İlxıçı qardaş, görürəm bəyinizin gözü doymur, qoy bu at da onun olsun.

Çağımızda nə bəy var, nə də bəyzadə, amma var-dövlətdən gözü doymayan məmurzadələr ürəyin istəyən qədərdir. Allah nəfslərindən saxlasın.

# NƏDƏN BİLDİN?

Gənc həmkarları bakılı tarzən Paşa Əliyevin boynunda qalstuk görəndə:

– Paşa dayı, Mərkəzi Komitədən gəlirsən? – deyə soruşurmuşlar.
Paşa dayı heyrətlə:
– Hə, nədən bildiniz?!
– Qalstukunuzdan.
Qəzəlxan Əliağa Vahid qəzəllərinin birində Paşa Əliyevi belə anıbdır:

***Vahid, istərsən əgər, məclisimiz xoş keçsin,***
***Zülfünün "Orta segahı", Paşanın tarı gərək.***

## BAŞIN SAXLAYIN



Yeyib-içmək məclisi başa çatandan sonra dostları Əliağa Vahidi yola salmaq üçün yola çıxırlar. Dostlardan biri deyir ki:
– Ə, Vahid üçün maşın tutun saxlayın.
Vahid dərhal cavab verir:
– Ayaqların tutun, başın saxlayın.

## ÇALIŞ ÖLMƏ

Məşhur tarzən Qurban Pirimov deyərmiş:
– Görsən səni tərifləmirlər, özünü bir az təriflə.
Qurban dayının tez-tez təkrarladığı bir kəlamı da varmış. Dostlarına deyərmiş:
– Çalış ölmə, öldün, qurtardı.

***Yanvar, 2022***



*Rəhim GÖZƏL*

## TİKAN

Gözəl olar,
Ürəyimə
Batan tikan
Üzümdə açsa çiçək!
Həyat
Göyçəkdir,
Göyçək!..

## SƏHƏR YAĞIŞI

Bu gün səhər-səhər buludlar dolub,
Yurdumun dağına, daşına yağır.
Dəyir pəncərəyə, qapıya şib-şib,
Elə bil bağrımın başına yağır.

Aləmin qəhrinə batmışdım gecə,
Naləmi başıma atmışdım gecə,
Doyunca ağlayıb yatmışdım gecə,
O da gözlərimin yaşına yağır!

Tale üz çevirmiş, fələk qarğamış,
Dərdimi dost duymaz, hiss etməz tanış,

Məndə ümid doğur bu gözəl yağış
Sanmayın o elə boşuna yağır!

## DAŞ

Yol üstündə
ayaqlara toxunarkən
keçidlərdən
arıtlanıb atılan daş,
zir-zibilə qatılan daş,
fələstinli döyüşçünün
əllərində
yaraq olub dəyərlənır;
azadlığa
dayaq olub dəyərlənır!

## SARI PİŞİK

Sarıca qoymuşdum onun adını;
Çox yaxşı bilirdi
pendirin, qatığın, südun dadını.
O movuldamazdı,
Bəlkə mələrdi!
Hardasa tapılıb
iyə gələrdi
mətbəxdən açılan dam yolumuzdan.
Payımı, onunla yarı bölərdim;
Bir gün görməsəydim, nisgil
edərdim.
...O mətbəx eləcə öz yerindədir;
ancaq,
ocağından nə tüstü qalxar,
nə də bişmişinin qoxusu gələr!
Sarı pişik deyil,
dam yolundasa
artıq
yuva salmış
bomboz serçələr!

## İŞÇİ

Çörək röyasıyla durar yataqdan,
Durar, günəş oyanmadan;

Mürgülüyə-mürgülüyə
Uşaqların üstlərini çəkirkən
Bir öpücük qoparar da
O gül yanaqlarından.
Yoldaşının şəkərinə qatmaz zəhər;
Ehtiyatla açar, bağlar qapını da!
Çörək atlı...
O piyada!..

## GÜNƏŞ SOYLU ÇIRAQLAR

Ehey!
Ehey!
Qaranlığın gözlərinə ağ salan
Günəş soylu çıraqların
Ümidinə yatanlar...
Şüşələrin qarasını
silmək
sizin borcunuzdur!..

## GERÇƏK RÖYA

Yuxu kirpiklərimdən
Süzülürkən bal kimi
Və günəşin şəfəqini
otağımda,
yatağımda
duyar-duymaz
...Bütün mələklərin,
gözəli olan
bir mələk
röyamı işıqlandırdı!
Anam:
o, ürəyə yatan səsiylə,
yenə, həmişəki səliqəsiylə
gəlib
qıyar-qıymaz
oyatdı məni.
İçərimə hopmuşkən
onun cənnət qoxusu;

baxdım ki,
saatımın
ağır olub yuxusu!

## SOYUQLAŞMA

...Soyudular;
utancaq qonağın çayı kimi.
...Kifsəndilər;
Küsəyən uşağın payı kimi.
Və min şirini...
bir acıya
satdılar;
Dağıldılar...
itdilər...
və batdılar!..

## QOCAMAN QARI

Pərdələr,
enik
çıraqlar,
sönük
və gecə
tam yarı;
Qonşulardan birisi,
qocaman bir qarı,
televiziyanın səsini
sonuna qədər qaldırar...
və yalqızlığını hıçqırar!..

## QARALTI

İlin bağlı günlərində;
özəlliklə, hər cümənin axşamı
böyüklərin görüşünə
çıxıb gedərkən hamı,
səkkizevli bir binadan
birinin
yalnız
sönməz işıqları gecələr...

Və bir sirli pantomimtək görünər,
ağbirçəkli qonşumuzun
qaraltısı pərdədə!..

**ÜZÜNTÜ**

Qonşularıma qanım qaynayır;
Qohumlarım kimi
qanı soyuq olsalar da!
Görməyəndə
gözüm axtarır onları!
Hələ də...
üzüntüsünü çəkirəm
qocalar evinə
köçürülən qonşumuzun!..

**QONŞULAR VƏ MƏN**

Qonşulardan:
kimisi
evinə baxdırdı,
kimisi
arabasını
dəyişdi...
Və kimisi isə
həccə gedib də, gəldi!
Mən,
bir neçə
sınıq-salxaq şeirimi,
dəftərə köçürüncə!

**ÜZÜK**

Qaranlıq bir gecədə,
Dörd yolun ayrıcında
şütüyən maşınların
işığını yansıdıb,
ulduz kimi
sayrışır,
bir qara çarşablının
barmağındakı üzük!

Hardasa,
qadınları
buraxmayır
gözəllik!..

**ŞAİR**

Şair dediyin:
ulduz təbiətdədir.
Sayrışar gecənin qaranlığında.
Və yuxu gəlməz gözlərinə
dünyanı
günəşə
tapşırmayınca!

**ANLAŞMA**

Masanın üzərindəki
bu
qəndqabı ilə
duzqabı,
içlərində nə olduğuna baxmayaraq,
illərdir ki,
bir-birinin kənarında,
büllurlana-büllurlana,
anlaşmağın
düz yolunu
göstərirlər
insanlara!

**SƏRÇƏLƏR**

Sərçələr
Eyvanda cikkildəşirlər;
Durun, canım,
durun!
Durun, sübhanəmizi yeyək
və görək
süfrədə nə qalır!

## KÜRƏKÇİLƏR

Əlçatmaz qalalar doğur,
yastı
ev-eşiklərdən!
hörgüsü,
betonarma;
tavanı,
pilastfom;
dam-bacası,
izoqam.
Qar yağanda,
küçələrdə:
kürəkçilər
toxum
çırtlayacaqlar!..

## FƏDAKARLIQ

Saxta,
taxta və plastik
sancaqlara
fədakarlıq
məşqini
gör
verdik necə!
Yayda, qışda,
qar-yağışda,
gündüz, gecə,
il boyunca...
Sarılırlar şəritlərə
ki,
sərilmiş
yaş və təmiz
paltarları,
qorusunlar
şərur yelin şərrindən!
Özümüzsə...

***Təbriz***



*Mütalib TAHİROĞLU*

**SARIYAR**

Sarıyar tale kimə yar ola gər yarəsini,
Qoymaz avarəvü biçarə, qılar çarəsini.

O kəsin kim, əgilib arəsi taleylə, bilə,
İşi müşküldü düzəltməzsə əgər arəsini.

Sülhə imza ata hər yerdə əgər insanlar,
Tapmaq olmaz bəşərin dəhrdə biçarəsini.

Gərçi sidq ilə dönə Rəbbinə, əfvin diləyə,
Yandırar Tanrı onun bəxtinə səyyarəsini.

Mənim hər müşkülü həll etməyə qadir rəbbim,
Boya nur ilə bu çeşmin ağaran qarəsini.

Nola, ya Rəbb, ki açsan tutulan gözlərini,
Görsə bir ləhzə Mütalib də cigərparəsini.

## GÖZƏLİM

Məni məftun eləyən bir dənə sənsən, gözəlim.
Bənzərin yoxdu sənin, bir dənəsən sən gözəlim.

Səni ey gözlərimin nuru, şükür xəlq edənə.
Olmasaydın nə edərdim görəsən, mən gözəlim.

Mənə ömrümdə gözəl hər nə yazıbdırsa yazan,
yenə sənsən, yenə sənsən, yenə sən ən gözəlim!

Tapa öz yarını hər yarıcan, ey kaş, ola bir,
Yetə bizlər kimi vəslə nə ki var tən gözəlim.

Edə xoş ömrü, Mütalib deyir aləmdə hamı,
Görməyə qüssə, kədər-qəm, yaşaya şən, gözəlim.

## GÖR

Dərdini ver ki mənə, dərman olum dərdinə, gör
Dərdini dərdim edim, qurban olum dərdinə, gör.

Dərdi sevdir mənə sən hüsnü camalın qədəri,
Dərdini sənlə sevim, heyran olum dərdinə, gör.

Dərdini gül düşünüm, bağı-gülüstan yaradım,
Göz yaşımla sulayım, bağban olum dərdinə, gör.

Mən kiməm, mən nəçiyəm – dərd xəbərsizdi hələ;
Keçə bir xeyli zaman, əyan olum dərdinə, gör.

Tərk edə cismi Mütalib, girə dərdin içinə,
Ey pərim, ruhum ilə mehman olum dərdinə, gör.

## ♦ Nəsr

*Şiringül MUSAYEVA*



# YURDA DÖNÜŞ

♦ *Povest*

***Əsl bəşəri məhəbbət olmadan***
***əsl vətən məhəbbəti ola bilməz.***
**Anatol Frans**

***Əzizim ağı bizdən,***
***Belinin bağı bizdən.***
***Qoymayın yadellini,***
***Almağa bağı bizdən.***

Günlərin birində... qaranlıq, – iblislərin hökm sürdüyü bir gecədə yük maşınlarına doluşub gecəylə ev-eşiklərindən, güllü baxçalarından, hər tinində bulaqlar qaynayan, o başında əmisi, bu başında dayısı evi yerləşən yurdlarından çıxmaq da varmış, sən demə... Hər gün çiçəyini qoxladığı gül kolları ilə, barını yediyi ağaclarla vidalaşa bilmədi heç...

Ara vermədən sısqa yağış yağırdı...

Qaranlıqda yol gedirdilər... Qəlbində dəhşətli bir ağrı vardı... Başları üzərində nənəsinin nağıllarından çıxmış qorxunc divin durduğunu hiss edirdi. Div onları əsir almışdı və bilinməz, mübhəm, qaranlıq bir həyata aparırdı, əsir aparırdı... Bəs hardadır Məlikməmməd, Ağ atlı oğlan, Qoç Koroğlu, Xan Qazan?

Sonralar hər yağış yağanda eləcə qəmləndi, qəlbi mübhəm, sirli bir kədərlə doldu. Uşaqlığının bər-bəzəyi, gül ətirli xalalar-bibilər hərəsi bir yerə düşdü. Arada, ən çox da yas məclislərində gördü onları. Üz-gözləri cırmaq-cırmaq, göz yaşları içində. Bütün bu kədərlər uşaqlığını aldı əlindən. Kədərli, qaşqabaqlı xalalar, bibilər, əmilər uşaqların dünyasını da kədərə bürüyürmüş sən demə...

Qapı döyülür. Düşünür ki, otel xidmətçisidir... qapını açır. Yapon dostu Lui içəri daxil olur. İbrahimi qəmgin görüb təəccüblənir.

– Nə olub?

– Ciddi bir şey yoxdur... Həmişəki halım. Yağış məni qəmləndirir.

– Boş-bekar qalmaqdandır. Mən də qəmlənirəm. Guya, gəzməyə gəlmişik: üç gündür ki, bayıra belə, çıxmırıq. Düşək səhər yeməyi yeyək.

Yemək zamanı bu gün gedəcəkləri yerləri müəyyənləşdirirlər. Otel xidmətçisi belə havada dağa, meşəyə, balıq tutmağa getməyin təhlükəli olduğunu deyir.

– Nə edək bəs, – Lui bikefləyir.

– Heç, burada əyləşib söhbət edək, domino, şaşki oynayaq, ya da otağımıza qayıdıb xatirələrə dalaq.

– Yorulmadınmı xatirələrdən? Sən yazıçı olmalıymışsan. Gəlib politoloq oldun.

İbrahim gülümsünür:

– Yazıçı, ya da politoloq… Hansı sənəti seçsəydim də heç biri insanlıq halımı dəyişməzdi yəqin.

– Dünyaya nədən belə baxırsan, bilirsənmi əcəba? – Lui soruşur.

– Nədən?

– Keçmiş həyatında ya filosof olmusan, ya da ilahiyyatçı.

– Bu fikri oxumuşam universitet vaxtı.

– Görürəm ki, inanmırsan. Əslində, inanmalısan. Görürsən, bəzən hansısa dəqiqələri, anları nə vaxtsa yaşamışıq kimi gəlir bizə. Bu doğrudur, biz nə vaxtsa yaşamışıq. Həyata yeddi dəfə gəlirik. Hər dəfə fərqli şəkildə yaradılırıq.

– Eyni adam kimi gəlsəydik… səhvlərimizi təkrar etməzdik.

– Biz bunu bilmirik; nəyi düz, nəyi səhv edirik. Amma bu fikirdəyəm ki, insanın yetişdiyi mühit, ata-anası, ulu babaları, genlər vasitəsi ilə ona ötürülən məlumatlar insanın formalaşmasının təməlini qoyur.

– Yaponlarla, onların mədəniyyəti ilə tanışlıqdan sonra görürəm ki, onlar insanın lap xırdalığından insan kimi yetişməsi qayğısına qalırlar. – İbrahim söhbəti dəyişir.

– Bizdə lap körpəlikdən Vətənə, millətə qarşı sevgi formalaşdırılır. Vətən bizim üçün hər şey deməkdir. Eyni zamanda biz çox zəhmətkeş xalqıq. Ver yeyim, ört yatım bizə yaddır. Biz işləməsək, dayana bilmərik.

– Bizim camaat da işləkdir. Amma uşağın, gəncin daxili aləmi, onların lazımi şəxs kimi yetişdirilməsi bəzən nəzərimizdən qaçır. Deyim ki, bir az unutqan xalqıq... Əlbəttə, bunları bir politoloq kimi deməməliyəm. Amma sən də politoloq olduğun üçün, bunları deməsəm də görürsən. Həm də mən bunu ikilikdə deyirəm. Böyük auditoriyada isə lazımi məsələləri qabardıram.

– Əlbəttə… Nə isə, otağa qayıtmaq istəmirəm. Heç yağış altında islanmamısan?

– İslanmışam. Yağış yağanda ora-bura qaçışar, oxuyardıq:

***Yağdı yağışlar,***
***Banladı quşlar.***
***Arpa yeməkdən***
***Saraldı quşlar.***

– Nədən məhz quşlar?

– Bilməm… Yəqin ki, quşların evi, sığınacağı olmadığı üçün. Onlar çox vaxt eləcə açıq havada keçinib gedirlər. Fikir vermisənmi, yağış yağanda möhkəm civildəşirlər.

– Elədir... Gəlsənə gedək balıq tutmağa…

– Olar.

İbrahim Lui ilə birlikdə yaxınlıqdakı çayın sahilinə enir. Bələdçi götürmürlər. Lui deyir: "Bütün Yapon təbiəti ona doğmadır, bələdçiyə ehtiyac yoxdur".

Yağış güclənir, damlalar kofşionlarını döyəcləyir çayın sahilinə, – dərəyə enirlər. Yer yaş olduğu üçün sürüşkəndir.

– Ehtiyatlı ol.

– Uzağı çaya düşəcəyəm, –İbrahim deyir. – Balıqları elə əlimlə tutub sənə ataram.

Göy guruldayır.

– Lap yaz yağışına oxşayır. Hava heç soyuq deyil. Bir baxsana, qızıl balıq da tutdum.

Lui tutduğu rəngli fareli də otluğa atır.

– Bir az da tutaq, mehmanxana işçilərinə verərik.

Yağış heç dayanmır.

– Görən elə yer olarmı yağış həmişə belə yağsın, heç dayanmasın? Necə ki Antarktida həmişə qarlıdır, torpaq görünmür. – İbrahim soruşur.

– Əlbəttə var. Məsələn: bizdə... – Lui gülür. –Naqasakidə çox vaxt yağış yağır.

– Sizin ölkə də lap möcüzədir. Nə istəsən var... Naqasakidə həmişə yağış yağır.

Luinin üzünə təbəssüm yayılır.

– Mənim ölkəm belədir. Gələn yay gedərik. Orada bütün günü yağış altında gəzişərik. Bəlkə sənin də dərdinə əlac olar. Yağışdan bezərsən, o sənə qəm-qüssə gətirməz.

– Olar. Yağış adiləşər mənim üçün, əvəzindəsə yel xəstəliyi tutaram.

Lui gülür.

Otelə dönürlər. Tutduqları balığı yaponlarsayağı közdə bişirirlər. Lui soruşur:

– Sizdə də belə bişirirlərmi?

– Bişirirlər.

– İbrahim, bizim malikanəmiz, mənim ata-baba evim çay sahilində yerləşir. Evimizin yaxınlığından çay axır, sularında rəngbərəng farellər, müxtəlif balıqlar üzür. Günümüz o balıqları tutmaqla keçirdi. Qışa tədarük görürdük, balıqları duzlayıb, günəş altında qurudurduq, hisə verirdik... Çayın bərəkətindən bağ-bağçamız,əkin sahələrimiz bol ruzili olur. İşimiz ancaq məhsul toplamaq, yerbəyer etmək, qışda da xımır-xımır yeməkdir. Düzdür, mən indi ora az-az gedirəm. Amma bilirəm ki, hər şey yerindədir və əvvəlki kimi gözəldir.

– Mənim kəndim, rayonum erməni tapdağındadır. Mən lap uşaq idim oradan çıxanda. Amma bəzi şeylər yadımda qalıb. Anam sac üstündə kətə bişirərdi, samovar çayı qaynadardı, Novruz bayramında səməni halvası bişirərdi, şəkərbura, paxlava bişirərdi. İndi o yeməklərin dadını heç nədə tapmayıram. Bunlar bir yana, Lui, kimsə "mənim kəndim, bizim malikanəmiz" – deyəndə çox qəmlənirəm, ağrıdan ürəyim sıxılır. Kəndim, uşaqlıqda oynadığım o yerlər, yurdlar xəyalıma gəlir. Hər dəfə məni çağırırlarmış kimi, hiss edirəm. Çox ilginc bir şey bu. İnsan ürəkdən gülə bilmir, sevinə bilmir, daim qəlbində bir sıxıntı hiss edir.

– Əziz dostum, bilirəm. Sənin kədərini hiss edirəm. Əlimdən gəlsə, Vətənini düşmən əsarətindən almaqda kömək edərəm. Bəlkə bu, nə vaxtsa mümkün olacaq. O zaman bil ki, sənin yanındayam.

Nahardan sonra İbrahim və Lui yeni ofis axtarışına çıxdılar. Bir az darısqal və divanı azacıq bozarmış ofis Luinin xoşuna gəlmədi. Lui geniş və şıq, mebelləri təzə ofis axtarırdı. Nəhayət ki tapdılar.

...

Artıq yağış kəsmişdi.

– Səhər hava yəqin ki açılar. – Lui dedi. – Necədir buralar, xoşuna gəlirmi?

– Haralar?

– Bizim yerlər.

– Yaxşıdır. Gözəldir.

– Həm də çox gözəldir. Sizin yerlər də gözəldir. Amma çox kiçikdir.

– Necə yəni?

– Hər şey şəhərlər, kəndlər, göllər çox kiçikdir.

İbrahim Luinin keçən il Göygölə gedərkən də belə dediyini xatırladı. Lui gözəllər gözəli Göygölə baxmış və demişdi: "Gözəldir, amma çox kiçikdir".

– Lui, Azərbaycan, əslində, kiçik dövlət deyil, böyük dövlətdir. Bizim Azərbaycan tarixən çox böyük dövlət olub. Sadəcə, hegemon dövlətlər onu parçalayıb, Cənubi Azərbaycan İran ərazisində, Şimali Azərbaycan isə Rusiya tabeliyində qalıb. Bunlar uzun söhbətdir.

– İbrahim, tarix çox şeyi dəyişir. İndi əvvəlki dövlətlərin çoxu yoxdur, bir çox xalqlar da yer üzündən silinib. Mənim düşüncələrim xalqlarla bağlı deyil, Təbiətlə bağlıdır. Mənim aləmimdə bütün bunlar – göllər, çaylar, dənizlər böyük olmalıdır ki, onları seyr edəndə intəhasızlığı duya bilim. Mənə belə gəlir: sizin dilinizdə Allah, bizim dilimizdə Təbiət hər şeydə bir harmoniya yaradıb. Hər yerin özünə uyğun fizionomiyası var. Məsələn: xırda çaylarda xırda balıqlar yaşayır, nəhəng okeanlarda isə balinalar. Elə səhralar var orada piton ilanlar yaşayır, savannalarda fillər yaşayır, elə meşələr var ayı, aslan, meymun, nə bilim nələr, yaşayır. Xəzər dənizinin yerində okean ola bilərdimi, əcəba?

– Okean ola bilməzdi. Dediyin kimi, təbiətdə bir harmoniya var. Əgər Xəzərin yerində bir okean olsaydı, sunamilər, daşqınlar da olacaqdı, o zaman gərək İran bütün su altında qalaydı. Demək, çox şey mövcud olmazdı.

– Amma Yaponiya hər tərəfdən okeanla əhatə olunub.

– Olunub. O, tarixən buna uyğun formalaşıb. Nə isə...

– Mənə elə gəlir tarixən məğlubedilməz, böyük dövlətlərin məğlubedilməzliyində onların yaşadıqları torpaqların müstəsna rolu var. – Lui davam etdi. – Bu xalqlar çox əlverişli bir coğrafiyada yerləşib. Məsələn: Çin çox əlverişli coğrafiyada yerləşib. Bir tərəfini uca dağlar, sal qayalar, keçilməz sıldırımlar, bir tərəfini okeanlar qoruyur. O üzdən onların torpaqlarını qəsb etmək çətin olub tarixən. Lap keçmişdə tez-tez türklər hücum edirmiş torpaqlarına. Xalq ayağa qalxıb Çin səddini tikib, o da çox nəhəng bir tikilidir, hətta kosmosdan görünür. Çin səddinin tikilməsində bütün Çin xalqı iştirak edib. Deyilənlərə görə, hətta pul belə almayıblar, amma necə ürəklə tikiblərsə, əsrlər belə toxunmayıb ona, bu gün də mövcuddur. Ümumiyyətlə, Çin xalqı da çox zəhmətkeş xalq olub.

– Bilirəm. Qədim Çin sənəti, heykəltəraşlıq, dulusçuluq və rəssamlığı barədə Nizaminin əsərlərində belə, məlumat var. O dövrü biz tam bilmirik.

Türklər Çinə basqın edirmiş, – səbəbi o dövrün tələbatı olub. O dövrdə bir çox xalqlar bunla məşğul olub. Barbarlıq dövrü, nə bilim, nələr... Böyük fatehlər də başqalarının torpağını qəsb etməklə məşğul olub. Amma indi türklər ən sülhsevər xalqdır. Dünyada barış bərqərar ermək istəyir. Və dünya gücləri də onunla hesablaşır. Nə isə... Bunları çox fikirləşmə, Lui, tez qocalarsan.

Hər ikisi gülür. Bir azdan otelə qayıdırlar. Hərəsi öz otağına çəkilir.

…

İbrahim səhər Luinin zənginə yuxudan oyandı. Geyinib aşağı düşdü. Lui şən və gümrah səslə dedi:

– Yağış kəsib. Yaxşı gəzməli havadır.

– Hələ səhər yeməyi yeyək.

– Bilirəm, kişilərlə ac olduqda danışmaq belə, mümkün deyil.

Səhər yeməyi yeyərkən Lui soruşur:

– Bəlkə, zooparka gedək?

– Yox, zooparkı sevmirəm.

Lui gülür:

– Əslində, burada zoopark yoxdur. Amma çayın o tayındakı meşəlikdə canavar, ayı və marallar yaşayır. Tam təbii zooparkdır.

– Eləysə gedək. Hər şeyin təbiisini xoşlamırsan? Təbii zooparkda da olaq.

– Yox canavarla vuruşa bilmərəm, – Lui gülür. – Yaxşısı budur, çayın sahilində gəzişək.

Çay boyu yamacda gəzişirlər. Arabir gözə dəyən kol-kosların budaqlarından hələ də su damır.

– Gəlsənə bu kollardakı meyvələrdən yığaq, xeyirli giləmeyvələrdir. Çay dəmləyib içərik, tam orqanikdirlər.

Lui çantasından selofan paket çıxardır. Bir xeyli giləmeyvə yığırlar.

– Kənd təbiətini xoşlasam da, bütün həyatı kənddə keçən insanlara acıyıram. Mən yaşaya bilmərəm, – Lui dedi. – Dediyim kimi, bizim ailə də kənddə yaşayır, çay kənarında böyük malikanəmiz var. Yaşadığımız yerin təbiəti hədsiz gözəldir. Meyvə bağımız, gül bağımız lap “Min bir gecə” nağıllarında təsvir olunan bağlar kimidir. Evimizdə ilin hər fəslində bolluq olur: yazda cürbəcür səbzələrdən tutmuş, qışda hər dürlü meyvəyə qədər, hər vaxt təzə balığımız, ətimiz olub. Qış yazatan cürbəcür meyvə quruları ilə çay içərdik. Qışda da qarpız-yemişimiz olub hər vaxt. Anam, atam, bacı və qardaşlarım həmişə hallarından məmnun idi. Heç biri bir dəfə də olsun, həyatlarından gileylənməz, başqa həyat arzu etməzdilər... Mənsə, bağımızda bir təpəcik vardı, onun üstünə çıxar, şəhərə tərəf gedən yola baxar, elə hey dərindən ah çəkərdim. Nəhayət, bir gün anam mənə əsəbiləşdi:

“Bu ah-ufunu yığışdır, – dedi. – Rədd ol get şəhərə, orada oxu, bir işə yara, ah-ufunla bizi güdaza vermə. Bu nə qaramatdır basıb səni. Gecə-gündüz ah-uf edirsən. Nə olub, nəyin kəmdir?”

Mən cavab verdim:

“Ana, çox darıxıram. Hər şey məni sıxır, ətraf məni sıxır, sanki nə isə elə hey mənə “Durma, gəl” – deyir. – O, sənin həyatın deyil, sən orada yaşamalı deyilsən, – deyir.

İbrahim soruşdu:

– Nədən elə darıxırdın?

– Bilmirəm, İbrahim... Hər şey birdən oldu. Bir yaz həmişəki kimi bağda işləyirdim. İstirahət vaxtı bağımızdakı təpəcikdə uzanmışdım. Oradan şəhərə gedən yol görünürdü. Yola baxırdım və nədənsə, ürəyim qüssədən sıxılırdı. Sanki yollar məni səsləyir, durma, gəl, deyirdi. O yolların sonunda nə isə qeyri-adi bir həyat durduğunu hiss edirdim. Və o gündən elə hey darıxmağa başladım. Atalarda belə bir məsəl var: “Yayından çıxan ox geri qayıtmır”. Daha əvvəlki qız ola bilmədim heç. Nəhayət, şəhərə oxumağa getdim, politologiya fakültəsinə daxil oldum, maraqlı tələbəlik illərim oldu. Və nəhayət, budur, buradayam.

– Yaxşı ki buradasan.

– Bilmirəm, yaxşıdır, ya pis, – buradayam. Və əvvəlki kimi darıxmıram. Görürsən, darıxmaq tək sənə aid deyil. İnsan oğlu həmişə darıxır. Həyatında nə isə qaydasında olmayanda, insan yerində olmayanda darıxır.

– Sizin inancınız da maraqlıdır; yeddi dəfə dünyaya gəlmək; nəyi pisdir ki... Sadəcə, hər dəfə dünyaya gələndə keçmişdəki özümüzü tanısaydıq, maraqlı olardı. Həmin insan olardıq, yaşayardıq, amma səhvləri etməzdik.

– İbrahim, yeddi dəfə dünyaya gəlmək bizim inancımız deyil. Bu da müəyyən qrup insanların fərziyyəsidir. Fərziyyələr isə bitməz-tükənməzdir. Nə qədər insan var, o qədər də fərziyyə var, deyərdim. Necə ki barmaq izləri təkrarsızdır, eləcə də fərziyyələr təkrarsızdır. Amma insan oğlu bütün fərziyyələri qəbul etmir. Yaxşı ki, etmir, yoxsa indi hamı fərziyyə yürütməklə məşğul olardı. Əslində, indi deyirlər yaponların dini yoxdur. Amma mən, eləcə də bir çox yapon yaradılışın kökündə möhtəşəm, mücərrəd, işıqlı bir nəsnə durduğunun fərqindəyik. Hər millət onu öz ağlı ilə fərqli düşünür və hiss edir. Əslində, siz də, biz də Allaha inanırıq, amma onu öz bildiyimiz kimi, bacardığımız kimi təsəvvür edirik. Fərq budur. Biz işıqlı, xeyirxah bir qüvvənin dünyanı idarə etdiyinə inanırıq.

– Bizim də dinimizdə Allahın qüsursuz, xeyirxah, ədalətli olması vəsf edilir. Onun hər bir yaratdığını sevdiyi vurğulanır.

– Elədir. Həyat çox qarmaqarışıqdır. Bəzən səhvlərimiz özümüzdən asılı olmur. Bu üzdən ümidli insanlar düşünür ki, həyata yeddi dəfə gələcək, nəhayət, səhvsiz ömür sürəcək və Tanrının cənnətinə gedəcəklər.

– Çox möhtəşəm fərziyyədir. Əslində, bizim dinimizdə də bu söylənilir: günahsız, adil, xeyirxah insan, qəlbində Allah xofu olan insan cənnətə gedəcək.

– Tanrı bizi yeddi dəfə ayrı-ayrı formada, ayrı-ayrı həyatda yaradır, bizə şans verir, istəyir özümüzü doğruldaq, daha yaxşı insan olaq və o, bizi cənnətinə alsın. Bu boyda sınaqdan düz çıxmasaq, vay bizim halımıza.

Nə yaxşı... Görürəm bu fərziyyəyə çox ümid edirsən, – İbrahim güldü.

– Mən, əslində, Allaha çox ümid edirəm, inanıram və onun bizi sevdiyini düşünürəm.

– Burada quru kötüklərdən oturacaq var. Gəl bir az oturaq.

– Oturaq.

Əyləşirlər.

Lui qədim bir yapon musiqisi qoşur.

– Gözlərini yum, əllərini dizinə qoy, ya da yanına salla. Sənə necə rahatdır, elə et, dərindən nəfəs al. Çalış ətrafdakı səsləri dinləyəsən, hisslərini başlı-başına burax.

– Oldu.

– Nə hiss edirsən?

– Ah, Lui, nə hiss etmirəm? Haradasa dənizlər dalğalanır, çaylar axır, bulaqlar şırıldayır, quşlar göy üzündə uçuşur, savannada marallar, zürafələr, fillər gəzişir.

– Daha sonra? Bəs uzaq qalaktikalar, ulduzlar, planetlər, – onları hiss etmirsən?

– Hiss edirəm, sonsuz kainatı hiss edirəm. Sanki sənin qoşduğun bu musiqi elə məni oralara aparır. Qəlbim sinəmdən çıxmaq istəyir.

– İbrahim, dünyanı həmişə bütöv hiss et və özünün onun bir hissəciyi, parçası olduğunu qəbul et. Onda onu daha çox sevəcəksən. Başqa nə hiss edirsən?

– Kədər hiss edirəm. Haradasa solmuş çiçəklər, uçmuş barılar, bozarmış yurd evləri də sıralanır xəyalımda.

– Ah, İbrahim... sənin kədərin bitməyəcəkmi? İbrahim, bəzən nələrsə bizdən asılı olmur. Bizdən çox-çox əvvəl artıq məsələ həll olunub.

– Yox, Lui, Qarabağ məsələsi həll olunmayıb. Biz onu həll edəcəyik.

– Mən buna çox şad olaram.

Çayın kənarına enirlər. İki nəfər balıqçı balıq tutur.

– Gəlsənə balıq alaq. Bu gün də təzə balıq yeyək.

– Olar. İkisi bəsdir.

Bir neçə farel alıb otelə dönürlər. Balıqları aşbaza verib nahara yemək hazırlamağı tapşırırlar.

– Başqa nə götürək, – İbrahim soruşur.

– Heç nə. Mən eləcə balıq yeyəcəm. Yeməkləri, – xüsusilə ətləri bir-birinə qatmaq düzgün deyil. Balığın yanında göy-göyərti, nar sıxılmış soğan, alça turşusu olsa, bəsdir.

– Olar, – İbrahim gülümsəyir. – Daha məni də yapon etmisən.

Hər ikisi gülür.

...

– Axşama bir partiyə dəvət almışam. Gedək, orada maraqlı adamlar görəcəksən, daha doğrusu, möhtəşəm adamlar, – Lui deyir.

– İndi ki parti keçirtməyə icazə yoxdur.

– Az adam olacaq.

Cəmi on nəfərdən ibarət olan partidə Lui bir nəfəri ona təqdim etdi:

– Bu mənim dostumdur, türkdür. O, yeni silah icad edib. Həmin silaha da öz adını verib, – Bayraqdar. Bu yeni tipli silahdır, dünyanın bundan xəbəri yoxdur.

– Hələ ki yoxdur. Amma çox yaxında dünya bu silahdan xəbər tutacaq.

– Nə gözəl. Tanışlığımızdan məmnun oldum. Umarım silahınız cahanşümul işlər bacaracaqdır.

– Bəli, əfəndim, çox ümidliyik. Yaxında bütün dünya bunu biləcəkdir. Və silahımızdan yalnız haqq işlər üçün istifadə edəcəyik. Bu yoldan geri dönməyəcəyik.

Necə ki Ahmet Kekeç deyib:

***Hak bildiğindən geri dönməməli insan,***
***Konuştuğunda haqqı söyləməli,***
***Yazdığında hak namına yazmalı.***

– Mən türk millətini, türk şairlərini çox sevirəm. Məsələn: Nazim Hikmət... Duyğuları möhtəşəmdir, ümumbəşəridir. Təbiət tək-tək insanlara bu duyğuları belə möhtəşəm verir, onlar seçilirlər; istər şair, istər yazıçı, istər siyasətçi, istər də politoloq olsunlar, – Lui deyir.

– Tanrı tərəfindən seçilən millətlər də var. Məsələn, mən düşünürəm türk milləti Tanrı tərəfindən seçilən millətdir. Onun igid ruhunu öldürmək çox çətindir. Müəyyən məqamlarda məğlub olsalar da, yenə də dirçəldilər, çünki ruh ölmədi onlarda, – qəhrəman, döyüşkən, məğlubedilməz ruh… – Bayraqdar dedi.

– Yapon xalqı da belədir... – Lui güldü.

– Əlbəttə... sözsüz...

... İbrahim heç nə demədi.

– Dostum, Azərbaycan da türk millətinin bir qoludur. O da müəyyən məqamlarda məğlub olsa da, sonunda sözünü deyəcək, qələbə çalacaq. Mən buna əminəm. Eşitmisizmi Sarıqamış faciəsi haqqında? Doxsan min gənc türk əsgəri donaraq öldü. Rusiya bir güllə atmadan, əziyyət çəkmədən Türk üzərində qələbə çaldı. Amma sonunda mərd türk xalqı yenə də sözünü dedi, məğlubiyyəti öz tarixindən sildi, ayağa qalxdı və yenilməz bir dövlət oldu. Çox şükür. Azərbaycan da belə olacaq.

– Bilirəm... – İbrahim dedi.

…

İbrahim otağında uzanıb, internetdə dolaşır. Azərbaycanda müharibənin başladığını söyləyirlər. Azərbaycan xalqının öz torpaqları uğrunda döyüşə atıldığını vuğulayırlar.

Demək belə... Axır ki xalq ayağa durdu... Eməni tapdağında qalan torpaqları azad etməyə başladı. Əgər onu məhz indi azad etməsələr, bir otuz il də əsarətdə qalacaq. Və indiki yaşlı nəsil ölüb gedəcək, cavanlar yaşlanacaq, gənc yeni yaranan nəsillər də torpağı xatırlamayacaq. Həm də nə görmüş olacaqlar ki, onlarda yurd məhəbbəti də alovlansın?

Müharibə xırda uşaq oyun-oyuncağı deyil, burada bir yumruq kimi birləşmək və bir nöqtəyə vurmaq lazımdır. Mükəmməl ordu, ordunu idarə edən cəsur komandir lazımdır, dünyaya hökm edən qüvvələrlə bacarmaq, onları öz haqq işinə inandırmaq lazımdır. Müharibədə sənin haqq işinə kömək edəcək qüvvələr mütləq olmalıdır.

Çox, şükür… İlham Əliyev bütün bunları bacarmışdır.

...

– Lui, mən Azərbaycana gedirəm. Orada müharibə başlayıb. Ümid edirəm bu dəfə bacaracağıq.

— İbrahim, əlbəttə, bacaracaqsınız. Sadəcə, hər şeyin öz zamanı var.

– Artıq səfərbərlik elan olunub. Ümid edirəm: bu dəfə ruslar ermənilərə kömək etməyəcək. Və biz qalib gələcəyik. Səhər yola düşəcəm. Xalqım ölümdirim mübarizəsinə qalxmışkən, burada otura bilmərəm. Görürəm, hiss edirəm, bu dəfə başqa cür olacaq. Demək, neçə illər bu müharibəyə hazırlıq gedirmiş. Bu çox gözəldir.

– İbrahim, sənin işin də vacibdir. Sən burada başqa millətləri öz haqq işinizə inandırırsan. Əvvəllər mən elə bilirdim ermənilər haqlıdır. Amma indi bilirəm ki, onlar qəsbkardır, sizin vətəninizi, dədə-baba yurdunuzu talan ediblər, mənimsəyiblər... Eləcə də bütün yapon xalqı artıq həqiqəti bilir.

– Lui, burada oturmaq, kənardan olanları seyr etmək mənim üçün çox əzablıdır. Mən hadisələrin içində olmalıyam. Əsgərlərin sırasında dayanmalıyam.

– Bəs sənin buradakı işin nə olacaq?

– Bu işi hələlik dondururam.

– Mən də səninlə gedirəm.

– Olmaz, Lui. Sən öz işinə davam et.

– Yox, əzizim. Biz dostuq. Mən öz dostumu tək buraxa bilmərəm.

– Birdən müharibə uzandı? O zaman necə olacaq bəs?

– Buna sonra baxarıq. İndi isə biz birlikdə Azərbaycana gedirik. Politoloq olsaq da, orada nə baş verir, – dəqiq bilmirik. Məsələni orada aydınlaşdırarıq.

Kağız-kuğuz, sənəd işlərini həll etmək üç gün vaxt apardı. Nəhayət, İbrahim və Lui Azərbaycana yola düşdülər...

…

Artıq İbrahim döyüşdədir. Dəstələrində otuz nəfər əsgər və bir komandir var. Komandirin və hər döyüşçünün öz həyat tarixçəsi, düşüncəsi var. Komandir Füzuli qaçqınıdır. On beş yaşı olanda Füzulidən çıxıb. Həyatını hərb işinə sərf edib. Və budur, bu gün də buradadır.

Komandir əsgərlərə deyir:

– Otuz ildir düşmən tapdağında olan bu yerləri siz cavanlar xilas edəcəksiniz, siz qəhrəmansınız, siz cəngavərsiniz, siz yaşınızdan, başınızdan böyük bir missiyanı yerinə yetirirsiniz.

Hər dəfə komandir belə deyəndə, əsgərlər sanki bir az böyüyür, sinələri genişlənir, boyları ucalır, içlərində daha sərt, daha vüqarlı, cəsarətli birisi dirçəlir. Artıq vuruşlarda ön sırada getməkdən çəkinməyir heç biri.

Müharibədə ölüm də, qorxu da adiləşir. İbrahim də, əsgərlər də yalnız uğrunda vuruşduğu torpaqları, tarixi missiyalarını düşünürlər.

Artıq çox irəliləyiblər; onların fəxr-fəxarət mənbəyi Bayraqdar PUA-ları da bir əfsanə olub sanki. Göy üzündə süzən qartala bənzəyir bu pualar. Onların sevinc mənbəyi, düşmənin qorxulu kabusu...

Komandir hər kənd, rayon alınanda göz yaşlarını saxlamır belə; hönkürüb ağlayır, deyir: qalibiyyət duyğusundan gözəl bir duyğu yoxdur, bu, haqq-ədalətə söykənəndə,vətənini düşmən tapdağından xilas edəndə daha möhtəşəm olur, bunu yaşamaq hər oğula, hər əsgərə, hər xalqa qismət olmur. Komandir deyir ki, illərlə bir-birinə etiraf etməsələr də, utancları böyük olub; bəzən kədərləniblər, bəzən ümidsizliyə qapılıblar, nədən belə bir taleyə məruz qaldıqlarını öz-özlərinə sual ediblər, bunun günahını öncəki nəsillərdə görüblər.

İndi isə bütün bu yaramaz, mənfur utanclar arxada qalır. Onlar, onların xalqı bu utancları geridə qoyur. Bunun nə demək olduğunu anlayırsızmı? – Əsgərlərə sual edir.

– Sizin hər biriniz mənim balamsınız, qəhrəman, igid balam, ağ saçlı anasını – Qarabağı mənfur düşməndən, ermənidən xilas edən balam... Hamısını tək-tək qucaqlayır, gözlərindən öpür. İbrahim hər dəfə komandiri dinləyəndə təəccüb edir; Komandir də eynən onun kimi düşünürmüş, o, tək deyilmiş, onun xalqının mərd oğulları hamısı vətən həsrəti ilə qovrulurmuş…

Qarşıda həlledici döyüşlər var, əsgərlər bunu bilir və heç biri döyüşdən qorxmur... Əvvəlcə PUA-lar göy üzünə qalxır. Sanki məğrur qartallar süzür göy üzündə.

Ermənilərin içinə vicvicə düşür.

– Çal qılıncın, ağam Qazan, yetdim, – deyir Komandir. Bilirlər bu sözlər “Dədə Qorqud”dandır. Komandir hər birini bir Qazan xan bilir. Bu sözlərlə hələ döyüşün bitmədiyini bildirir, özü də yanlarında vuruşur. Onu hər an yanlarında hiss etmək əsgərlərə yenilməz güc, təpər verir.

Erməni postlarını PUA-lar məhv edir. PUA-lardan canını qurtaranları da əsgərlər biçir. Nəhayət, döyüş başa çatır, tüstü yavaş-yavaş çəkilir. Bir-birinə biruzə verməsələr də, gözləri sıraları axtarır; kim var, kim yox? Əkrəm və Nadir gözə dəymir. Düşüb axtarırlar.

Bir çökəklikdə tapırlar. Hər ikisi yaralıdır. Əkrəmin sağ qolundan qan fışqırır. İbrahim hiss edir qorxuludur, Turanla birlikdə qanı kəsməyə çalışırlar. Nəhayət, bacarırlar, amma Əkrəm gözlərini yumub.

– Əkrəm bala, səni xilas edəcəyik, qorxma. Çalış dözümlü ol, – komandir deyir. Əkrəm gülümsünür, qan axan qolunu heysizcə tərpədir, yumruqları sıxılır. Dodaqları tərpənir.

– Bilirəm, – deyir...

Nadirin yarası yüngüldür, deyəsən, qanaxması yoxdur, hər halda, belədir. Boynunu tərpədə bilmir. Gözləri çox qızarıb. Bircə daxili zədəsi olmasın. Nəsə heç danışmır. İbrahim bilir: kontuziya alıb. Dili tutulub, qulağı batıb. Onları həsir xərəyə qoyub cəld aşağı yola düşürdürlər, təcili yardımı gözləyirlər. Nəhayət, hərbi sanitar maşını görünür, yaralıları götürüb cəld uzaqlaşır.

Belə... Beləcə neçə döyüş yoldaşlarını yola salıblar. Qəribədir, hələ ki onların komandasında birbaşa döyüş meydanında həlak olan yoxdur. Yaralılarla, onların olduqları xəstəxana ilə komandir əlaqə saxlayır, yeni məlumatları əsgərlərə çatdırır. Deyir ki, yaralıların vəziyyəti yaxşıdır, yaxınlarda döyüş meydanına qayıdacaqlar.

Orxanın çox yaxşı səsi var. Hərdən oxuyur:

***Hoydu, dəlilərim, hoydu,***
***Yeriyin meydan üstünə.***
***Havadakı şahin kimi***
***Tökülün al qan üstünə.***

İgidlik də bir sənətmiş... Və beləcə, döyüş meydanında yetişirmiş... sən demə. Birinə güllə dəyir igidin, biri yaralanır, yarasından qan fışqırır, dodaqları gülümsəyir, birisi heç danışmayır, amma gözləri ilə ürək-dirək verir, yaşadığını söyləyir, gedərsə, “qəmlənməyin” söyləyir. Vətən söyləyir...

Artıq Füzuli ətrafındadırlar, – komandirin on beş yaşında tərk etdiyi Füzuli ətrafında. Döyüşə girmələrinə saatlar qalıb. Komandir əsgərləri başına toplayıb döyüş tapşırıqlarını verir. Yenə də hər birinin gözündən öpür.

– Siz mənim igid qartallarımsınız, onu bilirsinizmi? – deyir. – Vətən bizlərə əmanətdir, – deyir. – Bu uca dağlar bizim oylağımızdır, bura bizim evimizdir, biz bir ailəyik, – deyir. – Siz mənim oğullarımsınız, – deyir. – Bu dağlar özü bizi qoruyacaq, – deyir.

***Göynən gedən beş durnalar,***
***Bizim ellər yerindəmi?***
***Bir-birindən xoş durnalar,***
***Bizim ellər yerindəmi?***

Döyüş başlayır... Hər tərəf barıt qoxuyur. Gurultudan bir-birini eşitmirlər belə. Tüstü aləmi bürüyüb. PUA-lar göy üzündə süzür. Ardınca toplar guruldayır, snayperlər işə düşür.

– Çal qılıncın, ağam Qazan, yetdim! – deyir komandir.

Haradasa buralardadır, sağdir. Bu gün onun vətənini azad edirlər. Güllüçiçəkli vətənini. Nübar narlar, armudlar, heyvalar durumu ola? Bircə döyüş bitsəydi, çox susuzlayıblar, komandirin ata -baba yurdunda bir çay dəmləyib içsəydilər. Artıq öldürdükləri mənfur ermənilərin sayını itiriblər.

Sağ cinahda duran sinayperçi Cəlalın səsi gəlir: "Vuruldum deyəsən". İbrahim hücumu dayandırıb ona tərəf gedə bilməz... Bu, cinayətdir. Var gücüylə qışqırır:

– Ənvər, Cəlala bir bax! Vurdular deyəsən. Tüstülər, gurultular içərisindən səslər gəlir... müxtəlif səslər. Görən, Cəlalın vəziyyəti necədir?

Narahat olur.

Nəhayət, "Çal qılıncın, ağam Qazan, yetdim, Cəlal mənim yanımdadır". – Ənvərin səsini gurultular içərisində ayırır. Ümidlənir, hər halda, Cəlal tək deyil. O, dayana bilməz, irəliyə getməlidir. Bu beş-altı erməni harayasa qaçır, deyəsən. Bəlkə də bizimkiləri məhv etməyə tələsirlər. Komandir İbrahimə əmr verir. İbrahim avtomatın lüləsini ermənilərə tuşlayır, onlar bir-birinin ardınca yerə sərilirlər. Biri İbrahimə tərəf nə isə atır. Komandir əmr verir: "Uzan!" İbrahim uzanır. Bir az keçir, yaxınlıqda bərk gurultu qopur, alov dilimləri görünür. "Yuvarlan kənara!" –komandir çığırır.

İbrahim həmin an hara isə qaranlığa yuvarlandığını hiss edir, deyəsən, qaranlıq uçuruma yuvarlanır, hər tərəf qaranlıqdır, səslər kəsilir...

Nə qədər vaxt keçdiyini anlamır, çox susayıb... Dodaqları susuzluqdan quruyub. Hardansa su şırıltısı gəlir, suya tərəf can atır, Ənvərin səsi qulaqlarına gəlir.

– Aç gözünü, ağam Qazan, yetdim! – deyir. Gözlərini açmağa çalışır. Başı üzərində Ənvərin Qarabağ səmasını andıran göy gözlərini görür.

– Ayıldı, şükür, – əsgərlərin səsini eşidir. Cəld ayağa durur.

Komandir gülümsünür:

– Yaxşısanmı? Yaran-filan yoxdur. Şükür. Döyüş qurtardı, Füzulini almışıq, ermənilər qaçıb, şəhəri tərk ediblər.

– Bəs Cəlal hanı? – İbrahim soruşur.

– Onu xəstəxanaya qaldırdıq, narahat olma, vəziyyəti yaxşıdır.

... – Bu Hilaldır, bu Müşfiqdir... bu da Qafur... hamı yerindədirmi?

– Üç nəfəri xəstəxanaya göndərdik, – komandir deyir.

– Bir su verin içim, –İ brahim su ilə dolu parçı başına çəkir, beyni aydınlanır, özünə gəlir, ayağa durur. Komandir fərəhlə onları süzür:

– İndi isə mənim ata evimə doğru gedəcəyik, – deyir. – Hazırlaşın.

Şəhərə daxil olurlar. Hər tərəfdən sıra ilə düzülmüş evlərlə əhatə olunmuş küçə ilə irəliləyirlər. Evlər necə də köhnəlmişdir...

– Yaşamadıqları evləri, kəndləri, şəhərləri niyə zəbt elədi bu allahsızlar. Onlar üçün bunlar heç nədir, bizim üçün isə saysız-hesabsız xatirə mənbəyi, hər daşı, guşəsi əziz olan vətən torpağı.

İyirmi səkkiz illik ayrılığın kədəri çökmüşdü hər küçəyə, hər barıya. Bozarmış darvazalar, yıpranmış barılar, yabanılaşmış gül kolları, ağaclar. Qəribsəyiblər elə bil. İgidləri görüb, bozarmış üzləri gülümsəyir sanki.

Komandir danışır:

– Nə sevgilər, nə məhəbbətlər yaşanmışdı bu evlərdə, nə oğullar, nə qızlar böyümüşdü, nə analar, nə atalar oğul, qız boyu sevmişdi. İyirmi səkkiz il əvvəl çıxmışıq buradan... Sanki dünəndi... dünən kimi görünür. Amma insan üçün uzun bir zaman ayrılığı. Ömür nədir ki... Bir su içimi... Bu ömrü badi-fənaya verəndə insan çox əzab çəkir, hansısa utancı daşıyanda yaşamır heç... İndi sizi öz evimizə aparacam. Bu, Həmid dayının evidir, – böyük aynabəndli evi göstərir. Aynabəndlər qırıq-qırıqdır, bəzi salamat şüşələr torpaq rəngindədir eləcə – vaxtilə kəndin ən görkəmli evi idi. Bu da İsmət xalanın evi. İsmət xala hamımıza – bütün məhəllənin uşaqlarına yumurta boyayardı, qovurğa qovurardı.

Bu da bizim darvazamız, evimiz… – Komandir ağlayır, rəngi ağappaqdır.

Köhnə, bomboz bozarmış dəmir darvazanı itələyib açır, həyətə daxil olurlar. Hər tərəf otluq və tikanlıqdır. Az qala adamboyu qalxmış otların arası ilə irəliləyirlər.

– Ehtiyatlı olun, – Ənvər deyir, – mina-zad olar.

Komandir bozarmış divarları, yabanılaşmış gül kollarını, ağacları öpür.

– Vətən… Ah Vətən... Sənsiz necə dözdük bu illəri. Qoynu gülşən vətənim. Çeşmələrin, çayların bizsiz yenə çağladımı, çiçəklərin, güllərin hər bahar açıb bizi harayladımı? Dağlarına duman gəldimi, otluqları, çəmənləri şeh bürüdümü? Darıxdınmı bizim üçün?

Komandir pillələri az qala uçaraq evlərinə qalxdı. Otaqları fırlandı. Köhnəlmiş, sahibsiz qalmış ev əşyaları bombozdu, çarpayılar, taxtlar, kitab, qabqacaq şkafları bombozdu. Amma o, bütün bu ev əşyalarını, qapı və pəncərələri elə məhəbbətlə öpürdü ki...

– Ərdoğanı, Bayraqdarı da gətirəcəyəm bura. Xızır kimi dadımıza yetişdilər. Ay yurdum, ay evim... Uşaqlığım burda keçdi… Səni bu gəncəcik oğlanlarla xilas etdim yağı tapdağından, ay evim, ay yurdum. Bax bu qartallarla, hələ neçəsi burda yoxdur. Amma sən onları da tanıyacaqsan...

Komandir ağlayır, əsgərlərə üz tutub deyir:

– Mənim ağlamağıma təəccüblənməyin. Mən ağladıqca illərlə hiss etdiyim utancdan, xəcalətdən yuyunuram. Siz xoşbəxt nəsilsiniz, müharibədən sonra utanc yox, qalibiyyət duyğuları yaşayacaqsınız.

Aynabənddə atılıb qalmış, toz basmış samovarı yuyub təmizlədilər, çay qaynatdılar. Komandir öz əlləri ilə nar, armud, heyva ağaclarından meyvə dərdi, gətirib süfrəyə qoydu. Çay da, meyvələr də bu dağların ab-havasını qoxuyurdu, bal dadırdı.

Gecəni komandirin ata yurdunda keçirtdilər. Komandir zirzəmidə atılıb qalmış odun sobasını tapıb qurmuşdu. Sobanı qalamışdılar. Otağı xoş bir rayihə bürümüşdü. Komandir gülümsünür, elə hey danışırdı. Səsi nağıl söyləyən nənələrin səsini andırırdı lap. Bayırda isə külək əsir, qaranlıqda ağac budaqları xışıldayırdı.

– Çox xoşbəxtəm. Ata yurdumu gördüm axı... Ata evimdə sizi qonaqladım axı... Ah Vətən, Vətən...

***Payız qışdan əzəldir,***
***Yarpaq tökən xəzəldir.***
***Vətən viran olsa da...***
***O cənnətdən gözəldir.***

Səhər əsgərlər komandirin səsinə yuxudan oyandılar. Komandir çay qaynatmış, əsgərlər üçün süfrə açmışdı, hardansa əsgərlər üçün isti çörək, yumurta gətirmişdilər. Deyəsən, arxa cəbhədən yardımsevərlər gəlmişdi. Bir neçə səbətdə isti geyim, papiros da vardı.

– Samovarın səsi, istilik, isti çörək ətri... Lap evimizi xatırladım... – arıq və çəlimsiz Ənvər ləzzətlə yerində gərnəşdi. Bu nə xəcalətdir Komandir, bizi nədən durğuzmamısınız. Biz qaynadardıq samovarı...

– Qırışmal, samovarmı qaynatmısan ömründə? Mən cəkəcəyəm hər nazınızı. Siz gəncsiniz, yatıb dincəlməlisiniz. Evimizdə sizi qonaqlamaq bilsəniz necə xoşdur...

Deyəsən, o, yenə ağlayırdı… Kişinin, komandirin ağlamasının acizlik yox, güc əlaməti olmasını əsgərlər ilk dəfə görürdülər.

Onlar süfrə başında əyləşib ləzzətlə səhər yeməyi yedilər. Yemək bitən kimi komandir zənbillərdəki isti geyimi, ayaqqabını əsgərlər arasında bölüşdürdü. Əsgərlər evləri – valideynləri ilə danışdıqdan sonra yola düzəldilər...

Kimsəsiz küçələrlə şəhərin o biri başına tərəf yol aldılar. Küçələrdə tək-tük toyuq-cücə, sahibsiz it-pişik gözə dəyirdi...

– Bunları tutmağa vaxt tapmayıblar əclaflar. Hər şeylərini aparıblar. Bizim camaat isə ayaqyalın, başıaçıq çıxdı o vaxt, çox adamın ayağını don vurmuşdu, – Komandir dedi.

Artıq Füzuli şəhəri arxada qalırdı. Göy otluqla, təpələrlə irəliləyirdilər.

– Mən uşaq olanda elə bilirdim şəhərlər nə isə fərqlidir, onlar dağ qoynunda, hansısa bir yamacda yerləşməyir. Eləcə hər tərəfi saysız-hesabsız evlər olur, asfalt küçələr olur, getdikcə gedirsən, küçələr bitməyir, – Ənvər dedi.

– Hə, mən də elə fikirləşirdim. – Dilqəm söhbətə qoşuldu. – Amma bütün şəhərlər eləcə yamaclarda, düzlərdə yerləşirmiş sən demə.

– Dağlarda da yerləşəni var, – komandir dedi. – İnşallah, Şuşanı görəcəksiniz – İbrahimin yurdunu. Eləcə dağın başında durur. Qala kimi... Bəlkə, Koroğlunun oylağı Çənlibel elə Şuşadır – düz dağın başında.

– İnşallah oranı da alarıq. Orada da bir çay dəsgahı qurarıq deyilmi, İbrahim? Neçə yaşın vardı ordan çıxanda?

– On yaşım vardı.

– Xatırlayırsanmı oraları?

– Heç yadımdan çıxmadı ki... Siz Füzuliyə, ata evinə qayıdanda danışırdınız ha, – elə bilirdim, mənim könül pıçıltılarımdır.

Artıq Şuşa uğrunda – İbrahimin ata yurdu uğrunda döyüşlər gedir; dağlara addım-addım, dizin-dizin dırmaşırlar. Komandir deyir: “Şuşa gözəllər gözəlidir, divlərə əsir düşüb. O, dağların başında sanki qaladır. Onun alınması şərəf və vicdan işidir”.

Dizin-dizin dağlara dırmaşmaq əsgərlərin əllərini və dizlərini yara edib. Bir tərəfdən də soyuq, ara vermədən yağan yağış əsgərlərin əhdini kəsib. Hava tutqun və bozumtuldur.

– Havanın belə olması bir tərəfdən xeyirdir, – komandir deyir, – düşmən əsgərlərimizin yerini dəqiq təyin edə bilməyir.

Əsgərlər dəstə ilə yox, iki-iki, üç-üç irəliləyirlər. Komandir əsgərləri dörd, beş nəfərlik kiçik dəstələrə bölüb.

– Dağa dırmaşmaq belə, daha asan və təhlükəsizdir, – deyir.

Dilqəm, Adəm, İbrahim və Ənvər bir irəliləyirlər. Erməni əsgərlərin başı üzərindən mərmi yağdırır. Artıq üç gündür yuxusuz olan əsgərlər hərdən azacıq nəfəs alıb, yollarına davam edirlər. Əlləri qan içində olan Ənvər:

– Qayanın altında bir az nəfəs alaq, – deyə söylədi.

Təzəcə oturmuşdular ki, dəhşətli bir gurultu qopdu, hər tərəfi tüstü və toz bürüdü. Az qala, nəfəsi kəsilən İbrahim tüstü və duman kütləsindən kənara qaçmağa çalışdı. Tüstü çox acı və yandırıcı idi, az qala, nəfəsi kəsilirdi. Əl atıb cürdəyini yoxladı, yerindəydi, sudan bir neçə qurtum aldı.

– Dilqəm, Adəm, Ənvər, hardasınız? – var gücüylə çığırdı. Səs-səmir yoxdu... Ətrafı dolaşdı. Hardasa buralarda olmalıdırlar. Ola bilməz ki yox olsunlar, indicə bir yerdə əyləşmişdilər. Tüstü yavaş-yavaş çəkilirdi. Budur, Ənvərin qan içində olan əli, torpaq kütləsinin altından tərpənir... Cəld yüyürüb torpağı təmizləyir. Əl eləcə durur, bəs sahibi hanı? Ətrafa baxır... Hər şeyi anlayır, Ənvər artıq yoxdur... Dəhşətə gəlir... Ölüm... öz sərt üzünü göstərdinmi?

Gözlərində yaş giləlenir... Bəs Adəm, Dilqəm... Bir yerdəydilər axı... Ətrafı axtarır... Bir neçə ət parçasına rast gəlir... Qəlbinin yerində sanki daş hiss edir.

... – Erməni, qanını içəcəyəm, erməni... Sənə heç rəhm etməyəcəm, erməni. Qorx məndən...

Artıq yolu itirib. Hava bombozdur, yağış heç ara verməyir, pal-paltarı su içindədir, soyuq sümüklərinə işləyir, neçə gündür ki, acdır. Heç nə fikirləşmir, keçmiş və gələcək öz mənasını itirib, yalnız bu an var. Və bu an kədər və nifrətdən ibarətdir, dəhşətdən ibarətdir. Kədər qəlbini çulğalayıb. Gənc və vəfalı dostlarının cəsədi belə qalmadı ki, kürəyinə alıb daşısın. Nə deyəcək komandirə, nə deyəcək?

Yağış güclənir, damlalar qayalara dəyib səslənir, qayalardan xırda çaylar axır sanki. Hər tərəf su qoxuyur, nəm qoxuyur. Artıq taqəti qalmayıb. Susuzladığını hiss edir. İri bir yarpaq qırıb yağış damlalarının altına tutur, nazik şırnaqla axan sudan doyunca içir. Gerçəklik duyğusunu itirib, azacıq mürgüləyir... Budur, rahat, isti otağında uyuyur, yağış damlaları ona, otağına layla çalır sanki. Qapı açılır, Lui əlində kiçik padnos ona isti çay və mürəbbə, kökə gətirir. Ah, bütün bunlar... Qəfildən komandirin səsi gəlir qulaqlarına.

"– Çal qılıncın, ağam Qazan, yetdim!" – deyir. Gözlərini açır. Heç kəs yoxdur. Hər tərəf yağış və sudur, soyuqdur. Anlayır buralarda ləngimək ölümə bərabərdir... Osa Qarabağın azad olunduğunu görmək istəyir. Dilqəm, Adəm və Ənvərin qisasını almaq var hələ mənfur ermənidən. Bütün gücünü toplamalıdır... toplamalıdır...

– Ah, komandir... bircə sizə yetişsəydim...

Amma komandirə yox, erməniyə də rast gələ bilər. Hər şeyə hazır olmalıdır. Qulağına müxtəlif səslər gəlir.

Artıq şəhərə qalxıb. Allı-güllü yurdunun görüşünə gəlib. Budur, küçələr... yağış altında nəğmə oxuyaraq qaçdığı küçələrə çox bənzəyir. Nə hündür barılardır, yaddaşındakı əzəmətli barıların özüdür sanki… Diqqətli olmalıdır... çox diqqətli... Tapançasını, avtomatını yoxlayır... Qarşıdan iki nəfər gəlir, cəld kolluqda gizlənir. Ermənilər öz aralarında danışaraq yanından ötürlər.

– Bu, Ənvər üçün, bu da Adəm və Dilqəm üçün, – tapança ilə nişan alır və atır. Hər iki erməni anındaca yıxılır. Bir də vurur, qoy cəhənnəmə tez vasil ol-

sunlar. Artıq düşmən tərəfdə olduğunu bilir. Hündür barıların dibi ilə irəliləyir. Əfsanəvi Şuşa... xəyallarının oylağı, nağıllar yurdu... Nə qəribə görüşdür bu, İlahi. Öz yurduna gizlin-gizlin, əlində silah daxil olur, artıq bir neçə erməni öldürüb. İçində bir Qazan xan oyanıb sanki. Qazan xandan nəyi əskikdir onun? O da müasir Qazan xandır. Nə gözəldir bütün bunlar, xalqı hələ də Qazan xanlar yetişdirir. Bəlkə də, Koroğludur. Luiyə bütün bunları söyləyəcək; içində Koroğlunun, Qazan xanın canlandığını, onlar kimi düşündüyünü, zaman məfhumunun sanki yox olduğunu söyləyəcək. Özünün çox qəribə bir şəkildə Koroğlu ilə, Qazan xanla eyniləşdiyini söyləyəcək.

Qarşısında uzanan hündür barılara baxır. Sakitlikdir. Bu onu qorxutmur. Deyəsən, qorxu hissini itirib. İndi yalnız erməni öldürmək istəyi var içində. Aha, bu darvaza açıqdır. Ehtiyatla içəri daxil olur. Cəld özünü kolluğa atır. Azacıq özünə gəlib ətrafa baxır. Aman Allah, bu tanış ağaclar, bu kollar... Yoxsa, öz evləridir? Özüdür ki var... Sonra da deyirlər Allah yoxdur (əstəğfürullah!). Olurmu heç? Allah onu sanki quş dimdiyində gətirib on yaşında tərk etdiyi həyətlərinə atıb, evlərinə atıb. Və sanki fövqəladə bir güç içini doldurub. Bir az da qalın kolluğa tərəf sürünür. Birdən səslər eşidir; çiyni avtomatlı ermənilər indicə onun girdiyi darvazadan bayıra çıxırlar, sayır; düz on bir nəfərdir. Avtomatını yoxlayır, anındaca qərar verib barıya çox yaxın, tanış, əzəmətli qoz ağaçına dırmaşır. Ermənilər ayaq saxlayıb öz aralarında nəsə danışırlar.

– Nə nişangaha gəlirlər... – sadəcə, çox diqqətli olmalıdır, atışı sərrast və öldürücü olmalıdır. Cəld və iti tərpənməlidir, onlar özlərinə gəlməmiş, hamısını biçməlidir. Atır.

– Bu bir... bu iki... bu üç... bu dörd... – sonuncu ermənini də vurur... Bir də vurur…

Özüdür ki var... Qəlbi həyəcandan titrəyir. Onların evi, onların aynabəndi... Bu aynabənddə çox oynamış, ailəlikcə bu stolun başında çox əyləşmişdilər... Gözlərindən yanaqlarına yaş süzülür. Ağladıqca yüngülləşir...

Nəhayət, bir az sakitləşir. Stolun üzərinə göz gəzdirir. Süfrədə çörək, kolbasa, bişmiş yumurta, pendir var. Aclığı hiss etmir, amma dörd, ya beş gündür ki acdır, nəsə yeməlidir ki, dizlərində taqət, qollarında qüvvət olsun. Bir dilim çörək götürüb pendirlə yeyir. (Əziz evi onun beş gündür ki, ac olduğunu düşünüb onu süfrə ilə qarşılayıb). Gözlərindən yenə yaş süzülür. Lakin anlayır: indi nostalji hisslər vaxtı deyil... Sonra... sonra ağlayar, indi isə... mümkün qədər erməni öldürməli, döyüşən ordularına kömək etməli, buradan sağ qurtulub, dəstələrinə yetişməlidir. Bütün diqqətini, gücünü cəmləməlidir. Soyutma yumurtadan da birini yeyir, özünə hələ soyumamış çaydan təmiz bir fincana süzüb içir, həyətə düşür.

Vurduğu ermənilər baş-başa uzanıb. Biri deyəsən yaralıdır, ona baxıb nə isə deyir. Cəld avtomatını, silahını alır, əl-qolunu bağlayır. O biri avtomatları da yığışdırır, həyətlərində gizləyir. Yaralı əsgərin vəziyyəti çox da ağır deyil. “Onu sağ saxlamağın əhəmiyyəti varmı?” – düşünür.

– Azərbaycanca bilirsənmi? – əsgərdən soruşur.

Əsgər “hə “mənasında başını tərpədir.

– Danış görüm.

Əsgər heç nə demir...

Tapançanı başına dirəyir.

– Mənim atam azəri... Mən azəri... Məni öldürmə... – əsgər deyir.
– Azəri... Eləysə nədən bizə qarşı vuruşursan?
– Bu əmrdir. Qarşı çıxsam, məni öldürərlər.
– Buraları tanıyırsanmı?
– Bəli...
– Eləysə, yolu mənə göstər. Bizimkilər hansı tərəfdədir? Cəld ol, yalan desən, səni vuracağam.
İrəliləyirlər.
– Onlar məcsid tərəfdədirlər.
– Şəhərdə erməni çoxdurmu?
– Var. Çoxu qaçır.
– Necə edək ki, bizimkilər bizi vurmasın.
– Ağ bayraq qaldıraq.
– Hardan alım ağ bayrağı?
– Məndə var.
– Çox ehtiyatlısınız...
– Nə edək… Heç kəs ölmək istəmir...
– Ölmək istəmirsinizsə, başqasının torpağında nə gəzirsiniz?
– Bu sizdən, məndən çox-çox əvvələ söykənən bir problemdir.
– Başqasının torpağı insanı xoşbəxt etməz, – bunu anlayın. İşğal etdiyiniz torpaqları viran qoymusunuz, çoxunda heç yaşamamısınız. Bir yer ki sizin deyil, yaşamaq istəmirsiz, nədən qəsb edirsiniz?
– Hamısını yaşlı ermənilər edib. Sarsaq bir ideologiya ilə doldururlar cavanların başını.
Komandiri ermənilərin hiyləgərliyindən çox bəhs edib, dara düşəndə min hiyləyə əl atdıqlarını söyləyib, hər halda bu yalquzağa çox inanmamalıdır.
– Çatmışıq... Bu barının o üzündəki tikilini görürsən?... Sizinkilər oradadır, – erməni deyir.
– Yaxınlaş, baxalım.
– İkilikdə yaxınlaşaq.
– Bəlkə, orada ermənidir. Nədən bilim doğru deyirsən? Sən tək yaxınlaş.
Erməni getmək istəmir. Avtomatı ona tuşlayır... Erməni əlində ağ bayraq irəliləyir. Osa kolluqda gizlənir.
Erməni tikiliyə daxil olur. Heç kəs bayıra çıxmır, dəqiqələr ötür...
– Baxalım məni aldatdın, ya yox? Tikilidən azərbaycanlı, yoxsa erməni çıxacaq? –
Yerini dəyişir, ətrafına göz gəzdirir. – Əgər erməni postu varsa orada... – avtomatları, cibindəki qumbaraları yoxlayır, hamısı doludir. Qəlbində qəribə bir hiss var, sanki erməni səsi gəlir qulaqlarına, cəld yerini dəyişir. Bayaqkı erməni əlində nə isə bayıra çıxır, atmaq üçün qolaylanır. – Ah satqın, yaxşı ki vaxtında duyuq düşdü... – Anındaca ermənini nişan alır, mərmi erməninin əlində partlayır, tikili göyə sovrulur.
– Belə... Özgəyə quyu qazan özü düşər... atalar nə gözəl demiş. Görən, orada erməni var idimi? Hər halda vardı...
Burada gözləsin. Hər halda tikilidə postları varsa, indi ora ermənilər gələcək. Yaxınlıqdakı bir həyətə daxil olur. Həyətdəki hündür qoz ağacına çıxır. Həm evi, həm də göyə sovrulmuş tikilini nəzarətdə saxlayır. Aradan uzun bir

müddət keçir, ağacdan düşüb kolluqda uzanır, qarnı acından guruldayır. Yerdə bir xeyli qoz olduğunu görür, cibinə yığıb, yaxınlıqdakı kolluğa tərəf sürünür, yerdən tapdığı daşla bir-ikisini qırıb yeyir, cürdəyini çıxardıb bir az su içir. Ənvəri, Dilqəmi, Adəmi xatırlayır. Qəlbi kədərdən sıxılır. Ənvərin cızıq-cızıq olmuş, qanlı əllərini xatırlayır. Çoxmu ağrıtdı lənətə gəlmiş mina onu, – o ki əllərinin ağrısına dözmürdü heç...

Yuxusu gəlir, azacıq yatsınmı? Yatsın, bir az güc toplasın, bəlkə, özününkülərə yetişmək bir neçə gün vaxtını aparacaq, belə... çox çətindir, başında nə isə guruldayır, hər şeyi bir-birinə qarışdırır, erməniləri qırmaq üçün sağlam baş lazımdır, diqqət lazımdır, diqqətini toplamaq üçün də bir az yatmaq... Adam boyu qalxmış kolluğa tərəf irəliləyir, iri bir kolun altına girir. Uzanır, avtomatını da əlinin altına qoyur... Yuxu gözlərindən tökülür... Yatır...

Güllə səslərinə ayılır... Səs elə də uzaqda deyil. Şuşa kiçik şəhərdir, böyüklüyü ilə yox, gözəlliyi ilə məşhurdur. Artıq hava qaralır, bir azdan gecə düşəcək, dostlarından bircəciyi yanında olsaydı... Yerində gözləsinmi, səs gələn tərəfəmi getsin?

Nəhayət, səs gələn tərəfə yaxınlaşır. Qarşıda çox da hündür olmayan tikili var, arada erməni səsləri gəlir. Deyəsən, hücuma hazırlaşırlar. Qaranlıqda PUA qorxusu olmayanda fəallaşırlar.

– Sizin PUA-nız buradadır, yanınızda, azacıq gözləyin...

– Ara... ara… – səslər gəlir...

Bir neçə erməni tikilidən çölə çıxır. Ətrafı yoxlayırlar. Azacıq keçmir ki, tanklar görünür. Şimal tərəfə gedirlər. Təxminən beş-altı tankdır. Tankların ardınca getsinmi, tikiliyə yaxınlaşsınmı?

Sürünə-sürünə tikiliyə yaxınlaşır, çox da hündür olmayan barıya dırmaşır. İçəridə beş-altı erməninin yatmağa hazırlaşdığını görür. Ermənicə nəsə danışırlar. Necə atsın qumbaranı ki, özünə ziyan dəyməsin?

Atır və kənara sıçrayır. Sürətlə qaçır, qulaqlarını qapayır və yerə uzanır. Arxasında tikilinin göyə sovrulduğunu hiss edir, dəhşətli bağırtılar gəlir. Yanına daş-kəsək parçaları düşür, ayağa durur, bir az da qaçır...

İndi gedəcəyi səmti bilir... Şimal tərəfə irəliləyir. Çox keçmir ki, bayaqkı tankları görür, sıra ilə düzülüblər. Deyəsən, atmağa hazırlaşırlar... Cibindəki qumbaraları yoxlayır. Bəs edər... Heç nə fikirləşmir, zərrə qədər ölümdən qorxmur, gözləri önünə arıq, çəlimsiz Ənvərin dağlara dırmaşmaqdan parça-parça olmuş əlləri gəlir. Susuzluqdan dodaqları quruyan isti çay istəyən Dilqəmin qurumuş dodaqları gəlir... Qumbaraları atır. Bir... iki... üç… Tanklar alışıb-yanır. Ora-bura döyükən tək-tək ermənini də avtomatla biçir. Belə asan... erməniləri qırmağına təəccüblənir. Hansısa güc ona kömək edir, deyəsən. Bəlkə, elə şəhərin ruhudur onu qoruyan. “Dağların da ruhu var” – Lui deyirdi. Budur, dağların, yurdunun ruhu onu qoruyur, o, asanlıqla erməniləri qırır. Çox gözəldir... Evlərdən birinə girib bir az yatsın. Çox yorulub...

Yaxın evlərdən birinə girir, səs-səmir yoxdur. Otaqları ehtiyatla dolaşır. Deyəsən, burada yaşayış olub, çox da bərbad deyil. Yemək üçün bir şeylər də var, elektrik çaydanı da var. Yaxalayıb təmiz su ilə doldurur, çay qoyur. Çay dəmləyib içir. Çörək qabında çox da boyat olmayan çörək də var, təzə konserv, qatılaşdırılmış süd qutuları var. Bir konserv açıb bir az yeyir. Qatılaşdırılmış südlə çay içir. Nə olar, olar, deyərək divana uzanır. Yuxu gözlərini örtür. Xeyli yatır.

Artıq səhər açılır... Yuxudan doyub… Səhər-səhər çay qoyub içir… Yadına Dilqəm, Adəm və Ənvər düşür... Yaş gözlərindən süzülür...

Bizimkilərə sağ olduğunu, burada olduğunu necə xəbər versin? Paltar dolabını eşələyib ağ bir yastıq üzü tapır. Hər ehtimala qarşı, özüylə götürür. Küçəyə çıxır. Şəhərdə erməni qalmayıb, deyəsən.

Şuşa elə də böyük şəhər deyil… Burada dəstə ilə gəzməz döyüşçülər. İndi çoxu tək-tək küçələri dolaşır yəqin. Bircə əsir düşməsin... Əsirlikdən qorxur.

Kaş komandirə rast gələydi.

Qarşıda bir nəfər irəliləyir. Deyəsən, onların döyüşçülərindəndir… Lap komandirə oxşayır. Nə olur-olsun, az qala, komandirin parola dönmüş sözlərini deyəcək:

– Çal qılıncın, ağam Qazan, yetdim sənə!

Adam geri dönür... İlahi, belə də xoşbəxtlik olar? Komandirmiş...

– Ah, komandir... – gözlərindən yaş süzülür.

Komandir onun boynunu qucaqlayır.

– Sağsanmı? Şükür... Bəs əsgərlər?

***– Durna sanınnan keçər,***
***Ötər, sanınnan keçər.***
***İgid vətən yolunda***
***Ölər, canınnan keçər...*** – İbrahim ağlayır.

– O biri dəstələrlə birləşməliyik. Məncə, daha Şuşada erməni qalmayıb, – komandir onu tələsdirir.

– Şuşanı aldıq a, daha bizə ölüm yoxdur, – komandir deyir. – İndi bizimlə birgə Şuşa üzərinə hücum edən xüsusi təyinatlılarla birləşməliyik. Budur, gəlirlər.

Qarşıdan gələn xüsusi təyinatlıların komandiri onları salamlayır.

– Salam, igidlər. Şuşa artıq bizimdir.

Şuşa məcsidinin üzərinə Azərbaycan və Türkiyənin bayraqlarını sancırlar.

***Dost elindən əsən yellər***
***Bana şeir, salam söylər.***
***Olsun bizim bütün ellər***
***Qurban türkün bayrağına.***
***Yol ver türkün bayrağına!***
***Komandir yenə ağlayırdı.***
***Çırpınırdı Qara dəniz***
***Baxıb türkün bayrağına.***
***Ah... deyərdim heç olmərəm***
***Düşə bilsəm ayağına.***
***Yol ver Türkün bayrağına!***

Xüsusi təyinatlıların komandiri gülümsünür:

– Sən möhkəm şairsənmiş, dostum.

– Bizim xalq şairdir, əzizim. Qəlbimizdə təmiz hisslər ölmədi heç. Vətəni ana kimi sevdik. Onu qoruya bilməyəndə, kədər iliklərimizə çökdü. Lakin ümidimizi itirmədik heç. İnsan oğlunu yaşadan ümiddir, bir də ali hisslər. Vətən sevgisi olmasaydı, dağlar başındakı bu qalanı geri ala bilərdikmi?

İndi isə gedək İbrahimin ata evinə.

– Şuşadandırmı igidimiz?

– Bəli. İlk girdiyi ev ata evi olub. Həyətlərindəcə on erməni öldürüb, birini əsir götürüb, iziylə daha nələr edib. Uzun söhbətdir... Əsl qəhrəmandır, Qazan xandır. Bizim igidlərimizin hamısı qəhrəmandır.

– Tamamilə doğrudur. Gedək İbrahimin ata yurduna, evinə.

İbrahim eynən komandir kimi otaqları, həyəti gəzir, az qala, hər gül kolunu, ağacı öpür, oxşayırdı. Sanki ağaclarda, kollarda babasının, nənəsinin ətri qalmışdı. Barılarda, küçələrdə yağış altında qaçışan uşaqların xəyalı gizlənmişdi. İbrahim aynabənddən həyətə baxaraq gülümsündü. – Həmişə burada durub həyəti, küçəni seyr edərdim. Çox qəribədir... Ömür keçir bir su kimi...

– Elədir.

– Çox istərdim bütün dostlar burda olsun. Onlara bir çay dəmləyim.

– Sən yenə də dəmlə. Mən çox ac və susuz, həm də yuxusuzam.

İbrahim çay dəmlədi, süfrə açdı, həyətdən qoz və cürbəcür meyvə yığdı.

…

İbrahim yuxudan gurultulu alqış səslərinə, hay-küyə oyandı.

– Müharibə bitdi! – əsgərlər qışqırırdı.

Yəqin ki, yuxu görür... Gözlərini bərk-bərk qırpır.

– Yox, deyəsən, yuxu deyil…

Komandiri axtarır. O, bərk yatıb. Neçə günün yorğunluğu, yuxusuzluğu onu üstələyib. Nəhayət, o da oyanır. Xüsusi təyinatlıların komandiri səsgücləndirici vasitəsilə onları təbrik edir, müharibənin qələbə ilə bitdiyini elan edir.

***Əzizim sözə qaldı,***
***Bir şirin sözə qaldı.***
***Yad qovuldu dağlardan,***
***El-oba bizə qaldı.***

...

Lui İbrahimi gözləyirdi. Əlində bir dəstə çiçək tutmuşdu.

– Təbrik edirəm... Müharibə bitdi...

– Bitdi...

– Ata yurdunda oldunmu, İbrahim?

– Oldum...

– Gözəldimi?

– Çox gözəldi.

– Bütün olanlar haqqında mənə sonra danışarsan. İndi isə arzu edirəm ki, bir də müharibə olmasın. Siz fövqəladə bir iş bacardınız. Qırx dörd gün ərzində ildırım sürətilə torpaqlarınızı azad etdiniz. Az itki ilə böyük işlər bacardınız. Sizi seyr etmək, izləmək belə gözəldi.

– Bayraqdarın, – dostumuzun PUA-ları əfsanəvi bir şey imiş. Ona xüsusi bir təşəkkür borcum var.

– Əslində, hamı bu müharibədə təşəkkürə layiqdir. Hörmətli Prezidentlər: Ərdoğan da, İlham Əliyev də, Azərbaycan xalqı da, şəhid, qazi, əsgər anaları da.

– Və siz – qalib əsgərlər də.

– Lui, insan öldürmək, o, erməni olsa belə... asan deyil, ikrahedicidir. Hələ ölmüş gənc dostlarının nəşini görmək... çox əzablıdır.

...Amma kişilər, lazım gələndə bunu bacarmalıdır... Vətənini qorumalıdır.

– Qorumalıdır...

– Sən, sizin xalq bunu bacardı, İbrahim. Daha biz “mənim xalqım” deyəndə sən də deyə biləcəksən.

– Deyəcəyəm... Amma müharibədə şəhid olmuş, ağır yaralanmış dostlarım o an gözüm önündə sıraya düzüləcək – onlar öz cavan canlarından Vətən naminə keçdilər...

– Keçdilər... Vətən onları unutmayacaq. Bu, gəlişigözəl söz deyil. Onları unutmaq olmaz. Onlar ölmədilər, İbrahim. Onlar yenə həyata gələcəklər. Bu dəfə başqa şəkildə.

– Bizim dinimizə görə onlar cənnətdə əbədi yaşayacaqlar. Şəhidlər ölmür, Lui. Göy üzünə baxsana, sanki ağlayır. Təbiətə nədən ana deyirlər? O, bizim anamızdır. Ölmüş gənc həyatlar ona ağrı verir və o, ağlayır. Təbiət hər an, hər an bizi sevir, – İbrahim ağlayır... – Bütün bunlar mənə çox ağrı verir...

– İbrahim, sənin gənc dostların ölmədilər, inan mənə. Enerji heç vaxt itmir, o, bir haldan başqa hala keçir, – bu, fizikanın qanunudur. İbrahim, dünən olanları, hətta müharibəni anılar kimi xatırlayırsan. Əslində də belədir, bütün olanlar, bizim ömrümüz hüdudsuz zaman axınında bir andır. Bizim həyatlarımız zaman tunelində bir lövhə kimi asılıb qalıb. Biz öləndə də o lövhələr eləcə durur, sağ olanda da. İbrahim, bizim dünyadan dərk etdiklərimiz bizə lazım olanlardır. Dərk etmədiyimiz çox müəmmalar var. Onları dərk etməyin, yəqin ki, bizə faydası yoxdur, o üzdən dərk etmirik. Bəzi ateistlər deyir Allah yoxdur, Yaradan yoxdur... Onların bisavadlılığına heyrət edirəm. Bu boyda dünya Allahsız mövcud ola bilərdimi? Olmazdı. O var və hər şeyi idarə edir.

– Lakin mənim yağış kədərim heç unudulmayacaq kimidir.

– Görürsənmi, İbrahim, demək, yağışla bağlı həyatında mühüm anılar olacaqmış. Əvvəldən də vardı. Yağışlı havalarda oynadığın yerlər çox uzaqlarda qalmışdı, sənə o xatirələr ağrı verirdi. İndi isə sən yağışlı, küləkli havalarda böyük bir mücadilə apardın, vətən uğrunda savaşdın, vətən torpaqlarını erməni qəsbkarlarından azad etdin. Bu yağışlı havalarda bəzi dostlarını itirdin. Eyni zamanda sən bu yağışlı havalarda həmişə xəyalında yaşayan ata yurduna, ata-baba evinə qovuşdun. Bunlar əvvəldən sənin taleyində varmış demək. Kədərlənməyən, Təbiət hadisələri ilə bağlı müəyyən xatirələrə dalmayan insan heç insan deyil. İbrahim, şəhidlər ölməsə də, ayrılıq, sevgi insan halı. Biz də, Təbiət də qəmlənirik. İbrahim, hər bir insanın bu dünyada bir görəvi var, missiyası var. Tanrı bizi bu görəv üçün yaradıb. Görəvimizi yerinə yetirdikdə Tanrının sevimlisi oluruq.

– Lui, səncə mən öz görəvimi yerinə yetirdimmi?

– Yetirdin, İbrahim, amma bir hissəsini, sənin hələ yerinə yetirəcəyin bir çox işlər var. Onları da yerinə yetirməlisən.

– Sən bu yolda mənimlə birlikdə olacaqsanmı?

– İnşallah!



*Rəfiqə ABBASOVA*

**BİR AZ KÖNLÜNÜ AL**

Ürəyimi göynədir
Bir xatirə qırıntısı.
Ayın gümüş qaşığı
Ac bir it ulartısı…

Nə bilim, yolunda bitən,
Yaşıl ah göynərtisi.
Uşaq evində gecələr
Qovrulan körpə səsi.

Xatirələr can evimdə,
Hıçqırığı qırıq-qırıq.
Ömür bəxtdən gileylənir,
Üzü, gözü cırıq-cırıq.

Çiçək açır otağımda
Taleyimin dərdi, qəmi.
Yad sularda itib, batar,
Öz yolunu bilən gəmi.

Heç olmasa sən yolunu
Viran olmuş qəlbimdən sal.
Ürək heçə meyil salıb,
Çalış, bir az könlünü al.

## DOĞULUR XOŞBƏXTLİYİN

Ocaq çatıb, başında
Xatirələr çözəsən.
Ağlından keçənləri
Söyləyəsən közə sən.

Düşə bir qığılcımı,
Alışdıra canını.
Alnındakı soyuq tər
Lap dondura qanını.

Ürəyindən su içib,
Boy ata "hə" dizəcən.
Nəbzin qəribə atar,
Uzaq başı sözəcən.

Düz baxmağa utanıb,
Qaçırasan gözünü.
Gülümsəyə suallar,
İtirəsən özünü.

Bir romantik gecəni
Qaranlığa sürümə.
Sevginin taxt-tacını
"Yox" sözünə bürümə.

Nə şər demə, nə xeyir,
Nə də gözlərin dolsun.
Doğulur xoşbəxtliyin,
Gözlərin aydın olsun.

***

Bəhanələr çoxalır
Ayrıcında yolların.

Gedim, qalım yenə də
Çarpazında qolların.

Çətir olub göy üzü,
Yaş süzülür üzəcən.
Gözlər heyfini alır
Qapqara gecələrdən.

Daha nə sözüm qalıb,
Nə də ki, dözüm məndə.
Yolların açıq olsun,
Cığırın, izin məndə.

Adımdan bircə hərif,
Oğurlayıb aparma.
Qoy dünyam bütöv qalsın,
İstəyimdən qoparma.

Hər qarışıq fikirdən
Qəfil bir arzu doğur.
Ümidin kif qoxusu
Onu yerində boğur.

Çıx get, dayanma, çıx get,
Bir azca tələs, tələs.
Fikrini qarışdırar
Yoxsa ağlayan venləs.

## İMKAN OLSA CAVAB YAZ

Tələsik keçib getmə,
Bir azca gözlə məni.
Bəs bu nə qaçhaqaçdı,
Aldatma sözlə məni.

Ayağına daş dəyər,
Təmizləyim yolunu.
Bu qeylü-qal içində,
Bağlama əl-qolumu.

Tələsmə belə, ömür,
İnsafın olsun bir az.
Nimdaş arzularıma
İmkan olsa cavab yaz.

Hardan keçib əlinə
Tapdığın qara kömür.
Cızmaqara etmisən,
Adını qoyub "ömür".

Heç olmasa sən gözlə,
Gəl dönmə yel atına.
Bəlkə məlhəm olasan,
Ürəyimin çatına.

Sözüm taxtından düşüb,
Dən yemirmi sərçələr.
Dağa, daşa çırpdığım
Ömür çətin dirçələr.

## UNUTMAĞA ÇALIŞIR

Çəkilib sanki göyə,
Rəngi sənin gözünün.
Bir udumluq xoşbəxtlik
Təbəssümü üzünün.

Bəd uğurlu ömrümü,
Daha nəylə aldadım?
Öyrədim unutmağı,
Xəyalında bal dadım.

Çör-çöpdən yuva olmaz,
Ha daşıyım otağa.
Yuva yaraşıq verər,
Üşüyən boz budağa.

Qayıtmaq istəyərdim
Uşaqlıq çağlarıma.

Düşən izlərim itib,
Qar yağıb dağlarıma.

Gah böyüyüb, kiçilib,
Kədərdən aşınmışam.
Neynirəm uşaqlığı,
Fikrimdən daşınmışam.

Sobadan xatirələr
Od götürüb alışır.
Daha beynim keçmişdən
Uşaq kimi sallaşır.

## SEVDANIN OCAQ YERİ

Yağış yağır dənizə,
Çatlayır dodaqların.
Damcıların səsindən
Tutulur qulaqların?

Sevdanın ocaq yeri
Buludlardan o yana.
Ürəyin dan üzünə
Ulduz-ulduz doğrana.

Təəssüfün içindən
Dönüb gəlir səhərin.
Qurtum-qurtum dadarsan
Acı sevgi zəhərin.

## KÖNÜL SƏNDƏN NƏ GİZLƏDİR

Yuxularım qurban gedib,
Nə deyim mən bu qədərə.
Ağ işığın həsrətində
Bürünüb zülmət kədərə.

Üzü göyə dayanmışam,
Verilən əmrə müntəzir.

Tanrı, hər şey agahdırsa,
Könül səndən nə gizlədir?

Hər gün bir az boy atıram,
Baş qoyuram buludlara.
Bu sirrlərin işığında
Kəsişmə nöqtəsi hara?

Ömür, bir qaynama, dayan,
Gödəlibdi onsuz ipin.
Vəfasız demərəm sənə,
Tapdığım yerlərdə itim.



## *Elza DƏNİZ NUR*

Bu payız da mən deyən payız olmadı,
Yarpaqlar saralsa da.
Bu payız da boş qalan yerin dolmadı...
Gözlərim boşalsa da...

***

Qaya daşdan qorxmaz,
Kəsək torpaqdan..

***

Hamının olduğu yerdə
Heç kimi tapmamaq varmış...

***

Səhər hamı üçün açılır,
Amma hər kəsin pəncərəsindən
Bahar bahar kimi görünməz ki,..

***
Sözün kəsəri
Kimini kəsər,
Kimini biçər,
Kimini də keçərmiş....

***

Ağlama!
Heç kim sənin göz yaşını silə biləcək
Qədər günahsız deyil insan!

***

Səni görmürlərsə
Sən görünməz deyilsən, onlar kordur...

***
Ürək insanı sevə biləcək qədər,
İnsan ürəyi öldürə biləcək qədər sevir...

***

Allah, ən acı hekayəni belə zövqlə oynadım,
Sən yazmışsan sorğusu olmaz...
Zövqlə...

***

Köhnələn nə varsa, yenidən doğulanda
Ona sənsizlik deyirəm....

***

Özün dərk etmədiyin cümləni qurma.
Dərk edərsən, üzünə durar...

***

Elə sən gedən gün cümləmi tamamladım
Getdi və bitdi...

***

Cibində həmişə nəsə olsun ki,
Tapanda sevinəsən...

***

Elə həsrətlər var ki,
Onlar özləri belə sevgidir...
Elə sevgilər var ki,
Özləri belə həsrətdir
Nəfəs almaq yaşamaq olmadığı kimi...

***

Bəzən hər şey gözlərimdə Sən olur
Hər qəfil hənirə səsə qaçıram.
Bəzən də həsrətinin qoluna girib
Sən gedən yollara bəzək taxıram...

***

Səni həyata bənzətdim,
Nəfəs kimi gəldin,
Nəfəs kimi getdin...

***

Bir gün pula
Bir gün qula
Bir gün suala dönən ümidlər bitər torpaqdan
İnsanlar əkildikcə...

***

Qış baharı üşüdür ki,
Qorxsun, geciksin.
Bahar susar, qışı ovudar...
Əriyəndə inciməsin...

***

O qədər çiçəyin, gülün içində
Qanqalı sevməkdir əsil məhəbbət...

***

Kədər öz özündən yaranmayıb ki,
Onu ən gözəl sevgilər doğurub...
Var olaraq yox olanlar
Yox olaraq var olanlar uydurub....

***

Kiminin əli
Kiminin ayağı
Kiminin ürəyi yoxdur deyə...
Bir az gecikirik...
Amma gələcəyik...

***

Onu da unudanlar olub,
Onu da aldadanlar olub.

Kimi?
Tənhalığı...

***

Kitabların yükü söz deyil,
İnsan ömrüdür...

***

Gecə toxudugun həsrət
Səhər şəfəqləri ilə sökülür...

***

Əmin olmadığınız sevgini etiraf eləməyin,
Çünki qarşı tərəfin doğrudan da köksündə ürək ola bilər...

***

Bilirsiz torpaq nədir?
Torpaq ovcuna sığan kiçiçik bir Vətəndir...

***Qəbələ***



## *Zərəngiz DƏMİRÇİ QAYALI*

### ŞUŞAM

***("Şuşa alındı!" – dedilər)***

Şuşam, sənə qonaq gəlim,
Arzumdu, yerdə qalmasın!
Həsrət gözlərim yol çəkir,
Bəs, nisgilim azalmasın?

Gülünü şehli dərərəm,
Sinəmin üstə sərərəm,
Küçələrə su çilərəm,
Yollarında toz olmasın!

Qarabağ tarlı, qavallı,
Gözəlləri tirmə şallı,
Şikəstəli, cah-cəlallı,
Coşan səsin sozalmasın!

Molla Pənah, sədan gəlsin,
Xurşid Banu – Anam gəlsin!
Seyyid, Cabbar, ya Xan gəlsin,
Aralıqda söz olmasın!

Zərəngiz heyran halına,
Şeir qoşdu camalına,

Bük onu güllü şalına,
Yüz illərlə qocalmasın!

## DAĞLARA

***("Kəlbəcər aləmdi!" – dedilər)***

Başı açıq, ayaq yalın,
Gedəm dağlara, dağlara!
Baş əyib, bir salam verəm,
Dədəm dağlara, dağlara!

Alaçığımı qurarам,
Qulançarımı dərərəm,
Ürəkdən bir "HEYYYY!" – çəkərəm,
Sədam dağlara, dağlara!

Bahardı bu, güllü yazdı,
Çalınan üçtelli sazdı,
Haqq qələmi belə yazdı
Butam dağlara, dağlara!

Əhd etdim, Tanrım eşitdi,
Otuz illik həsrət bitdi,
Yağılar qovuldu, getdi!
Şadam, dağlara, dağlara!

Durna səfi düzülübdü,
Murovdan səda gəlibdi,
Dadıma Mövlam gəlibdi,
Adam, dağlara, dağlara!

Qələmmisən, varaqmısan?
Sükutmusan, soraqmısan?
Baxtım, söylə oyaqmısan?
Yetəm dağlara, dağlara!

Zərəngiz, nə işvə-nazdı?
Bu dünya olar-olmazdı,
Haqq qələmi belə yazdı,
Çatam dağlara, dağlara!

## YAZILSIN BU GÜN

Şuşaya, Laçına xəbər göndərin!
Füzuli alındı, gəlirik deyin!
Darda qalanlarım gözləsin məni,
Sizin halınızı bilirik, deyin!

Rəhbərim and içdi Vətən adına!
Əsgərim and içdi torpaq adına!
Nigaran ruhlarım, nigaran yurdlar,
Sizlər də güc verin qol-qanadıma!

İgid əsgərinəm, candan keçərəm!
Vətənim gözləyir, vardı xəbərim!
Qalibəm mən bu gün, əziz anacan!
Duaların olub mənim sipərim!

Qarabağımı da azad edəcəm!
Kəlbəcərimə də rahat gedəcəm!
Atıldım mən hərbə, gülür gözlərim!
Bil ki, yaxındadır mənim zəfərim!

Vətənə canımı əsirgəmərəm,
Gözəl yurdlarıma bir salam verəm!
Qubadlı da məndən imdad istəyir!
Cəbrayıl: “Gəl, məni azad et!” – deyir!

İgid əsgərinəm, candan keçərəm!
Vətənim gözləyir, vardır xəbərim!
Mən bu gün qalibəm, əziz anacan!
Duaların olub mənim sipərim!

Xocam Xocalı da ayaq üstədir!
Xocavənd də hazır, kəmərbəstədir!
Əsir yurdlarım da nəfəs dərməyir,
Hər an: “Gəl, bizləri azad et!” – deyir

Mən türk oğlu türkəm, vardır hünərim!
İlham-Ərdoğan var gücüm, kəsərim!

Keçərəm, bil, bütün keçilməzləri!
Yazılsın bu gündən hünər dəftərim!

## YÜRÜ, ƏSGƏR

Yaralarım səngiməyir!
Yurdum intiqam istəyir!
Yürü, əsgər, yürü, əsgər!
Harda hünər, orda zəfər!

Düşmən bağrını əzməyə!
Vətən sərhədi gəzməyə!
Ucal əsgər, ucal əsgər!
Düşmənimdən öc al, əsgər!

Vətən çağırır, dardadır!
Analar intizardadır!
Yağıya gücümü göstər!
Səhvini, suçunu göstər!

Qəlbimdə dözüm var bu gün!
Ərlərə sözüm var bu gün!
Yeriyək düşmən üstünə!
Duraq yağının qəsdinə!

Qüvvəmizə arxalandıq!
Məşəl olub alovlandıq!
Vətənim bu gün səfərbər!
Yürü, əsgər, yürü, əsgər!

## BAYRAĞIMI ÇƏK BAŞINA!

Kim verəcək təpər bizə?
Qoy sevinsin bəşər bizə.
Vətən, güvən qeyrətinə,
Neyləyəcək bu şər bizə?

Çağırır odda yananlar,
Çağırır şəhid fidanlar,

Bayrağımı çək başına,
Utansın bizi dananlar!

Yerdə qaldı igid qanı,
Dili kəsik körpən hanı?
Vətən, dözmə göz dağına!
Qopar ərəsət tufanı!

Hayqır, ayılt bu dünyanı!
Ulu xalqın qəhrəmanı,
Kor dünya, aç de, gözünü!
Tanı həqiqəti, tanı!

Qarabağa yol salınsın!
Təbillərim gur çalınsın!
Ya bu gündə, ya sabahda,
Qan alınsın, öc alınsın!

Çəkil! Qəvi düşmən, çəkil!
Yerini bil, həddini bil!
Xocam xocalıq taxtında!
Gül üstündə ötər bülbül!

Göydə uçan mələklərim,
Yerdə açan çiçəklərim,
İnanıram Tanrıma mən!
Güləcəkdir diləklərim!

Göyçə də mənim olacaq!
Düşmənə qənim olacaq!
Qoca tarix! Yol ver bizə!
Dalğalansın uca bayraq!

# UŞAQLIQ İLLƏRİNƏ SALAM



Bu yaxınlarda Yevlax şəhər M.Ə.Sabir adına 2 saylı tam orta məktəbin şagirdləri ilə onlayn formatda maraqlı bir görüşüm oldu. Sonra tədbirin təşkilatçısı Jalə Həsənova sosial şəbəkədə həmin görüş haqqında məlumat verdi, şəkillər paylaşdı. Təbriklər, rəylər sırasında Zahid Xəlilin bir rəyi məni çox duyğulandırdı. Dostum yazırdı: "Rafiq müəllim, bura mənim məktəbimdir. Mənim uşaqlığıma salam vetdinmi?"

O sualın işığında bu il 80 yaşı tamam olan Zahid Xəlillə tanışlığımızın, dostluğumuzun 56 illik tarixçəsi gözüm önündən keçdi. Əslində, Zahid Xəlilin gənclik illərindən müdriklik yaşına qədər gəlib çıxan ömrü mənim gözümün qarşısında keçmişdir. Ancaq Zahidin uşaqlıq, yeniyetməlik illərini görmək mənə nəsib olmamışdır və ola da bilməzdi. Ancaq Zahid Xəlilin yaradıcılıq yoluna nəzər salanda mənə aydın oldu ki, əslində, o, elə ömrü boyu öz uşaqlıq, yeniyetməlik illərinin poetik salnaməsini yaradırmış...

***Neçə ilin arxasında***
***Qaldı mənim uşaqlığım.***
***Orda qaldı əfsanəvi igidliyim, qoçaqlığım.***
***Mən illəri dağ yolu tək çıxdım, gəldim.***
***Ötən illər çevrildilər, mən oldular.***
***Puç etdiyim aylar, illər***
***Saçlarımda dən oldular.***
***Uşaqlığım, çayda axdı, düzdə qaldı.***
***Sakitliyim qarlı qışda,***
***Coşqunluğum yazda qaldı...***

Şairin gənclik illərində yaratdığı şeirlərdəki poetik ovqat indi də oxucuya təsir etmək gücündədir. Obrazlı deyim tərzi, təbiətə, həyata şair baxışı, maraqlı bənzətmələr onun poeziyasına xüsusi bir rəng qatır. Məsələn, baharın gəlişini şair belə təsvir edir:

*“Çəkilir düzlərin o qar tülləri*
*Torpağın gəlinlik duvağı kimi.*
*Çıxır qar altından novruzgüllüəri*
*Baharın qələbə bayrağı kimi...”*

Qışın gəlişinin bu cür təsviri də maraqlı idi:

*“Səmanın köynəyini*
*Parçalayıb keçir qış.*
*Qar yağır, yaman yağır,*
*Göydən yerə köçür qış.”*
*“Bizim qar altında qalan izimiz*
*Yazda bənövşəyə çevriləcəkdir” ;*
*“Bizim bağçamıza bir çəmən düşüb,*
*Sürüşüb, baharın çiynindən düşüb”*

və sair bu kimi misralar şairin yaradıcılığının istiqamətini saf bir dünyaya, uşqalıq dünyasına sarı yönəldirdi...

Mən qələm dostumun kitablarını, “Seçilmiş əsərləri”nin yeddi cildliyini yenidən vərəqləyəndə ordakı şeirləri, hekayələri, nağılları, povestləri, pyesləri oxuyanda elə sandım ki, Zahid Xəlil ötən illərin xatirə kərpiclərindən möhtəşəm bir nağıl qəsri yaradıbmış... Uzun illərdən bəridir ki, Azərbaycan uşaqları bu əfsanəvi qəsrdə xoşbəxtlik içində yaşayırlar... Sən demə, elə Zahid Xəlil də özünün sözdən yaratdığı bu qəsrdə yaşayırmış...

1966-cı ildə indiki ADPU-nun filologiya fakültəsinə qəbul olunmuşdum. Vaxtilə əfsanəvi 416-cı Taqnroq diviziyasının 1366-cı alayının komissarı



kimi döyüşlərdə qəhrəmanlıq göstərən, Qubadlı, Duvanlı, Qasım İsmayılov (Goranboy) rayon, Gəncə şəhər Partiya Komitəsinin birinci katibi, Kənd Təssərrüfatı nazirinin müavini vəzifələrində işləyən əmim Mirağa Əliyev o vaxt ADPU-da rəhbər vəzifədə çalışırdı. Şeirlərimi çap olunmaq üçün “Gənc müəllim” qəzetinin redaktoru, həm də mənim ədəbiyyatşünaslıq müəllimim Kamal Qəhrəmanova vermişdi, tapşırmışdı ki, gedib onunla əlaqə saxlayım. Aradan neçə gün keçdiyini xatırlamıram, ancaq o yaxşı yadımdadır ki, “Gənc müəllim” qəzetinin redaksiyasına gedəndə onun yerində eynəkli bir cavan oğlanın əyləşdiyini gördüm. Məni çox mehribanlıqla qarşıladı, şeirlərimi tapıb oxudu, məsləhətlər verdi, təzə şeirlər gətirməyimi xahiş elədi və beləliklə mənim “Gənc müəllim” qəzetində “Torpağın yorğanı” adlı ilk şeirim çap olundu...

1966-cı ildə Zahid Xəlilin “Gənc müəllim”də baş redaktor kimi fəaliyyətə başlaması, qəzetin nəzdində ədəbi dərnək yaradıb istedadlı tələbələri bir yerə toplaması, onların ilk yaradıcılıq nümunələrini çap eləməsi ADPU-dakı ədəbi mühitin yeni istiqamətdə inkişafına təkan verdi. Məşğələlərdə Xəlil Rza, Oqtay Rza kimi müəllimlərin də iştirakı, öz təzə yazılarını oxuyub müzakirəyə vermələri, tez-tez o dövrün tanınmış şair və yazıçıları ilə görüşlərin, kitab müzakirələrinin təşkili, İsmayıl Şıxlı, Əhəd Hüseynov kimi insanların fikir və mülahizələri, yaradıcı tələbələrə verdikləri məsləhətlər öz bəhrəsini verməkdə idi. Zahid müəl-limin hələ o vaxt 19 yaşlı gənc bir şairin yaradıcılığı haqqında “Səmimi duyğular” adlı məqalə yazıb çap etdirməsi onun ədəbi gəncliyə münasibətinin göstəricisi idi. Əslində, mənim uşaq ədəbiyyatına gəlməyimin səbəbkarı da Zahid Xəlil oldu...

O vaxt nəinki kitab çap etdirmək, respublika mətbuatında çıxış eləmək belə çox çətin idi. Mətbuatda ara-sıra Zahid Xəlilin gözəl, obrazlı, təzə ruhu ilə seçilən şeirləri çap olunurdu. Ancaq ədəbi təcrübə etibarilə bizdən çox öndə olan istedadlı bir şairin “Uçan çıraqlar” (1969) adlı ilk kitabında bütünlükdə uşaq şeirlərinin verilməsi hamımızı təəccübləndirdi. Bizim hamımızın bəyəndiyimiz “Çəmən” şeirinin də bu kitabda olması bir az təəccübümüzü azaltdı. O vaxt Zahid Xəlil mənə dedi ki, sənin də təbiətlə bağlı “Çəmən” ruhlu şeirlərin az deyil. Elə hesab eləyirəm ki, uşaqlar üçün yazsan, böyük uğurlar qazana bilərsən...

Aradan illər keçdi. Zahid Xəlilin uşaqlar üçün dalbadal “Qarışqalar» (1971), “Mən rəngləri tanıyıram” (1972), “Göydən üç alma düşdü” (1974), “Quşlar, quşlar” (1977), “Torağaylar oxuyur” (1979) adlı şeir kitabları çap olundu və o, yeni tipli uşaq ədəbiyyatının yaradıcısı kimi məşhurlaşdı, əsərləri dərsliklərə salındı.

Uşaq ədəbiyyatının tədqiqi, tədrisi və təbliği ilə sistemli şəkildə məşğul olması onun yaradıcılığına yeni bir istiqamət verdi. Həm folklor, həm Azərbaycan, həm də dünya ədəbiyyatı ilə yaxından tanışlıq onu nəsr əsərləri yazmağa həvəsləndirdi. “Ballıca” (1981), “Çıraq nənənin nağılları” (1983), “Cırtdanla Azmanın yeni macəraları” (1985), “Odlar yur-

dunun paytaxtı” (1992), “Dünyanın ən balaca nağılları” (2002) və sair nəsr kitabları ilə uşaq ədəbiyyatımızın mövzu və problematikasını əhəmiyyətli dərəcədə zənginləşdirdi.

Zahid Xəlilin yaradıcılıq nümunələrininin istər mövzu və problematikası, istərsə də əsərlərinin janrı rəngarəngdir. O, xalqımızın tarixi keçmişindən, bu günün¬dən, gələcəyindən, Azərbaycan torpağının gözəlliklərindən məhəbbətlə söhbət açır. Yazıçının istər nəsr, istər dram, istərsə də nəzm əsərlərində Azərbaycan uşaqlarının mükəmməl, maraqlı, səciyyəvi cizgiləri ilə seçilən bədii obrazları yaradılmışdır. Z.Xəlilin lirik şeirləri, poemaları, hekayələri, povestləri, nağılları həmişə balaca oxucuların diqqətini cəlb etmişdir. Uşaq psixologiyasını gözəl bilən yazıçının əsərləri balaca oxucuları, məktəbliləri maqnit kimi özünə çəkir.

Zahid Xəlil 1982-ci ildə "Literaturnaya qazeta"da dərc olunmuş "Kölələr" və "Limonad içməyim" hekayələrinə görə redaksiyanın "Zolotoy telyonok" mükafatına layiq görüldü. Sonra bu mükafatlar bir-birini əvəz elədi. “İlin ən yaxşı kitabı”, “Qızıl qələm”, “Qızıl kəlmə” mükafatları... Ən böyük mükafat isə oxucu sevgisidir. Azərbaycan uşaqları uzun illərdən bəri onun əsərlərini sevə-sevə oxuyurlar.

Universitetdə müəllim işləməsi istər-istəməz onun elmi tədqiqatla məşğul olmaq zərurətini ortaya qoydu. “Azərbaycan uşaq poeziyası və folklor” (1974) mövzusunda namizədlik, "Azərbaycan uşaq ədəbiyyatının mənşəyi, təşəkkülünün əsas amilləri və inkişaf problemləri" (1990) mövzusunda doktorluk dissertasiyası yazıb müdafiə elədi, professor oldu, kafedra müdiri, dekan vəzifələrində işlədi. “Tərəqqi” medalı ilə təltif olundu, “Əməkdar müəllim” fəxri adına layiq görüldü. Onun rəhbərliyi altında uşaq ədəbiyyatı, onun yaradıcılıq problemləri ilə bağlı xeyli tədqiqat işləri araya-ərsəyə gəldi.

Zahid Xəlil ömrü boyu həm Azərbaycan, həm də dünya uşaq ədəbiyyatının təbliğində müstəsna xidmətləri olan bir ziyalı kimi də ədəbi mühitdə hörmət qazanıb. Bu sahədə onun uzun illər aparıcısı olduğu “Çıraq”, “Sərbəst düşüncə” verilişlərini xatırlatmaq yerinə düşərdi.

Həm ədəbi mühitdə, həm ölkənin ictimai-siyasi həyatında fəal iştirakı bu nüfuzlu ziyalının yaradıcılığına da təsirsiz qalmadı. Xalqımızın 44 günlük müharibədən zəfərlə çıxması, torpaqlarımızın işğaldan azad edilməsi elə bil ki, Zahid Xəlilə yeni bir poetik nəfəs verdi. Uzun illərdən bəri uşaqlar üçün nəsr əsərləri yaradan yazıçı yeni bir coşqu ilə poetik əsərlər yaratdı, kitablar çap etdirdi. “Dəmir yumruq” kitabı döyüş yolumuzun poetik salnaməsinə çevrildi. Bu əsərdə yazıçı folklor ənənələrini yaradıcı şəkildə davam etdirməyi bacardı, dastan poetikasından bəhrələndi.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda əsərin geniş müzakirəsi keçirildi. Zahid Xəlilin “Dəmir yumruq”, eləcə də digər kitabları haqqında 5 məruzənin dinlənilməsi yazıçının bioqrafiyasında təqdirəlayiq

bir hadisəyə çevrildi. “Uçan çıraqlar”dan “Dəmir yumruğ”a qədər keçilən yaradıcılıq yolu geniş araşdırmalar predmetinə çevrildi...

Yeri gəlmişkən onu da xatırladım ki, Zahid Xəlilin yaradıcılıq nümunələri həmişə ədəbi tənqidin diqqət mərkəzində olmuşdur. Onun əsərləri nəinki Azərbaycan, eləcə də rus ədəbiyyatşünaslarının da diqqətini cəlb etmiş, yazıçının yaradıcılıq nümunələri haqqında maraqlı məqalələr, monoqrafiyalar yazılıb çap olunmuşdur. Bu proses indi də davam edir...

1989-cu ildə Qazaxıstanda keçirilən Beynəlxalq uşaq ədəbiyyatı günlərində birgə iştirakımız zamanı gördüm ki, Zahid Xəlilin əsərləri nəinki oxucular, hətta məşhur rus yazıçıları, ədəbiyyatşünasları tərəfindən də maraqla qarşılanır. Sergey Mixalkov, Aqniya Barto, Roman Sef, Valentin Berestov, Yakov Akim, Yuri Kuşak, Lev Razqon, İqor Motyaşov və bu kimi görkəmli qələm adamlarının Zahid Xəlilin şəxsiyyəti, yaradıcılığı haqqında söylədikləri fikirlər məndə məmnunluq hissi doğurdu. Ayrı-ayrı illərdə Moskvada uşaq ədəbiyyatı ilə bağlı tədbirlərdə mənim Azərbaycandan olduğumu bilən rus, eləcə də digər xalqların uşaq ədəbiyyatının görkəmli nümayəndələri həmişə birinci növbədə Zahid Xəlili soruşur, ona salam söyləməyimi xahiş edirdilər.

Həm onun qələminin məhsulu olan bütün əsərlərini oxumağım, həm də yarım əsrdən artıq bir müddətdə Zahid Xalillə yaxından, davamlı ünsiyyətimiz, Peda¬qoji Universitetdə birgə işləməyimiz, televiziya verilişlərində birgə çıxış¬la-rımız, tədbirlərdə birgə iştirakımız, ayrı-ayrı vaxtlarda birgə səfərlərə çıxmağımız, yol yoldaşı olmağımız onun özü və sözü haqqında məndə dolğun təsəvvür yaradıb.

80 yaşın zirvəsində Zahid Xəlilin yenə də uşaq kimi saf, təmiz, bir az da sadəlövh olması mənim çox xoşuma gəlir. Eyni zamanda, onu da görürəm ki, Zahid Xəlil müdrik bir insandır, onu həmişə Azərbaycan xalqının taleyüklü problemləri, uşaqlarımızın gələcəyi düşündürür və görkəmli uşaq yazıçısının qalib Azərbaycana, onun qəhrəman övladlarına olan sevgisi onu ömrünün müdriklık çağında da daha böyük həvəslə yazıb-yaratmağa həvəsləndirir. Elə buna görə də yazıçının illərdən bəri böyük sevgi ilə, həvəslə ucaltdığı nağıl qəsri həmişə qonaq-qaralıdır. Neçə-neçə nəslin nümayəndələri sözlə yaradılan bu əfsanəvi qəsrin qonağı olublar və olacaqlar...



Bütün ömrünü, həyatını Azərbaycan uşaq ədəbiyyatının yaradılmasına, tədqiqinə, tədrisinə, təbliğinə həsr edən Zahid Xəlili 80 yaşı münasibətilə təbrik edir, ona uzun ömür, can sağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

***Rafiq YUSİFOĞLU***

*Hacı Firudin QURBANSOY*

# BİZƏ XƏLƏT VERSİN...



Xalq nağıllarında şahın hansısa bir adamdan ağıllı söz eşidib bəyəndiyi an çığırdığı bir cümlə uşaq zamanlarından çoxumuzun qulaqlarında indi də qalıb: "Ay məni istəyən, bu adama xələt versin!"

Hamı şahı çox istədiyini göstərmək üçün bəhsəbəhs qonşusundan daha çox "xələt" (nəmər – pul) verməyə çalışır. Həmin adam o qədər xələt alır ki, "dünya malından qəni (varlı) olur."

Azərbaycanda toy adətlərində iki növ xələtvermə olub; bəyə və musiqiçilərə. Bəyə verilən xələt haqqında etnoqraf H.A.Quliyev "Azərbaycanda ailə məişətinin bəzi məsələləri" kitabında yazırdı: "Toyun axırıncı günü "bəy durdu" adəti icra edilirdi. Bu adət şəhərlərdə bəy hamamdan gələndən sonra, yəni öz bəylik paltarlarını geyəndən sonra həyata keçirilirdi. Bəy toyxanaya gətirilir və pulyığma başlanırdı. Qohum-əqrəba ona xalat (XƏLƏT) adı ilə paltarlıq parça bağışlayır, boynuna salırdılar, xonça verirdilər." (19, s.76) Yeni qurulan gənc ailələrə maddi dəstək verməkdən ötrü xalqımızın hər məqamdan istifadə edib bunu ənənəyə çevirməsi təqdirəlayiqdir.

Musiqiçilərə verilən xələt isə, ancaq dövriyyədə olan əskinas nümunələri şəklində olurdu, Musiqiçilərin bunu toy adamlarından, hətta tələb ədasıyla istəməyində heç bir qəbahət yoxdu; yəni mən öz sənətimi göstərmişəm, buyur, sən də aldığın həzzə görə sənətkarın haqqını ödə. Ozan Dədə Ələsgərin (12.03.1821 – 09.03.1926) "Sarıköynək" rədifli qoşmasının möhürbəndində bu ovqat qələmə alınıb:

***Tuti dilli, sərv boylu Salatın,***
***Yoxdu mərhəməti bu səltənətin.***
***Göndər gəlsin Ələsgərin XƏLƏTin,***
***Eyləmə əməyin zay, sarıköynək.*** (23.,s.125)

Toyların sonunda bəytərifləri zamanı "xələt almaq" xüsusi bir ritualdır. Xanəndə və ya aşıq xoşagələn həzin avaz üstündə gəzişmələr edə-edə oxuyur, hansı şəxsə işarə olunursa, kimin adı çəkilirsə, o da durub musiqiçilərə qulpundan çıxan qədər əskinas əta edir.

***Sənə qurban olum oğlan anası,***
***Başına örtübdür Şirvan laləsi,***
***Silinsin könlüvün qalmasın pası.***
***Oğlun olsun 12 oğul atası,***
***Görüm, a bəg, toyun mübarək olsun,***
***Apardığın qız da sənə yar olsun!***

***Dənizdə oynayır nəhəng bir balıq,***
***Gəlini saxlasın göydəki xalıq,***
***Dəf çalana xələt, mənə arxalıq,***
***Görüm, a qız, toyun mübarək olsun,***
***Götürdüyün qədəm xoşqədəm olsun!***

***Həccə gedib oldum həclər həcisi,***
***Mən olmuşam şirinlərin acısı.***
***Bizə xələt versin oğlan bacısı,***
***Görüm, a bəg, toyun mübarək olsun,***
***Apardığın gəlin xoşqədəm olsun!***

***Xonçaya qoyulub noğulnan badam,***
***Toyunu eylərəm, ürəkdən şadam.***
***Sağ olsun toyuna yığılan adam,***
***Görüm, a bəg, toyun mübarək olsun,***
***Apardığın gəlin xoşqədəm olsun!***

Abşerondakı toy məclislərinin sonunda meyxanaçılar da 1-2 saat yarışandan sonra, əsas meyxanaçı toy adamlarını tanıyan bir nəfərin suflyorluğu ilə məclisdə iştirak edənləri adbaad qafiyəli misralarla "xələt" verməyə çağırır. İmkanlı adamların şəninə bir neçə bəndlik xüsusi meyxana söylənir, təbii ki, bu vaxt mükafatlanma daha da çox olurdu. Ümumi çağırış repertuarından kiçik örnək:

***Anadan kim var ki, dərdə yanası,***
***Bizə xələt versin bəyin anası...***

***Əmanətimiz var bizə çatası,***
***Çağırın gətirsin, bəyin atası...***

***Qoy dünəndə qalsın dərdin acısı,***
***Bizə xələt versin gəlinbacısı...***

***Həmişə uca olsun görüm başları,***
***Xələtimizi versin bəy qardaşları...***

***Bu toyda bilinmir adam sayısı,***
***Bizə xələt versin bəyin dayısı...***

***Dəryada qərq olub Nuhun gəmisi,***
***Bizə xələt versin bəyin əmisi...*** və s.

Adı çəkilən kişilərin özləri, xanımlarınsa ya əri, ya da oğlan övladı xələt üçün ayrılmış böyük qutuya (çox vaxt qarmon alətinin qılafına) nəmərlərini salardılar, xələt verməmək əskiklik sayıldığı üçün hər kəs imkanından daha çox xərcləməyə çalışırdı.

Musiqiçilərin, şair-xanəndələrin, aşıqların toy adamlarından aldığı qələmiyyənin (qonorarın) "xələt" adlanmasının xüsusi tarixçəsi var. Bu tarixçə ərəblərin klassik şairi Kəəb bin Züheyrin (569–647) adı ilə bağlıdır. Kəəb bin Züheyrin nəsli şairlərlə doludur; şəcərəsinə görə, bin Əbu Sülma, bin Rəbiyyə, bin Rəyah, bin Əl-Əvam, bin Qürrət, bin Əl-Haris, bin Mazən, bin Xəlavət, bin Sülbə, bin Səvr, bin Hərmə, bin Latəm, bin Osman, bin Məzinə kimi tanınır. Şair Müzeynə qəbiləsindəndir, atası müəlləqə (cahiliyyə zamanı Kəbə divarından asılan seçmə 7 qəsidə) şairi Züheyr, babası Əbu Sülma, qardaşı Büceyr, oğlu Ukbə, nəvələri Əvvam və Qureyd, xalaları Xansə ilə Sülma da şair olublar.

Şeytanın cazibəsinə düşüb mənəmliyini göstərməklə ətraf mühitdən fərqlənmək üçün şair İslamı qəbul etmək istəmirdi. Cahil qalmaqla kifayətlənməyib, müsəlman olanların sayı artdıqca, Kəəbin İslama və onun Peyğəmbərinə qəzəbi tutur, çox ağır sözlərlə həcvlər yazırdı. Poeziya ərəblərin həyat tələbatlarının əsaslarından olduğu üçün, xalq arasında təsiri də böyükdü.

Hələ çox-çox öncələr Peyğəmbərimizin gələcəyi barədə Musa Peyğəmbərə endirilən Tövratda məlumat var. İbn Abbasdan "razı – Allahü anhümâ" belə rəvayət edilmişdir: "Peygəmbər əfəndimizin "səllallahü təâlâ aləyhi və səlləm" Tövratda "Əhməd, Dahuk, Kattal, dəvəyə minən və yun xirqə geyən, aza qane qalan, qılıncı həmişə yanında olan" – kimi isim və sifətlərlə keçdiyini xəbər verib. (15., s.41.)

Peyğəmbərin təvəllüdündən 6 əsr öncə Kəəb adlı bir şair onu mədh edən şeir yazmışdı. Nur əd-Din Əbd ər-Rəhman ibn Əhməd Cami (18.08.1414 – 19.11. 1492) "Şəvahid ün-Nübüvvə li-təqviyəti əhl il-fütüvvə" (Peyğəmbərlik təqvaları və fəthlərinə şahidliklər) adlı əsərində bu barədə yazılı mənbələr əsasında qeydlər edib: "Kə'b bin Lüey bin Gâlib, Rəsûlullahdan "səllallahü aleyhi və səlləm" beş yüz altmış il öncə yaşamışdır. Tövrat ve İncîl əhlindən Peygəmbər əfəndimizin mədhini və vəsflərini eşitmişdi. Xütbələrində həmişə eşitdiyi bu vəsfləri və mədhləri söylərdi. Ərəbcə beytin tərcüməsi həmən mədhiyyədəndir:

***İnsanlar qəflətdə ikən gəlir uca Peygəmbər,***
***Məhəmmədir, doğrudur, ondadır doğru xabər!*** (15., s.58)

Bu faktı bilənlər çox təəccüb edirdi ki, Tövrat və İncildə vəd olunan Peyğəmbər artıq aramızdadır, ancaq 560 il öncə yaşamış adaşından

fərqli olaraq, bu mürtəd küfrə aparan şeirləri ilə niyə xalqı çaşdırır? Tərəddüd edənləri düz yola gəlməkdən sarpdıran, kifayət qədər ustalıqla yazılmış bu şeirlər insanları qəzəbləndirir, şairin ölümünə fətva verməsini Rəsul-Allahdan tələb edirdilər. Şairin qardaşı Büceyri Kəəbin yanına Peyğəmbər (s.ə.s.) göndərdi ki, onu düz yola çağırsın. Bu ərəfəyə aid də hədis var. “Meymunə “razı Allahü anhâ” belə anlatmışdır: Rəsul–Allah – səllallahü əleyhi və səlləm – bir gecə mənim evimdə idi. Abdəst almaq üçün qalxmışdı. Üç kərə “Ləbbeyk” dediyini eşitdim.

– Ya Rəsul–Allah, orada kim var, kiminlə qonuşursunuz? – deyə soruşdum. Bəni – Kə’b qəbiləsinin şairi, Məkkədə öldürüləcəklərini zənn etmişlər, məndən yardım istədi, buyurdu. Üç gün sonra Bəni – Kə’b qəbiləsindən bir kimsə gəldi. Rəsul–Allah – səllallahü əleyhi və səlləm – ilə namaz qıldı. Sonra bir şeir oxudu. Şeirdə Rəsulullahdan – səllallahü əleyhi və səlləm – yardım istədiyini anladırdı. Rəsul–Allah – səllallahü əleyhi və səlləm – “Ləbbeyk, Ləbbeyk” buyurdu. Sonra Mədinədən dışarıya çıxıb, Ravhada qonaqladı. Havada bir bulut gördüler. Bəni – Kə’b qəbiləsinə yardım üçün gəlmişdir, buyurdu.” (15., s.235)

Kəəb Hicrətin 9-cu ilində, 630-cu ildə Mədinəyə, Peyğəmbərin hüzuruna gəldi, ənsar və mühacirlərdən ibarət bir məclisdə islamı qəbul edib Rəsul-Allahın şərəfinə bir qəsidə oxudu. Qəsidə ərəbcə “qəsd” sözündəndir, məqsəd mənasını daşıyır. Qəsidə yazan şairə farsca “qəsidəsəra, qəsidəpərdaz”, qəsidə oxuyana isə “qəsidəqu” deyirlər. Ərəb şairləri hansısa bir istək məqsədilə məmduhları (tərif etdikləri) maddi imkan sahiblərinə qəsidə ünvanlayırdılar. Əsas istək mətləbinə keçməzdən əvvəl şairlər qəsidənin “nəsəb” adlanan hissəsində lirik təsvirlər və ya insanın kövrək hisslərinə toxuna biləcək hadisə nəql edirdilər. Kəəb ibn Züheyr də əsas məqsədini söyləməzdən öncə sevgilisi, ceyran gözlü Suadın yaşadığı yerdən zorla aparılmasını yanıqlı təsvir edəndən sonra deyir ki, bu məni incitsə də, daha ağırı o oldu ki, İslam Peyğəmbəri mənim ölümümə fərman verib.

بانَت سُعادُ فَقَلبي اليَومَ مَتبولُ
مُتَيَّمٌ إِثرَها لَم يُفدَ مَكبولُ

وَما سُعادُ غَداةَ البَينِ إِذ رَحَلوا
إِلّا أَغَنُّ غَضيضُ الطَرفِ مَكحولُ

(3., s.86)

(Yerindən ayrılmış sürməli gözlü, yaralanmış bir ceyran kimi Suadı götürüb getdilər. Könlüm, buna görə elə sınıqdır ki...

Könlüm, azadlıq bilməyən əzgin bir kölədir. Dan söküləndə Suad köçdü buralardan.) misraları ilə başlayan 57 beytlik sonuncu, qafiyə hərfi “lam” olduğu üçün “qəsideyi-lamiyyə” adlanan qəsidəsini şair yanıqlı avazla oxudu.

أنبِئتُ أنّ رَسولَ اللهِ أوعَدَني
وَالعَفْوُ عِندَ رَسولِ اللهِ مَأمولُ

مَهلاً هَداكَ الّذي أعطاكَ نافِلَةَ ال
قَرآنِ فيها مَواعيظٌ وَتفصيلُ

(3., s.86)

Tərcüməsi: (Xəbər gəldi: "Peygəmbər, səni elə bir cəza verəcək ki!.."

Ey zavallılar! İndi, ürəyimdə sonsuz bağışlanma ümidilə onun qapısındayam.

Ondan üzür diləməyə gəldim, əvf istəməyə gəldim, çünki O, sirri biləndir, bağışlayandır.

O, əvfedənlərin ən üstünüdür.

İçi hidayət öyüdlü ən uca gerçəklər dolu Quranı

Sənə ərmağan edən Allaha xatir, mənə düzyolagəlmə möhləti ver.)

إنَّ الرَسولَ لَنورٌ يُستَضاءُ بِهِ
مُهَنّدٌ مِن سُيوفِ اللهِ مَسلول

(3., s.86)

Tərcüməsi: (Bu vadidə öz biləyinin gücünə güvənən neçə kişidən üstün,

Şübhə yoxdur ki, Peygəmbər, ən kəskin bir qılıncdır qılınclarından – Allahın sonsuz bir qurtuluşa, nura və hidayətə alıb götürən bizi.)

Bu beyt oxunduqda Peyğəmbər (s.ə.s.) duyğulanaraq ayağa qalxdı, üzərindəki Yəmən bürdəsini (xirqəni, xələti) əynindən çıxartdı, mükafat kimi Kəəbin çiyinlərinə atdı. Bu hadisə hamını mütəəssir etdi. Sonradan həmən qəsidə "Bürdə" adlandı.

Peyğəmbərimizin (s.ə.s.) xələti "Xirqeyi-Səadət" adlanır, 124 santimetr ölçüsündədir, geniş qolludur, içi oxra - ət rəngində, üstü qara yunlu qumaşdan tikilib. Peyğəmbərin (s.ə.s.) bağışladığı xirqəni Kəəb ibn Züheyrin böyük iftixarla həmişə üzərində daşıdığı nəql edilir. Peyğəmbərə məxsus hər hansı əşyanın, geyiminin böyük bioenerjisi və həmin əşyanın insan talelərinə fatal təsirləri haqqında çoxsaylı hədislər mövcuddur. Kasıb, alveri getməyən tacirə Peyğəmbərin (s.ə.s.) verdiyi xırda mis pulun müqabilində tacirin az zaman ərzində varlanması, hətta işinin çoxluğundan namazı tərk etməsi, həmin sikkəni tacirdən alandan sonra, yenidən kasıblaşması barədəki hədis məşhurdur.

Peyğəmbərimiz (s.ə.s.), kürəkəni İmam Əli, qızı Fatimə, nəvələri İmam Həsən və İmam Hüseynlə birlikdə "Ali-Əba" (Əba camaatı) adlanması bir hədisə dayaqlanır. Ali-Əba və ya Kisa hədisi – Məhəmməd peyğəmbərin əbasının altına Əlini, Fatiməni, Həsəni və Hüseyni alması və Əhzab surəsinin 33-cü ayəsini oxuması barəsindədir, başqa məzhəb mənbələrdə də həmən hədis nəql olunub. Bu məzhəbdə ən mötəbər hesab olunan Səhihi-Müslim kitabında Peyğəmbərin zövcəsi Ayişədən

nəql olunur: "Bir gün Peyğəmbər kürəyində əba ilə evdən çıxdı. Onu görən Həsən yanına getdi, Peyğəmbər ona əbasının altına girməsini söylədi. Sonra Hüseyn gəldi, Peyğəmbər onu da əbasının altına aldı. Daha sonra Fatimə gəldi, Peyğəmbər onu da əbasının altına aldı. Daha sonra Əli gəldi, Peyğəmbər onu da əbasının altına aldı. Sonra peyğəmbər "Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər!" (Əhzab surəsi, 33-cü ayə) ayəsini oxudu (Sahih-i Müslim, c.IV, s.1883, hadis.2424 (Kitab-ı Fezâili'l-Sahabe, bab-ı fezâil-i Ehl-i Beyt, 44500).



Əbadakı böyül kəramətlərin olduğunu bilən Əməvilər sülaləsinin banisi xəlifə Müaviyyə bin Süfyan (602–680) Kəəb ibn Züheyrə xirqənin müqabilində 10 000 dirhəm (gümüş pul) təklif etsə də, satmamışdı. Xəlifə ancaq şairin vəfatından sonra, varislərindən 20 000 dirhəmə xirqəni satın ala bildi. Sonrakı xəlifələr də bayramlarda bu xirqəni geyərdilər. Müqəddəs miras kimi xirqə Əməvilərdən (661–750) Abbasilərə (750–1258) yadıgar olaraq ötürüldü. Bir versiya vardı ki, moğollar 1258-ci ildə Bağdadı istila edərkən xələt yanıb, ancaq onun sonradan yenə meydana çıxması hamı üçün xoş xəbər oldu.

Xələt I Sultan Səlim Yavuz (1470–1520) zamanından Osmanlıların nəzarətində qaldı. Bu gün həmən bürdə Türkiyə Cümhuriyyətinin İstanbul şəhərindəki Topqapı Sarayı muzeyində "Müqəddəs əmanətlər" arasında mühafizə olunur.

Poeziya və canlı danışıq dilində "xələt" sözü işlənməkdədir. 16 yaşlı Cəfər Cabbarzadənin 3 aprel 1915-ci ildə "Məktəb" dərgisinin 6-cı nömrəsində nəşr olunan"Bahar" adlı ilk mətbu şeirində "xələt" sözü keçir:

***Dərələr, dağlar, ağaclar yaşıl, əlvan hər yan,***
***Sərbəsər xələti-ətləslə bəzənmiş gülşən.***
***Bu nə qüdrət ki, ona olmamaq olmaz heyran?***
***Xaliqin qüdrəti-bihəddinə əhsən! Əhsən!*** (20., Ic., s.25)

Dilimizdə "xələt" xalat şəklinə düşərək, məişət və müxtəlif peşələrdə istifadə olunan üst geyim anlamındadır. "Ağ xalatlı həkimlər" ifadəsi daha çox istifadə olunur, "Sehirli xalat" adlı film çəkilib.

Bəzən, poetik mətnlərdə "xələt" sözü əvəzinə "xirqə" (hırka), "əba" işlənib.

XİRQƏ ərəbcə "yamaqlı əlbəsə" deməkdir, qurama üsulu ilə müxtəlif qumaş parçaları bir-birinə tikməklə xirqə yaranırdı. Xirqələr ağ, qara,

mavi olurdu. Dərvişlər toplum halda zikr edərkən xirqə geyərdi. Bu geyimi geyənlər şeyx müridi, təriqət əhli, digər müridlərin qardaşı sayılır. Xirqə geymək şeyxin müridliyinə qəbul olunmaq rəmzidir. Bu xirqəyə "xirqeyi-iradət" deyirlər. Spritik Səma rəqsi zamanı vəcd halında xirqəni çıxarıb atırlar. Buna "Rəmyi-xirqə" deyilir.Təriqətə təzə gələnlər qara, müəyyən ruhi dərəcəyə qalxanlar mavi və ya göy, sülukunu tamamlayanlar isə ağ xirqə geyərdi. (16., s.166-167)

Dahi Azərbaycan şairi Seyid Əli Seyid Məhəmməd oğlu İmad əd-Din Nəsimi Şirvani (1369-1417) xirqə geyərək ancaq zahiri görkəmilə irfan əhli kimi görünənləri belə təqdim edir:

***Qəradır geydigi, ya gög həmişə zahidin, Ya Rəbb,***
***Nə matəm düşmüş ana kim, tükənməz heç anın yasi?*** (19., s.362)

Osmanlı şairlərindən Yenişehirli Beliğ Mehmed Emin (1698-1761) bir beytində buyurub:

***Gök hırka giyip tekye-i aşkında nüh eflak***
***Olmuş ezeli şevk ile abdal-i Muhammed.*** (22., s. 152)

Şairin demək istədiyi məna budur ki, dünya yaradıldığı gündən "noh əflak" – doqquz fələk, yəni göyün sferaları Peyğəmbərimizə qulluq etməkdədir. Allah eşqiylə ibadət edən dərviş təkyə küncünə sığınır. Fələklər təkyəyə, bütün səyyarə və ulduzların yerləşdiyi 7 fələk isə göy səmanı xirqə kimi geyən dərvişlərə bənzədilib. 2 fələkdə səyyarə və ulduz yoxdur. İlk gündən fələklər Məhəmməd Peyğəmbərin qulları, müridləridir – fikri dünyanın yaranmasının səbəbini izah edən bir sıra hədisi-Qüdsi ilə səsləşir.

Xələtin sinonimi "ƏBA" sözü də ərəbcədir. Dərvişlərin və müridlərin geydikləri qalın və qaba qumaşdan tikilən uzun və gen əlbəsədir. Kasıbların geydiyi bəsit bir geyim olduğu üçün sufilər və dərvişlər bu əlbəsəni Fəqr aləmi və Zöhd nişanəsi olaraq geyməyi seçmişlər.

Osmanlı şairi Dərdli İbrahim (1772-1846) əba ilə bağlı yazıb:

***Boş degildir, zahida, köhnə əbası dərvişin,***
***Dəfnələr, bilməzmisin qəsrin xərabından çıxar.*** (21., s. 124)

Əba dərvişliyin və sufiliyin rəmzidir. Xalq əba geyən sufilərə övliya və yetkin adam nəzəriylə baxıb qayğı göstərirdilər. Bundan istifadə edən bəziləri sufi olmadıqları halda sırf qazanc məqsədiylə əba geymiş və bu qiyafəyə qarşı mənfi rəy formalaşdırmışlar. Ona görə də el içində belə bir məsəl yaranıb:

***"Əba geyən necə zındıq (Allahın yolundan çıxmış)***
***Qəba (qaftan) geyən necə sıddıq (sədaqətli)?!.".***

Əbu Həfs əl-Həddad əba əvəzinə qəba geyən Şah Sücanı görəndə "Əbada aradığımı qəbada tapdım" – demişdi. İmam Cəfər Sadiq (20.04.702–14.12.765) də inancdan çıxanlardan fərqlənmək üçün əba geyər, ancaq üstündən də qəba keçirərdi. (16., s.17,)

خلعة "xələt" sözü ərəbcə, "başqasına bağışlanan bəxşiş" mənasını verir. (1., 192)

Seyyid Cəfər Səccadi "xələt" sözünü İrfan sferasında Allahın iltifatıdır ki, salikə, yəni irfan yolçuluğuna ilk düşən şəxsə çatır. – kimi izah edir. (2., 358)

Şairlərə mükafat kimi xələtlə yanaşı, o vaxt dövriyyədə olan qızıl pul da verilərdi. 1902-ci ildə Leydendə Paris əlyazması əsasında nəşr olunmuş "Tarix" adlı kitabda İbn Bibinin 1250-ci ildə bitirdiyi əsərinin verdiyi məlumata görə (səh.57-58), 1162-1225-ci illərdə Ərzincan hökmdarı olmuş və (indi Türkiyə Cümhuriyyətinin ərazisi) orada da məqbərəsi qalan Davud oğlu Məlik Fəxrəddin Bəhram şah Şeyx Nizamiyə 2263 beytlik "Məxzən ül-əsrar" (Sirlər xəzinəsi) əsərinin müqabilində 1178-ci ildə 5000 qızıl dinar göndərir. Orta yüzilliklərdə ən yüksək qələmiyyə haqqı hər beytə bir qızıl idi, hətta hər misraya bir qızıl dinar hesabı ilə verilsəydi belə, 274 artıq gəlirdi. Bundan əlavə, şah Şeyxə beş baş yəhərli və üzəngili at, beş baş yaxşı yerişli qatır, ağır qiymətli daş-qaş, cəvahiratla bəzənmiş xələtlər və başqa hədiyyələr əta etmişdı. İlk əsərinin bərəkətindən, sonrakı dastanlarından da yüksək qələmiyyə və xələt aldığını Şeyx Nizami "İqbalnamə"nin son bölümündə yazırdı:

هنوز به پنجاه بیت از قیاس
صد اندر ترازو نهد حق شناس
هنوزم زمانه به نیروی بخت
دهد در بدامان و دیبا بتخت

***(Hənuz be pəncah beyt əz ğeyas,***
***Səd əndər tərazu nəhəd Həqq şonas.***
***Hənuzəm zəmanə beniruyi-bəxt,***
***Dəhəd durr be damano diba betəxt.) (s.228)***

Tərcüməsi: *Müqayisə üçün, indi əlli beytimə,*
*Allah tanıyan tərəziyə (tərəzinin o gözündə əsərim) yüz qızıl qoyur.*
*Bəxtim yar olduğu üçün indi zəmanə,*
*Ətəyimə dürr tökür, şahanə ipək verir.*

Şeyx Həkim Nizami Gəncəvi "Şərəfnamə"də Sultan Nüsrət əd-Dinin mədhinin son beytlərində yazıb:

ببخشی تو بی آنکه خاهد کسی
خزینه فراوان و خلعت بسی

***(Bebəxşi to bey an ke xahəd kəsi***
***Xəzinə firavano xələt bəsi)*** (4., s.502)

Tərcüməsi: *Bir kəs istənmədən də bəxşiş verirsən,*
*Sevincverən xəzinələri və çoxluca xələtləri.*

Şeyx Nizami sultanın səxavətini, comərdliyini göstərmək üçün "xəzinə" və "xələt" sözlərini eyni maddi mükafatlanma çəkisində təqdim edir. Xələt və xəzinə maddi imkanlardan başqa hər adama verilməyən böyük şərəf, ad-sandır.

Başqa bir beytdə, qəzəlində Şeyx Həkim Nizami Gəncəvi irfan məclisində xələtin aşiqlərə bağışlanması ənənəsini dilə gətirib:

گر تو دهی شبی بوسل خلعت خود بعاشقان
رقص کنان فدا کنند خیل و سپاه خویش را

***(Gər to dəhi şəbi bevəsl xələti-xud beaşeğan***
***Rəğs konan fəda konənd xəylo sepahe-xişra)*** (5.s.261)

Tərcüməsi: *Vüsal gecəsi aşiqlərə öz xələtini versən,*
*Rəqs edənlər (səmazənlər) at və süvarilərini fəda edər.*

Yəni, irfan məclisində özünüfəda ilə Allaha qovuşan səmazənlərə öz əbanı Peyğmbərimiz (s.ə.s.) kimi bağışlasan, onlar vəcd zamanı xələtlərindən yox, bu dünyada mühafizə və müdafiəyə lüzum görməyib, at və süvarilərdən imtina edərlər.

630-cu ildə olmuş bürqə/xirqə/ xələt bağışlanması hadisədən sonra, şairlərə, alimlərə, musiqiçilərə xələt, xirqə bağışlamaq ənənəsi bütünlüklə orta yüzillikdə uzun müddət yaşadı.

Cami həmən kitabda şairlərə dua ilə bağlı bir neçə hədis də nəql edib: “Nabiqa adlı bir şair, bir gün şeirini Rəsul-Allah – səllallahü əleyhi və səlləmə oxudu. Rəsul-Allah onun haqqında, “Allahü Təala ağzını pozmasın, dağıtmasın” – deyə dua etdi. Nabiqa yüz iyirmi il yaşadığı halda ağzından bir dişi düşmədi.” (15., s.215)

Tarixi fakt kimi, Peyğəmbərin (s.ə.s.) öz xələtini cəmi bir şairə bağışladığı məlumdur. Xələt bağışlama ənənəsi yayılandan sonra belə, sənətkarların bir sıra mükafatlandırma üsulları da tətbiq edilirdi. Əbül Fərəc Əli Əl-İsfəhani bin Hüseyn, bin Həşim, bin Əbd ər-Rəhman, bin Mərvan, bin Əbdullah, bin Mərvan, bin Məhəmməd, bin Mərvan, bin Həkim bin Əbül Ass, bin Ümmə bin Əbdüş-Şəms, bin Əbd-Mənaf, Əl-Qüreyşi, Əl-Əməvi (897 – 967) “Kitab əl-əğani” (Nəğmələr kitabı) əsərində, xüsusən, Bəşşar ibn Burd haqqındakı bəhsdə Abbasi xəlifələrinin zamanında şairlərin cangüdənlər kimi xəlifə sarayında səhərə qədər növbə çəkdiklərini yazır. Səksənib oyanan şairin ürəyindən yeni şeir eşitmək həvəsi keçirdisə, bunu növbətçi şair icra edirdi. Şeir xəlifənin xoşuna gəlirdisə, qızıl dirhəmləri ovuclayıb şairin ağzına doldururdu. Ovurdları tutana qədər şairlər qonorarını alırdı. Ağıllı söz danışana “kişinin ağzından qızıl tökülür” – el misalı həmin dövrlərin yadigarıdır.

Müsəlman xalqları arasında özbəklər yüksək rütbəli alimlərə, sənətkarlara gözəl zövqlə tikmələri olan xələtlə birgə araqçın da bağışlayır.

Azərbaycan musiqiçilərinin arqo dilində (peşə dili) bu gün də “xələt” sözü “nəmər” və “kəlvə” ilə birlikdə maddi mükafatlanma mənasını verir.

Xələtbağışlama ənənəsinə səbəb olan Kəəbin “Bürdə” qəsidəsini avropalı ərəbistlər XVIII yüzillikdən başlayaraq alman, fransız və ingilis dillərinə tərcümə edib elmi araşdırmalar aparmışlar.

**ƏDƏBİYYAT**

1. المنجد. بيروت، 2008
2. دكتر سيّد جعفر سجّادي, فرهنگ اصطلاحات و تعبيرات عرفانى،تهران 1379
3. ديوان كعب بن زهير : **بوابة الشعراء**
4. نظامى گنجوى؛ شرفنامه؛ باكو 1947
5. ديوان قصايد و غزليّات نضامى گنجوى

6. Kaʿb b. Zuhayr / Basset, R. // Encyclopaedia of Islam. 2 ed : [англ.]. — Leiden : E. J. Brill, 1960—2005.
7. T. A. Arnold, «Septem Moallakat» (Лпц., 1850);
8. W. Ahlwardt, «Six ancient Arabic poets» (Л., 1870).
9. Caussin de Perceyal. «Essai sur l'histoire des Arabes avant l'Islamisme» (П., 1847, т. II, 527 след.).
10. Кааб бен-Зогейр // Энциклопедический словарь Брокгауза и Ефрона : в 86 т. (82 т. и 4 доп.). — СПб., 1890—1907.
11. Wolff, «Die sieben Preisgedichte der Araber», 1857
12. Michael A. Sells and M. J. Sells, Bānat Suʿād: translation and introduction, Journal of Arabic Literature Vol. 21, No. 2 (Sep., 1990), pp. 140-154
13. Esat Ayyıldız, Klasik Arap Şiirinde Emevî Dönemine Kadar Hiciv. Ankara: Gece Kitaplığı, 2020. p.146-147.
14. Penzer, Norman Mosley. "The Harem", Chapter XI
15. Gilman, D. C.; Peck, H. T.; Colby, F. M., eds. (1905). "Kaab ibn Zuhayr" . New International Encyclopedia (1st ed.). New York: Dodd, Mead.
16. Mövlana Abdurrahman Cami "Şevahid-Ün Nübüvve" (Peygamberlik Müjdeleri). Hazırlayan Hüseyn Hilmi İşık, Hakikat Kitabevi Yayınları № 11, İstanbul, 2015
17. Prof. Süleyman Uludağ "Tasavvuf terimleri sözlüğü"Kabalcı Yayımevi, İstanbul, 2001
18. Ahmet Talat Onay "Eski Türk edebiyyatında mezmunlar ve izahı"Milli egitim basımevi, İstanbul, 1996
19. H.A. Quliyev "Azərbaycanda ailə məişətinin bəzi məsələləri" Bakı, "Elm", 1988
20. İmadəddin Nəsimi. "Əsərləri", Bakı, "Azərnəşr", 1973
21. Cəfər Cabbarlı. "Əsərləri", 4 cilddə, "Şərq-Qərb", Bakı, 2005
22. Ahmed Talat [Onay], Âşık Dertli: Hayatı ve Divânı, Bolu 1928.
23. Belîğ, Divan, İstanbul 1258, s. 85, 109, 125 vd.
24. Aşıq Ələsgər. "Əsərləri", 2 cilddə, "Elm", Bakı, 1973
25. http://www.sadakatforum.com/kab-bin-zuheyrin-kasidei-burdesi-t8487.0.html

# "Salamlar Qarabağa... Müjdə Tanrı dağına"...



Uzun illər bu məmləkətin ürəyində, şəhid balasının tabutunu qaldıran Ataların kürəyində, özünü doğma ocağından kənarda qərib bir quş sanan yurd həsrətlilərin dünyadan köç eləyən zaman yumulmayan gözlərində nisgilə çevrilmişdi Qarabağ... Qarabağ ağrı idi... Qarabağ həsrət idi... Qarabağ düyün idi... Qara bəxt idi... Qapısı bağlı qalmış yurd yeri idi... Bu ədalətsizliyə dünya birliyi susurdu... Körpəsi qanına qəltan edilən, qocaları tövləyə yığılıb yandırılan, tüstüsü ərşə dayanan, qadınlarının namusu tapdanan bir məmləkətdə haqqı – tarixi ədaləti bərqərar etmək yerinə dünyanın hansısa bir köşəsində xəritədə heç adı da olmayan kəndin girəcəyindəki kilsənin dam örtüyünün çatlamasını daha bəşəri bir məsələ, hadisə kimi gündəmə gətirib müzakirə edir, işıqlandırırdılar...

Kor deyildik ki... hamısını görürdük. Onu da anlayırdıq ki, adı "dünya birliyi" olan xristian dünyası bizə yüz il bundan sonra da gün ağlayası deyil.

Bizim Türkdən başqa kürəyimizi söykəyəcəyimiz heç kimimiz yoxdu... Hər anı bir ömrə bədəl 44 günlük qutsal savaş günləri bizə anlatdı ki, dərdimizin dərmanı hansısa beynəlxalq qurum, təşkilat deyil. Bir Türk bir sözüylə bizə ordu bərabərində arxadır. Bir Türk bir şeiriylə bizə bir silah gücündə dayaqdır. Dərdimizin ortağı da, mücadiləmizin silahdaşı da, Zəfərimizin sevinəni də gerçək Türk insanlarıdır...

Bizi Qarabağa aparan o qutsal yolun yolçuları ilə – haqq savaşçılarımızla, Zəfəri yaralı canı, əli, ayağı, itirdiyi gözünün nuruyla yazan qardaşlarımızla aylardır ki, həmsöhbətəm, onların cəhbə xatirələrini dinləyərək şəhidlərimizin əziz xatirəsini ölümsüzləşdirmək amacıyla "Savaş günlükləri" yazıram... Bu amacla tez-tez Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin hospitallarında tədavi görən qazilərimizə baş çəkirəm. Şahid olduğum hadisə isə sözün bütün mənalarında ruhumu silkələdi...

...Asta addımlarla hospitala daxil oluram. Ağ göyərçinə bənzəyən tibb bacısı xoş təbəssümlə salamlayıb içəri aparır məni... Gənclərin səsi bütün dəhlizi bürüyüb, harada olduğumu unuduram:

***Səndən başlar sonsuzluğa yol, Oğlum...***
***Dörd bir yana atmalısan qol, Oğlum!...***
***Çörəyini ac olanla böl, Oğlum!***
***Haram yemə, haqq uğrunda öl, Oğlum!***
***Tarixə Sən verəcəksən can, Oğlum!***
***Gün gələr ki, torpaq istər qan, Oğlum!***

Səslər coşğuyla yüksəldikcə ürəyim dağa dönür. Səs gələn otağa tərəf yönəlirəm. Bəzən adam göz yaşlarının səbəbini nə anlaya, nə də izah edə bilir. Gördüyüm mənzərə qarşısında heykəl kimi hərəkətsiz qalıram, ürəyim dağa dönür, amma bu elə bir izahsız duyğudur ki, sözə çevirmək olmur.

***Gəz, Oğlum***
***Vətəninə göz dikəni əz, oğlum!***
***Dostun kim, düşmənin kim, sez oğlum!***
***Tarixini şərəfinlə yaz, oğlum!***
***Yaz, oğlum.!***

***Səndən gidər sonsuzluğa yol, oğlum,***
***Dörd bir yana salmalısın qol, oğlum,***
***Ekmeğini ac olanla böl, oğlum,***
***Haram yemə, haqq uğruna öl, oğlum!***
***Çabuk böyü, çabuk yetis, tez oğlum,***
***Çakal gezen şu dağlarda gez oğlum,***
***Çabuk büyü çabuk yetiş tez oğlum,***
***Hain gezen şu dağlarda gez oğlum!***

Tarixə can vermək üçün canından, gözünün nurundan, yürüyən ayağından, vuran qolundan keçən (hətta bəziləri nitqini itirib) qardaşlarımızın belə çiyin-çiyinə söykənib ruh yüksəkliyi ilə "Vətəninə göz dikəni əz, Oğlum!" deyə oxuması ürəyimi dağa döndərir.

Kitablardan oxusaydım, bəlkə də qəribə qarşılayardım, amma indi öz gözlərimlə belə bir mənzərənin şahidi olmağım kövrəltdiyi qədər də qürurlandırır məni...

Məni dövrəyə alıb salamlayırlar. Təəccübümü və heyranlığımı görən Dövlət Sərhəd Xidmətinin xüsusi təyinatlısı, baş gizir Cavidan Səfərov sözə başlayır: Anam, siz elə bilirsiniz ki, biz Qarabağı silah gücünəmi azad etdik?! Silahımızdan da kəsərli ruh yüksəkliyimiz vardı. Bax, həmin bu türkülər bizə elə ruh yüksəkliyi verirdi ki, nəinki yağı düşmənə, hətta Əzrayıla belə meydan oxuyurduq...

Qürur qarışıq kövrək duyğuların əhatəsində qazilərimizə Sərhat bəydən, onun Türk gəncliyinə müraciətlə yazılmış "Bil, oğlum" şeirindən danışmağa başlayıram: "Əzizlərim! Dediklərinizi o qədər doğma hisslərdi ki... Sizlərin döyüşdə olduğunuz həmin o çətin günlərdə, inanın ki, bizim də yeganə təsəllimiz Söz, yeganə pənah yerimiz sözündəki işığa sığındığımız milli düşüncəli aydınlarımız idi...

İndi Sizin ifanızda çox əziz Serhat Kabaklının sözlərinə Esat bəyin bəstələmiş olduğu türkünü dinlədikcə bir neçə məqamı xatırlayıram: Şuşanın azad olunduğu gün idi. Həmin bu şeirlərin müəllifi əziz Sərhat bəy özünəməxsus doğmalıqla sevincini, şükrünü belə dilə gətirmişdi: O gün olsun, burda qıldığım şükür namazını Şuşa məscidində qılım!" Bu duaya təkcə dilim yox, gözümdə gilənən göz yaşım da "Amin!" demişdi... Növbəti gün isə Sərhat bəyin "Salamlar Qarabağa! Müjdə Tanrıdağına!..." – deyə Qarabağın azadlığını müjdələməsi məndən ötrü Tanrıdağı boyda sevinc olmuşdu...

Hərbçilərimizin "Bil, oğlum!"a bu cür həssas münasibətindən ürəklənib şeirin yazılma tarixçəsini danışıram və onlara söz verirəm ki, bir gün mütləq onları döyüşə ruhlandıran bu ecazkar misraların müəllifi ilə – Sərhat bəy Kabaklı ilə görüşməyinizi sağlayacam... Hamının gözlərində sevinc görürəm. Bir şeirin yaratdığı məhəbbət, bir misranın milyon-milyon ürəkdə yuva qurması, bir sənətkarın ruhlara toxunuşu... Sənətin bəxş etdiyi doğmalıq budur, əslində...

Dəyərli Sərhat bəyin yaradıcı adam kimi uğuru da məhz bundadır. İnsanların qəlbinə gedən yolu tapmaqda... Bu yol o qədər müqəddəs bir yoldur ki, hər qələm adamına o yolda yürümək nəsib olmur. Ki, bu da Sərhat bəyin böyük ürəyinə mükafat olaraq bir Tanrı lütfüdür...

Mən Sərhat bəyi dəyərli ustadım İmdat Avşarın təqdimatıyla tanımışam. İmdat bəyin gözəl söhbətlərindən təsirlənərək yüksək insanlığını, şəxsiyyətini və yaradıcılığını sevdiyim Sərhat Kabaklı məndən ötrü yeriyən Türküstandır... Elazığdır, Qarabağdır, Kırımdır, Kərkükdür, Kıbrısdır, Ahıshadır...

Sərhat Kabaklının şair kimi, sənətkar kimi, şəxsiyyət kimi, insan kimi keçdiyi ömür yolu türk gəncliyi üçün – bizim hamımız üçün, bütövlükdə cəmiyyətimiz üçün dəyərli bir nümunədir. Bu həyatda təkcə ürəyini, ruhunu, təmiz adını deyil, əmək kitabçasının belə ləyaqətini qorumağı bacarmaq o qədər də asan iş deyil. Bütün bunların mayəsində insanın şəxsiyyəti dayanır. Şəxsiyyətində, xarakterində yarımçıqlıq olan adam heç vaxt böyük ədəbiyyat yarada bilməz. Bu mənada, Sərhat bəy şəxsiyyəti və yaradıcılığı bir-birini tamamlayan, Sözü kimi bütöv insandır.

Sərhat Kabaklının ictimai həyatımızdakı rolu, Nazim Hikmətin təbiriylə desək, havanın qurşun kimi ağır olduğu vaxtlarda həmişə haqqın, ədalətin yanında dayanması Onun xarakterini tamamlayan və indiki vaxtda nadir rast gəlinən insan mənzərəsidir. Sərhat bəy həyatı ilə şeirləri, düşüncəsi ilə əməlləri arasında düz mütənasibliyi qoruyan uca ürəkli şəxsiyyətdir. Sərhat Kabaklı insanların hürr yaşamaq haqqını yalnız kitablarında deyil, gerçək həyatda da daim müdafiə etmişdir. Onun şair qəlbi həmişə ədalətsizliyə qarşı barışmazlığı və mübariz ruhu ilə seçilir.

Özünü dərk edəndən Ruhunu Tanrı əmanəti kimi qorumağa çalışıb Sərhat bəy... Bütün dəyərləri dəyişən dünyanın tən ortasında dəyişməyib, əzəmət

qalasından bircə kərpic də xırdalanmayıb, xırdalanaraq böyüməyi, yaşamağı, ucalmağı qəbul etməyib və insanlara da əqidəsində, yolunda sadiq olmağı bir Bilgə kimi həmişə tövsiyə edib. İxtisasca müəllim olub, amma təkcə elm öyrətməklə vəzifəsini bitmiş hesab etməyib, öyrəncilərinə kitablardan daha öncə həyatı öyrədib Sərhat bəy...

Ot kökü üstə bitər, – deyirlər... Sağlam torpağın və sağlam toxumun üzərində həmişə sağlam fidanlar pöhrələyər. Bu gün Sərhat Kabaklı qocaman bir Dədə Palıd kimi dörd bir yanına kölgə salır... O, zəngin mənəvi ənənələri olan bir ailənin işığından pay alıb. Sərhat bəyin fikirlərinin formalaşmağında əmisi – Türk dünyasının böyük düşünürlərindən olan Əhməd Kabaklının müstəsna əməyi olub. Əhməd Kabaklı böyük türk ədəbiyyatının çoxəsrlik tarixini Beş Cilddə toplayan dəyərli bilim adamlarımızdandır. Həmin toplunun böyük hissəsində Azərbaycan ədəbiyyatı tarixi də yer alıb. Bu, hər iki ölkənin ədəbiyyatı və mədəniyyəti üçün mühüm işdir. Bu o deməkdir ki, Əhməd bəy Azərbaycanı öz vətənindən heç zaman ayrı tutmayıb.

Əmisi ilə bağlı xatirələrində Sərhat Kabaklı söyləyir ki, 18 yaşım olanda əmim mənim şeirimi Türkiyənin ən böyük ədəbiyyat dərgisində çap etdirdi və ondan sonra ədəbi məsuliyyətim daha da artdı.

21 yaşındaydım. Əmim telefonla oxuduğum yurdu aradı və məni qurucusu olduğu Türk Ədəbiyyatı Cəmiyyətinə çağırdı. Həmin ərəfədə mənim “Mərmər və İnsan” adlı şeirim yenicə işıq üzü görmüşdü. Türk Ədəbiyyatı Cəmiyyətinə çatdım ki, Nəcib Fazil Qısakürək içəridə oturur. Məni görəndə ayağı qalxdı və qaşlarını çatıb: “Sən özünü kim hesab edirsən ki, mənim hələ gələn il yazacağım şeiri indidən yazmağa cəhd edirsən?”-dedi. O görüş məni xatirimdə və yaradıcılığımda unudulmaz iz qoymuş oldu.

Bu gün Əhməh Kabaklı da, Nəcip Fazıl Kısakürək böyük Türk millətinin ürəyinə – mənəvi dünyasına köçüb. İlk qələm təcrübələrindən başlayaraq, Əhməd Kabaklının təsiri ilə yazıb-yaradan Serhat bəy isə, “Öncə göyərçinləri vurdular” və “Bil, Oğlum!” şeir kitabları ilə türk oxucusunun ürəyini çoxdan fəth edib.

Fəqət, heç zaman şairlik iddiasında olmayıb Sərhat bəy... Sadəcə, söz ürəyinə yük olanda yazmaqla hüzur tapıb. Tanrıdan Ruhuna hopan səsi sözə çevirməklə ilahi bir rahatlığa qovuşub. Sanki sözə, sənətə sığınaraq dünyanın boş hay-küyündən xilas olmağa çalışıb...

Bu gün Sərhat bəy İstanbulda əsası 1978-ci ildə Əhməd Kabaklı tərəfindən qoyulan yarım əsrlik tarixi və ənənəsi olan Türk Ədəbiyyatı Vəqfinin başqanıdır. Vəqfin Ədəbiyyat, sənət, mədəniyyət sahəsində göstərdiyi misilsiz xidmətləri təkcə Türkiyəni deyil, türk dili və düşüncəsi ətrafında birləşən qardaş türkdilli dövlətləri və o cümlədən, Azərbaycanı əhatə edir. Dəyərli Sərhat Kabaklı söyləyir ki: “Biz Türk Ədəbiyyatı Vəqfi olaraq Türk dünyasının bütün coğrafiyalarına türkcə danışılan hər bir vətən parçasına yetməyi və buralarda yaşayan qardaşlarımızla, ədəbiyyat və sənət mühiti ilə qucaqlaşıb ədəbi əlaqələrimizi genişləndirməyi hədəf olaraq seçmişik”.

Yeri gəlmişkən, bir məqamı qeyd edək ki, Azərbaycan ədəbiyyatının təbliğində Türk Ədəbiyyatı Vəqfinin xidmətlərindən dolayı dəyərli Sərhat bəy Beynəlxalq Mahmud Kaşğari Mükafatı almış, Azərbaycan Yazıçılar Birliyinin, Vektor Elm Akademiyasının fəxri doktoru” ödüllərini və Azərbaycan Milli Elmlər

Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun "Azərbaycan ədəbiyyatının dostu" fəxri titulunu qazanmışdır.

Adlar, titullar, mükafatlar, təltiflər – əslində, bunların hamısından daha ucada dayanan bir məqam – insanların qəlbinə gedən yoldur... Önəmli olan insanların qəlbinə gedən yolu tapmaq və Öz işığı, saflığı, səmimiyyəti ilə insanlığa, sözün bütün mənalarında, töhfə verməyə çalışmaqdır ki, Sərhat bəy bu mənəvi məsuliyyətin öhdəsindən şərəflə gəlməkdədir.

Bu dünyaya gələn hər bir insan qismətinə düşən ömür payını yaşayır, yaradır, yaşlanır. Amma yaşa dolduqca, yaşlandıqca kamilləşmək, müdrikləşmək hər kəsə nəsib olmur. Kamillik, müdriklik özü bir Tanrı vergisidir ki, Tanrı onu sevdiyi, seçdiyi bəndələrinə ərməğan edər, öz ilahi nurundan ona pay verər. Sərhat bəy məhz belə insanlardandır. Üzünün nuru sözlərinə tökülən, bütün yaxşılıqlara körpü salan, xeyirxahlıq üçün, İşıq üçün Yol olan, şərəfli ömrünü fədakarlıqla insanlığın, türklüyün, türkçülüyün rifahına həsr edən yolgöstərən ağsaqqal, işıqlı vətəndaş, Bilgə Aydın...

Cənubi Koreya rejissoru Çan Don Linin "Poeziya" adlı maraqlı bir filmi var. Filmdə ədəbiyyat, şeir və poeziya həvəskarı olan insanlara yaradıcılıq kursu keçirlər. Kursun dinləyicisi olan bir qadın müəllimə deyir ki, şeir yazmaq necə də çətindi.

Şair – müəllim isə cavabında ona deyir: "Şeir yazmaq çətin deyil, o şeiri adama yazdıracaq ürəyə sahib olmaq çətindir. Gözəl, maraqlı yaza bilmək üçün sevgi ilə dolu böyük ürəyə sahib olmalısan. Yazıçı əlinə qələm götürməmişdən və masanın üstündəki çırağı yandırmamışdan əvvəl ürəyini yandırmalıdır".

Dahiyanə cavabdır. Həqiqətən də, şairin, yazıçının qəleminin məhsulu olan hər bir möhtəşəm əsər zəngin yaradıcılıq təcrübəsinin, böyük ürəyin, ağır zəhmətin məhsuludur. Bu mənada, Sərhat Kabaklının bütün qələmə aldıqları gözünün və qəlbinin nurundan yaranmışdır və bu şeirlər, sözün həqiqi mənasında, oxucunu mənəvi işığa doğru yönəldir. Ümumiyyətlə, söz adamının, sözün missiyası insanın daxili aləmini müsbətə doğru dəyişdirmək, onu kamil bir mərtəbəyə qaldırmağa çalışmaqdır ki, Sərhat Kabaklı ədəbi şəxsiyyəti və yaradıcılığı ilə bu işin öhdəsindən şərəflə gəlməkdədir.

Həzrəti peyğəmbərimizdən soruşurlar ki, Dini bir sözlə necə ifadə etmək olar? Deyir ki: "təsəlli" sözü ilə. Bu çətin dünyamızda, mənəviyyatın aşındığı, əxlaqi dəyərlərin alt-üst olduğu, insanlığın çat verdiyi bir zamanın və mühitin içində Sizin kimi insanı tanımaq, varlığını hiss etmək, sözün həqiqi mənasında insana təsəlli olur, Sizin kimi öz təmiz dünyasına çəkilib, özünün, sözünün, ruhunun, adının paklığını – Tanrı əmanəti kimi qoruyan bir İnsanın – Sözün həqiqi mənasında böyük hərflərlə İNSANIN varlığını bilmək adama təsəlli olur. Yüz acını da udursan bir şirinin xətrinə. Düşünürsən ki, bu millət Sərhat bəy Kabaklı ləyaqətdə qutsal və uca ürəkli bir şəxsiyyət yetirə bilibsə, demək ki, hələ sabaha və yaşamağa ümid qalır...

***Xəyalə ZƏRRABQIZI***

# MÜNDƏRİCAT




## *Yazıçının həyat fəlsəfəsi*

Təranə Vahidin **"Qarışqa təqvimi"**ndə daşın da, quşun da, adamın da, ağacın da, evin də hissi var. Burda gözlə görünən, görünməyən hər şey diridir, canlıdır. Görürsən ki, balaca-balaca qarışqalar ürəyinin ən qaranlıq yerinə Ay işığı daşıyır. Ruhuna kəpənəklər qonur. Bir də baxırsan ki, hekayələrin içindəsən. Biçənəkdən keçən adam kimi bu hekayələrin icindən ayaqyalın keçirsən. Keçirsən, görürsən ki, Qarışqa təqvimində günlərdən hər gün bayramdır. Burda zaman axmır, keçib getmir, tumurcuqlayır, çiçəkləyir. Bu çiçəklərin ətri bütün dünyaya **"Dəfn nəğməsi"**ndən yayılır, yəni Cəmogilin kəndindən. Cəmogilin kəndi dünyanın bitdiyi, elə həm də başladığı yerdir. Bu kənd qayaların arasında gizlənib. *"Kəndin ayağında Əmir kişi asqıranda, kəndin yuxarısında Ədil kişi qımışa-qımışa: "Öz başını ye" – deyərdi".* Yəni Allahın ovcuydu bu kənd. Ona görə ki, Allahdan başqa bu kəndi yada salan, yerini bilən tapılmazdı. Əcəlin də ayağı gec-gec düşərdi Cəmogilin kəndinə. Odur ki, kimsə torpağa canın tapşıranda sevinərdilər ki, Allah kəndi yadına saldı, bizi xatırladı. Dəfndə də Camo dəf çalardı, səsi-sədası qarışardı çiçəklərin ətrinə. Bu səsdən, bu ətirdən hər tərəfə ağappaq toz dənələri yayılardı. Yel alardı bu toz dənələrini, dünyanın başından zər kimi səpələyərdi. **"Mən toz dənəsiyəm"** deyib ruhlar uçardı dünyada. O, toz dənələri dil açardı: *"Sizə deyim ki, insanın toza çevrilməyi qəribə, həm də xoşagələn hissdir."*– deyirdi. Külək toz dənəsini uçururdu; bütün qadağalardan, buxovlardan, sədlərdən, sərhədlərdən azad olub dünyanı gəzdirirdi. Toz dənələri qarşılaşırdılar. Bir-birinə tanış olanı da var idi, yad olanı da. Bir də görürdün iki tanış toz dənəsi qarşılaşıb: *"Müəllim, xeyir ola, nə yaxşı bu tərəflərə gəlmisiz?"* Deyir: *"Elə bu yaxınlarda başa düşdüm ki, bütün qayğılardan xilas olmağın, yaşamağın yeganə yolu toz olmaqdır."* Amma toz olmaq da dünyanı dəyişmir, yenə də baxırsan ki, budey, yenə **"Göy üzü qanayır".** Qırmızı-qırmızı buludlar qara xəbər kimi gəlir. Bir adam qaçır çölün düzündə. Bir adam – Səfi. Səfi

qorxur. Canına üşütmə düşür. Hara qaçırsa, xeyri yoxdur, bir də çevrilib arxaya baxır ki, xatirələri nəhəng qırxayaqlara çevrilib, üstünə gəlirlər. *“Çölün düzündə əl-qolunu açıb pirə çevrilən qoca armud ağacı ona pənah gətirəni naümid qoymadı.”* Səfi ağzı alovlu əjdahaya oxşayan buludlardan qaçıb armudun koğuşuna sığınanda qırxayaqlar hələ də gəlirdilər. Qırxayaqların yuvası Səfinin beyni idi. O yuvada atası anasını qamçılayırdı. Səfinin üstündə söyülürdü, döyülürdü anası. Anası atasının ayaqlarına düşürdü: *“Allah evini yıxsın, xəstə balanı öldürəcəksən?”* Səfi atasını da qırxayaqların arasında görürdü; görürdü atası cin atına minib, dördnalla gəlir. Cin atı Səfinin arzularında yorğa gedən ağ atı öldürməyə gəlir. Səfinin xəyalındakı ağ at Bilalın atına bənzəyirdi. Kəndin ən gözəl qızı Süsənin könül verdiyi həmən ağ atlı Bilalın. On yeddi yaşlı Səfi də bilirdi ki, arzular pulla alınır. Atasının gizlətdiyi pulu oğurlayıb el yoluna, oradan da eşmə bığlı kişini tapanacan Səfi arzusunun dalınca qaçmışdı. Səfi bir topa cehiz puluna arzusunu almışdı. O vaxt Səfinin dünyaya sığmayan xoşbəxtliyi başına noxta salınmış ağ atıydı. Qıyıb minmədiyi atı dalınca çəkə-çəkə aparırdı Səfi. Bildiyi nə qədər gözəl söz vardısa, Səfi atına pıçıldayırdı. Bu dünyada Səfinin gedəsi başqa yeri yox idi, evinə gəldi. Ağaca bağladı atını. Bir də eşitdi ki, atası evdə hay-həşir qopardıb, yapışıb anası Hamayılın yaxasından, deyir: *“Az, pul yerində yoxdur”.* Elə onda dünya uçub töküldü Səfinin başına. Atasının çatısı keçdi boğazına. Kişinin ürəyi soyumadı, təklülənin səsinə sərçələr də ağaclardan perikdi. Bir də gördülər atın ayaqları dizdən büküldü, yıxıldı... Səfinin dünyası yıxıldı. Atın gözündə Səfi, Səfinin gözündə atası öldü. Səfinin arzuları ölmüşdü. Ölüb torpağa qarışmışdı. İndi bu yaşında armud ağacının koğuşundan göyə baxanda görürdü ki, iri yağış damcıları arzularının qarışdığı həmən yeri isladır. Həmən yerdən **“Təzə şitillər”** boy atır, yaşıllanır, yarpaqlanır... Çöllər dəyişir, çəmənlər dəyişir. Elə adamlar da dəyişir. Dünən gördüyünü bu gün tanımırsan. Dəyişmək də asan başa gələn iş deyil axı, gərək bədəl ödəyəsən, nəyisə qurban verəsən. Ömrünün yetmişinci yaşını xırda qəpik kimi xərcləmiş Niftəli sayaq olasan gərək. Niftəlini də yoldan çıxaran Güləhməd oldu. Qəribəsi budur ki, yaşı səksəni haqlamış adam gedib-gəldi, Niftəliyə dirəndi ki, dəyişmək lazımdır. Yaşın-başın fərqi yoxdur. Niftəlini axır ki, yoldan çıxara bildi, günün birində Niftəli də gedib burnunu kəsdirdi. Həyat Niftəlinin gözündə dəyişdi. Elə ki, səhəri gün məhəllədə gəzib-dolaşanda heç kim onu ələ salıb gülmədi, özünə bir az da vuruldu Niftəli. Niftəlinin gülü açdı. Niftəli nə az, nə çox, iyirmi il cavanlaşdı. Bu dəfə də köhnəlikdən, naftalinli fikirlərdən aralaşıb, özünü matros kimi atdı Nitsşe dənizinə. Əl-qol atdı, çapaladı, üzdü, çıxdı hind fəlsəfəsinin sahillərindən. Güləhməd Niftəlinin həvəsini üfürdükcə şişdi. Şişdi, dağ boyda oldu. Elə Niftəlinin də ürəyi dağa döndü. Gördü dəyişib ayrı adam olub; qulağında qulaqcıq, xarici musiqi, arvadı Səmənixanımın, özünün pensiya pulunu qoyub aldığı velosiped altında, dilində də ingilis sözləri. Niftəlinin kefi şeş vururdu. Hələ okeanın o tərəfində bir qara mirvari də tapmışdı. İnternetlə. Yazışırdı, alışırdı, yanırdı Niftəli. O qədər yandı ki, daha dözə bilmədi, kəndin çayxanasında Güləhmədə dedi ki, təzə sevdamın dalınca Florida ştatına gedirəm. Dəyiş-dəyiş deyən Güləhmədin matı-qutu elə həmən gün qurudu. Səmənixanımın nə qədər qızıl-külçəsi vardısa, hamısını Niftəli əl boyda kağız biletə dəyişmişdi. O gün getdi Niftəli. Arzularının dalınca getdi, ağca mayasını kənddə qoyub, bir qara mirvarinin eşqinə uçdu. Uçdu Səmənixanım, milli-mənəvi dəyərlər bir də Niftəlinin

dilinə kəpənək kimi qonmadı. Onun dilində eşşəkarısı yuva salmışdı. Niftəli deyirdi: *“Dəyərlər? Hansı dəyərlər? İnsan hissləri qarşısında bütün dəyərlər dəyərsizdi! Biz dəyərləri ona görə uydururuq ki, kimsə öz arealından kənara çıxmasın, öz çəmənində otlasın”.* Amma Niftəli dəyişə-dəyişə öz arealını çoxdan tərk eləmişdi. Bu günlərə qədər ayaqqabı fabrikində mühasib stuluna məhkum olub, şotka muncuqlarını sağa-sola diyirlədən adam qitə həddini də aşıb keçmişdi. Amma Yer yumrudur axı, haradan getmisənsə, zaman başına-gözünə döyüb, ora qaytarır adamı. Niftəli də çiçəyi solanda, gülü büzüşəndə qayıdıb gəldi Səmənixanımın çömçəsinin altına. Dünyanın o başından atılmış daş kimi düşdü kəndinə. Amma əli dolu gəldi, yaddaşı təzə gəldi. Ömrünün sonuna qədər oduna isinəcəyi xatirələri vardı Niftəlinin. Bir-ikisini Güləhmədə danışanda, Güləhmədin dodağı uçuqladı. Niftəli elə həmin gün söz verdi ki, Güləhmədi dəyişəcək. Dəyişmək həmişə ən şirin arzudur, vay o günə ki, dilindən çıxa, göylər eşidə, oturduğun yerdə dönüb olasan **“Durna adam”.** Əlif kişi kimi. O vaxt *“payız yenə qapının ağzını kəsdirib alabəzək qanadını kəndin üstünə sərmişdi”.* Kötüyün üstündə oturub göylərə baxan Əlif kişinin bədəni gərildi, qanadı çıxdı, dimdiyi uzandı, dönüb oldu Durna Adam. Gəlini çıxıb gördü həyətdə, kötüyün üstündə Durna var, hayına əri Nəcəf gəldi, əlində salva. Bu hində oğlu Hikmət peyda oldu, *“Bu durna nətəhər də babama oxşayır”* dedi, söz onun ağzından, salva Nəcəfin əlindən çıxdı. Yaxşı ki, Durna Adamın başının üstündən keçdi. Uçdu durna. Havalandı, qanad çaldı. Getdi durna. Getdi, Firəngiz də qaldı Əlif kişini axtara-axtara. Axşam Nəcəfin də kürkünə birə düşdü. O boyda kişini bir payız günü samanlıqda iynə kimi itirdilər. Bilmədilər Əlifin durna olduğunu. Amma Durna Adam yaddaşını saxlamışdı, Əlif olduğunu bilirdi. Bilə-bilə uçurdu Durna Adam. Kəndin üstündən, meşələrin başından, dağların arasından keçirdi. Yorulanda bir çayın kənarında dincəldi, bir daşın üstündə mürgülədi. Yuxu gördü Durna Adam. Durna Adamın yuxusuna müdrik bir durna girmişdi. Xəttin o üzündə nə olduğunu soruşurdu. Xəttin o üzündə yadlıq vardı. Yadlıq, özgəlik. Müdrik durna üç iqlim, üç xətti keçmək olar demişdi, dördüncü sərhədi keçənin keçmişi silinərmiş, geri döməzmiş. Durna Adam durnaların səsinə oyandı. Oyandı gördü Durnabaşı başının üstündə durub. Ona səfində ən axırda yer verir. Havalanıb qalxdılar, sərhəddən-sərhədə keçdilər. Dördüncüyə çatanda dayandı Durna Adam. Bildi ki, getsə, kəndini unudacaq, kötüyü unudacaq. Qayıtdı Durna Adam, qayıdıb oturdu bağındakı kötüyün üstündə. Bu dəfə nə Firəngiz hay saldı, nə də Nəcəf salva qolazladı durnaya. Dedi: *“...qapıya pənah gətirib, kefi istədiyi qədər burda yaşasın.”* Yaşadı durna. Kötüyün üstündə yaşadı, bir gün dönüb adam olacağı günü gözləyə-gözləyə payızı payıza caladı durna. Yaşamaq asan iş deyil axı, gərək yaşamaq üçün əlində **“Xırda bəhanələr”** olsun. Nə fərqi var dünyanın harasındasan? Nə fərqi var kimsən, kiminləsən? Yaşamağa bəhanən varsa, günün mübarək! Nənəylə nəvə kimi xoşbəxt olmaq əlindədir. Nə olsun evləri kəndin qurtaracağındadır? Nə olsun *“Taxtapuşunun bir tərəfi əyildiyindən uzaqdan papağını yan qoyub macəra axtaran şuluq uşağa oxşayırdı.”?!* Oxşayırdı ona görə ki, orda bir uşaq yaşayırdı, nənəsinin qoltuğunda. Nənəsinin duasında böyüyürdü, alqışında durulanırdı. Gözü qonaq gözləyirdi: onun üçün dünyanın ən doğma qonağını. Nənəsi deyirdi, bir yaz günü gələcək o qonaq. Elə yaz günü kimi də səssiz-səmirsiz gələcəkdi. O günə qədər nəvə günəbaxan kimi günəşə boylanırdı, *“Günəşin mübarək!”*

deyirdi. Mübarək nənənin mübarək nəvəsiydi bu oğlan. *"Günün mübarək, yağışın mübarək, yarpağın mübarək, təzə soğanın mübarək, yamağın mübarək..."* Bir gün kəpənək qanadları kimi əzildi, qırıldı bu mübarək ruh. Nəvə sözlə vuruldu, özü də yenicə isinişdiyi, dost deyib əlindən tutduğu, unsatan dükançı Osmanın oğlu Mərdanın sözüylə. Dünyanın yeddinci qatından üzü üstə düşdü nəvə. Nənə gördü, yox, bu hal o hal deyil. Dilə tutdu, ağrın aldı, başına dolandı, axırı, dilin açdı: *"Mərdan. O, hər şeyi danışdı. Dedi ki, anana görə heç kim səninlə dostluq eləmək istəmir. Hamının zəhləsi gedir bizdən".* O gecə ev için-için ağladı, o gecə evin yuxusu qaçdı. Amma nəvəni yuxu apardı. Apardı ona röya göstərdi. *"Gördü ki, kəndin içiylə qaça-qaça: "Nənə, ölümün mübarək, nənə, ölümün mübarək!" – deyib, qışqırır."* Yaxşı ki, yuxuların da tərs çıxmağı var, nəvə səsə oyandı. Oyandı gördü sərçə ürəyi yerindən çıxır. Qulağına nənəsinin səsi dəydi: *"Çölə çıx, ömrüm-günüm, gör kim gəlib?"* Taxtaları çürümüş doqqazda bir yaşılpaltarlı nəvənin əzilmiş qanadlarına sığal çəkdi. Yarasından öpdü, məlhəm oldu, nəfəs verdi, göylərə uçurdu. *"O, yaz kimi səssiz-səmirsiz gəlmişdi".* Uçurdu nəvə, anası onu qollarına alıb qaldırmışdı. Başı dünyanın yeddinci qatına dəyirdi. *"Anan mübarək!"* O gün damın üstündə, nəvənin başından yuxarıda *"Gözəgörünməz kitabının yeni səhifəsini yazırdı..."* Yazırdı: **"Hittə".** Hittə nə idi, nə söz idi, Alxasgilin kəndində müharibədən əvvəl heç kim bilmirdi. Müharibədən əvvəl ki, o gün idi; *"O gün – ağaclar qol götürüb süzən gün, balıqlar qışqıra-qışqıra çayyuxarı üzən gün, Dəli Səmədin atı özünü qayadan atan gün... O gün elə bu gün idi".* Alxasın günahı kəndin üstünə çökmüşdü. Kənd Alxasın Allahsızlığından qorxmuşdu. Vurğun Alxasın əvəzinə kəndin axundu Nurəhmədi durduğu yerdə vurmuşdu. O gün Alxas tülkünü ağacdan asıb diri-diri dərisini soyurdu. Tülkünün ahı-naləsi kəndin üstünə qara bulud kimi çökəndə Məmiş müəllim özünü yetirdi, Bəhluldan aldığı tüfəngin şaqqıltısına tülkünün də vakkıltısı kəsdi. Canı qurtardı yazıq heyvanın. Amma kəndin canına bir üşütmə girdi, tirəmə süzüldü. Ən çox da o vaxt qorxdular ki, axund Nurəhmədin üzünə nur gəldi, dili bir sözə açıldı, ayağı yer tutdu. Kəndin başındakı qara bulud bir nəfəslik havaya dönüb Nurəhmədin başına dolanda, kəndin eyni açıldı, amma Nurəhməd havalandı. Bildiyi bütün sözləri unutdu, bircə: *"hittə"* dedi. Gecələr də *"hittə"* deyib ağlayırdı. *"Hittə"* sözü Nurəhmədin dilindən kəndə yayıldı, di gəl, bir adam da bilmirdi ki, mənası nədir. Bu söz bircə Alxasın canına od salırdı. Mənasını o da bilmirdi, amma söz alnına köz kimi yapışırdı. Alxas da bilmirdi Nurəhmədin canını necə yandırsın. Əlinə fürsət düşəndə yolun ortasında qabağını kəsdi: *"...bundan sonra ibadət-zad da olmayacaq; xəbərin var, təzə hökumət məscidi anbar elədi, bundan sonra kolxozun buğdasını, arpasını ora tığlayacaqlar..."* Nurəhmədin imanına toxunmaqmı olardı? Qolunu ilan kimi doladı Alxasın boynuna. Alxas dərisini diri-diri soyduğu tülkü kimi vaqqıldadı. Onu da Nurəhmədin əlindən alan tapıldı. Alxasın vaqqıltısının səsi-sorağı mərkəzə getdi. Səs getdi, içində ulduzlu adam oturan bir "Pobeda"yla qayıtdı. Qayıtdı, yapışdı Nurəhmədin boğazından. *"Nurəhmədin qollarını bağlayıb aparanda kəndin qüruru sındı..."* Sonra da Hitlerin müharibəsi başladı. Yığdılar kəndin kişilərini, göndərdilər ölümə. Kənd Alxasın qara xəbərini alsa da, onu bağışlamadı. O gün kəndə arxeoloq gəlmişdi. Qonaq Xoruzquyruğu Hümbətin çayxanasında bir-biriylə zarafat edən adamların ağzından *"hittə"* sözünü aldı. *"Biz heç indi də bilmirik, ağlını itirmiş yazıq Nurəhməd bu sözlə nə demək istəyirdi"* dedilər.

Deyəsən, bu qonağı Tanrı göndərmişdi, demişdi get onlara de ki, bu söz Qurandan gəlir, *“bizi bağışlayın”* deməkdi. *“Deyəsən, o gecə Tanrı kəndi bağışlamışdı...”* Amma Ay işığında küçələrdə **“Yaddaşsız kölgələr”** sürünürdü. Unutmaq, bəlkə də, ən ağır işgəncədir. Dönüb heç kim olmaqdır. “Mən” deyib ortaya çıxan o cavan oğlan kimi. *“Mən indi yaddaşsız bir adamam”* etiraf edir. *“Qolumda qovluq – palıd rəngli qapını döyürəm”* – deyir. O palıd rəngli qapılar adamların canında əvvəl inamı söküb alır. Bir də görürsən səni şəkilləndirən pazlın ortasından ən vacib hissəni götürüblər. Yel vurur həmin boşluqdan, yengələr oynayır. Gözündə böyüdüb, müqəddəs elədiyin adamın əlinin qanı qalır o boşluğun divarlarında. Sonra bir yalan qaşıyır quru damarını, qan çıxarır. Görürsən, şəklində bir boşluq da artdı. Ruhun yel çəkir bu boşluqlardan. Müqəddəs dediyin nədirsə, saplağından qopub düşür. “Mən” deyən o gənc müəllif kimi gözündə böyütdüyü adamın kölgəsinə çevrilir. Ehtiyac əvvəl ağlını alır, sonra ruhunu satır onun imzasına. Pazlın hissələrini yel sovurur. Bir də görür özü yoxdur, kölgəsi sürünür. Onun üçün indi nə fərqi dünyanın hansı günüdür, hansı ili?! Amma dünya dolanır bir **“Qarışqa təqvimi”** ilə. Zaman üçün nə fərqi var adamın, ağacın, quşun, həşəratın... Hamının öz vaxtı var axı. *“Qarışqa təqvimiylə vaxt döyünə-döyünə axırdı”.* O vaxt bir körpə qarışqa nəmli bir yerdə gözünü açmışdı. Açıb görmüşdü üstündə yad hənirtilər var. Özgə səslər dəyir qulağına. Qarışqa balası hələ bilmirdi dünyanın hansı oyuğundadır. Bir az əli-ayağı tutanda başa düşdü ki, kölə oğlu kölədir. İşi tunel qazmaqdır, torpaq daşımaqdır. O, kölə olmaq üçün gözünü açıb. Böyüyüb nə olacaqdı kölə oğlu kölə qarışqa? *“Ələbaxanın, mağmının, fağırın biri...”* Dünyası yıxıldı bala qarışqanın. Qazdığı tunelin ucunda işığın olduğuna da inanmadı. Hər gün eyni əmri aldı: *“işlə, qaz, dayanma, sürətli ol...”* Bala qarışqa kölə doğulsa da, kölə olmaq istəmirdi, əvvəl ad taxdı özünə: *“Doğma”.* Doğma doğmalarını axtara-axtara yadların içində işlədi, əlləşdi... Gəlib özü kimi kölələrin kalonuna düşdü. Gördü burda heç kimdə azadlıq ümidi yoxdur. Amma onda var. O ümid Doğmaya cəsarət verdi, günlərin birində nəzarətçinin dalınca gedib, gözdən oğurlandı, ana qapıdan çıxdı... Çıxdı, gördü Günəş var, çiçəklər ətirlənir, yarpaqlardan şeh sallanır... bir yol uzanıb gedir. Yol onu belinə adı. *“Qarışqa təqvimi ilə nə qədər yol getdiyini xatırlamasa da, arzuları onu Günəşə tərəf aparırdı.”* Amma Günəş şəklində əcəl gözləyirdi Doğmanı. Girdiyi doğma qarışqa kalonunda kölə olmadığını heç kimə inandıra bilmədi. Özünü ilk dəfə gördüyü gölməçədə əcəli onu doğması kimi bağrına basdı. Ölüm köləni azadlığa apardı. O azadlıq lap yuxarıdaydı; buludların arasında. **“Uçan buludlar”** bir əlçim yun kimi, pambıq


Şuşa, Cıdır düzü, 2021

kimi didilib yapışmışdı Rəhman müəllimin evindəki divar kağızına. Rəhman müəllim o buludlara baxanda kəndini xatırlayırdı. Uşaq vaxtı obalarının başının üstündən uçan həmən buludlar indi bu divardan boylanır, onu haradan gəldiyini unutmağa qoymurdu. Amma ömrünün altmışıncı qışını unutmuşdu. Elə ən ağır sazaq da həmən gün vurdu Rəhman müəllimi. İllərlə işlədiyi, saçını yolunda süpürgə elədiyi məktəbdə doğum günü ən amansız hədiyyəni küpəgirən qarı xislətli Səbinə müəllimədən aldı. Səbinə Rəhman müəllimə rəhm eləmədi, dedi, haqladın altmışı, yerini gənc müəlliməyə verməyin vaxtıdır. Elə o gün Rəhim müəllimin ürəyi büllur güldan kimi evinin buludlu divarına çırpılıb, çiliкləndi. Sonra Rəhim müəllim pəncərəni açdı ki, o divardakı buludlar pəncərədən uçub getsinlər. Çöldə **“Qasırğa”** başlamışdı. Qasırğa qabağına keçəni silib-süpürüb aparmırdı, kənddə yaşayan sallaq bığlı Çalağanovun ürəyinə sarışın qız kimi yatırdı. Qoca vaxtında sarışın eşqindən alışıb-yanan sallaqbığ kişi uşaqlarının anasını əlimyandıda boşayandan sonra elə bildi gəlib məhəbbətlə döydüyü qapıdan üzünə Günəş doğacaq. Amma taleyin sərt şilləsi çırpıldı. Dünyanın ən ağır kədərini yaşadı. **“Monokədər”** başladı. Burda hisslərin, duyğuların rəngi o qədər incə çalarlarla çəkilib ki, çiçəkdən-çiçəyə qonan bal arısı kimi istəyirsən bu rənglərin tozuna bulaşasan. Atasız, sol yanı qırıq, həyatdan küskün qız rənglərə çevrilmişdi. Bir vaxtlar üzünün kədərini dırnaqlarıyla qaşımaq istəyən qız rənglər dünyasına düşəndə hər şey dəyişdi. Üzünün kədərinə görə hər yerdən qovulan qızın qədrini qoca rəssam bildi. Qoca rəssam qızın kədərini ucuz alıb, baha satdı. Rənglərə çevirdi, kətana yaxdı. Görən heyran qaldı onun kədərinə. Qız bir də ayıldı ki, üzü üşüyür, soluxub, üzünün kədəri yoxdur. Ümidini yel alıb aparır ömür səhifəsinin o üzünə. O üzdə **“Ümidistan”** adlı bir yer var. Sovet adlı dünyanın gülü solandan sonra Yadullanın bəxti çiçəklədi. İşin-gücün olmayan vaxtında şəhərdə lotereya satıb, kiminə ümid verdi, kiminə təəssüf, amma özü çörək pulunu qazandı. Heç vaxt bəxtini lotereyada sınamayan Yadulla bir gün ovsunlandı. Cek-potu gözünün qarşısına gətirib, gecədən-səhərə, səhərdən-axşama ümidistanda şad-xürrəm yaşadı. Ağa oldu, şah oldu. Nə istədi aldı, kimə istədi xərclədi. Səhər cek-potun yerindən bir yetim manatlıq gülümsəyəndə Yadulla özünə ağı dedi. Yadullaya baxanda şəhərə gəlmiş **“Novruzəli”**yə şükür. Şəhərə Novruzəli boş yerə gəlməmişdi, bayramaqabağı əyin-baş almaq istəyirdi. Dilinin altında şikayəti vardı, bir də cibində vaxtını keçirmiş şəxsiyyət vəsiqəsi. Kənddən həvəslə, külfətinin sifariş yükü ilə gələn Novruzəli üçün *“parkdakı mühafizəçi qanını qaraltsa da, bir çaynik çaya 15 manat alsalar da, həyat bal dadırdı”.* Başı şəhərdə daşdan-daşa dəysə də, Novruzəli şəxsiyyət vəsiqəsini dəyişib, külfətin sifarişiylə yüklənib kəndinə qayıtdı. Dünya nə qədər gözəl olsa da, hərənin öz kəndi özünə cənnətdir. Qoy uçub getsin durnalar, bizə qalan boz sərçələrdi. **“Boz sərçə, müharibə və nənə”** bəstəkarın ruhunu oyatdı, *“Sərçə, ümid və müharibə”* süitasını yazdı. Hər o musiqi səslənəndə evindən, elindən didərgin düşən nənə yenə eyvana çıxırdı, ovcuna doldurduğu çörək qırıntılarını boz sərçəyə verib, göndərirdi kəndlərinə. Deyirdi oğlumu, ərimi əlimdən alan müharibədən, düşməndən qorxma, get o kəndə de ki, biz qayıdacağıq. Sərçə uçub gedirdi. Nənə sərçənin yolunu gözləyirdi. Qızın barmaqları gecə-gündüz kimi ağ-qara piano dillərində nənənin dərdini çalırdı. **“Daş”** yumşalırdı. Bu balaca daş böyük qayadan qopub düşmüşdü. Qorxmuşdu balaca daş, ağlamışdı. *“...xırda daş Yer üzündə olanlar barədə xeyli xırım-xırda şeylər bilirdi. Bilirdi xırda adamlar, xırda balıqlar, xırda həşəratlar kimi xırda*

*daşların da gələcəyi yoxdur.”* Xırda daş onu tapan adamın cibində gəzdi. Evdə bir büllur qabın içinə atıldı. Evdə nə varsa, şahid oldu xırda daş. Bir gün də üstünə məhlul tökdülər. Daş da yana-yana bağırdı: *“Adamlardan qorxun, adamlardan uzaq durun, onların yalançı mərhəmətinə inanmayın, bir-birinizdən qopmayın, yadlaşmayın, yad daş olmayın.”* Daşın dözə bilmədiyi dərdi **“Səlim”** çəkirdi. *“...heç kimin müsibəti Səliminki kimi olmadı...”* Qaçqın düşüb yataqxanaya sığınmış adamların dərdi bir başqadır. Halı, günü, güzəranı yamandı. Müharibə Lətif müəllimin on dörd yaşlı əsirlik görmüş oğlunu nə hala qoymuşdusa, uşaq yalquzaq kimi hər gecə ulayırdı. O ulartının içində bir xalqın, bir elatın ahı-naləsi, fəryadı vardı. Lətifin ulartısına bir ölkənin faciəsi sığmışdı. Faciə **“Çərçivə”**yə də salındı. Jurnalist qız müsahibə almağa gəldiyi rəsm qalereyasının sahibini danışdıranda, sənət əsərlərinə yazığı gəldi. *“Görəsən, ilk dəfə hansı əbləh azad sənəti çərçivəyə salıb, hansı axmaq azadlığı buxovlayıb?”* Qız düşünməyi, cavab tapmağı çərçivədən çıxarmağa çağırırdı. Səsi **“Ev”**ə gedirdi. Görürsən evdə bir nənə var, dərdi yerə-göyə sığmır. Evini düşmən alıb, kəndini düşmən yandırıb, gəlib şəhərdə bir kibrit qutusuna sığınmışdı. Burda da gəlinin əlində əsir idi. Günü bükülmüşdü göy əskiyə. Başını hara götürüb getsə, nənəyə yad idi. Yaxşı ki, oğlunun insafı var, yaxşı ki, nəvəsi əlini buraxmırdı. Kəndə, öz evinə qayıdacaqları günün ümidi ilə fındıq kimi qovrulurdu nənə. Dərdini quşa deyir, torpağa yazırdı. Torpaq dönüb küp olurdu. **“Küp yazısı”** bir sirrdi. *“...olan, yaradılan, yox olan hər şeyin öz yazısı var...”*. Üstü yazılı küpü tapan tösmərək kişi ünvan-ünvan dolaşıb yazını oxutmağa çalışır, istəyir agah ola. Deyirlər, Nuhdan qalıb. Kişi deyir, bəs, oxuyan tapılsa, dünyanın sirri açılar. Tösmərək kişi Kəllə Ələddinin əlinə düşür. Kəllə Ələddin fürsəti yeldə sovurmur. Guya küpün qaramatı ağırdı. Küpün bəla olduğunu deyir, deyir dünyanın sonudu, ölümdüitimdi, qandı-qaradı. Get, ay fağır, nəzir payla, qurban kəs. Mən də dua oxuyub itirim. Tösmərək kişi də, Kəllə Ələddin də *“min il əvvəl onu düzəldən dulusçu qulağına pıçıldamışdı: “hər adam bir küpdü, kimi dolu, kimi boş...”* İkisi də dərddi. Dərdin biri də **“Həsrət”**dir. Həsrət müəllim müharibə başlayanda dərdə düşdü. Axırıncı dəfə sinfə girib ona baxan qorxmuş şagirdlərinə deyəndə ki *“uşaqlar, evinizə gedin, bu gün dərs olmayacaq”,* başına daş düşdü. Boş sinfə ağı deyib ağladı. Həsrət müəllim bir də nə o sinfi, nə o uşaqları, nə də kəndi gördü. Havalandı Həsrət müəllim. Nə vaxta sığdı, nə zamana. Dərd **“Barelyef”**ə döndü. Yazıçı Zaman Zamanlı öləndə qara xəbəri şöhrətindən böyük oldu. Öldü; qədri bilindi, dəyəri artdı. Hərə bir tərif dedi quru adına. *“Qırx ilin susqunluğundan sonra pəltək tənqidçilər də David kimi cəh-cəh vurdular.”* Amma bu boyda şəhərdə Zaman Zamanlının öz evini tapmadılar ki, divarına yazıçının barelyefini assınlar. Dərd belədir, toxumu adamın ürəyinə düşəndə, belində **“Donqar”** olur. *“Yurd-yuvasından perik düşəndən sonra Cahan arvadın başına nələr gəlmədi ki?”* Cahan arvad belində cahanı gəzdirə-gəzdirə yığılıb yumaq olmuşdu. O donqar Cahan arvadın belində atasının, anasının, ərinin qəbriydi. Yanmış ev-eşiyinin, kəndinin qalaqlanmış külüydü. Bunu hər yanından keçən duymazdı. Otaqlarda, üzü döyülən, söyülən qapıların arxasında hərə ömrünü bir cür yaşayırdı. **“Dördüncü dərəcəli məmur”** kim idisə, bircə müdir ona yaltaqlanırdı. Elə bilirdi, suyu-çörəyi ondan gəlir. İstəyirdi hamı bilsin ki, dördüncü dərəcəli məmuru lap yaxından tanıyır, onun adamıdır. Müdir qoymurdu o məmur gözündən düşsün. Yaltaqlığın sehrinə düşmüşdü, tilsimlənmişdi. İndi adamlar **“Hipnoz”**da daha xoşbəxtdir. Dünyanı ayıq başla yaşamaq olmur. Həmdulla kimi; karantin

günlərinin stresini yaşayan adamın əvvəllər qaşının düyünü açılmazdı. O gün işdən qayıdan Həmdullanı arvadı bir ayrı şəkildə gördü; Həmdulla da deyirdi sabah onu nazir qoyacaqlar. Gülarə də mat-məəttəl qalmışdı ki, hökumət bir ağıllı-başlı adam tapmırdı, kargüzarı nazir qoyur? Amma Həmdulla həyata nazir gözüylə baxır, kefi ala dağdan qara dağa at çapırdı. Gülarə evə gələn telefon zəngindən bildi ki, dünyanı yırğalayan virusun qorxusundan depressiyaya düşən ərini işdə, çarəsiz qalıb, hipnoz ediblər. İndi o hipnoz dünyasında xoşbəxtdir. Ovqatı rənglidir. Adamı yaşadan da elə ovqatdı. **"Sarı ovqat"** payızın məktubudur. Məktubu küləklər qapılara aparır. Bu məktubun biri də Telli arvadın əlinə düşdü. Telli arvad işini anladı, vaxtının-vədəsinin çatdığını bildi. Təmizləndi, durulandı, yastığını, örtüyünü, kəfənliyini hazırladı. Məktubda tapşırıldığı kimi, gecə qapını ölümün üzünə açıq qoydu. *"Bu gecə qapının cəftəsini bağlama!"* Duası dilində yatdı. Yatdı, amma səhər oyandı. Telli arvad məktubu bir də oxudu. Məktubun səsi, sözü dəyişmişdi. Deyirdi, ünvanına səhv gəlib. *"Qapının cəftəsini bağlayın!"* Ömrü uzanan Telli arvad bu dəfə ağladı, için-için ağladı. Məktubu səhv düşən adamın gününə, yoxluğuna ağladı. Adam olmaq yanmaqdı, bəzən su olub axmaq, bəzən külək olub əsmək, bəzən də **"Yarpaq Adam"** olmaqdı. Ölüm son deyil; geri dönməyin quş şəkli var, çiçək şəkli var, ağac şəkli var. Qoca da bir gün yarpaqladı, yaşıllaşdı, ağac oldu. Hərə bir yarpağını, bir budağını sözlə, baxışla qırdı. *"Yarpaq adam içində zərrə qədər də yaşıllıq olmayan adamlara yazığı gəlirdi"*. Hətta **"Yük Atı"** da çəkə bilmədiyi artıq yükünün, insan tamahının altında öldü. Yaxşı ki, bu dünyada şüşə güzgüdən çox, **"Ovcundakı güzgü"**yə baxa-baxa yaşayan adamlar var. Əməlinin orda necə yazıldığını görürlər. Pislik eləmək qədər asan nə var ki? Bağbana **"Beh"** verib, aldadıb bağını viran qoymaq vicdan işi deyil. İndi hər mövsüm bağban Piri babanın bağı, özü olmasa da, beh məsəli yaşayır. Yaşayıb, həyatı **"Üçüncü göz"**lə görəndə insan qorxur. Anlayır ki, əcəli, harda olsa, mütləq gələcək. Dərin dəryaların dibinə çəkilsən, orda da **"Üç balığın nağılı"**nı qulağına pıçıldayan tapılacaq. Sən də qarmağa keçəcəksən. Bunu anlamaq üçün **"Dahi"** olmağa da ehtiyac yoxdur, cəmiyyət Dahini dəli edib palataya salır. Dünyası qaralır. Kiminsə əli işığını söndürür, düşüb **"Promotey 2"**-ni axtarırsan ki, göz boyda işıq versin. Yansın kəndin işığı. Evlər asılıb qalmasın qaranlığın, gecənin ortasında. İntihar **"Kəndir"**i kəndin boğazına dolanmışdı. *"...ölüm son deyil"* deyib ölən adam **"Ağac Adam"** olub qəbrinin üstündə bitəndə, *"Adamlardan ötəri darıxmışdı."* Amma qəbiristanlığa gələn adamın: *"Qəbiristanlığı parka döndərmək olmaz, cər-cəngəli təmizləyin, ağacları kəsin!"* – deyəndə qorxdu, bildi ki, bu dəfə də üstünə bir əlibaltalı mütləq gələcək. Səksəkəli yatırdı ağac, yuxusunu qarışdırırdı. Deyirlər, yuxuda **"Qırmızı xallı ağ balıq"** görmək qismətə yozulur. *"Bircə təsəllisi var idi: bütün dəryalar quruya bilməz, bütün balıqlar ölə bilməz, bütün ümidlər sönə bilməz"*. Gedirsən, gedirsən, **"Səni ümidə tapşırıram"** deyib dalınca bir dil, bir dodaq dua edir. Qarışqa təqviminin sonuncu yarpağını mündəricatdan asıb çıxırsan. Çıxıb görürsən ki, ayrı bir dünyadan, səfərdən qayıtmısan. Orada rəngbərəng biçənəkdə güllərin, çiçəklərin, otların, torpağın, daşın, səmada günəşin, buludun, küləyin, yanında adamların, həşəratların, quşların dilini öyrənmisən, hissini, duyğusunu bilirsən. Ayın nurunda durulanmısan. Axı, balaca-balaca qarışqalar ürəyinin ən qaranlıq yerinə Ay işığını daşıyır.

***Vüsal NURU***







**RAMİZ MƏMMƏDZADƏ**
**“BİR ÖMÜRDÜ, O DA KEÇDİ BELƏCƏ...”**
**(Şeirlər və publisistika)**
**BAKI, “TƏHSİL” NƏŞRİYYATI , 2022**

Şair, publisist Ramiz Məmmədzadə “Həmişə sən gələsən”, “Vaxtında açsaydı qönçələr”, “Xatirə bulağı”, “Qeyrət günü”, “O gecə”, “Canpolad əfsanəsi”, “İşıq günü”, “Ümid kitabı”, “Zirvə” və s. şeir kitablarının müəllifidir. Bu yeni kitabında toplanmış şeirləri və bədii publisistika nümunələri şairin son dövr yaradıcılığının dolğun mənzərəsini yaradır.

Kitabın redaktoru yazıçı, Əməkdar mədəniyyət işçisi Mustafa Çəmənlidir.




**BƏSİRƏ ƏZİZƏLİ**
**“MƏHƏMMƏD İQBAL: EŞQ VƏ DÜŞÜNCƏ ŞAİRİ”**
**BAKI, “ELM VƏ TƏHSİL” NƏŞRİYYATI, 2021**

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun “Azərbaycan-Asiya ədəbi əlaqələri” şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru Bəsirə Əzizəlinin görkəmli Pakistan şairi, filosofu Məhəmməd İqbala həsr etdiyi monoqrafiyada Pakistanın görkəmli şairi, filosofu, islam alimi və ictimai xadimi Məhəmməd İqbalın həyatı, yaradıcılıq yolu araşdırılıb, müxtəlif əsərləri tədqiq edilərək onların ideya-bədii xüsusiyyətləri müəyyənləşdirilib.

Kitabda Pakistanın mənəvi qurucusu kimi dəyərləndirilən Məhəmməd İqbalın nəzm və nəsr əsərlərində əksini tapmış ədəbi-fəlsəfi, ictimai-siyasi görüşləri dəyərləndirilib.




**XUMAR ƏLƏKBƏROVA**
**“ƏRƏB ƏDƏBİYYATININ EHRAMI NƏCİB MƏHFUZ” (Monoqrafiya)**
**BAKI, “ELM VƏ TƏHSİL” NƏŞRİYYATI, 2021**

Yazıçı-tərcüməçi, şərqşünas Xumar Ələkbərovanın daha bir əsəri işıq üzü görüb. “Ərəb ədəbiyyatının ehramı Nəcib Məhfuz” adlı monoqrafiya ərəb dünyasının Nobel mükafatçısı Nəcib Məhfuzun (1922-1006) həyat və yaradıcılığından bəhs edir.

Yazıçının yaradıcılığı dövrünün tarixi, siyasi-ictimai fonunda tədqiqi insan psixologiyasının ən dərin qatlarını əks etdirən bədii qəhrəmanları müxtəlif prizmalardan təhlil olunub.

Müəllif kitabın sonunda yazıçının zəngin ədəbi irsindən “Göy qurşağı”, “Şəkil”, “Əxlaqsız ev”, “Müttəhim”, “Hənzəl və polis”, “Naməlum düşmən” və s. hekayələrin tərcüməsini təqdim edib. Bu tərcümələr N.Məhfuz dühası, bəşəri əhəmiyyətli ədəbi yaradıcılığı haqqında daha dolğun təəssürat yaratmağa imkan verir.

Qeyd edək ki, məşhur Misir yazıçısı N.Məhfuzun ədəbi irsinə ümumilikdə 34 roman, 350 hekayə, 15 ssenari, 5 pyes və yüzlərlə məqalə daxildir.

Kitabın elmi redaktoru akademik Gövhər Baxşəliyevadır.




**FİDAN ABDURƏHMANOVA**
**“İSTİQLAL ARZUSU İLƏ YAŞAYAN ŞAİR”**
**BAKI. “ELM VƏ TƏHSİL” NƏŞRİYYATI, 2020**

Kitab şair Şahmar Əkbərzadə haqqında ilk monoqrafiyadır. Monoqrafiya bir neçə bölmədən ibarətdir: “Özü ilə istiqlal arzusunu aparan şair”, “İstiqlal şairləri və Şahmar Əkbərzadə”, “Şahmar Əkbərzadənin lirikasında psixologizm”, “Türk dünyasının şairi”, “Qarabağdan əsən yellər”, “Müstəqillik illərində Şahmar Əkbərzadənin publisistikası” və istifadə olunmuş ədəbiyyat siyahısı.




**HƏCƏR**
**AĞ DƏVƏ DÜZDƏ QALDI**
**BAKI, “QANUN” NƏŞRİYYATI, 2022**

Müəllif kitabını dörd bölümdə təqdim edir: müxtəlif illərdə yazılmış povestlər, hekayələr, esse və pritçalar.

Əsərlərin mövzusu yeddi yaşlı bir qızın yaylaq xatirələrindən başlamış, sadə Azərbaycan vətəndaşlarının gündəlik həyatı, qayğılarına qədər dəyişir, fərqlənir. Lakin bütün hadisələrin təməlində erməni xisləti, xəyanəti durur. Yazıçı qələmə aldığı əhvalatlarla erməni düşmənçiliyinin izlərini göstərir və çalışır ki, oxucu bunları yaddaşına həkk eləsin. Unutmasın.

***REDAKSİYA HEYƏTİ:***
**Ağasəfa, Elçin, Vilayət Quliyev, Afaq Məsud, Vahid Əziz, Firuzə Məmmədli, Məmməd Oruc, Əli Əmirli, Paşa Əlioğlu, Vaqif Yusifli, Vaqif Bəhmənli, Seyran Səxavət, Əjdər Ol, Rüstəm Kamal, Fəxri Uğurlu, Yaşar, Asim Yadigar, Saday Budaqlı, Kamil Əfsəroğlu, Emin Piri, Elşad Barat**